AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

ŞƏHLA HÜSEYNLİ

# AZƏRBAYCAN FOLKLORUNDA EPİK FORMULLAR

BAKI – 2019

**Elmi redaktor:** **Kamil ALLAHYAROV**
Filologiya üzrə elmlər doktoru, professor

**Rəyçilər:** **Maarifə HACIYEVA**
Filologiya üzrə elmlər doktoru, professor

**Etibar TALIBLI**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

**Şəhla Akif qızı Hüseynli. Azərbaycan folklorunda epik formullar,** Bakı, 2019, - 184 səh.

folklor.az

B 4603000000 / N-098-2019 Qrifli nəşr

© Folklor İnstitutu, 2019
© Şəhla Hüseynli, 2019

# GİRİŞ

Azərbaycan folklorunda epik formulların semantik-funksional xüsusiyyətlərinin tədqiqi milli folklorşünaslıq elmimiz üçün xüsusi aktuallıq kəsb edən mövzular sırasına daxildir. Mövzunun aktuallığı, bizə görə, iki əsas amillə şərtlənir:

*Birincisi, problemin milli folklorşünaslıqda öyrənilmə zərurəti.*

Epik folklor mətnlərində formulların tədqiqi dünyada, o cümlədən keçmiş SSRİ məkanında folklorşünaslıqda işlənmiş, müəyyən qədər öz bəhrəsini vermiş bir istiqamətdir. Ancaq bu nəzəriyyə meydana çıxdığı dövrdən indiyə qədər Azərbaycan epik folklor materiallarına az tətbiq olunmuşdur. Bu da öz növbəsində epik folklor mətnlərinin xüsusilə poetik strukturunun formul yaradıcılığı baxımından öyrənilməsi sahəsində boşluqlar yaratmışdır. Çünki epik mətndə poetik formulların struktur yaradıcı funksiyaya malik olması və buna müvafiq olaraq funksional əlamətlər kəsb etməsi artıq hamı tərəfindən qəbul olunmuş qənaətdir. Bu halda epik mətnləri ondakı formulların yerini, quruluşunu, semantik və funksional xüsusiyyətlərini öyrənmədən tədqiq etmək arzu olunan nəticələrə gətirmir. Bu cəhətdən Azərbaycan folklorunda epik formulların semantik və funksional xüsusiyyətlərinin əlaqəli şəkildə tədqiqi mühüm zərurət kəsb edir.

*İkincisi, problemin yeni, təkmilləşdirilmiş tətbiq imkanlarının yaranması.*

Formul nəzəriyyəsi meydana çıxdığı dövrdən dünya folklorşünaslıq elmində bu sahədə çoxlu tədqiqatlar aparılmış və nəticədə problemin tədqiqinin yeni-yeni yolları, üsulları yaradılmışdır. Azərbaycan folklorşünaslığının bu tədqiqatlardan, yeni baxış imkanlarından qıraqda qalması milli folklorumuzu dərin elmi əsaslarla öyrənməyə imkan vermir. Bu cəhət də öz

növbəsində epik formulların semantik və funksional xüsusiyyətlərinin tədqiqini aktuallaşdırır.

Araşdırmanın obyektini Azərbaycan epik folkloru təşkil edir. Artıq XIX əsrin ortalarından başlanmaqla günümüzə qədər Azərbaycan epik folklorunun toplanması və çapı sahəsində zəngin mətn bazası yaradılmışdır. Biz tədqiqatın obyekti kimi həmin mətn bazasından, əsasən, dastanları, nağılları, əfsanə və rəvayətləri, lətifə və qaravəllilləri götürmüşük. Bu janrlar epik formul tipləri ilə həm daha zəngindir, həm də bu formulların semantik çeşidliliyinə, funksional imkanlarına dair daha səciyyəvi nümunələr verən ədəbi mənbədir. Digər tərəfdən, dünya praktikasında da epik formullar, əsasən, həmin janrlar əsasında araşdırılır. Bunlara görə də tədqiqatın predmetini göstərilən janrların epik formullar baxımından tədqiqi təşkil edir.

Monoqrafiyanın qarşısında duran əsas məqsəd Azərbaycan folklorunda epik formulların semantik-funksional xüsusiyyətlərinin tədqiqidir. Bu da onların folklor spesifikası baxımından həm ümumi səciyyəvi, həm də imkan daxilində özünəməxsus cəhətlərinin aşkara çıxarılmasını zəruri edir. Bu məqsədin həyata keçirilməsi aşağıdakı dörd əsas vəzifənin həllini önə sürmüşdür:

Birincisi, formul nəzəriyyəsinin konseptual mahiyyətinin öyrənilməsi və folklorda formulların müəyyənləşdirilməsi məsələlərinin tədqiqi;

İkincisi, epik formulların quruluş xüsusiyyətlərinin tədqiqi;

Üçüncüsü, epik formulların semantik xüsusiyyətlərinin tədqiqi;

Dördüncüsü, epik formulların mətnin strukturuna uyğun funksional çalarlarının tədqiqi.

Formul nəzəriyyəsinin dünya eposşünaslığında elmi problem kimi tədqiqi məsələsi XX əsrin ortalarında meydana

çıxmışdır. Amerikalı alim A.Lordun müəllimi Milmen Perrinin və özünün eposşünaslıq sahəsindəki zəngin tədqiqatlarını şərh etdiyi və ümumiləşdirdiyi "Söyləyici" (187) kitabı elmi fikrin klassik nümunəsi kimi şöhrət qazandı. Bundan sonra bir sıra dünya xalqlarının, eləcə də türk xalqlarının (176, s.24-25) folklor irsinin öyrənilməsində yeni, vüsətli bir mərhələ başladı. Bu mərhələnin əsas fərqləndirici cəhəti ondan ibarət oldu ki, folklor əsərlərində, xüsusilə irihəcmli nümunələrdə tez-tez rast gəlinən stereotiplik, təkrarçılıq hallarına tamamilə başqa cür baxılmağa başlandı. İndi artıq bu klişelər, ortaq yerlər folklor mətnlərinin məhdudluğu, kəsiri, hətta lüzumsuz söz yığını kimi yox, əksinə, şifahi epik nitqin canlı və səciyyəvi hadisələri kimi dəyərləndirildi. Kitabda Homerin yaradıcılığından, cənubi slavyan xalqlarının epik folklorundan gətirilən saysız-hesabsız nümunələrlə təsdiq olundu ki, bütün bu stereotip epitetlər, şablon söz birləşmələri epos yaradıcılığının stixiyasından, şifahi epik texnologiyanın mahiyyətindən doğan təbii və zəruri ifadələrdir. Beləliklə, eposlar formulların təşəkkülü baxımından öyrənildi və təhlil olundu. Bu zəngin təcrübə "şifahi eposun poetik qrammatikası formula əsaslanır və bu başqa cür də ola bilməz" (187, s.80) səviyyəsində çoxlu araşdırma obyektinə çevrildi. "Folklor nəzəriyyəsi" adı ilə məşhurlaşan formul haqqında bu yeni təlim dünya folklorşünaslıq elmində geniş maraq doğurdu və təqdir edildi. Lakin onu da demək lazımdır ki, formula bu yeni yanaşmaya verilən dəyəri qəbul etməyən yaxud onun bəzi məqamları ilə mübahisə edən araşdırmalar da meydana çıxdı (172, s.251-257).

Formul təcrübəsinin araşdırılması və bu zəmində yeni nəzəri qənaətlərin əldə edilməsi sahəsində keçən əsrdə meydana çıxmış daha bir uğurlu tədqiqatı – N.Roşiyanunun "Nağıllarda ənənəvi formullar" (190) monoqrafiyasını ayrıca qeyd etmək istərdik. Burada rumın, slavyan, türk və digər xalqların nağıl-

ları əsasında formulların artıq konkret təsnifatı verilir və onlar ətraflı səciyyələndirilir. Rus dilində yazılmış bu dəyərli kitab da keçmiş sovet məkanında istər epik, istərsə də lirik folklor mətnlərində formul deyimlərinin tədqiqinə diqqəti artırdı.

Beləcə, müasir formul nəzəriyyəsi meydana çıxdığı dövrdən bu sahədə dünya eposşünaslığında xeyli dəyərli elmi araşdırmalar aparılmış və nəticədə problemin tədqiqinin yeni-yeni yolları, üsulları yaradılmışdır. Azərbaycan folklorşünaslığının bu tədqiqatlardan, yeni baxış imkanlarından qıraqda qalması milli folklorumuzu müasir elmi əsaslarla öyrənməyə mane olmuşdur. Bu cəhət də öz növbəsində formul nəzəriyyəsinin konseptual mahiyyətinin, şifahi ədəbiyyatda formulların müəyyənləşdirilməsinin, eləcə də formulların quruluş və semantik xüsusiyyətlərinin, funksional imkanlarının araşdırılmasını aktuallaşdırır.

Azərbaycan folklorunda epik formulların tədqiqi məsələlərinə son onilliklərdə başlanılmışdır. Bu sahədə ayrı-ayrı janrları və abidələri əhatə etməklə bir sıra tədqiqatlar aparılmışdır. Buraya, əsasən, Vəfa İsgəndərovanın Azərbaycan və Türkiyə nağılları əsasında daxili medial (təhkiyə) formullar, ənənəvi nağıl formulları kimi məsələlərdən bəhs edən tədqiqatları (109; 110), Nizami Adışirinovun "Kitabi-Dədə Qorqud" dastanında epik formulların müxtəlif aspektlərini araşdıran tədqiqatları (13; 14; 15; 16; 17), Jalə Coşğunun türk və slavyan sehrli nağıllarında epik formulları araşdıran tədqiqatları (77; 78) aiddir. Əlbəttə, bu sahədə başqa araşdırmalar da yox deyildir. Məsələn, K.Nərimanoğlunun formul nəzəriyyəsini şərh edən yazısını (148), O.Əliyevin nağıllarımızdakı formullara dair konkret müşahidələrini (87, s. 95-110), S.Abdullayevanın "Azərbaycan nağıl və dastanlarının dili" haqqında monoqrafiyasındakı "Ənənəvi formullar" (11, s.21-30) bölməsini misal göstərmək olar.

Göstərilən tədqiqatlar epik formulların tədqiqi sahəsində yeni elmi nəzəriyyə və baxışların tətbiqi baxımından əhəmiyyətli araşdırmalardır və monoqrafiyada onlardan istifadə olunmuşdur. Monoqrafiya mövzusunun bu tipli tədqiqatlardan əsas fərqinə gəlincə isə onu deyə bilərik ki, həmin araşdırmaların bir qisminin obyektini müqayisəli aspektdə (Azərbaycan-Türkiyə, türk-slavyan) nağıl janrı (V.İsgəndərova və J.Coşğun), ya da ayrıca nağıl janrı (O.Əliyev), digər qismini isə "Kitabi-Dədə Qorqud" (N.Adışirinov) təşkil edir. Bizim araşdırmamızın obyektini isə Azərbaycan epik folkloru bütövlükdə təşkil edir. Bu yazı folklorşünaslıq elmimizdə epik formulların belə geniş miqyasda monoqrafik öyrənilməsi sahəsində göstərilən ilk cəhddir.

Monoqrafiyada Azərbaycan folklorunda epik formulların semantik-funksional xüsusiyyətlərinin tədqiqi ilə bağlı bir sıra yeniliklər əldə edilmişdir. Həmin yeniliklər, əsasən aşağıdakıları əhatə edir:

1. Mövcud nəzəri-metodoloji baza əsasında formul nəzəriyyəsinin əsasları öyrənilmiş və tədqiqatda aprobasiya olunmuş əsas tezisləri müəyyənləşdirilmişdir;

2. Formul nəzəriyyəsinin bir sıra tətbiqi məsələlərinə aydınlıq gətirilmişdir;

3. Formulların çeşidliliyi onların yaranma yollarının müxtəlifliyi ilə izah edilmişdir;

4. Folklor formullarının tədqiqinə dair başlıca elmi ədəbiyyatlar nəzərə alınmaqla monoqrafiyada öyrəniləcək əsas epik formulların tipləri müəyyənləşdirilmişdir;

5. Azərbaycan epik folklorundakı formullar mövcud səmərəli təcrübə əsasında başlanğıc, mətndaxili (medial) və final formulları olmaqla üç başlıca istiqamətdə, ancaq bütün epik materiallar əsasında əhatə olunmuşdur;

6. Mətn boyu sintaqmatik cərgə əmələ gətirən formullarla semantik mahiyyətinə görə işlənən formulların funksional fərqləri şərh olunmuşdur;

7. Nağıl, dastan, əfsanə, rəvayət, lətifə, qaravəlli mətnlərində başlanğıc formullarının quruluşu tədqiq olunaraq əsas semantik xüsusiyyətləri müəyyənləşdirilmişdir;

8. Azərbaycan epik folklor janrları (nağıl, dastan, əfsanə, rəvayət, lətifə, qaravəlli) mətnlərində mətndaxili formullar tədqiq olunaraq onların funksional keyfiyyətləri öyrənilmişdir;

9. Epik folklor nümunələrində final və yaxud sonluq formulların tədqiqi yolu ilə onların mətndəki yeri, vəzifələri, semantik özünəməxsusluqları müəyyənləşdirilmişdir, yeri gəldikcə konkret məsələlər baxımından müxtəlif təsnifatları verilmişdir;

10. Epik mətnlərdə subyekt, obyekt, proses, məkan və zaman, məsafə və sürət bildirən formulların hər növünün semantik və funksional xüsusiyyətləri ayrıca tədqiq olunaraq mətndəki rolu aşkar edilmişdir;

11. Formul içində formul yaratmaq xüsusiyyəti Azərbaycan nağıllarının da keyfiyyəti kimi nəzərdən keçirilmiş və formul yaradıcılığının mahiyyətindən doğan proses kimi izah edilmişdir.

Azərbaycan epik folklorunda formulların semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş monoqrafiya işinin nəzəri-metodoloji bazası iki əsas istiqaməti əhatə edir:

Birincisi, epik formulların tədqiqi sahəsindəki mövcud elmi təcrübə.

Epik formul nəzəriyyəsi Avropada meydana gəlmiş, daha sonra elə bu elmi məkanda da inkişaf etdirilərək işlək istiqamətə çevrilmişdir. Bu cəhətdən monoqrafiyanın nəzəri-metodoloji əsasları bir tərəfdən bu elmi istiqaməti əhatə edir.

İkincisi də Azərbaycan epik folklorunun tədqiqi sahəsindəki mövcud elmi təcrübəyə əsaslanır.

Azərbaycan folklorşünaslığında son iki əsrdə epik folklorun öyrənilməsi sahəsində kifayət qədər tədqiqatlar aparılmış, sanballı nəzəri-metodolji baza formalaşmışdır. M.H.Təhmasib (167), X.Koroğlu (171), İ.Abbaslı (7; 178), P.Əfəndiyev (80; 81), S.P.Pirsultanlı (S.Paşayev) (157), Ş.Cəmşidov (76), A.Nəbiyev (143; 144), T.Hacıyev (99; 100), N.Cəfərov (73; 74), Nərimanoğlu K.V. (150), F.Bayat (63; 169), K.Abdulla (9), M.Qasımlı (136), M.Cəfərli (68;69), C.Bəydili (67), M.Kazımoğlu (117;118), K.Əliyev (86), R.Qafarlı (130; 131), K.Hüseynoğlu (105), S.Rzasoy (162;163), Ə.Əsgərov (92;93), R.Əliyev (89;90), O.Əliyev (87), A.Allahmanlı (918), R.Kamal (R.Rəsulov) (159), E.Abbasov (2) və b. tədqiqatçıların yaradıcılığında Azərbaycan eposu, milli epik folklorumuzun poetikası, o cümlədən mifik kökləri geniş şəkildə tədqiq olunmuşdur. Eləcə də B.Ögel, Z.V.Toğan, V.Jirmunski, B.N.Putilov kimi alimlərin yaradıcılığında ümumtürk epik sistemi, türk qəhrəmanlıq dastanları, türk eposunun mifik əsasları öyrənilmişdir. Bu tədqiqatlar birbaşa epik formul nəzəriyyəsinə həsr olunmasa da epik folklor mətnlərinin mühüm tərkib elementləri olan epik formullar haqqında onlarda bu və ya digər dərəcədə bəhs olunmuşdur. Bu cəhətdən həmin araşdırmalar mövzunun öyrənilməsinin nəzəri-metodoloji bazasını təşkil edir.

Tədqiqat işi tarixi-müqayisəli və müqayisəli-tipolioji metodlar əsasında yazılmışdır. Epik formulların tədqiqi monoqrafiyada tarixi, müqayisəli, tipoloji yanaşmaları kompleks şəkildə götürməyi tələb etmişdir.

Azərbaycan folklorunda epik formulların semantik-funksional xüsusiyyətlərinə həsr olunmuş bu tədqiqat işi həm nəzəri, həm də praktiki əhəmiyyətə malikdir. Monoqrafiyanın elmi əhəmiyyəti onunla müəyyənləşir ki, burada folklorumu-

zun nağıl, dastan, əfsanə, rəvayət, lətifə və qaravəlli kimi janrlarındakı epik formullar ilk dəfə tam halda əhatə olunmuşdur. Onlar janrların konkret poetikasına uyğun olaraq həm ayrı-ayrılıqda, həm də qarşılıqlı müqayisəli şəkildə öyrənilərək müəyyən nəzəri qənaətlər əldə edilmişdir. Özü də epik formullar həmin janrların, konkret mətnlərin məna-struktur cəhətdən formalaşmasının əhəmiyyətli, bəzən də mahiyyətli tərkib hissəsi olduğundan monoqrafiyanın nəzəri müddəalarından, əldə olunmuş yeni nəticələrdən folklorun epik formaları ilə bağlı gələcək tədqiqatlarda istifadə etmək mümkündür.

# I FƏSİL
# FORMUL NƏZƏRİYYƏSİ VƏ FOLKLORDA FORMULLARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Folklorda epik formulların semantik və funksional xüsusiyyətlərinin tədqiqi əvvəlcə formul nəzəriyyəsinin özündən bəhs etməyi tələb edir. Bu, ilk növbədə, Azərbaycan folklorşünaslığında formul nəzəriyyəsinin folklor mətnlərinə tətbiqi təcrübəsinin azlığı ilə bağlıdır. Yəni folklorşünaslarımız bu nəzəriyyədən xəbərdar olub, ara-sıra öz tədqiqatlarında ona toxunsalar da, hələ ki, formul nəzəriyyəsi tətbiq baxımından bizim üçün əsasən yeni bir sahədir. Odur ki, biz burada ilk növbədə formul nəzəriyyəsinin əsasları, tətbiqi məsələləri və folklor formullarının müəyyənləşdirilməsi kimi məsələlərdən bəhs edəcəyik.

## Formul nəzəriyyəsinin əsasları

Formul nəzəriyyəsi haqqında artıq müəyyənləşmiş elmi-nəzəri qənaətə əsaslanaraq deyə bilərik ki, folklorda formul nəzəriyyəsinin əsas spesifikası, bu təlimin banisi Milman Parrinin klassik tərifi ilə desək, "nəzərdə tutulan müəyyən bir fikri aydınlaşdırmaq üçün eyni vəzn sistemi altında davamlı olaraq istifadə edilən sözlər qrupu" (187, s.14) kimi müəyyənləşdirilir və bu yolla onlar (söz qrupu) hansısa bir mənanı (təkrar olunan süjet halqalarını, eləcə də zaman və məkan, subyekt və obyekt təzahürlərini və s.) əks etdirir. Formul nəzəriyyəsi, yəqin ki, ağız ədəbiyyatının da əsası kimi daha çox dildə, rəngarəng söz konstruksiyalarında üzə çıxan məsələdir. Dil vahidləri müxtəlif ifadələrin, söz birləşmələrinin semantik mənasını ardıcıllıqla təyin edə və üstəlik də onlara metoforik çalar aşılaya bilir. Buna görə həm dilçiliyin, həm də folklorşünaslığın

müştərək obyektinə çevrilir. O da məlumdur ki, dil vahidlərinin şifahi nitqdə əsas funksiyası kommunikativliyi ifadə etməkdir. Folklorun da başlıca səciyyəvi cəhətlərindən biri şifahilikdir. Deməli, folklor mətninin söylənilməsində yenə də əsas kommunikativlik əlaqəsi olmalıdır. Buradan o nəticə çıxır ki, kommunikativlik söyləyənlə dinləyən arasında hər hansı bir əlaqəni, ifadə ilə anlamanın müəyyən bağlılığını nəzərdə tutur. Söyləyici hazır qəliblərdən istifadə edir, dinləyici də bütün bu şərtilikləri şifahi təhkiyənin üzvi tərkib hissəsi, zəruri boyaları kimi qəbul edir. Bu qəliblər ən çox ümumiləşdirici funksiya daşıyır. Məsələn, "Biri var idi, biri yox idi" qəlibləşmiş deyimin həm ümumi məzmunu vardır, həm də bu formul nağıla başlamağın xüsusi bir yolu kimi mənalana bilir. Göstərdiyimiz bu ifadənin özündə aşkar bir hökm intonasiyası vardır. Ancaq buradakı zaman və məkan məchulluğu bu hökmün qətiliyini mücərrədləşdirir. Bu məşhur deyim sayəsində biz aydın görə bilirik ki, formul qəlibləri və yaxud formulvari ifadələr ümumiyyətlə təfəkkürün ümumiləşdirməyə, standartlaşdırmağa ehtiyacından doğur və hər bir dilin özünəməxsusluğu, mövcud imkanları sayəsində bu proses təşəkkül tapır.

Folklor mətnlərində hər bir formul tipi spesifik xüsusiyyətlərə, funksional əlamətlərə malikdir. Formul sözlərdən təşkil olunan müxtəlif biçimli bədii ifadələrdir. Sözlərlə ifadə olunan mifoloji anlam məntiqi hökmə söykənir. Sözün sehri formulun təşkil olunma sırasını əmələ gətirir. Məsələn, "hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər, köhnə hamam içində" (56, s.215) tipli qəlib deyimlər mürəkkəb formullardır. Burada səs alliterasiyasından yaranan sözlərin təkrarından istifadə olunmuşdur. Nağılda bütün formullar bir sistem təşkil edərək nağılın strukturunda iştirak edirlər. Bu formullar xüsusi, yəni hansısa konkret bir mətnlə bağlı ayrıca bir məzmuna malik deyillər, bununla belə ümumi məzmunları

ilə nağıl mətninin ən səciyyəvi tərkib hissəsini təşkil edə bilirlər, bütünlükdə janrın koloritini, spesifikliyini özlərində daha bariz təcəssüm etdirirlər. Nəticədə, formullar nağıl təhkiyəsini müəyyənləşdirir, nağılın folklor təfəkkürü ilə daxilən bağlılığını, üzvi şərtlənməsini, mətnin şifahi yaddaşa uyğun şəkildə yaranıb-söylənməsini, eləcə də şifahi yaddaşda qalaraq yaşaya bilməsini təmin edir.

Nağıl formulunun nağıl təfəkkürü və təhkiyəsinə uyğun yığcam ifadəlilik xüsusiyyəti vardır. O, nağıl strukturunun (ilk cümləsindən başlamış son cümləsinə qədər, qəhrəmanın doğulmasından tutmuş dünyadan çökməsinəcən, bütün nağılvari şücaətlərin, macəraların, situasiyaların nəqlinəcən, iştirakçıların, mərasimlərin təsvirinəcən) hər hansı bir elementi haqqında şifahi yaddaşda toplanılmış ümumi, səciyyəvi məlumatı dinləyiciyə ötürə bilir. Yaxud da bu məlumatı qısa şəkildə şərh edir. Artıq tədqiqatlarda təsdiq və təsbit olunmuş bir qənaətdir ki, formul nağıla keçməzdən əvvəl mifin tərkib hissəsi olmuşdur. Ehtimal ki, nağıllarımızın bir növ rəmzinə çevrilən "Biri var idi, biri yox idi" formulunun da vaxtı ilə bağlı olduğu müəyyən bir mif mövcud olmuşdur. Tədricən bu formul ibtidai düşüncənin mövcudluqla mövcudsuzluğu çox qısa tərzdə ümumiləşdirən və nağıllarımızdakı məkan və zaman bağlılığını və anlamını sərrast şəkildə ifadə edən modelə çevrilərək qalmışdır. Ümumiyyətlə, formulun yaranmasına təkamül prosesi xasdır. Özü də bu fikri ümumi şəkildə söyləmək olar. Yəqin ki, hər bir formulun təkamül və təşəkkül tarixçəsini ardıcıl izləmək müşkül məsələyə çevrilərdi (bəlkə də folklorun şifahi mətn spesifikası bunu ümumiyyətlə mümkünsüz edir). Ancaq onu qətiyyətlə demək olar ki, formullar əvvəllər indiki formada, təbii ki, olmamışdır. Formullar bu yaranma və formalaşma prosesində müxtəlif inkişaf səviyyələrindən keçmişdir. Fikrə gələn budur ki, görünür, əksər formulların ilk yaranışına qarmaqarışıqlıq,

əlaqəsiz söz yığını xas olmuşdur. Belə halda, aydındır ki, onlar formula çevrilənə qədər heç bir ideyanı, aydın fikri ifadə edə bilməzdi, ancaq təkmilləşəndən, formul kimi klişeləşəndən sonra həmin söz düzümü funksional keyfiyyət kəsb edir.

Formul yaddaşla birbaşa bağlı olan söz, yaxud söz qrupudur. Formul təhkiyə zamanı fikri, təsviri yaddaşa ötürmək üçün mətləbi qısaltmaq, şərhi ümumi, oxşar hala salmaq, təfsilatları standartlaşdırmaq məqsədilə işlədilən yaddaş elementidir. Belə elementlər, artıq qeyd etdiyimiz kimi, mətni yaddaşda saxlamaq və yaddaşa ötürmək ehtiyacından yaranır və bu başlıca məqsədə xidmət edir. Buradan da onun əsas funksional keyfiyyətlərindən biri formalaşır. Elə qeyd etdiyimiz xüsusiyyətinə görə də "formul" sözünün əvvəlinə adətən "ənənəvi" təyini də əlavə edilir.

Formulun çox vacib bir cəhəti onun təkrar olunma keyfiyyətidir. Təkrar oluna bilmirsə, nağıl mətninin ümumi (həm də nağıl təhkiyəsinin ən səciyyəvi) hissəsini təşkil etmirsə, deməli, o, hələ əsl formula çevrilə bilməmişdir. Formul bütünlükdə və ya tərkib hissələri ilə təkrar oluna bilir. İkinci halı yuxarıda qeyd etdiyimiz ("hamam-hamam içində...") formulda da görə bilərik. Formulun təkrar olunan hissələri proporsional qaydada zaman ardıcıllığı ilə bir-birinin davamı kimi səslənir. Təkrar olunan hissələr 2, 3, 4 və daha çox söz birləşmələrindən ibarət ola bilir. Əlbəttə, hissələrlə təkrar olunma xüsusiyyətinə mürəkkəb formullarda təsadüf olunur.

Qeyd etmək lazımdır ki, folklor kimi, formul yaradıcılığı da öz başlanğıcını iki əsas mənbədən – etnosun mif yaddaşından və dil xüsusiyyətlərindən götürür. Buna görə də həm folklor yaradıcılığında, həm də dil yaradıcılığında formuldan çox mühüm amil kimi söz açılır. Şifahi yaradıcılıqda formuldan istifadə mifin müxtəlif zaman kəsimlərində yaddaşa bərkitdiyi müxtəlif anlamlı (inanc, dünyagörüş) və müxtəlif

tərkibli (sözdən başlamış bir neçə misrayacan) hazır ifadələrdən ibarətdir. Bunlar ritmik şəkildə bir-biri ilə bağlanır və bir növ, paralel cümlələr şəklinə düşür. Beləcə, formula ritm, sözlərin ahəngi və paralellilik də xasdır. Bunların hamısı, əlbəttə, formulun yadda qalması, məqamında işlədilə bilməsi üçündür, yəni bilavasitə folklor təfəkkürünün, yaddaşın şərtləndirdiyi zəruri elementlərdir.

Formulun əsas xüsusiyyətlərindən biri də onun improvizə olunmasıdır. Burada nağılçı qabaqcadan heç bir hazırlıq görmədən bədahətən deyilmək üçün nəzərdə tutulmuş bu ifadələri mətnin əvvəlində və ya axırında, ya da ortasında söyləyir. Bu improvizələrdə bir musiqi melodiyası kimi sözlər ahənglə təkrar olunur, hətta qafiyə də əmələ gətirir. Məsələn, "az getdi, üz getdi, dərə-təpə düz getdi" formulundakı musiqi axıcılığı eyni səsli sözlərin qafiyələnməsində, musiqi ahəngi yaratmasında üzə çıxır. Bu cür improvizələrdə qabaqcadan hazırlaşmadan əksər nağıllarda təkrar olunan formulların işləndiyini görürük. Bu cür formullar yaddaşa çökərək hazır modellər kimi yaşayır və lazım gələndə nağılın poetikliyini artırmaq üçün istifadə olunur. Nağıl və söyləyici bir-biri ilə gözəgörünməz əlaqədədir, söyləyicinin yaddaşında hazır süjetlər, obrazlar, formullar və bütün nağıl strukturu yaşamaqdadır, yaxud yaşamalıdır. Əgər yeni nağıl süjeti yaranarsa, formulqarışıq bu hazır ölçü, qəlib, modellər yeni yaranan nağıla da uyğunlaşdırılır, transformasiya olunur. Əlbəttə, əsas diqqət yenə də nağıl formullarına verilir. Buradan da o nəticə çıxır ki, formullar epik yaddaşda yaşayır və lazım gələndə yerində istifadə olunur. Bu cür formullara hətta daşlaşmış ifadələr də deyilir. Düşünmək olar ki, həmin ifadələrin formul mahiyyəti və bu mahiyyəti səciyyələndirmək üçün, adətən, istifadə edilən "daşlaşmış", "klişe", "şablon", "stereotip", "qəlib" tipli epitetlərlə formul improvizələri anlayışı bir araya

sığmır. Lakin bu, ilk baxışda belə görünür. Əslində, folklor təhkiyəsində sanki uyuşmaz görünən hər iki hal çox təbii şəkildə qovuşa bilir. İfadənin formula çevrilməsi üçün əgər, bir tərəfdən, qəlibləşməsi, ritmi, ahəngi, səsləşməsi ilə söz sırasının düzülməsi zəruridirsə, digər tərəfdən, ümumiyyətlə, folklor təfəkküründən irəli gələn ifadə tərzi (yaddaşa əsaslanaraq şifahi söyləmə), həmçinin, formulun ümumi mətn təşkil etməsi ona sərbəst yanaşmağa imkan yaradır, hətta buna ehtiyac doğurur. Bütünlükdə folklor mətnləri, o cümlədən formullar üçün də kanonlaşma yaddır, əsrlər boyu yaddaşdan-yaddaşa ötürülən şifahi ədəbiyyat nümunələri variantlaşmaya bilmir və bu da folklor yaradıcılığının mühüm bir sahəsidir. Bütün bunlara görə folklor əsərinin şifahi ifası (xüsusilə də az qala hər kəsin danışdığı və danışa biləcəyi kütləviləşmiş nağılda) sadəcə mətnin surətinin çıxarılması deyil (bu, mümkün də deyil) və bu qanunauyğunluq eynilə formul yaradıcılığına da aiddir.

Folklorda formul hadisəsi – müəyyən fikrin (və ifadənin) şifahi təfəkkür və nitqə uyğun stereotipləşmə, qəlibləşmə prosesinin məhsuludur. Formul - bu hadisənin ümumi və çox uğurlu adıdır. Ancaq bu adın həm bütünlükdə folklor təfəkkürü, janr-poetika aspektində, həm də mətn strukturunda ehtiva etdiyi semantik-funksional çalarlar genişdir. Elə buna görədir ki, elmi ədəbiyyatda "formul" sözünü məqamına görə çox müxtəlif epitet və ifadələrlə əvəz edirlər. Tədqiqatçı O.A.Yeqorova "Ənənəvi formullar folklor əsərinin səciyyələndirmə nişanıdır" məqaləsində bu məsələyə toxunur və ayrı-ayrı görkəmli alimlər tərəfindən formul mənasında işlədilən "tipik yerlər", "ümumi yerlər", "formul ifadələri", "leytmotiv", "səciyyəvi təsvirlər", "tipikləşdirilmiş keçid təsvirləri" kimi ifadələrin izahını verir (191). Terminologiya məsələlərindən Q.İ.Malsevin "Rus xalq qeyri-mərasim lirikasının ənənəvi formulları" (192) monoqrafiyasında və digər yazılarda da

(193) bəhs edilir. Formul növləri də çoxdur, ancaq bütün digər çeşidləri ənənəvi nağıl formulları əsasında dəyərləndirərək şərh etmək lazım gəlir. Çünki bu qəlib deyimlər "formul" anlayışının əsas xüsusiyyətlərini özündə cəmləşdirə bilir.

Belə bir sual ortaya çıxa bilər ki, əgər nağıllarda formullardan istifadə olunmasa, mətn necə alınar? Qısaca onu deyə bilərik ki, belə halda sadəcə olaraq nağıl mətni yarana bilməz. Formulsuz şifahi xalq yaradıcılığında nağıl janrının mövcudluğunu xəyala gətirmək belə çətindir. Axı bəlkə də məhz formullar sayəsində nağılın həm janr özünəməxsusluğu müəyyənləşmiş, həm də kütləvi şəkildə ifadə olunmaq və kütləvi yaddaşda (etnos yaddaşında) yaşaya bilmək (ötürülmək) imkanı əldə etmişdir. Bir qədər təfsilata varıb onu da əlavə edə bilərik ki, belə halda formulun sanki başdan-ayağa xəyalın məhsulu olan, ağlasığmaz qəribəliklərlə dolu olan nağıl əhvalatlarına şahidlik etmək funksiyası pozulmuş olardı. Həmçinin, formulun bütün bunları sanki təsdiq etmək imkanı aradan qalxardı və bu zaman, yəqin ki, janrın təbiətindən doğan bu dərəcədə uydurma əhvalatlara biz də indiki kimi öyrəşib alışa bilməzdik. Nəticədə, həm də (bəlkə də daha çox) formullarla təşəkkül tapan nağıl təhkiyəsinin fikri dolayı yolla söyləmək - hədsiz uydurmalarla böyük həqiqətləri ifadə etmək sehri də, yəqin ki, hazırkı cazibədarlığı ilə reallaşa bilməzdi. Bəs formullarsız nağıl mətni daha hansı məziyyətlərini itirərdi? Heç şübhəsiz, formulun təyinedicilik və zaman funksiyası olmazdı, mübaliğə yaratmaq xüsusiyyəti kölgədə qalardı. Eləcə də formulun fikrin lakonikliyinə xidmət etməsini görməzdik, formulun az sözlə çox məna ifadə etmək xassəsini bilməzdik. Bunlardan əlavə, formulun obrazı, qəhrəmanı bu qədər tanış, oxşar boyalarla, klişeləşmə üsulu ilə bu dərəcədə lakonik və eyni zamanda qabarıq, canlı təsvir etmək, hafizəyə hopdurmaq xüsusiyyətindən məhrum olardıq. Həmçinin, nağıllarda

ən uzaq məsafələr ovuc içi qədər qısalmazdı, hadisələr ildırım sürəti ilə cərəyan etməzdi. Ən ağlasığmaz xəyallar əlçatan olmazdı, nağıl mətni tilsimlərlə, sehrlərlə, mifik surətlərlə bu dərəcədə çox və üzvi şəkildə dolmazdı. Bir sözlə, nağıl dili belə yüyrək, koloritli və şirin olmazdı. Beləcə, yəqin ki, elə formul yaradıcılığı sayəsində bütün dünya folklorunda çox spesifik nağıl təhkiyəsi, təkrarolunmaz nağıl poetikası və sehrli nağıl dünyası formalaşa bilmişdir.

Aydındır ki, biz bütünlükdə janrın qeyri-adi cazibəsindən, nağılın bənzərsizliyindən danışırıq. Bu poetik müəyyənliyinə və bütövlüyünə, ümumi janr təməlinə görədir ki, bütün xalqların nağılları bənzərsiz olurlar. Amma onları daha çox bir-birinə ruh yaxınlığı, təhkiyə-süjet oxşarlığı və hətta mövzu və qəhrəman aləmindəki oxşar məqamların üstünlüyü səciyyələndirir. Formulvari ifadə tərzinin xüsusilə nağıllarda qabarıq meydana çıxması da elə janrın şifahi ədəbiyyat növü kimi həmin xüsusiyyətləri ilə bağlıdır. Formul yaradıcılığı ilə nağıl stixiyası o dərəcədə bir-birinə qovuşmuşdur ki, bayaqkı fikri tərsinə də söyləmək mümkündür. Yəni belə də demək olar ki, nağıllarda janr poetikasından irəli gələn ümumi cəhətlər, oxşar məqamlar – istər məzmunda, istərsə də formada - bu dərəcədə qabarıq təzahür etməsəydi, yəqin ki, formullara da xüsusi ehtiyac olmazdı. Bunlar biri digərini şərtləndirir və tamamlayır, bütünlükdə özünəməxsusluğu ilə seçilən bir janr poetikasını formalaşdırır. Məlumdur ki, folklor təhkiyəsi təsvirin, süjetin bənzərsizliyi üzərində qurulmur, əksinə, buradakı ümumi, səciyyəvi mahiyyəti sərgiləyir. Ümumiyyətlə, şifahi xalq təfəkkürünə, xüsusilə də onun parlaq və kütləvi məhsulu olan nağıla nəqlin, təqdimin bütün səviyyələrində fərdilik, oxşarsızlıq yaddır. Ən müxtəlif təsvirlərdəki fərqləndirici təfsilatları, bənzərsiz cizgiləri burada yadda saxlamaq və bunları ifadə etmək də, yəqin ki, mümkün olmazdı. Ya da

nağılı ancaq xüsusi və nadir ifaçılar söyləyə bilərdi. Nağıl isə kütləvi janrdır, ona görə də burada nəql-təhkiyə tərzindən, hadisə-qəhrəman tipindən tutmuş adi təyin-epitet seçiminəcən bütün məqamlarda unifikasiya prosesi, ümumi xüsusiyyət və ifadələrə meyllilik daha qabarıqdır. Janrın təbiətindən doğan bu zəruri unifikasiya formullara meyllilik sayəsində daha təbii reallaşa bilir.

Nağılın formullarsız keçinə bilməməsi, görünür, bir də onun nəsr təhkiyəsi ilə yaranmasından irəli gəlir. Nəzm mətni, adətən, ayrıca konstruksiyaya malik olur və bu poetik sistem onun daxili boyalarının rəngarəngliyi ilə ifadəsinə və yadda qalmasına kömək edir. Nəticədə qeyd etdiyimiz zəruri unifikasiyaya ehtiyac azalır. Əlbəttə, bu fikir əsasən yazılı poeziyaya aiddir. Yeri gəlmişkən qeyd edək ki, ümumiyyətlə yazılı ədəbiyyatın bənzərsizlik üzərində qurulan estetik mahiyyətinə qəlibləşmədən doğan formullaşma təmayülü yaddır. (Təsadüfi deyil ki, yalnız folklorla daxilən qovuşan yazılı mətnin formul komponentindən yaxud əlamətlərindən bəhs etmək olur.) Bu da bir daha formul yaradıcılığının folklor təfəkkürü və şifahi yaddaşla üzvi bağlılığını təsbit edir. Nəsrdə (eləcə də şifahi nəsrdə) nitq hər hansı bir nizam qəlibindən, poetik kanonlardan uzaqdır (oxşar ifadə elementlərinin sadəcə üslubi səviyyədə təkrarı hələ formullaşma hadisəsi deyil). Buna görə də nağıl mətnində bənzərsiz təfsilatlar, nəzmdə olduğu kimi, təhkiyəyə sirayət etmir. Belə təfərrüatlara ehtiyac da yaranmır, çünki bütün bunları, bir daha təkrar edirik ki, yadda saxlamaq da müşkül iş olardı (Beləcə, formulların meydana çıxma zərurətindən söhbət açarkən biz hər dəfə, istər-istəməz, şifahi yaddaş məsələsinə gəlib çıxırıq. Şifahilik isə folklor təfəkkürünün səciyyə göstəricisidir. Bu da bir daha formulun şifahi poetik yaradıcılığın zəruri tərkib hissəsini təşkil etdiyini təsdiq edir). Nəticədə nağıl yaradıcılığında (və eləcə də nağıl ifasında,

yəni söyləyici hafizəsində) mümkün qədər ümumi təfsilatlara, oxşar epizodlara üz tutmağa ehtiyac yaranır. Bu da oxşar məqamları artıq dinləyici üçün tanış və anlaşıqlı olan standart ifadələrlə söyləməyə qaçılmaz zərurət doğurur. Bütün bunlar konkret mətn xaricində hazır (və əsl) formulların təşəkkül tapması sayəsində mümkün olur.

Həqiqi formullar konkret mətnlərlə bağlı olmur. Ancaq bu mühüm məsələ bəzən elmi ədəbiyyatda səlis, dəqiq ifadə olunmur. Məsələn, İ.P.Çerneusova "Folklor formulları: ənənə və mətnin kəsişməsində (qəhrəmanlıq dastanları materialı əsasında)" məqaləsində yazır ki, tədqiqatçılar formulun ikili təbiətə malik olduğunu qeyd edirlər, yəni, bir tərəfdən, göstərirlər ki, mətnin söz bətninə daxil olan formul onun ayrılmaz tərkib hissəsinə, kompozisiya komponentinə, poetika elementinə çevrilir, digər tərəfdən də öz təbiəti etibarı ilə formulun bilavasitə heç bir konkret mətnlə bağlanmadığını, onun ənənənin özül elementini, poetik kateqoriyasını təşkil etdiyini bildirirlər. Müəllif bunu müxtəlif kontekstlərdə işlənən formulların öz mövcud imkanlarını realizə edə bilməsi kimi qiymətləndirir (194). Bunlar doğru fikirlərdir, lakin səlis ifadə olunmayıb. Yalnız həqiqi formullar bütün bu keyfiyyətlərə malik olurlar. Özü də nəzərə almaq lazımdır ki, hər hansı bir həqiqi formul mətndə yeganə mümkün variant kimi yox, invariant kimi işlənir, onu asanlıqla müvafiq deyimlə əvəz etmək mümkün olur. O, konkret (təkrarsız) bir qəlib ifadə kimi yox, işlənmə yerinə uyğun formullardan sadəcə biri kimi mətnə bağlanır və yalnız belə halda öz çoxcəhətli səciyyəsi ilə yuxarıda qeyd olunan funksiyaların hamısını icra edə bilir. Bu və ya digər səbəbdən tam formalaşmamış formullar da vardır ki, onlar mətndən ayrıla bilmirlər. Odur ki, söhbət formulların ikili təbiətə malik olmalarından yox, növ müxtəlifliyindən və əsl formul səciyyəsindən getməlidir.

Nəhayət, burada incə bir cəhəti də qeyd etmək istərdik. Məsələ burasındadır ki, standart ifadələrdən təkcə folklor söyləyiciləri istifadə etməmişlər. Klişelər, belə demək mümkünsə, epik folklor nümunələrinin dinləyicilərin də həmişə rahatlıqla yararlandığı dəyərli ifadə vasitələri olmuşdur. Həm nağılların janr təbiəti (təhkiyə tərzində və strukturunda oxşar cəhətlərin çox olması), həm də həqiqi formulların səciyyəvi xüsusiyyəti (konkret mətnlə birbaşa bağlı olmaması) həmin faydalanmanı dinləyici üçün də həmişə mümkün etmişdir. Belə ki, dinləyicinin hər hansı bir nağıl mətnini eyni ilə söyləyicidən eşitdiyi (yaxud indiki vaxtda kitabdan oxuduğu) şəkildə yadda saxlamasına ehtiyac yoxdur. O, unutduğu ya da improvizasiya edərək dəyişmək istədiyi şablon ifadələri mətnin yerinə görə uyğun gələn məlum formul variantları yaxud sinonim deyimlərlə asanlıqla əvəz edə bilər.

Qeyd edilən xüsusiyyətlərə uyğun olaraq formulların nağıllarda işlənməsinin əsasən 3 prinsipi müəyyənləşdirilmişdir: 1. Sintaqmatik prinsip; 2. Semantik prinsip; 3. Linqvistik prinsip (148, s.153-158).

K.V.Nərimanoğlu, özünün də qeyd etdiyi kimi, mövcud nəzəri ədəbiyyata söykənərək epik formulları milli folklorşünaslıq elmində 3 əsas prinsip üzrə təsnif etməyi təklif etmişdir. Folklorçu alim irəli sürdüyü hər 3 prinsipin (sintaqmatik, semantik və linqvistik prinsiplər) ətraflı nəzəri şərhini verir. Lakin bunlardan sintaqmatik və semantik prinsiplərin tələbləri folklor tədqiqatları üçün daha məqbul hesab oluna bilər. Linqvistik prinsipə gəlincə, onun folklor mətnində söz-formul, metafora-müqayisə-formul, söz birləşməsi–formul, mətn–formul kimi növlərindən dilçiliyin tələblərindən daha çox şifahi yaradıcılığın tələbləri yönündə danışmaq səmərə verə bilər.

Azərbaycan nağıllarında formullar bəzən sintaqmatik cərgə əmələ gətirə bilir. Bu cür formullar mürəkkəb xarakterdə olur, bu formulu təşkil edən söz və söz birləşmələri bir-biri ilə sintaqmatik əlaqə və təsirdə olur. Biz mürəkkəb formulların hamısında bu cür əlaqələrin olduğunu görürük. Formulu təşkil edən bu cür söz birləşmələri, adətən, cümlənin eyni üzvü kimi çıxış edirlər. Məsələn, "Bəli, nağıl binasını burda qoyaq yavaş-yavaş, olum qapında qulunan qarabaş, dövlətli vurar plova şapalaq, kasıb tapmaz bir kasa bozbaş, hə, sizə nə söyləyim, kimdən danışım, qədim əyyamdan" (59, s.98). Sintaqmatik cərgədə təsvir olunan formullar təhkiyənin başlanmasında rol oynayır. Eləcə də burada sintaqmatik cərgədəki formullar mürəkkəb formulun yaranmasına səbəb olur.

Semantik prinsipə əsaslanan formullar isə cümlədə eyni məzmun daşıyır. Məsələn, "Gözəl nə gözəl! Nazənin sənəm, fəriştə girdar, gəl məni gör, dərdimdən öl, can alan, aşiq öldürən, incə miyan, nazik bədən, sünbül nişan" (59, s. 43). Göründüyü kimi, burada da formul semantik cəhətdən bir-birinə yaxın olan söz birləşmələrindən əmələ gəlmişdir.

Nağıllarda formulların ifadə üsulları da müxtəlifdir. Formulların əmələ gəlməsində təşbeh, metafora, mübaliğə və s. bədii ifadə vasitələrindən istifadə olunur. Formulların yaranmasında da ən çox mübaliğədən istifadə olunur. Özü də formulda mübaliğə bütünlüklə cümlənin bütün üzvlərinə aid olmur. Məsələn, "Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı, milçək mindik, çay keçdik, yabaynan dovğa içdik" (61, s.56). Burada şişirtmə formulun ancaq müəyyən hissəsinə aid olub formulun ikinci hissəsinə keçidə kömək edir. Belə ki, formulun davamı belədir: "Sizə kimdən xəbər verim, Şah oğlu Şah Abbasdan. Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz bir girdəkan" (59, s.215). Formul birinci hissədə mübaliğə nəticəsində formalaşdırılır. Formul yaradıcılığında qafiyələnmə

üsulundan da istifadə olunur. Belə formullarda poetik çalarlar da özünü göstərir: “Hamamçının tası yox, baltaçının baltası yox, orda bir tazı gördüm, onun da xaltası yox” (58, s.104). Biz burada ritmik deyimli formulun daxili qafiyələnmə yolu ilə yaradıldığını görürük.

Formulun tərkib hissələrinin yerlərini dəyişdirməsi nəticəsində yeni formanın əmələ gəlməsini də müşahidə edirik. Bunlar da şifahi yaradıcılıqda hazır modellər olub müxtəlif formulların yaranmasına səbəb olur. Əgər biz eyni formul hissəciyinin nağıllarda işlənməsinin miqdarına diqqət yetirsək, belə hazır modellərın sayının xeyli çox (onlarla) olduğunu görərik. Zənnimizcə, ən çox işlənən hazır modellər “Hamam hamam içində, xəlbir saman içində...”, “Dərələrdən yel kimi, təpələrdən sel kimi...”, “Aya deyir sən çıxma, mən çıxacam...”, “Az getdi, üz getdi, dərə-təpə düz getdi” tipli hissəcikləridir ki, bunlar çoxlu sayda mürəkkəb formulların yaranmasında fəal iştirak edir.

Beləliklə, formulun əmələ gəlmə yolları müxtəlifdir. Bu da formulların rəngarəngliyinə səbəb olan amillərdən biridir. Bunlardan əlavə, formullarda elə hissələr vardır ki, onlar məhz təkrar olunmaqla formulun fəaliyyətinə səbəb olur. Artıq qeyd etmişik: təkrarolunma əsl formulun əsas xassəsi kimi çıxış edir. Nağıllarda çox rast gəlinən “Adam-badam iysi gəlir, yağlı badam iysi gəlir” (61, s.272; 55, s.168 və s.) formulunun öz-özünə təkrar olunması ilə formulun birinci və ikinci hissələri demək olar ki, eyni söz qrupunu təşkil edirlər. Bu hissələrdə ancaq semantika baxımından cüzi ayrılmalar nəzərə çarpır. Belə ki, birinci hissədə semantika ikinci hissədəki mənanı tamamlayır və ya izah edir. Bütün bu dediklərimizdən “Nəzərdən keçirilən formul xassələrinin nağıl yaradıcılığında nə kimi əhəmiyyəti vardır?” məntiqi sualı ortaya çıxa bilər və bunun da aydın cavabı formulun nağılda işlənməsinin nə

dərəcədə təbii və zəruri olduğunu bir daha aşkar göstərə bilər. Nəticədə onu da yəqin edirik ki, formulun nəzərdən keçirilən xassələri nağılın bədii məziyyətlərinin qüvvətlənməsinə də xidmət edir. Bununla, dolayı yolla dinləyənin fiziki cəhətdən yorulmamasına da kömək etmiş olur. Bütün bunların sayəsində deyə bilərik ki, formullar həm forma gözəlliyini, həm də məzmun tamlığını əmələ gətirən vasitəyə çevrilə bilir.

Folklorşünaslıqda formulların əhəmiyyətsiz olduğunu deyənlər də vardır. Ancaq formulların xalq söz sənətini açmağa yaramadığını iddia edən tədqiqatçılar, şübhəsiz, azlıq təşkil edir. Bu cəhətdən elmi ədəbiyyatda ən çox folklor nəzəriyyəçisi V.M.Qatsakın adı hallanır. Biz də onun haqqında məlumatı A.Lordun "Söyləyici" kitabına B.N.Putilovun yazdığı "Sözardı"ndan əldə etmışık. V.M.Qatsak slavistlərin IX Beynəlxalq qurultayında "Slavyan şifahi epik poetikasının əsasları ("Formul" nəzəriyyəsinə antiteza)" mövzusunda məruzə ilə çıxış etmişdir. Aydın olur ki, məruzə müəllifi etnik yaddaşda formulların qanunauyğun surətdə yaşamasına inanmır. Bu fikirlə razılaşmayan B.N.Putilov yazmışdır: "Əgər biz qabaqcadan hasil olmuş yanlış fikirləri bir kənara qoyub, təklif olunan formul tərifinin və xüsusilə də epik formul üslubunun təhlil sisteminin mahiyyətinə nüfuz etsək, tam qətiyyətlə deyə bilərik: bu, olduqca maraqlı və yeni konsepsiyadır..." (189, s.337).

Azərbaycan folklorşünaslığında formul nəzəriyyəsi ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır (148; 109; 110; 14; 15; 16; 17; 77; 78 və s.). Lakin, girişdə qeyd etdiyimiz kimi, onlardan bir qisminin obyektini müqayisəli aspektdə (Azərbaycan-Türkiyə, türk-slavyan) nağıl janrı, digər qismini isə "Kitabi-Dədə Qorqud" dastanı təşkil edir. Bizim tədqiqatda isə formul nəzəriyyəsinin əsaslandığı janrlarda, bir qədər əvvəldə qeyd etdiyimiz kimi, əfsanə, rəvayət, qaravəlli, nağıl və dastanlarda

müxtəlif epik formulların kəsb etdiyi semantik-funksional xüsusiyyətlər, üslubi-poetik çalarlar nəzərdən keçirilir.

Nağılların strukturunda eyni məzmunlu formulların tez-tez işlənməsinə rast gəlirik. Buna həm formulun süjetdən irəli gələn təkrar olunma halı demək olar, həm də onu formulun mətndə özünü, bir növ, aşkar şəkildə bəyan və təsdiq etmə imkanı saymaq olar. Biz tez-tez təkrar olunan belə formulların hətta bir neçə nağılda cüzi dəyişikliklə işlənməsi ilə qarşılaşırıq. Zənnimizcə, bu xüsusiyyəti də təməllə - miflə əlaqələndirmək və onun mifin özünü təkrar etmə xassəsindən irəli gəldiyini söyləmək olar. Mif yaradıcılığı dərin və çoxşaxəli bir prosesdir. Mifin özünü təkrar etməsi mif yaradıcılığında əsas formalardan biridir. Belə ki, mif də özünü təkrar etməklə, yəni invariantlaşaraq yeni-yeni mif modellərini əmələ gətirmişdir. Formulların da belə bir qəlib kimi variantlarının olması mifin variantlaşma prosesindən, həmçinin, onların bölgə (yerli) xüsusiyyətləri və s.-dən asılıdır, onlardan qaynaqlanır. Deməli, hər hansı bir formul artıq unudulmuş ilk variantın variantlaşmış və ya variantlaşmamış şəkildə nağıl mətnində hərəkət, zaman, məkan, təyin, sürət və s. formalarda təzahürüdür.

Məsələn, "Şərurda bir ovçu varmış, adına ovçu Əhməd deyərlərmiş" (39, s.16) ifadəsi sadəcə başa düşdüyümüz formada mif formulu deyil. Bu başlanğıc ifadə həm də mifin strukturunda əsas məzmuna keçid rolunu oynayır. Deməli, bu cümlə olmazsa, mif mətni nağıl məzmununa bağlanmaz. Mifin strukturunda həmin cümlə zaman daxilində deyil. Onun təkcə məkanla bağlılığı vardır. Bu cümlənin zaman formuluna çevrilməsi üçün ona hökmən şərti zaman məzmunu əlavə olunmalıdır, yəni "biri var idi, biri yox idi" kimi zaman formulu ilə birgə işlənməlidir. Bu da o zaman baş verə bilər ki, mifoloji şüurdan tarixi şüura keçid zamanı mifin konkret zamanı unudulsun, ona mücərrəd zaman ruhu aşılansın. Bu zaman mif

janrlaşa, konkret mətnə – əfsanəyə, nağıla transformasiya oluna bilir. Məhz belə halda mifdəki mücərrədlik (zamansızlıq) formulun yaranmasına kömək etmişdir. Burada mifdəki mücərrəd zamanla sabitləşməmiş formul arasında (“Şərurda bir ovçu varmış...”) birbaşa əlaqə vardır. Elə bu əlaqə zaman formulunun əmələ gəlməsinə səbəb olur. Mifdən aydın olur ki, Şərurda ovçu mücərrəd zaman içində yaşamışdır. Onun yaşadığı dövrü, zamanı yeni janr (əfsanə, nağıl) “biri var idi, biri yox idi” təyinatı ilə müəyyənləşdirir. Məhz bundan sonra formulun ikinci tərəfi (“Şərurda bir ovçu varmış”) sabit deyimə çevrilir.

Ona da diqqət yetirmək lazımdır ki, bütünlükdə folklor təhkiyəsi üçün səciyyəvi olan təkrarolunma halları formul yaradıcılığı üçün də üzvi cəhətə çevrilir və onda müxtəlif şəkillərdə təzahür edir. Bu məsələyə diqqət yetirən tədqiqatçı folklorşünas Muxtar Kazımoğlu yazır ki, “Nağıl və dastanlarda təkrar hesabına yaranan paralellik ritmikliyi, ahəngdarlığı artırır, mətni yadda saxlayıb başqalarına danışmağı asanlaşdırır” (118, s.9).

Nağılda hərəkət və qəhrəman arxetipləri xüsusi cümlə tipini təşkil edir (“Az getdi, üz getdi, dərə-təpə düz getdi...”). Biz bu cür formulların əmələ gəlməsində ən arxaik mifin rolunu görürük. Arxaik miflərin yaranmasında arxetiplər əsas rol oynayır. Lakin belə miflər unudulduğu zaman ondan bir əlamət kimi arxetipin işarələri qala bilir. Bu işarələr də bu cür miflərin nağıl strukturunda işarəvi məzmun daşımasına səbəb ola bilir. Beləliklə, istənilən arxaik formulun “mənşəyini” mif strukturunun formasından asılı olaraq izah etmək olar. Ümumiyyətlə, mif – folklor çevrilmələrinin formulların təşəkkülü və təkamülü baxımından izlənilməsi – ayrıca və şərhi zəruri olan bir məsələdir (195, 196).

## Formul nəzəriyyəsinin tətbiqi məsələləri

Formul geniş mənada həm də sözdür. Söz də, eyni zamanda, inkişaf etməkdə olan bədii ifadədir. Deməli, belə düşünmək olar ki, formul söz konstruksiyasından yaranmış bədii ifadədir. Bədii ifadənin daşıdığı məna, aydındır ki, onun istifadə olunma imkanlarından, funksional-poetik potensialından asılıdır. Əgər o, geniş istifadə olunursa aforizmə, hikmətli sözə, formula və s. çevrilə bilir. Formulun da istifadə olunma imkanları genişdir. O, folklordan əlavə, dilçilikdə, məntiqdə, riyaziyyatda və s. elmlərdə tətbiq oluna bilir. Fərq ondan ibarətdir ki, formulun bu fərqli sahələrdə istifadə olunma xüsusiyyətləri bir-birindən çox fərqlənir. Əgər humanitar elmlərdə formul qəlibləşmiş söz düzümü, işarə, fonem və s. mənalarda geniş tətbiq olunursa, dəqiq elmlərdə riyazi düstur səviyyəsində konkret mənalar kəsb edir.

Folklorda formul yaradıcılığının tətbiq olunma imkanları çox genişdir. Sənətdə formul nəzəriyyəsi daha çox folklor spesifikası, təfəkkür tərzi ilə bağlı olduğundan onun tətbiqi məsələləri də folklora uyğun məntiqi (və üstəgəl poetik) səciyyə daşıyır. Bu, folklor janrlarında özünü müxtəlif şəkillərdə təzahür etdirir. Aydındır ki, şifahi ədəbiyyatın bütün janrlarında folklor məntiqi aparıcı önəm daşıyır. Folklor məntiqi (səciyyəsi) janrın tələbinə görə dəyişir, müvafiq çalarlar kəsb edir. İri janrlarda bu məntiq daha güclü və əhatəlidir. Biz bütün iri janrlarda folklor məntiqinin dinamikasını, davamlı olaraq inkişaf etdiyini görürük. Ancaq folklor təfəkkürü, yəni şifahi təhkiyənin koloriti ilə daha dərindən aşılanmış iri mətnlərin şifahi yolla da əxzi, qavranılması və bütövlüyü ilə yaddaşda yaşadılması, eləcə də yeni-yeni nəsillərin yaddaşına ötürülməsi, aydındır ki, daha böyük çətinliklər doğurmuşdur. Yəqin buna görə də təfsilatların (süjet şaxələrindən tutmuş ən kiçik təsvirlərəcən) formulvari üsullarla lakonikləşməsinə, unifi-

kasiyaya uğramasına tarixən daha çox ehtiyac yaranmışdır. Beləcə də bədii-məntiqi şərhlər, təfərrüatlar, təkrarlar, oxşar məqamlar ritmik formul ifadələrinə çevrilmişdir. Belə düşünmək olar ki, janrın hər hansı bir yerində, xüsusilə də başlanğıc hissəsində folklor məntiqi öz fikir dairəsini daraldır, geniş məna (təsvir əhatəliyi) çalarlarını itirə-itirə fikrin tutumunda və ifadəsində konkretləşməyə doğru gedir və başlanğıc hissədəki geniş məna müəyyən hökmə, klişeləşmiş rəvan deyimə çevrilir. Biz bir anlıq başlanğıc hissədəki geniş mənanın mif düşüncəsi olduğunu düşünsək, həmin düşüncənin öz məntiqini (və ifadə təfsilatını) daralda-daralda getməsini və son olaraq (əlbəttə, mütləq yeni bədii məziyyət də kəsb edərək) məntiqi-ritmik hökmə çevrilməsini görəcəyik. Eyni fikri zaman miflərinə də şamil edə bilərik. Məsələn, nağılın tərkibində zaman miflərinin iştirak etməsi labüddür. Nağılın əmələ gəlməsində zaman mifləri ən azı təhkiyə zamanını, obraz zamanını, düşüncə zamanını göstərməyə xidmət edir. Nağılın içindəki bu zaman kəsimləri zamansızlaşanda zaman mifi fəaliyyətdən düşür, təsir imkanını itirir və zaman mifi mətndə sadəcə lakonik zaman formulu səviyyəsində qalır. Mətndə zaman formullarının sayı zaman miflərinin funksionallığı dərəcəsindən asılıdır. Məsələn, zaman mifində təsvir olunur ki, bir zamanlar yerlə göy bitişik imiş. Sonra yerlə göy bir-birindən ayrılırlar. Bu zaman mifinin nağılda işlənən formulu elə beləcə də təşəkkül tapa bilərdi: "Biri var idi, biri yox idi. Çox-çox qədim zamanlarda yer üzündə hələ heç nə yox idi. Allah vardı, şəriki yox idi".

Formul nəzəriyyəsinin janrlara tətbiqi məsələsi də folklorun epik növlərində eyni səviyyədə deyildir. Formul nəzəriyyəsinin ən çox tətbiq oluna, yaxud belə deyək, bütün dolğunluğu ilə təcəssümünü tapa bildiyi janr nağıldır. Strukturuna, bəlkə də ən səciyyəvi folklor təbiətinə görə nağıl formul hadisəsinin bütün məna və poetikasını özündə əks etdirə bilir.

Ümumiyyətlə, formulların yaranmasında miflər yaxından iştirak edir və qeyd etdiyimiz kimi, burada da çox vaxt başlanğıc, ilkin təməl səciyyəsi daşıyır. Formul nəzəriyyəsinin janrlara tətbiqi janrın xüsusiyyətindən irəli gəlir. Bu da formul çeşidlərinin janrın tələbinə, sisteminə uyğun olaraq formalaşması zərurəti ilə şərtlənir. Bu şərtlənmə mütləqdir, ancaq iki əsas yolla reallaşa bilir. Belə ki, formulun janrda formalaşması ya dolayı yolla, ya da birbaşa şəkildə həyata keçir. Formulun birbaşa olaraq formalaşması mifin növünə uyğun gələn mif formulları vasitəsilə baş verir. Bu cür formullar "köçürüldüyü" janrda da eyni vəzifəni yerinə yetirir. Dolayısı ilə yaranan formullar isə mifin semantikasına uyğun olaraq yeni formalaşma prosesi keçirir. Mifin daxili məzmunu, məğzi formula çevriləndə o (mif) öz spesifik xüsusiyyətlərini itirir, formul bir cümlə və ya söz birləşməsi vasitəsilə mifin məzmununu, demək olar ki, əks etdirə bilir. Miflə formul arasındakı əlaqəni əks etdirən bağlantılar əslində çox dərində olur. Buna görə də bu əlaqəni dolayı yolla əmələ gələn bağlılıq adlandırmaq mümkündür. Xüsusilə folklorun janrlarından olan əfsanələrdə formul nəzəriyyəsinin tətbiqi əhəmiyyəti əfsanəvi hadisənin janrın spesifikasında oynadığı roldan, onun heyrətamizlik, qeyri-adilik potensialından asılıdır. Aşkar görmək olur ki, əfsanənin yaranmasında mif strukturlarından, əsatiri təsəvvürlərdən geniş istifadə olunur. Əfsanələr özlərinə məxsus başlanğıc tərzi, təhkiyə üsulu ilə seçilir; bunlar da mifin gerçəklik kimi anlaşılmasından irəli gəlir. Əgər nağılda, adətən, "biri var idi, biri yox idi" deyə mücərrəd zamana işarə olunursa, əfsanədə bu cür işarələrə təsadüf etmirik. Əfsanədə hər halda müəyyən bir zamanda (çox vaxt uzaq keçmiş nəzərdə tutulur) baş vermiş hadisəyə işarə olunur. Məsələn, "Tovuz əvvəllər gözəl bir qız imiş"(82, s.59), "Lalə vaxtı ilə gözəl-göyçək bir qız imiş"(82, s.136), "Çox qədim zamanlar-

da tısbağa gözəl bir gəlin imiş" (82, s.147) tipli şərti başlanğıc formullarında hansısa konkret olmayan zamanda Tovuz, Lalə adlı qızların yaşaması, yaxud tısbağanın vaxtı ilə gözəl bir gəlin olması haqqında məlumat verilir. Əfsanələrdə rastlaşdığımız bu qəbildən olan informasiyalar, əlbəttə, həm də əsatiri təmələ, onqonlar haqqında miflərə söykənir. Elə gətirdiyimiz misallarda da totem miflərinin qalıqları qalmışdır. Bildiyimiz kimi, totem miflərində ayrı-ayrı etnosların özləri üçün müqəddəs saydıqları hansısa heyvan və ya quşa dönmə hadisəsi öz əksini tapmışdır.

Həmin dönmə (çevrilmə) prosesləri əfsanə mətnlərinin daha çox sonunda baş verir. Bunu yuxarıda gətirdiyimiz misallardan da görmək olur. Bu çevrilmələri dinləyiciyə başa salmaq üçün söyləyici həmin tovuz quşunun, lalə çiçəyinin yaxud tısbağanın vaxtilə insan olmasını öz bədii təxəyyülündə canlandırır və bunu qeyd etdiyimiz başlanğıc formulları ilə ən yığcam deyimlərdə bizə çatdırır. Beləcə, təxəyyülün (hadisənin, təsəvvürün, yaşantının, mərasimin...) mahiyyətcə eyniliyi yaxud yaxınlığı burada da ifadədə müəyyən stereotipliyi, təhkiyədəki oxşar deyimləri, mətnlərin quruluşundakı ümumi cəhətlərin mövcudluğunu zəruri edir. Odur ki, formulların təşəkkül tapmasında ilkin şərt təməldir, məna, məzmun, funksiya yaxınlığı, bənzərliyidir. Formulların müəyyənləşdirilməsində də bu mühüm təməldən çıxış etmək lazımdır.

Bunu elə gətirdiyimiz əfsanə nümunələrindən də yəqin etmək olar. Hər üç əfsanədə süjet müxtəlifdir, amma janr özünəməxsusluğundan irəli gələn fikir, qayə ümumiliyi, struktur oxşarlığı da dərhal nəzərə çarpır. Belə ki, əfsanələrin üçündə də müxtəlif təfsilatlarla, ancaq əslində eyni tipli və eyni axarlı hadisələrdən bəhs edilir. Birinci əfsanədə rəvayət edilir ki, Tovuz adlı bir gözəl qadın sarayda min naz-nemət içərisində ömür sürürmüş. Geyinib bəzənər, öz gözəlliyindən hədsiz

fərəh hissi keçirərmiş. Ürəyini üzən bircə qəmi varmış: anadangəlmə çirkin ayaqlarından utanarmış və istəmirmiş ki, sevimli əri Süleyman peyğəmbər bunu görsün. Ancaq daha bu sirri gizlətmək mümkün olmayanda xəcalətindən yaşamaq istəmir, arzu edir ki, allah onu daş, ya da quş eləsin. “Allah Tovuzun yalvarışlarını qəbul etdi. Onu tükləri min bir rəngə çalan quşa çevirdi” (82, s.60). İkinci əfsanədəki Lalə də el-oba gözəli imiş. Onu da bircə dərd üzürmüş: varlı atası onu sevdiyi oğlana vermirmiş. Axırda o da sevgilisinin həsrətinə dözə bilmir və o da “Allahdan arzu edir ki, canını bu əzabdan qurtarsın. Onun arzusu yerinə yetir. Qız dönüb gözəl bir çiçək olur. Qızın adı Lalə olduğundan çiçəyə də Lalə adı verirlər” (82, s.136). Üçüncü əfsanədə gördüyümüz adsız (burada ada ehtiyac da yoxdur) gözəl gəlinin isə, deyəsən, heç bir həsrəti-nisgili də yox imiş. Amma başına gələn bir hadisə onu da əlacsız dərdə salır: çimərkən qayınatası qəfil içəri girib onu çılpaq görür. Həyalanan gəlin nə edəcəyini bilmir, əlacsız halda o da “Üzünü göylərə tutub yalvarır, tanrıdan imdad diləyir. Tanrı onun yalvarışlarını eşidir. Gəlini tısbağaya döndərir” (82, s.147).

Göründüyü kimi, mətnlərin üçündə də biz müxtəlif təfsilatlı, amma oxşar kəskin reaksiyalar doğuran hallarla rastlaşırıq, həm də bunlar əfsanəyə çevrilməyə layiq möcüzəli əhvalatlardır. Bu oxşar məqamlar da hər üç mətndən sitat gətirdiyimiz bənzər ifadələrlə nəql edilir. Bunlar bitkin standart ifadələr olmasa da, əslində, formullarvari deyimlər kimi səslənir. Özü də həmin tipli ifadələr əfsanə mətnlərinin adətən sonuna yaxın hissədə yerləşir və final formulları funksiyasını yerinə yetirir. Lakin təhkiyə bu formullarla qurtarmır. Əfsanələrin ən axır cümlələri də mətnlərdə, bir növ, sonluq formulları funksiyasını icra edirlər. Özü də sadəcə olaraq təhkiyənin tam başa çatması mənasında yox, həm də cərəyan edən hadi-

sələrin sonda daxili bağlılığının açılması mənasında. Əslində, gözəl Tovuzun - tovuzquşuna, gözəl Lalənin - lalə çiçəyinə, adsız gözəlin də tısbağaya dönməsi ilə əfsanələrdə nəql olunan möcüzəvi hadisələr məntiqi sonluğuna çatmışdı. İndi bu çevrilmələrin, yəni əfsanələrin yaranma səbəblərinin izahı qalır. Hər üç mətnin sonunda məhz bu haqda məlumat əldə edirik:

"Süleyman və tovuzquşu": "Deyirlər indi də tovuzquşu tüklərini düzəldə-düzəldə nazlanar, gözəlliyindən ləzzət alıb pərvazlanar. Ancaq dönüb ayaqlarına baxanda başını aşağı dikib xəcalət çəkər" (82, s.60).

"Lalə": Lalə həmişə sevgilisindən ötrü göz yaşı töküb sinəsini dağıdıb qan etdiyindən çiçəyin də bağrı qan rəngindədir. Deyirlər ki, Lalə öz sevgilisinə çatmayınca, bu çiçəyin bağrından qan rəngi də getməyəcəkdir" (82, s.137).

"Tısbağa": "Deyirlər, tısbağanın çanağı da gəlinin içinə girdiyi qabdır (yəni çimdiyi tasdır – Ş.H.). Həmişə onu belində gəzdirir ki, qayınatası çılpaq bədənini görməsin" (82, s.147).

Beləcə, əfsanələri tamamlayan cümlələr bunlardakı çevrilmələrin nədən və necə baş verməsini aydınlaşdırır. Yəqin edirik ki, bu əfsanələr əslində tovuz quşunun, lalə çiçəyinin və tısbağanın ən səciyyəvi əlamətləri – tovuz quşunun tüklərinin heyrətamiz gözəlliyi ilə ayaqlarının çirkinliyinin uyuşmazlığı, lalə çiçəyinin bağrının niyə qan olması, tısbağanın bədəninin nə üçün çanaq içərisində gizlənməsi barədə insan surətləri və yaşantıları timsalında qoşulmuş təsirli el təsəvvürləridir. Əfsanələrin strukturundakı son deyimlər onlardakı qeyri-adi bənzətmə və çevrilmələrin bağlılığını ehtiva və şərh etdiyinə görə bütünlükdə təhkiyənin məntiqi-poetik yekunu kimi səslənir və bu təməldə ifadə-şərh və funksiya oxşarlığı kəsb edir. Bu xüsusiyyətlərinə görə onları şərti olaraq yardımçı formullar saymaq olar. Bunlar həm başlanğıc, həm də

sonluq formullarını izah edir, bütünlükdə mətnə aydınlıq gətirir. Əfsanə mətni, əslində, başlanğıcdakı formulun təfsirinə çevrilir.

Formul nəzəriyyəsinin janra tətbiqi baxımından əfsanə modelləri daha əski sayıla bilməsi ilə də fərqlənir. Əfsanələrdə formul arxaik obrazın funksiyası haqqında gizli işarə verir və mifoloji düşüncədəki hansısa konkret zamanı göstərir. Formul nəzəriyyəsinə görə obyekt öz subyektindən uzaqlaşdıqca onun aid olduğu arxetip də unudulur, məkan-zaman əlaqələri zəifləyir, formulun aid olduğu zaman mücərrədləşir. Bunu yuxarıda gətirdiyimiz əfsanə nümunələrində də aydın izləyə bilərik. Həmin əfsanələr "mif strukturunun sanki tərsinə çevrilmiş"(131, s.265) şəkilləridir. Bu qəbildən olan mətnlərdə onqonlar haqdakı mif strukturları tarixi şüur prosesində, demək olar ki, unudulduğundan mifdən yararlanma, əsasən, ibtidai dünyagörüş səviyyəsində qalmışdır. Artıq bunlarda daha çox bədii şüur (yaradıcı təxəyyül) fəaliyyət göstərir. Həmin nümunələrdəki gözəl qız-gəlinlərin daşa-quşa çevrilmək arzusu, bir daha yada salaq ki, əslində, totem miflərinin modelləri əsasında baş verir. "Tovuz, lalə, tısbağa... gözəl bir qız-gəlin imiş" qəbilindən olan formullarda miflərdəki inkarnasiya (ruhun şəklini dəyişməsi, yeni bətndə təcəssümünü tapması) hadisələrinin əfsanələrdə bir də təkrar olunması, bu dəfə əksinə olaraq, qızların quşa, daşa çevrilmək arzusu reinkarnasiya (yəni ruhun təkrar qayıdışı) kimi ifadə olunur. Əfsanələrdəki inkarnasiya və reinkarnasiya prosesləri başlanğıc formulunun izah olunmasına xidmət edir. Əfsanə mətnləri kiçik olduğuna görə, burada başqa formulların təşəkkülü çətin olur, bəzən onlardan şərti olaraq danışa bilirik. "Qızlar quşu" əfsanəsində isə başlanğıc formulu yox, sonluq formulu iştirak edir. "Qızlar quşu" əfsanəsində mifin əxlaqi nəticəsi, yəni məntiqi nəticə yoxdur. Əfsanədə üç ismətli qızın dağ gölündə çimməsi

təsvir olunur. Yəni bu qızlar mənşə etibarilə dünyəvi insanlardır. Bu qızları quşa dönməyə vadar edən səbəblərdən biri ismətləridirsə, ikincisi yenə də ibtidai təfəkkürdə yaşayan onqon quşlara olan inancdır. Oğlanlar onların paltarlarını verməк istəmədikdə əfsanə söyləyicisi ona məlum olan mifoloji inancdan, yəni quşa dönmək və daşa dönmək inanclarından faydalanır. Əfsanənin sonunda final formulundan istifadə olunmaqla mətnə yekun vurulur: "O vaxtdan həmin quşlara "Qızlar quşu" deyilir" (39, s. 77).

Göründüyü kimi, əfsanədə mif mətnindən gələn inkarnasiya prosesi yoxdur, təkcə reinkarnasiyadan istifadə olunmuşdur. Bu cür mətnlərdə reinkarnasiya əxlaqi nəticə kimi özünü göstərir. Ona görə də final formul mətnə görə dəyişir. Deməli, final formul əxlaqi nəticənin əsasında da formalaşa bilir. Bu, təkcə əfsanə mətnlərinə aiddir. Formul nəzəriyyəsinin janrlara tətbiqində maraqlı nəticələr alınır. Bu da əfsanə və rəvayət mətnlərinin bir-birinə təsiri məsələsidir. Məlumdur ki, janrlararası əlaqədə mətnlər inkişaf edərək daha təkmil variant şəklinə düşə bilir. Bu, folklorda az öyrənilmiş sahədir. Əfsanə mifoloji struktura daha çox bağlı olduğundan oradakı başlanğıc və final formulları əfsanə janrlarının özünə məxsusdur.

Rəvayət də öz tarixi inkişafı nəticəsində əfsanəyə çevrilə bilir. Bunun da bir çox səbəbləri vardır. Başlıca səbəb kimi onu göstərə bilərik ki, rəvayətdə şahidlik funksiyası itdikdən sonra mətn əfsanə strukturunu qəbul edir. Ancaq rəvayətin mətn strukturu əfsanədə yaşamaqda davam edir. Mətnin əfsanəyə çevrilməsini sondakı əxlaqi nəticənin reinkarnasiya şəklində davam etməsində görürük. Ona görə də rəvayət əfsanənin tam mifik strukturunu götürə bilmir. Belə əfsanələrdə inkarnasiya prosesi olmadığından təbii ki, başlanğıc formulu da yoxdur. "Qanlı göl" əfsanəsinə diqqət yetirək. Ehtimal ki, bu əfsanə əvvəlcə rəvayət şəklində olmuşdur. Bu mətnin nəqlolunma

xüsusiyyətinə görə giriş hissəsi rəvayət biçimindədir. Mətndə təsvir olunur ki, Qədir övladsızdır, arvadı Minanın razılığı ilə Saray adlı gəlinə evlənib və Murad adlı bir oğlu olub. Mina çaya paltar yumağa gedəndə Muradı da aparıb, Murad göldə boğulub. Saray nalə çəkir. Qədir Minanı boğub gölə atır, Saray da özünü gölə atır. Bir gündə üç qana bais olan göl "Qanlı göl" adlanır. Bu mətndə, göründüyü kimi, başlanğıc formul itib, yaxud iştirak etmir. Təkcə sonluq (final) formul vardır. Mətndə final formul belə ifadə olunur: "O vaxtdan bəri bir gündə 3 qan eləyən o gölə "Qanlı göl" deyirlər" (40, s.77).

Formul özündə suyun ilkinliyi inamını qoruyub saxlayır. Mətnə əfsanə donu geyindirən də suyun (ona inamın) ilkin başlanğıc rolunu oynamasıdır. Deməli, sonda final formulundan istifadə olunmasaydı, mətn əfsanəyə çevrilməyəcəkdi. Bu əfsanənin sonu su ilə bağlı olan esxatoloji miflə bağlanır. Belə miflərdə təsvir olunur ki, dünyanın sonunda hər yeri su basacaq, hər şey suyun altında qalacaq, su insanların qəniminə çevriləcək. Mətndə də Qanlı göl üç qurban alandan sonra həmin adı almışdır. Məntiqi nəticəyə görə əfsanədə final formulun esxatoloji (dünyanın sonundan bəhs edən) mifdən formalaşması ehtimalını qəbul etmək olar.

Formul nəzəriyyəsini janra tətbiq edərkən janrın xüsusiyyətlərinin nəzərə alınması vacib şərtdir. Janrın tələbinə uyğun olaraq formulun mahiyyəti (buna uyğun funksiyası) da dəyişə bilir. Məsələn, nağıllarda rast gəldiyimiz formullar rəvayət janrında da təkrar olunmur. Rəvayətdə ən çox işlənən formullar "deyirlər ki", "söyləyirlər ki", "belə deyirlər ki" tipli hazır qəliblərdən düzəlir. Belə qəliblərdən sonra söylənən mətnlərdə etimoloji (səbəbləri aydınlaşdıran) mifin nəticəsi hesab olunan "Aydınkənd kəndində "Çoban daşı" deyilən bir daş var", "El arasında həmin daş "Çoban daşı" adlanır" (40, s.122); "Şair Allahı çox hazırcavab, bilikli, mehriban, lakin

sözü şax üzə deyən bir şəxs idi" (40, s.123); "Bizə nahaq yerə "qılınc müsəlmanı" demirlər ki" (40, s.127) kimi formullara rast gəlirik. Belə rəvayətlərdə 2-3 cümlə formulu təşkil etməkdə olur. "Pir Hüseyn" rəvayətində başlanğıc formulu "X əsrin məşhur şairi Pir Hüseyn Şirvani çox məşhur həkim, münəccim və nəqqaş idi, dünyada hər dərdin dərmanını elər, hər köməksizin dadına çatardı" (40, s.131) cümləsində 2-3 cümlə birləşib mürəkkəb rəvayət formulu yaratmışdır. Aşkar görünür ki, bu tipli formullar formullaşma prosesi başa çatmamış formullardır.

Nağıllarda işlənən "Biri var idi, biri yox idi" başlanğıc formulu rəvayətlərdə "Veysəlqala pirinə ziyarətə gəlmiş yüzlərlə qadın və kişi vardı" (40, s.132) kimi konkret formullarla əvəz olunur. Belə formullar konkret zamanı göstərir və rəvayət söyləyicisi də bu tipli formullardan konkret zamanı göstərmək üçün istifadə edir. Bütöv bir cümlə şəklində olan belə "formullar" hələ formullaşma prosesindədir və yəqin ki, mücərrəd zamana işarə edəndə bu proses başa çatacaqdır. Rəvayətlərdə bu proses, yəni formullaşma mətndən asılı olaraq başlanır və davam edir. Məsələn, "Həsənxan bağı" rəvayətində (40, s.134) də formullaşma prosesi hələ başlanğıc səviyyəsindədir. "Bakı-İsmayıllı şose yolunun Basqal kəndinə haçalanan yolun ətrafında yerləşir Həsənxan bağı". Rəvayətdə bu cümlə ilə başlanğıc formulunun ifadə olunmasına şərait yaradılır: "Belə rəvayət edirlər ki...". Göründüyü kimi, "belə rəvayət edirlər ki" formulu əvvəlki cümləsiz işlənsəydi, formulun məzmunu açılmazdı. Yalnız iki cümlə bir yerdə mürəkkəb rəvayət formulunu əmələ gətirmiş olur.

Beləliklə, formul nəzəriyyəsinin tətbiqi zamanı bir daha aydınlaşır ki, bu proses janrın tələbindən asılı olaraq dəyişir. Xüsusilə rəvayətlərdə formulun iki yolla yarandığını müşahidə edirik. Bunlardan birincisi sadə yolla yaranmaqda olan

formullardır ki, janrın əsas xüsusiyyətini ehtiva edir (şahidlik funksiyası), ikincisi isə mürəkkəb yolla yaranan formullardır. Rəvayətlərdə başlanğıc və final formullar mətnin yerindən asılı olaraq öz funksiyasını icra edir.

Süjetin kiçik və uzun olmasından asılı olaraq formulun məna və forması da bir-birindən fərqlənir. Süjet uzun olursa, formulun forması və mənası daha dəqiq və anlaşılan olur. Kiçik süjetli mətlərdə formullar o qədər də təşəkkül tapmayıb, zamana və məkana görə dəqiq anlaşılmır, amma formalaşma ərəfəsində olur. Biz bu prosesi əfsanə və rəvayət formullarında müşahidə etdik. Bu mətnlərdə süjet xətti qısa olduğundan formullaşma prosesi mətnə görə baş vermir, irisüjetli mətnlərdən fərqli olaraq formulun mənasını tam ifadə edə bilmir.

Qaravəllidə də formullaşma prosesi sürətlə getdiyindən qaravəlli formullarını hətta nağıl formulları ilə müqayisə etmək olar. Məlumdur ki, qaravəllinin quruluşu nağılın quruluşuna çox bənzəyir. Onları bir-birindən ayıran fərq əsasən ondan ibarətdir ki, qaravəllidə gülüş hədəfi çox aydın görünür. Qaravəlli dinləyicinin yorulmaması üçün, onun əhvalını yüngülləşdirmək məqsədilə dastan arasında aşığın təhkiyəsi ilə söylənilir. Qaravəlli tədqiqatçısı Tahir Orucov yazır ki, “Qaravəllilərdə bəzən bir neçə əhvalat və bir neçə obrazdan söhbət açılır. Xeyirin şərlə, haqqın haqsızlıqla, ağılın cəhalətlə, işığın qaranlıqla mübarizəsindən bəhs edən qaravəllilərdə bəzən üç, bəzən dörd-beş, bəzənsə daha artıq obraz bir-biri ilə qarşılaşır. Onların belə qarşılaşması qaravəlli janrının tələbləri və xüsusiyyətləri çərçivəsində, həmçinin, bu surətlərin qarşılıqlı əlaqəsi fonunda baş verir və bu prizmadan təsvir olunur” (153, s.105). Həqiqətən qaravəllilərdəki obrazlar komik obrazlar olub bir-biri ilə zidd mövqelərdədir və ifşaedici gülüş doğururlar. Burada komik obrazlar tez-tez gülünc vəziyyətə düşərək özlərini ifşa edirlər.

Nağıllarda olduğu kimi, qaravəllilərdə də xüsusi pişrovlardan istifadə olunur. Pişrov formula yaxın strukturdur. Ümumiyyətlə pişrovlardan istifadə dinləyicinin marağını artırmaq məqsədi güdür. Qaravəllilərdə də belədir. Qaravəllilərdəki pişrovun məqsədi qəfildən söylənilən uydurma ilə dolu bir deyimə dinləyicinin diqqətini yönəltmək, sanki onu bu məzəli yalana inandırmağa çalışmaqla əyləndirməkdir. Məsələn, "Qarışqa şıllaq atdı, dəvənin böyrü batdı. Hamamçının tası yox, baltaçının baltası yox. Orda bir tazı gördüm, onun da xaltası yox" (59, s.329) cümləsi pişrov olmaqla yanaşı, həm də başlanğıc formuludur. Formul nəzəriyyəsinin janra tətbiqi məsələsində formul əmələgəlmənin inkişaf xüsusiyyətlərini də hökmən nəzərə almaq lazımdır. Deməli, formulun ilk formalaşdığı məna tipi kimi mif götürülsə də, onun parçalanaraq yeni mətnlərdə transformasiya prosesini janr kimi, bizcə, əfsanə, rəvayət, lətifə, qaravəlli, nağıl və dastan ardıcıllığı üzrə qruplaşdırmaq olar. Bu sırada qaravəllilər formul yaradıcılığında əhəmiyyətli rol oynayır. Qaravəlli nağıla daha yaxın janr olduğu üçün onda ya nağıla xas formullardan istifadə olunur, ya da onlara oxşar qəlib deyimlər təşəkkül yapır. Nəticə etibarı ilə janrın öz formalaşması da həm də bununla bağlı olur.

Adətən nağılın giriş hissəsinə də qaravəlli deyiblər. Bu, daha çox qaravəllinin hələ tədqiq olunmadığı, onun janr xüsusiyyətlərinin ayrıca öyrənilmədiyi dövrdə olmuşdur. Pişrov da formul nəzəriyyəsinin bütün tələblərinə uyğun gəlir, başlanğıc formulu statusunda meydana çıxır. Qaravəllilərdə isə uzun və geniş pişrovlara rast gəlinmir. Qaravəllidə başlanğıc formulu kimi sadə cümlə tipindən istifadə olunur. Özü də bunlar nağıl formulundan götürülmüş hazır modellər olur: "Biri vardı, biri yoxdu, Allahdan başqa heç kim yoxdu" (55, s.52); "Mollanın həyətində bir əncir ağacı var imiş" (55, s.176) və s.

Qaravəllilər janr kimi çox yığcam və bir də, görünür, əsasən gülüş doğuran olduğundan onlarda formulların iştirakına az rast gəlinir. Belə mətnlərdə daha çox başlanğıc və final formulları işlənsə də, çox az olaraq daxili formullara ehtiyac yarana bilir. Bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, qaravəllilərdə formulların işlənmə sahəsi məhduddur və nağıllarda gördüyümüz formul əlvanlığına qaravəllilərdə rast gəlinmir. Bunun da səbəbi dinləyicilərin yorğunluğunu çıxartmaq üçün qaravəllilərin nağılın (həm də dastanın) ortasında söylənməsidir. Qaravəllilər nağılla lətifə arasında qərar tutan bir janrdır.

Qaravəllilərin gülüş yaratma xüsusiyyəti onu lətifəyə yaxınlaşdırır. Lakin qaravəlli forma və məzmunca lətifə deyildir. Lətifələr daha yığcamdır. Lətifələrdə də formul məsələsi qaravəllidə olduğu kimidir. Yəni nağılda gördüyümüz formul əlvanlığına lətifədə də rast gəlinmir. Xalq təhkiyəsində nağıl formulunun lətifəyə tətbiqi məsələsi qaravəllilərdə və lətifələrdə formulun izah olunması şəklində özünü büruzə verir. Bu izah olunma prosesi lətifələrdə daha mürəkkəb şəkildədir.

1. Lətifələrdəki formul nağılın ənənəvi başlanğıc formulunu məna-məzmunca birbaşa izah edir ("Qədim zamanlarda iki ortax var idi" (41, s.333); "Mollanın qoca bir öküzü var idi" (41, s.338); "Qumlaxda bir ağa varmış" (41, s.350).

2. Lətifələrdə formul nağılın başlanğıc formulunu dolayı yolla izah edir ("Şəki əyyarları eşidirlər ki, İlisu kəndində məşhur bir əyyar dəllək var"; "Qonaxlardan birsi öy sahibindən içməyə su isdiyir" (41, s.346) və s.

Dolayı yolla nağılın formulunu izah edən lətifələrdə zaman konkretliyi duyulduğu üçün onlarda formulun işlənmə yerini şərh etmək olur. Sadəcə olaraq burada formulu qismən əvəz edən cümlə tipinə rast gəlmək mümkündür. Nağıllardakı mücərrəd zamanlılıq lətifədə konkretləşdiyinə görə nağıl for-

mulları burada öz iştirakını dayandırmışdır. Buna görə də formul nəzəriyyəsinin lətifələr əsasında izah olunması çətinliklər yaradır.

Lətifələrdən fərqli olaraq, dastanlarda formul nəzəriyyəsinin tətbiqi uğurlu nəticələr verir. Bu isə bilavasitə dastanın iri janr olması və nağıl elementlərinin dastan strukturunda iştirak etməsi ilə bağlıdır. “Kitabi-Dədə Qorqud” dastanından tutmuş son illərdə toplanan dastanlara qədər hamısında folklor formullarının iştirakına rast gəlmək mümkündür. Bu formullar daha çox dastan söyləyicisinin dinləyicini yormamaq üçün və bir süjetdən o biri süjetə keçid etmək üçün işlətdiyi nümunələrdir. Ancaq dastanlarda formul funksiyası bununla bitmir. Bunların dastanların poetik baxımdan cilalanmasında da böyük rolu vardır. Tədqiqatçı Ataş Əhmədli bu məsələyə söyləyici və janr problemi kontekstində nəzər salaraq göstərir ki, söyləyici ozanlar əvəzləndikcə dastan da qol-budaq atmış, boylar yeni-yeni çalarlar qazanmışdır. Lakin dastanın poetik strukturundan da (mətn hadisəsi nəzərdə tutulur) göründüyü kimi, bütün bu dəyişikliklər bəlli ənənə çərçivəsində baş vermişdir (83, s.84).

Dastan təhkiyəsində başlanğıc formulları mətnin janr tipindən asılı olaraq fərqli xüsusiyyətlərə malikdir. Nağıl üslubuna oxşar tərzdə söylənən dastanlarda başlanğıc formullarına daha çox rast gəlinir. Nağıl strukturunda olduğu kimi bunlarda da başlanğıc formulundan və başqa formullardan yetərincə istifadə olunur. Beləliklə, dastan təhkiyəsində formul təcrübəsinin iki yolla təzahür etdiyini görürük:

1. Nağıl əsasında yaranmış dastanlarda formulların işlənməsi; 2. Klassik dastanlarda formulların istifadəsi.

Janrdaxili müxtəliflik bu epik formada qəlib deyimlərin də müxtəlif təşəkkülünü şərtləndirmişdir. Buna görədir ki, dastanlarda xüsusilə başlanğıc formulların daha fərqli növlə-

rinə rast gəlirik. Məsələn, məhəbbət dastanlarını söyləyərkən dastançı çox vaxt giriş əvəzinə ustadnamə deyir. Özü də bu giriş, adətən, üç ustadnamədən ibarət olur. Ustadnamələr arasında belə ifadələr işlənir: "Ustadlar ustadnaməni bir deməyib iki deyib, biz də deyək iki olsun" (24, s.20); "Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, namərdlər saralıb-solsun (24, s.122). Misal kimi "Əsli-Kərəm", "Tahir-Zöhrə", "Qurbani", "Valeh-Zərnigar" və s. məhəbbət dastanlarını göstərə bilərik. Həm də həmin formullar ənənə şəklində bu günə qədər davam etdiyindən və nağıl yaradıcılığında da formulların təkrar olunmasından belə nəticə çıxarmaq olar ki, dastanlardakı göstərdiyimiz ifadələr başlanğıc formulunun özünə xas olan şəklidir. Belə ifadələrə ancaq məhəbbət dastanlarında rast gəlirik.

Formul nəzəriyyəsinin tətbiqi, göründüyü kimi, janrlar üzrə aparılmışdır. Yəqin edirik ki, janrın spesifikasından asılı olaraq formulun tətbiqi imkanları dəyişir. Formulun tətbiq olunmasında əsas meyar janrın həcmi məsələsidir. Janr nə qədər həcmcə çox olarsa, formul orada daha dolğun öz əksini tapa bilər. Buna görə də janrlar üzrə formulları tədqiq edərkən janr xüsusiyyətini, onun həcmini, formula olan tələbatı da nəzərə almaq lazımdır.

## Folklor formullarının müəyyənləşdirilməsi

Azərbaycan folkloru janr etibarilə çox zəngindir. Ümumiyyətlə folklor janrları, adətən, öz rəngarəngliyi ilə seçilir. Janrlar epik növün başlıca xüsusiyyəti olan təhkiyə qanunlarına əsaslandığından onlarda folklor formullarının da işlənməsi təhkiyənin daxili qayda-qanunlarına tabedir. Əgər təhkiyə geniş məzmunlu olarsa, söyləyicinin yaddaşından asılı olaraq, formulların da işlənməsinə ehtiyac yaranır. Formul söyləyicinin alt yaddaşında hazır qəliblər şəklindədir və varislik

ənənəsinə əsaslanaraq müəyyən zaman çərçivəsində yaşamaqda və transfer olunmaqdadır. Bu formullar çox olduğundan onlardan necə istifadə etmək söyləyicinin öz işidir. O, formullardan harada istifadə etməyi özü müəyyənləşdirir. Onun yaddaşında başlanğıc, mətndaxili və son, final formullar hazır qəliblər şəklində qalmaqdadır. Burada əsas məsələ bu formulların hər birinin bir neçə variantının olmasıdır. Söyləyicinin alt şüurunda həmin formulların necə yerləşməsindən asılı olaraq, onlardan yerinə görə istifadə olunur. Bu formullar həm də sintaqmatik dil vahidləri olduğundan onlar söyləyicinin dilində müstəqil hissələr kimi özünü göstərir. Bu hissələr onun təhkiyəsində birləşərək mürəkkəb formul əmələ gətirir. Nağıl janrında da başlanğıc formulların mürəkkəb formasına çox zaman rast gəlirik. Nə üçün söyləyici sadə başlanğıc formulunu az və ya çox işlədir? Yenə bu, söyləyicinin yaddaşından asılıdır. Əgər onun yaddaşında mürəkkəb formullar sadə formula nisbətən üstünlük təşkil edirsə, o, təhkiyədə əzbərləmək məharətindən asılı olaraq, mürəkkəb formuldan istifadə etməyə üstünlük verəcəkdir. Bu məsələ, qeyd etdiyimiz kimi, nağılın həcmindən də asılıdır. Adətən, həcmcə az olan nağılda sadə başlanğıc formuldan istifadə olunur. Bu keyfiyyət süjet, obraz, motiv və s. nağıl strukturundan asılıdır.

Epik təhkiyədə formulun müəyyənləşdirilməsinin iki yolu vardır. Birinci yoldan təhkiyəçi istifadə edir və mətni formalaşdırır. Əlbəttə, bu, əsas üsuldur. Lakin formulun (ələlxüsus nağıl formulunun) müəyyənləşməsində ikinci yol da vardır və bu yolun da əhəmiyyəti az deyil. Bu ikinci vasitə xüsusilə nağıl strukturunu bilən, nağılın ruhuna, janrın koloritinə yaxından bələd olan (bu bələdlik, heç şübhəsiz, janrın kütləviliyindən irəli gəlir) dinləyicinin mətni eşidərkən öz şüurunda bu qəlibləri formul şəklində-anlamında qəbul etməsi ilə bağlıdır. Yəni bu qəliblərdə standartlaşma, eləcə də ritmik özünə-

məxsusluq o qədər barizdir ki, onlar, əlbəttə, bir də təkrarolunma xüsusiyyətinə görə dinləyicinin hafizəsinə asanlıqla çökə və burada yaşaya bilir. Əgər mətnin sonunda "Göydən üç alma düşdü, biri sənin, biri mənim, biri də gendə durub istəmirəm deyənin" (61, s.20) cümləsini dinləyici eşidirsə, nağılın qurtardığını dərhal başa düşür. Aydındır ki, o bu sonluğa "final formulu" adını qoymur, ancaq onun şüurunda həmin ifadə artıq formul funksiyasını, özü də final formulu funksiyasını yerinə yetirir. Beləcə, mətn həm söyləyici, həm də dinləyici tərəfindən birgə formalaşdırılır. Bu maraqlı hal ən çox nağıl təcrübəsinə xas olan bir xüsusiyyət kimi meydana çıxır. Bundan sonra oradakı qəlibləri müəyyənləşdirmək, onları necə adlandırmaq məsələləri, təbiidir ki, tədqiqatçının üzərinə düşür.

Yeri gəlmişkən qeyd edək ki, haqqında danışdığımız hal folklorun formul komponentinin kütləvi dinləyiciyə yönəli başqa bir mühüm xüsusiyyətinə də diqqət yetirməyi zəruri edir. Məsələ burasındadır ki, standart ifadə vasitələrindən folklor ifaçıları-söyləyiciləri ilə yanaşı, folklor dinləyiciləri-istehlakçıları da geniş faydalana bilərlər və əslində faydalanırlar da. Bunu xüsusilə nağılın bu dərəcədə yayılması və çox işlək bir janra çevrilməsi təcrübəsində də aşkar müşahidə etmək mümkündür. Həm nağılların özünəməxsus janr təbiəti (nəql-təhkiyə tərzində və tərkib hissələrində ümumi-oxşar elementlərin fərqli cəhətləri aşkar üstələməsi), həm də ənənəvi formul ifadələrinin səciyyəvi xüsusiyyəti (konkret mətnlə birbaşa bağlı olmaması) dinləyicilərin də formul bazasından fəal yararlanmasına imkan yaradır. Bununla da o özü də asanlıqla söyləyiciyə çevrilə bilir. Nağılla belə bir ünsiyyətin mümkünlüyünə görədir ki, dinləyicinin hər hansı bir nağıl mətnini eyni ilə söyləyicidən eşitdiyi (yaxud, deyək ki, kitabdan oxuduğu) şəkildə yadda saxlamasına zərurət yaranmır. O, (dinləyici) unutduğu ya da dəyişmək istədiyi formulları mətnin yerinə

görə uyğun gələn digər standart deyimlərlə (əlbəttə, variant klişelərə yaxud sinonim klişelərə bələdliyi çərçivəsində) əvəz edə bilir. Bununla da mətni yaddaşına köçürə yaxud lazım gələrsə rahatlıqla improvizə edərək özü də ifa edə bilir. Burada onu vurğulamaq istəyirik ki, nağıl təhkiyəsinin formul səciyyəsi onunla ünsiyyətin hər iki səviyyəsində (söyləyici və dinləyici) mətni təhrif etmədən (formul bunun qarşısını alır) sərbəstliyə, yaradıcı yanaşmaya geniş imkan verir. Əlbəttə, şifahi xarakterinə görə bütünlükdə folklor nümunələri üçün bu xüsusiyyət səciyyəvidir, amma ən çox nağılda, qismən dastanda və s. müşahidə olunur.

Formullar janra əsasən müəyyənləşdirilir. Formul nəzəriyyəsini özündə daha dolğun şəkildə əks etdirən janrlar nağıl və dastandır. Nağılın strukturunu üç hissəyə bölmək olar. Birinci hissə başlanğıc hissədir. Təhkiyəçi bu hissəni söyləməzdən əvvəl motivasiya yaradır. Bu motivasiya mətnə formula müəyyənlik verən hissə kimi daxil olur. Hər bir hissənin məzmununa uyğun olaraq öz formulundan istifadə olunur. Məsələn, "Biri var idi, biri yox idi, bir qoca qarı var idi. Qarının sonu-sopu bir oğlu var idi" (62, s.219) tipli cümlələrdə başlanğıc məzmunu olduğu üçün onlardan giriş hissədə mətnin başlanğıcında istifadə olunur. Bu iki cümlə həm də nağılda cərəyan edəcək sonrakı hadisələrlə bağlantı yaratmaq funksiyasını daşıyır. Əsas hadisəyə keçidə qədər söyləyici qarşısındakını maraqlandırmaq üçün motivasiya yaradır. Motivasiya formuldan sonrakı hissədir və formulun vəzifəsi motivasiyanı izah etməkdir. Yuxarıda dediyimiz başlanğıc formulunun axırıncı hissəsindəki "bir qarı var idi" sonluğundan sonra gələn "Oğlanı Yanıq deyə çağırardılar. Onlar olduqca yoxsul idilər. Dünyanın varından bir uçuq daxmaları, üç qazları var idi" (62, s.219) hissəsi əsas hadisəyə keçmək üçün motivasiya yaradır. Deməli, formul motivasiyanın məzmununa xidmət edir. Formulun tər-

kibindən asılı olaraq motivasiya da genişlənə bilir. Motivasiyadan asılı olaraq formulları təyin etmək olur. Giriş hissənin motivasiyası müvafiq başlanğıc formulunu əmələ gətirir.

Mətndaxili formullar isə daha çox zamanı, hadisələri qısaltmaq məqsədilə işlədilir. Belə formullar nağılın strukturundan fərqlənir. Məsələn, "az getdi, üz getdi, dərə-təpə düz getdi" qəbilindən olan formullar öz məzmunu ilə konkret nağıl formatından ayrılır. Burada hərəkət lakonikdir, məzmunun təsvir genişliyi yoxdur və söyləyicinin məqsədinə tabedir. Buna görə də bu cür formullar mətnin içindən dərhal ayrılır.

Final formullarında isə hərəkət nağılın sonuna qədər davam edir. Söyləyici hadisələrə yekun vurmaq məqsədilə hazır qəliblərdən istifadə edir. "Onlar yeyib, içib, yerə keçdilər, siz də yeyin, için, mətləbə çatın" (62, s.190) tipli çox işlək formullar isə dediyimiz qaydada hadisələrin və hərəkətin sona yetməsini göstərir. Həm də nağılın strukturunun bədii cəhətdən tamamlanmasına kömək edir. Final formullarının özləri də çoxdur və söyləyicinin manerasından asılı olaraq nağılın strukturuna görə seçilir.

Folklor formullarının müəyyənləşdirilməsi janra görə bir-birindən fərqlənir. Nağıl və dastanlarda belə formulları təyin etmək asandır. Əfsanə, rəvayət, lətifə və qaravəllilərdə isə bütün formulları mətn içində müqayisə yolu ilə təyin etmək olur. Əslində həmin janrlardakı formullar nağıl formullarından çox seçilir. Məsələn, nağıllardakı "Biri var idi, biri yox idi" qəbilindən olan qəliblərə bu janrlarda rast gəlmirik. Nağıllardakı belə formullar mif formullarının əsasında formalaşmışdır və onların izahını elə mifdə də tapa bilirik. Belə ki, mif janra çevriləndə təsvir olunan proses zaman və hərəkət etibarilə mücərrədləşir və nəticədə, qısa bir hərəkət formuluna ("biri vardı, biri yoxdu") çevrilir. Mif nağıla məzmunca da, süjetcə də asan çevrilir. Bu transformasiya nəticəsində mif formulu sadə nağıl for-

mulunun əmələ gəlməsinə kömək edir. Əfsanə isə mifdən xeyli fərqlənir və süjet cəhətdən də onların arasında böyük fərq yaranır. Yuxarıda gətirdiyimiz nümunələrdən də gördüyümüz kimi, əfsanədə formul da öz mahiyyəti ilə mif və nağıl formullarından seçilir. Biz yəqin etdik ki, əfsanədə nağılda gördüyümüz tipli başlanğıc formulları yoxdur. Əfsanə birbaşa zaman və hərəkətin ifadəsindən sonra subyektin təsviri ilə başlanır. "Ay-Gün əfsanəsi"ndə təsvir olunur ki, "öz gözəlliyi ilə öyünən Günəş çox məğrur qız idi" (40, s. 62). Əfsanədə Günəş antropomorfik (insan səciyyəli) obraz, mifdə isə mifik obraz kimi təsvir olunur. Əfsanədə Günəş obrazlaşdıqdan sonra mətndə onunla bağlı cümlə başlanğıc formul kimi işlənə bilir. Mətndə daxili formulların istifadə olunmasına əfsanənin strukturu imkan vermir.

Nağıldan fərqli olaraq əfsanədəki başlanğıc formulu mətnin məzmununa birbaşa xidmət edir. Nağılda gördüyümüz formulu izah edən motivasiya əfsanədə yoxdur. Formuldan sonra gələn məzmun formuldakı informasiyanın açılmasına imkan verir. "Ay-Gün əfsanəsi"ndə Günəşin məğrurluğu bir daha mətndə öz təsdiqini tapır. Belə bir xüsusiyyət nağıl formullarında yoxdur. Onda belə bir sual doğur: əfsanədə formul mətni, yoxsa müəyyən hissəni izah edir? Burada nəzərə almaq lazımdır ki, hissə özü də formulu izah edir və bu proses əfsanədə qarşılıqlıdır. Hissələr birləşib mətn əmələ gətirir. Deməli, əfsanə mətn olmaq etibarilə həm də hissənin funksiyasını yerinə yetirir. Elə bu səbəbdən də əfsanədə, əslində, bir başlıca formulun – başlanğıc formulunun olduğunu görürük. Buradan aydın olur ki, əfsanədə formul bütünlükdə mətnlə bağlıdır və mətni izah edir. Beləliklə, mətn və hissə münasibətlərinə görə əfsanədəki formul nağıldakı formul kimi təsir bağışlamır. Beləcə, bu janrda formul-mətn bağlılığının öz fərqli strukturu yaranır və formulun mətndəki funksiyası da

bununla şərtlənir. Əfsanədəki formulun mənası mətnin sonundakı informasiya ilə tamamlanır. Sonda verilən cümlə final formulu kimi özünü göstərir. Məsələn, "Mələk bulağı" əfsanəsində həm başlanğıc, həm də final formullar bu yolla mətndə formalaşır. "Mələk çox gözəl-göyçək bir qız idi"cümləsi başlanğıc formulu, "O vaxtdan İsmayıllıda həmin bulağa "Mələk bulağı" deyirlər" (40, s.25) cümləsi isə şərti final formulu kimi fəaliyyət göstərir. Əfsanədə formulun əmələ gəlməsi səbəb-nəticə əlaqələri əsasında mümkün olmuşdur. Yəni Mələyin gözəl-göyçək qız olması səbəbdir, bulağın yaranması isə nəticədir. Bu isə kiçik məzmunlu janrlarda da şərti formulların əmələ gəlməsinə şərait yaradır. İri janrlarda belə xüsusiyyətlər (formulun səbəb-nəticə əlaqələri ilə, bütünlükdə mətnlə bağlılığı) olmadığından onlardakı formul müstəqil fəaliyyət göstərə bilir. Beləcə, kiçik məzmunlu janrlarda formul mətnə tabe olur.

Bu xüsusiyyəti rəvayətlərdə də görürük. Demək olar ki, bu janrda da başlanğıc və final formulu eyni yolla formalaşır. Fərq ondan ibarətdir ki, rəvayətin başlanğıc formulu şahidlik əsasında yaranır. Bunu "Diri Baba" rəvayəti üzərində izah etməyə çalışaq. Rəvayətin başlanğıc formulu belə ifadə olunmuşdur: "Belə rəvayət edirlər ki, böyük kəramət sahibi olan Diri Babanın möcüzələrindən biri də o olub ki, o, hər cümə günü Məkkəyə gedir, namaz qılır və geri qayıda bilirdi" (91, s.23). Burada formul iki hissədən ibarətdir: "belə rəvayət edirlər ki" özlüyündə hadisəyə işarə edir və başlanğıc formulunun funksiyasını daşıyır. Lakin orada informativlik olmadığından formulun funksiyası tamamlanmır. İnformasiya ikinci hissədə olduğundan bütövlükdə rəvayətin şahidlik funksiyası başlanğıc formulunun məğzini təşkil edir. Deməli, qeyd olunan cümlə-informasiya (hər iki hissə birlikdə) mətndə başlanğıc formulu kimi çıxış edir. Rəvayətin final formulu isə, əfsanədə

olduğu kimi, mətndə təsvir olunan hadisələrin doğurduğu nəticə formasında özünü büruzə verir, yəni həmin nəticəni ifadə etmək zərurətindən yaranır. Rəvayətin sonunda təsvir olunur ki, Diri Babanın və Hacı Həsənin qəbri insanlar tərəfindən ziyarət olunur. Bütün rəvayətlərdə bu cür əqli nəticə mətnin sonunda verilir.

Bəllidir ki, yaranma dövrünə görə əfsanə və rəvayətlər nağıllara nisbətən daha qədimdir. Formulun əmələ gəlməsində də janrın xüsusiyyətləri mühüm rol oynayır. Janrın yaranmasına zaman amili çox mühüm təsir göstərir. Zaman amili qabarıq olduqda formullaşma prosesi ləng gedir. (Bir daha qeyd etmək istəyirik ki, ümumiyyətlə formul yaradıcılığında zaman müəyyənliyi ilə formullaşma prosesi əks mütənasiblik təşkil edir). Zaman amilinin təsiri mətndə itdikcə, söndükcə onu mətndə ifadə edən hissələrə daha çox ehtiyac yaranır. Bunlar da mətndə formullar şəklində özünü büruzə verir. Bu əks mütənasibliyi əfsanə və rəvayətlərin janr təkamülü prosesində aydın müşahidə etmək olur. Görürük ki, əfsanə və rəvayətdə zaman amili qüvvətlidir. Onlarda yəqin ki, zamanın itməməsi nəticəsində formullaşma prosesi belə ləng gedir. Zaman amili mətndə itəndə, orada zamanı işarə edən konkret formullar əmələ gəlir. Belə janrlara nağıl və dastanları ən səciyyəvi nümunə kimi göstərmək olar.

Deyildiyi kimi, nağıllarda zaman məfhumu itdiyindən mətndə ənənəvi formulların bütün növlərinə rast gəlinir. Nağıllarda süjet, kompozisiya və digər komponentlər daima işlək, dinamik vəziyyətdədir. Aşkar görmək olur ki, əksər nağıllar bir neçə hadisənin-motivin (bunları nağıl üçün ənənəvi, səciyyəvi, nağılvari hadisələr-motivlər də adlandırmaq olar) vahid süjet tərkibində birləşməsi nəticəsində qurulur. Bu hadisələr-motivlər isə nağılda formullar vasitəsilə yerləşdirilə və təyin oluna bilir. Beləcə, "Biri var idi, biri yox idi" başlan-

ğıc formulundan tutmuş "Göydən üç alma düşdü" final formulunacan hər bir nağılda yenə də təhkiyə yaxud keçid formulları ilə müşayiət olunan ümumi, mətndən-mətnə keçən oxşar, standart səhnələrin klişevari təsvirləri ilə rastlaşırıq. (Bəlkə də elə təsvirlərin, deyimlərin, ifadə vasitələrinin klişevariliyi lövhələrin, əhvalatların, nağıl süjetlərinin oxşarlığı, standartlığı təəssüratını doğurur?!) Bu baxımdan formulları hadisələri bir-birindən ayıran və eləcə də süjet xəttində müvafiq, sürətli keçidlər yaradan, bu yolla lakonikliyi, zaman qısaltmalarını, bütünlükdə mətndə hərəkətliliyi təmin edən çox gərəkli folklor elementləri kimi də qiymətləndirmək mümkündür. Nağıllarda elə bu xüsusiyyətlərinə görə formulları bir neçə hissəyə ayırır və semantik mənalarını, mətndəki rollarını, funksiyalarını müəyyənləşdirirlər. Başlanğıc formulları situasiyaya qədərki prosesi əks etdirir. Məsələn, "Qadın sədaqəti və ya qara sövdəgar" nağlının əvvəlində işlənən formul ("Həkatı-hükatı. İldə verər tavar zəkatı. Boyaqçı küpün açdı, boyadı məmləkəti. Milçək mənzilli Kür keçdim. Yava ilə dovğa içdim. Bu boyda yalan görməmişdim...") (40, s.141) qaravəlli janrında da işlənir. Belə formulların nağılın süjetinə dəxli yoxdur. Bu tipli formulların vəzifəsi nağılda prosesin (hansısa əhvalatın) başlanmasına işarə etməkdir. Belə hallarda formullar nağıla dinləyici marağını artırmaq, diqqəti danışılacaq hadisənin üzərində cəmləşdirmək məqsədini güdür və hazır qəliblər şəklində nağılda istifadə olunur. Nağıllarda formulların müəyyənləşdirilməsi zamanı onların mətnlə nə qədər bağlı olub-olmamasına diqqət vermək lazımdır. Əgər cümlə-hissə mətndən ayrıla bilirsə, o, xalis formuldur. Yuxarıda adını qeyd etdiyimiz nağılda da qaravəlli-formul mətndən ayrıla bilir. Nağılın söylənməsinə yaxşı mənada təsir edir. Bu təsiretmə başqa nağıllarda da özünü göstərir və bu təsiretmə mətndaxili formullarda da vardır. Nağılda sövdəgərin arvadı

öləndən sonra onunla birgə quyuya sallanması və başqa qadının da oraya sallanması təsvir olunur. Bundan sonra nağılçı qadının gözəlliyini təsvir etmək üçün belə bir formula müraciət edir: "Arvad nə arvad, yemə-içmə xətti-xalına, gül-camalına tamaşa elə" (40, s.143). Deməli, bu formul da qadının gözəlliyini daha qabarıq nəzərə çarpdırmaq məqsədilə işlənmişdir. Eyni dərəcədə final formulları da nağılın sonuna olan diqqəti artırmaq məqsədini güdür.

Biz nağıllardakı ən səciyyəvi final formullarından artıq danışmışıq. Əlbəttə, bu janrdakı final formulların başqa tipləri də mövcuddur. Məsələn, "Kişi həmin gündən sonra oralara gedib ilandan qızıl ala bilmədi. Ölüncə nə ilanın, nə də onun ürəyindən dağ çəkilmədi" (60, s.290); "Mərd başına gələn əhvalatı camaata nağıl elədi. Hamı Namərdə lənət oxudu" (62, s.177) və s. Nağılın sonunda formulun işlənməsi mütləq şərt deyil. Yuxarıda göstərilən final formulları bir növ cilalanmış xüsusi qəliblərdir və nağılçı bunlardan istifadə edərək nağılı tamamlamağa çalışır.

Nağıllar kimi dastanlar da epik növün iri janrına daxildir. Ancaq nağıllardan fərqli olaraq dastan epik janr kimi özü üçün ümumişlək başlanğıc formulu formalaşdıra bilməmişdir. Görünür, dastanın janr kimi artıq haqqında danışdığımız hədsiz daxili müxtəlifliyi buna imkan verməmişdir. Hətta dastanın ayrı-ayrı növlərində də təhkiyənin fərqli şəkillərdə başladığını görürük. Bu janrın görkəmli tədqiqatçısı M.H.Təhmasib təkcə məhəbbət dastanlarının azı yeddi növü olduğunu bildirir (57, s.3-4). Biz bir sıra klassik məhəbbət dastanlarının ustadnamə ilə başladığını dedik. Amma digər dastan tədqiqatçısı Rüstəm Rüstəmzadənin toplayıb nəşr etdirdiyi "Bəhram-Gülxəndam", "Qulam Kəmtər", "Mahmud-Nigar xanım", "Sayat bəy-Sayalı xanım", "Baxış-Leyla" dastanlarının heç birində ustadnaməyə rast gəlmirik (bunların bəzilərinin söyləyicisi hətta aşıqlar olsa

da). Əlbəttə, bu dastanların hamısında başlanğıc formulları var. Lakin onların hamısı həm də söyləniləcək əhvalata birbaşa keçid funksiyasını yerinə yetirir və dərhal dinləyiciyə xitabla onu əhvalatdan agah edir: "Xəbəri hardan söyləyim, ərənlər dəmindən, dünyanın nuh əyyamından, eşit İsfahan şəhərindən" (82, s.13); "Xəbəri hardan verim, İsfahan şəhərindən" (82, s.69); "Mənim əzizlərim, sizə hardan xəbər verim, Yəmən şəhərindən" (82, s.131) və s. Tarixi-qəhrəmanlıq dastanlarında ən çox rast gəlinən mətndaxili formullardır. Əlbəttə, bunlarda başlanğıc formulları da var, ancaq həmin standartlaşmış ifadələrdə eposların quruluşundan irəli gələn bariz spesifik cəhətlər də aşkar müşahidə olunur. Biz araşdırmanın müvafiq yerində bu haqda danışacağıq.

Bundan başqa, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi dastanlarda final formulları da işlənir ki, bunlar da dastanların yarandığı dövrlərin təhkiyə üsulu üzərində formalaşmışdır. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqudun dilindən söylənən yumlar final formulu kimi dastan poetikasına daxil olmuşdur. "Koroğlu" dastanında isə "ustad deyir" sözü ilə başlanan cümlələr və sonda Koroğlunun dilindən söylənən şeirlər formulu əvəz edir. Hər iki dastanın sonunda söylənən şeir parçaları dastan poetikasında söyləyici tərəfindən formula əvəz kimi seçilmişdir. Buna görə də ümumiyyətlə tarixi ruhu güclü olan dastanlarda başlanğıc formullarını müəyyənləşdirmək üçün nağıl epikasında gördüyümüz başlanğıc və final formulları tipli modelləri yox, aşıq poeziyasındakı ustadnamə, cahannamə, vücudnamə, duvaqqapma kimi şeir şəkillərini də nümunə kimi götürmək lazım gəlir.

Tarixi-qəhrəmanlıq dastanlarından fərqli olaraq, məhəbbət dastanlarında formulları müəyyənləşdirərkən bir sıra hallarda nağıl formullarından da onlarda istifadə olunduğunu görə bilirik. Çünki məhəbbət dastanlarının təhkiyəsi ilə nağıl

təhkiyəsi arasında bir yaxınlıq vardır. Bu yaxınlıq da formulları müəyyənləşdirməkdə və istifadə etməkdə söyləyiciyə kömək edir. Məhəbbət dastanlarında elə formullar işlənir ki, onlara nağıllarda da rast gəlinir. Məsələn, "Qurbani" dastanından: "Az getdi, üz getdi, dərə-təpə düz getdi" (29, s.31); "Bərkitdi çarıqların dabanın, qırdı yerin dabanın, günə bir mənzil, Hacı bulağa tərəf getməyin binasın qoydu" (29, s.80); "Tahir-Zöhrə" dastanından: "Bura bir bağdı ki, deyirəm behiştin bir guşəsidi, Gülüstani-Baği-İrəmdən nişan verir. Bülbüllər cəh-cəh, güllər bəh-bəh deyir, hər kəs öz dilincə, öz məhbubu ilə razı-niyaz eləyir" (29, s.140); "Alı xan" dastanından: "Günə bir mənzil, teyyi-mənazil, çox getdilər, az getdilər, bir neçə gündən sonra gedib bir meşəyə çatdılar" (29, s.216) tipli formulları buna misal göstərmək olar. Belə misalların sayını artırmaq mümkündür.

Məhəbbət dastanlarında formulları müəyyənləşdirərkən onların bir qisminin nağıl kökənli olması üzə çıxır. Qəhrəmanlıq dastanlarından fərqli olaraq məhəbbət dastanlarında xalis ənənəvi formulların, demək olar ki, bütün növlərinə rast gəlinir. (Artıq qeyd etdiyimiz kimi, nağıllarda da belədir). Məhəbbət dastanlarının başlanğıc formullarından istifadə edən aşıq bəzən xüsusi qəliblərdən yararlanır. Məsələn, "Lətif şah" dastanının əvvəlində ustadnamədən sonra aşıq belə bir qəlibdən də istifadə edir: "Ustadlar belə nağıl eləyirlər ki, Yəmən şəhərində Dərdli şah adında bir padşah vardı" (29, s.221). Bu girişdən göründüyü kimi, formullaşma prosesi məhəbbət dastanlarında, xüsusilə başlanğıc formullarında iki mərhələdən ibarətdir. Birincisi, ustadnamə hissəsi, ikincisi, bu ustadnaməni tamamlayan "ustadlar belə nağıl eləyirlər ki..." hissəsidir. Bu cür başlanğıc ustadnamə formasından istifadə edən məhəbbət dastanlarının hamısına aiddir.

Məhəbbət dastanlarında formulların qəlibləri, demək olar ki, ustad-şagird ənənəsi ilə repertuara daxil olur. Bu qəlib-formullar xalq yaradıcılığının təsiri ilə aşıq yaradıcılığına daxil olur. Ona görə də adətən məhəbbət dastanlarındakı mətndaxili formullar və final formullar geniş formada nağıl formul yaradıcılığını təkrar edir.

Xalq yaradıcılığında formulların müsbət emosional təsiri olduğu kimi, aşıq yaradıcılığında, xüsusilə məhəbbət dastanlarında da formullar fikrin mənalı izahına, obrazın səciyyəsinin konkret ifadəsinə xidmət edir.

Xalq ədəbiyyatında formul nəzəriyyəsinin tətbiqi məsələləri haqqında şifahi xalq ədəbiyyatının janrları əsasında söz deməyə çalışdıq. O da məlum oldu ki, formul nəzəriyyəsi haqqında çoxlu janr daxilində (müqayisəvi yöndə) daha ətraflı fikir yürütmək mümkündür. Formul nəzəriyyəsinin inkişafı təkcə bir janrdan asılı deyildir. Formul epik növün folklora məxsus janrları (əlbəttə, ilk növbədə iri janrları) üzrə müəyyənləşdirilir. Xüsusilə nağıl və dastan yaradıcılığında formulların əmələ gəlmə yolları formul nəzəriyyəsi haqqında fikir yürütməyə imkan verir. Formul nəzəriyyəsinin inkişafında mif düşüncəsinin və epik yaradıcılığın rolunu xüsusi qeyd etmək lazımdır. Belə düşünmək olar ki, formul nəzəriyyəsi mif nəzəriyyəsinin modelləri əsasında boy atıb öz təsdiqini tapmışdır.

# II FƏSİL
# FORMULLARIN AZƏRBAYCAN FOLKLORUNDAKI EPİK JANRLARIN STRUKTURUNA UYĞUN FUNKSİYALARI

## Başlanğıc formulları

Gördüyümüz kimi, formullar nağıl təhkiyəsində əsasən qəlibləşmiş söz, ifadə və cümlələrdir. Bəzən bütöv cümlələr, hətta nadir hallarda şifahi mətnin müəyyən hissələri formul kimi formalaşa bilir. Formullar folklor təfəkkürünün və buna uyğun olaraq folklor janrlarının özünəməxsus səciyyələrindən təşəkkül tapır. Bunu sübut etmək üçün formulların folklor təhkiyəsinin daha çox epik növündə təzahür etdiyini göstərmək olar.

Folklorun tərkib hissələrinin mühüm elementlərindən olan formulları dil şərtiliklərinin təzahürü də saymaq olar. Məlumdur ki, dil özü bütün real və qeyri-real aləmin şərti ifadəsidir. Sözlə ifadə olunan bütün şərtilikləri bu mənada dillə əlaqələndirmək olar. Şərtiliyin özünü mahiyyət etibarilə təkrarçılıqdan, təkrar olunmadan irəli gələn hadisə hesab etmək olar. Bütünlükdə təbiətin özü də daxil olmaqla həyatımız təkrar olunmadan ibarətdir. Buna görə də əşya, hadisə, hərəkət və s. müəyyən şərtiliklərlə ifadə olunur.

**Nağıllarda başlanğıc formulları.** Nağılların müxtəlif yerlərində təkrar olunan hadisələrə, oxşar situasiya və məqamlara rast gəlmək mümkündür. Bunlar da folklor təhkiyəsində həmin hadisə, situasiya və məqamlara uyğun olaraq müəyyən standart, daşlaşmış ifadələrlə nəql olunur.

J.Coşğun türk və slavyan sehrli nağıllarında başlanğıc formullardan bəhs edən tədqiqatında yazır ki, başlanğıc – giriş formulları nağıllarda bir neçə formada ortaya çıxır: zamanla bağlı başlanğıc formulları, məkanla bağlı başlanğıc

formulları, həm zaman, həm də məkanla bağlı başlanğıc – giriş formulları və təkərləməli (ritmik söz oyunu) giriş formulları (77, s.161).

Qeyd edək ki, J.Coşğun türk və slavyan sehrli nağıllarından bəhs edən başqa bir tədqiqatında nağıllardakı mifopoetik formulları aşağıdakı şəkildə təsnif etmişdir: a) Müəyyən bir varlığın təqdimatı və təsviri ilə bağlı metaforik və hiperbolik formullar; b) Zaman və rəqəmlə bağlı formullar; c) Rəng formulları (78, s.34-37).

Elmi ədəbiyyatda da hadisə və situasiyaya uyğun olaraq formul adlandırılan ifadənin mətn boyu sintaqmatik təzahürünün 3 növü qəbul olunmuşdur:

1. Başlanğıc formulları; 2. Mətndaxili formullar; 3. Sonluq formulları.

Nağıl daxilində hər bir formulun öz semantik məzmunu və ideya-bədii xüsusiyyətləri vardır. Nağılçılar onlardan təhkiyə axarında məqamı gəldikcə istifadə edirlər. Formullar kanonik deyim, klişeləşmiş ifadə şəklində təşəkkül tapdığından nağıl söyləyiciləri onları dədə-baba sözü-məsəli kimi, bəzən də öz ustadlarının dediklərini təkrarlamaqla işlətmişlər. Söz-süz ki, nağılçının ustalığı onun bu formulları yerli-yerində işlətməsi ilə izah edilir.

Nağılçı nağılını başlanğıc formulları ilə başlayır. Belə formullar söylənən əhvalatın başında gəlir. Başlanğıc formullarının müxtəlif ifadə vasitələri vardır. Bunlar sadə cümlələr, mürəkkəb cümlələr və təkərləməli sözlərdir. Başlanğıc formulları ritmik ahəngə malik olduqlarına görə nağılçılar dinləyiciləri daha çox cəlb edirlər. Buna görə də nağılçı başlanğıc formullarından faydalanaraq sözə başlamağa üstünlük verir. Bunların da özlərinin müxtəlif ifadə vasitələri vardır. Bəziləri sadə cümlələrlə, bəziləri isə təkərləməli söz və cümlələrlə ifadə olunur.

N.Roşiyanu “Nağılların ənənəvi formulları” adlı kitabında başlanğıc formullarını iki yerə bölür: 1) zaman formulları; 2) məkan formulları (190, s.18).

Nağıl tədqiqatçısı Oruc Əliyev isə başlanğıc formullarını aşağıdakı kimi qruplaşdırıb: 1) ən sadə başlanğıc formulu; 2) hadisələrin baş verdiyi məkan və qəhrəmanı göstərən formullar; 3) mürəkkəb başlanğıc formulları (87, s.97).

Hesab edirik ki, başlanğıc formullarını quruluş və mənasına görə də təsnif etmək mümkündür (hərçənd təsnifat şərti bunlardan birinə əsaslanmağı tələb edirdi). Belə bölgülər formula yeni yanaşmalara imkan yaradır. Lakin başlanğıc formullarının “zaman” və “məkan” anlayışları ilə funksional bağlılığı vardır və həmin müstəvidə izahı daha münasibdir.

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan nağılları folklor janrları içərisində ən zəngin nəşr fonduna malik epik janrlardandır. Keçən əsrin 60-cı illərinin ortalarında nəşr olunmuş fundamental beşcildlik də nəzərə alınmaqla son dövrlərdə “Azərbaycan folkloru külliyyatı” seriyasından nəşr olunmuş nağıllar kifayət qədər geniş mətn bazası yaradır (58; 59; 60; 61; 62; 42; 43; 44; 45; 46; 47; 48; 49; 50 və s.). Bu baza o qədər zəngindir ki, tədqiqatçı İ. Rüstəmzadə onun əsasında nağıllarımızın süjet kataloqunu da hazırlamışdır (165) Bu cəhətdən həmin fond bizə burada nağıllardakı formulları, o cümlədən başlanğıc formullarının tiplərini izləməyə imkan verir.

**Zaman formulları**. Zaman formulları nağılın əsas və digər iştirakçılarını ümumiyyətlə zaman daxilində yerləşdirir, amma onların yaşama tarixini dəqiq göstərmir. Onu qeyri-müəyyən şəkildə ifadə edir. Beləliklə, formullar yaranır ki, bunlar bilavasitə konkret nağıla aid olmur. Bu tipli nağıl qəhrəmanıyla bağlı zaman anlayışı təfsilatını özündə təcəssüm etdirir.

Azərbaycan nağıllarında “Biri var idi, biri yox idi” deyimindən yaranan formullar nağıl təhkiyəsinə uyğun və ən ge-

niş yayılmış başlanğıc formullarıdır. Məsələn, "Biri var idi, biri yox idi, allahdan başqa heç kəs yox idi" (58, s.31); "Biri var idi, biri yox idi, günlərin birində bir padşah var idi" (58, s.86); "Biri varıdı, biri yoxudu, Hatəm adlı bir dövlətli varıdı" (59, s.26); "Biri varımış, biri yoxumuş, bir arvadın Haxnəzər adında qorxaq bir əri varmış" (60, s.168).

**Məkan formulları**. Hadisənin məkanını göstərən formullar hərəkətin zamanını əks etdirən formullara nisbətən məhduddur. Bu formullarda hərəkətin qeyri-müəyyən məkanda – adətən bir şəhərdə, bir padşahın ölkəsində baş verməsi haqqında danışılır. Bəzən isə əhvalatın yeri özündə toponimik adları saxlayır, coğrafi yer göstərilir. Lakin bunlarda da qeyri-müəyyənlik vardır.

"Qəndəhar padşahının Məlik Məhəmməd adında oğlu var idi" (58, s.94); "Bəndərpuş vilayətində Əhməd adında kasıb bir kişi olurdu" (58, s.232); "Biri var idi, biri yox idi, günlərin bir günündə Hindistanda bir padşah var idi" (58, s.266); "Biri var idi, biri yox idi, İsfahan vilayətində Qara vəzir deyilən böyük bir pəhləvan var idi" (58, s.308); "Günlərin bir günündə Qəndəharda bir padşah varıdı" (59, s.5); "İsfahan şəhərində bir xacə Fəttah varıdı" (59, s.208); "Biri varıdı, biri yoxudu. Yunan şəhərində bir Məmmədhəsən adında padşah varıdı" (59, s.267).

**Təkrarləməli sözlərlə başlayan başlanğıc formullar**. Azərbaycan folklorunda təkrarləməli sözlərlə başlayan nağıllar da vardır. Bu təkrarləməli sözlər həmin nağılların başlanğıc formulu kimi çıxış edir və bu xüsusiyyətinə görə nağıllardakı başlanğıc formullarının ayrıca növü kimi diqqəti cəlb edir. Təkrarləmələr həm nəzm, həm də nəsr şəklində olur, ancaq hansı formada yaranmasından asılı olmayaraq ritmik-ahəngdar ifadələr silsiləsi kimi qurulur. Nağılın bədii formasının zənginləşməsində rolu olan təkrarləmələr dinləyicini maraqlandırmaq

məqsədilə işlədilir. Zaman keçdikcə bu təkərləmələr nağılçılar tərəfindən folklor improvizasiyasına uyğun olaraq müxtəlif dəyişikliklərə uğrayır.

Aşağıdakı nümunələrə nəzər salaq.

"Qırx qönçə xanım" nağılında:

"Dedim getmə, qal,
Sən ol abdal.
Mən olum diləfkar.
Dilimdən nə dedim yarə,
Eşq odunu bəyan eylə,
Ya məni öldür, qan eylə,
Ya seyrağıbı gözdən sal" (59, s.124);

"Dərzi şagirdi Əhməd" nağılında: "Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı, milçək mindik, çay keçdik, yabaynan dovğa içdik" (59, s.215); "Məstan" nağılında: "Bəli, nağıl binasını qoyaq yavaş-yavaş, olum qapında qulnan qaravaş. Dövlətli plova şapalaq vurar, kasıb tapmaz bir kasa bozbaş" (59, s. 311); "Həsən qaranın nağılı"nda: "Həkanhəkan içində, qoz girdəkan içində, xəlbir saman içində. Dəvə dəlləklik edər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı. Milçək mindik, körpü keçdik, yabaynan dovğa içdik. Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan. İki qoz, bir girdəkan" (60, s.172); "Oxxayla Əhməd" nağılında: "Nağıl-mağıl bilmərəm, bilsəm də söyləmərəm. Şahdan gəlmiş nökərəm, dinmə, qabırğaların sökərəm" (61, s.276); "Tapdıq" nağılında: "Sizə hardan xəbər verim, az danışanlardan, qaradinməzlərdən, mırt-mırt arvadlardan, küsəyənlərdən, oğrulardan, yalançılardan, yoldaşa xain olanlardan, vəfasızlardan, əhdinə əməl etməyənlərdən, buzov minib çay keçənlərdən, yaba ilə doğa içənlərdən, xoruz belində bostan əkənlərdən, kosasaqqallardan, göygözlərdən, nə bilim nədən, nə bilim nədən. Lənət

quyruqlu yalana, rəhmət quyruqsuz düzə, bir qoz pozana, iki qoz düzənə. Rəhmət yazana, lənət pozana. Söz qalsın, insan getsin, yaxşılıq qalsın, pislik getsin. Dost var olsun, düşmən puç olsun, ağıllı yesin, ağılsız hesablasın" (60, s.3).

Gördüyümüz kimi, təkrarləmələr sintaqmatik ifadələr şəklində təşkil olunmuş mürəkkəb tərkibli silsiləvi deyimlərdir. Buna görə də gətirdiyimiz misallardakı formulları hissələrə ayırmaq mümkündür. Məsələn, "Dərzi şagirdi Əhməd" nağılındakı formulun birinci hissəsini ("Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik edər, köhnə hamam içində) "A" hərfi ilə işarə etsək, "Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı. Milçək mindik, körpü keçdik, yabaynan dovğa içdik" sözlərindən ibarət ikinci hissəni "B" hərfi ilə işarə edə bilərik. Bunlar təkrarləmə şəkilli ümumi formulvari deyimin tərkib hissələridir və elə formul mətninin özündə də qismən fərqli parçalar kimi nəzərə çarpırlar. Birincini əsas formul, ikincini isə daxili formul adlandıra bilərik. Təkrarləmələrin içində bu cür daxili formullar əsas formulun ifadə olunmasına xidmət edir. Təkrarləmələrin içində bir-birinə yaxın çoxlu daxili formul tapmaq olar.

Misallardan da aydın göründüyü kimi, N.Roşiyanunun bölgüsünü Azərbaycan nağıllarına müvəffəqiyyətlə tətbiq etmək mümkündür. Azərbaycan nağıllarının başlanğıc formullarında zaman məfhumu özünü hökmən göstərir. Yəni belə formullarda hadisənin müəyyən zaman içində baş verməsi təhkiyəçinin şüurunda yaşayır və o, başlanğıc formulu ilə nağılı başlayarkən onun müəyyən zamana tabe olmasını əsas götürür. Zaman formulu ilə bağlı olaraq başlanğıc formullarında məkan formulları da müəyyən məna kəsb edir və hər iki formul başlanğıc formulunu əmələ gətirir. Məsələn, nağıllarda çox rast gəlinən "Hamam-hamam içində, xəlbir saman içində..." ifadəsi mücərrəd məkanı göstərir və xəyali məkan təsəvvürü yaradır.

Nağıllarda zaman və məkan formulu başlanğıc formulunun içindəki zaman və məkan məfhumunu ifadə edir.

Nağılçı nağılını kosmik fəza və mifoloji məkan daxilində söyləyir. Başlanğıc formulları da konkret olaraq məkan və fəza, zaman içərisində öz izahını tapır. Məsələn, "Biri var idi, biri yox idi" formulunun birinci hissəsi ("Biri var idi") konkret zaman yox, mücərrəd zaman haqqında düşünməyə əsas verir. "Biri var idi" formulunu N.Roşiyanu mövcudluq kimi işarələyir (190, s.18). Nağılda bu mövcudluq mücərrəd zamanla birləşərək bütöv formul əmələ gətirir. Eləcə də formulun ikinci hissəsi ("biri yox idi") mövcudluğun olmaması, qəhrəmanların fəaliyyət göstərə bilməyəcəyi kimi başa düşülə bilər. Onu əlavə edə bilərik ki, bütün bunlar müəyyən məkan içərisində təzahür edir və başlanğıc formulunun əmələ gəlməsini təmin edir. Bu cür formullar sadə formullardır. Onlara yeni komponentlər əlavə olunduqda, belə formullar mürəkkəb formullar şəklini alır və bu cür formullarda zamanın əhatəsi daha da genişlənir. Bu cür əlavə olunan formullar sərbəst formul kimi başlanğıc formulunun təhkiyədə üslubi gözəlliyinə də xidmət edir. Sonrakı kəmiyyət və keyfiyyət dəyişmələri (yeni komponentlərin əlavə olunması) məzmunun genişlənməsini göstərir. N. Roşiyanu "Biri var idi, biri yox idi" qəlibindəki formulu türk nağılları (o cümlədən Azərbaycan nağılları) üçün tipik element hesab edir (190, s.20). Lakin bu o demək deyil ki, Azərbaycan nağıllarında təkcə birtipli başlanğıc formullar iştirak edir. Azərbaycan nağıllarındakı başlanğıc formullar arasında regionlara məxsus olanları da xüsusi qeyd etmək olar. Bu, nağılın toplandığı şivədən, oradakı əhalinin danışıq xüsusiyyətlərindən birbaşa asılıdır.

**Dastanlarda başlanğıc formulları.** Nağıllardan fərqli olaraq dastanlarda başlanğıc formulları mücərrəd zamana tabe deyildir. Eləcə də nağıllarda rast gəldiyimiz təkrarlamalara

dastanlarda rast gəlinmir. Bu da dastanın nağıldan fərqli üsullarla yarandığını göstərir. N.Adışirinovun da təsdiq etdiyi kimi, nağıllarda müşahidə olunan bir çox formul qruplarına dastan mətnlərində də rast gələ bilərik (14, s.69).

Hər bir janrın öz yaranma şəraiti, səbəbi, üsulu, forması var. Bütün bunların hamısı həmin janrı digərlərindən fərqləndirir. Folklor mətninin poetik təşkilinin əsas materialı olan formullar da bu səbəbdən janrlara görə fərqli olur. N.Adışirinov yazır ki, folklorda ənənəvi eposun yaşamasında tipik yerlər və ənənəvi formullar böyük əhəmiyyətə malikdir. Dastan yaradıcılığında rast gəlinən ümumi yerlər şifahi xalq yaradıcılığında xarakterik element kimi çıxış edir və digər ənənəvi elementlərlə bərabər folklor daşıyıcılarının ümumi bir xəzinəsini təşkil edir (14, s.95). Epik dastanlarda iştirak edən qəhrəmanların bioqrafiyasını, doğulmasını və fəaliyyətini təsvir edən formulların aşkara çıxarılması hər zaman tədqiqatçıları düşündürən məsələ olmuşdur (15, s. 84).

Dastan bu cəhətdən özünəməxsus janr olmaqla fərqli mətn xüsusiyyətlərinə malikdir. Mövcud qənaətə görə, “dastan bütöv bir poetik struktur kimi Azərbaycan aşıq sənətinin ən iri ədəbi hadisəsidir və terminoloji işarəsindən asılı olmayaraq, əski türk xalq ədəbiyyatına bağlanır və ondan qaynaqlanır” (115, s.3). Folklorun məna tutumuna görə irihəcmli janrlarından biri olan xalq dastanları həm tarixi baxımdan, həm də forma və məzmununa görə geniş əhatə dairəsinə malikdir. Dastan mətnlərinin əsasında mif, mifoloji düşüncə və bu düşüncənin gerçəkləşdiyi əfsanə, əsatir mətnləri durur (114, s. 4).

Folklorşünas alimlər öz tədqiqatları ilə təsdiq edirlər ki, ən epik vüsətli janrımız (əlbəttə, kosmoloji-geneologi miflər təməlində yaranmış qədim nümunələr, tarixi-qəhrəmanlıq dastanları ilk növbədə) yaddaşdır. Məsələn, belə tədqiqatların birində oxuyuruq ki, qəhrəmanlıq eposları müxtəlif ritualların,

ritual simvollarının öyrənilməsində xüsusilə "münbit" və mühüm mənbələrdir, onlar davranış ritualının spesifik xüsusiyyətlərini daha həssaslıqla qoruyub saxlayırlar (159, s.7). Araşdırmalarda tez-tez qeyd olunan bu epik formanın həmin xüsusiyyətləri buradakı formul yaradıcılığına da proyeksiya olunmuş, janrda qəlibləşmiş ifadələrin özünəməxsus təcəssümünü şərtləndirmişdir.

Tədqiqatlarda dastan adətən janr tutumluluğuna, vüsətliliyinə görə epos kimi səciyyələndirilir, bəzən bütünlükdə eposa ekvivalent forma kimi dəyərləndirilir. Şübhəsiz, dastan mahiyyətcə eposdur (janrın adındakı möhtəşəmlik anlamı da bunu təsdiq edir). Lakin, əlbəttə, dastan eposa bənzədilir, bu, uğurlu təşbehdir. Ancaq o da aydındır ki, heç bir dastanımız bütünlükdə folklorumuzdakı epos dolğunluğunu ehtiva edə bilməz.

Şübhəsizdir ki, dastan janrındakı vüsətlilik, onun bir sıra hallarda epos funksiyasını da yerinə yetirməsi epik formanın mətn quruluşuna öz təsirini göstərmişdir. Mətnin isə, dediklərimizdən də bir daha aydın olur ki, əsas məna və funksiya səviyyələrindən birini formullar təşkil edir. Dastan formullarının quruluş xüsusiyyətlərini müəyyənləşdirən digər təsirlərə gəlincə, tədqiqatçı Mahmud Allahmanlı dastanlara qəhrəman tipologiyası, bahadır və sənətkar problemi baxımından yanaşaraq haqlı olaraq göstərir ki, qəhrəmanların tipologiyası, bahadır və sənətkar problemi bu sırada bir öncüllüklə nəzərə çarpır (18, s.84). Folklorşünas Ramil Əliyevin apardığı tədqiqatlar təsdiq edir ki, dastan formullarının məzmun və düzülüşünə kontaminasiyalar da öz təsirini göstərir (89, s.39).

Dastanlarda formulların quruluş xüsusiyyətlərindən danışarkən dastan mətninin tipinin nəzərə alınması zəruriliyini artıq qeyd etmişik. Yəqin etmək olur ki, mətnin dastan təsnifatında hansı növə aid olması ondakı formulların quruluş

xüsusiyyətlərində qabarıq ifadə olunur. Azərbaycan folklorşünaslığında dastanların əsasən iki növ təsnifatı mövcuddur. M.H.Təhmasib Azərbaycan dastanlarını qəhrəmanlıq dastanları, məhəbbət dastanları və ailə-əxlaq mövzulu dastanlar olmaqla üç qrupa ayırmışdır (167, s.112). Folklorşünas Füzuli Bayat məsələyə ümumtürk kontekstində yanaşaraq türk dastanlarını arxaik və klassik deyə iki qrupda cəmləşdirmişdir. O, göstərir ki, burada arxaiklik əskilik anlamında anlaşılmamalıdır, çünki qədimlik tarixi-xronoloji anlayışdırsa, arxaiklik struktur-tipoloji anlayışdır (65, s.17). Təsnifatdakı hər bir növün əlamətləri mətndəki formulların quruluşuna, heç şübhəsiz, öz təsirini göstərmişdir.

Dastanlarda formulların quruluş xüsusiyyətlərini müəyyənləşdirən əsas amillərdən biri dastan mətninin epoxal keyfiyyətidir. Yəni dastanlarımız tarixi inkişaf mərhələlərindən keçmişlər. Tarixi inkişaf yolu dastan mətninin formalaşmasına, heç şübhəsiz, öz təsirini göstərir. Bu cəhətdən dastan formullarının özünəməxsusluğu iki cəhətlə daha çox üzə çıxır: Birincisi, dastançılıq ənənəsinin qədimliyi və özünəməxsusluğu ilə; ikincisi, dastan dilinin tarixi özünəməxsusluğu ilə.

Birinci cəhətə gəlincə qeyd etməliyik ki, dastan mətninin quruluşunu təşkil edən formullar tarixi kateqoriyadır. Bu halda dastan tarixi dastançılıq ənənəsinin keçdiyi yolun tarixi mətndəki formulların özünəməxsusluğunun əsas qaynaqlarından biridir. Bu cəhətdən Azərbaycan dastanları zəngin tarixi inkişaf yoluna malikdir.

Ümumtürk eposunun mühüm tərkib hissəsi olan Azərbaycan eposunun böyük bir epoxası "Oğuznamə" dastanı ilə təmsil olunur. Heç şübhəsiz ki, dastanlarda epik formulların quruluş xüsusiyyətlərini "Oğuznamə" dastançılıq ənənəsindən kənarda təsəvvür etmək ağla gəlmir. Çünki folklorşünas Seyfəddin Rzasoyun da yazdığı kimi, "Oğuznamə" eposu diaxro-

nik baxımdan oğuz türklərinin kosmoetnik yaddaşının paradiqmalar sistemini təşkil edir və sinxron müstəvidə "Oğuz" adı ilə işarələnmiş türk etnosunun kosmoetnik strukturunu bütövlükdə proyeksiyalandıran mədəniyyət universumu kimi mənalanır" (163, s.76).

Dastanlarda epik formulların quruluş xüsusiyyətlərindən danışarkən burada ən möhtəşəm qaynaq olan "Kitabi-Dədə Qorqud"un adını çəkməmək mümkün deyil. Bu, ən nəhəng və məşhur Oğuz abidəsidir. Dastan formullarının məna və forma cəhətdən zənginləşməsində bu dastanın xüsusi yeri və əlahiddə rolu var. Bu yer və rol ilk növbədə onunla təsdiq olunur ki, "Kitabi-Dədə Qorqud" bizim milli estetikamızın mötəbər qaynağı olaraq mənəvi və estetik dəyərlərin vəhdətini özündə əks etdirir (85, s. 8). Min üç yüz ildir ki, Qorqud xalqın qan və gen yaddaşı kimi yaşayır və özündən əvvəlki min üç yüz ilin də bədii və genetik arxetipini hər sətrində, hər sözündə yaşadır. Üstəlik, növbəti, min üç yüz il üçün də ən sabit, etibarlı, mənəvi-əxlaqi kodlar və genlər yenə bu "ana kitabın" bətnində və ruhunda qorunub saxlanır (132, s. 4).

Yuxarıdakı fikirlər təsdiq edir ki, əslində, Azərbaycan dastan formullarının məzmun, forma, quruluş xüsusiyyətləri "Dədə Qorqud" dastanından keçərək, onda özünün əsas milli keyfiyyətlərini əxz edir. Bunu tədqiqatçı Tofiq Hacıyevin belə bir fikri də təsdiqləyir ki, "Dədə Qorqud kitabı"nın süjet və quruluşunda, obrazlarının psixoloji təkamülündə, dilinin bədiiliyində həm şifahi, həm də yazılı ədəbiyyatın cizgiləri birləşir" (102, s.5). Bu cəhətdən "Kitabi-Dədə Qorqud" – ədəbiyyatşünas Kamran Əliyevin müəyyənləşdirdiyi kimi – etnopoetik qaynaqdır (86, s. 19). Həqiqətən, hər bir böyük epos kimi, "Kitabi-Dədə Qorqud" da milli tarixin başlanğıcından, oyanışından, ilk dövlətçilik quruculuğundan söz açır.

Dastanda nəsrlə nəzmin növbələşməsi dastan mətnindəki epik formulların məzmununa, formasına, işlənmə məqamına təsir edən mühüm amildir. T.Hacıyev yazır ki, "Kitab"da şeirin iki şəkildə təzahürü var: epik-təsviri şeir, intensiv şeir. Hadisələrin, əhvalatların verilməsi epik-təsviri şeirlə gedir. Psixoloji gərginlik, fəal lirizm məqamlarında ritm nizama düşür, daha sürəkli olur (102, s.29). Tədqiqatçı Kamil Hüseynoğlunun araşdırmalarından əldə etdiyimiz qənaətə görə, dastan mətninin poetik özünəməxsusluğu oğuzların yaratdıqları folklor ədəbiyyatı, "Kitabi-Dədə Qorqud" dastanı, Mahmud Kaşqarinin "Divanü lüğət-it türk" əsəri və orta əsrlərdə yazılmış "Oğuznamə" kitabları səviyyəsində özünü bir bütöv sistem kimi təsdiq edir (105, s. 20).

Azərbaycan dastanları "Oğuznamə" dastançılıq ənənəsini də öz içərisinə almaqla zəngin mətn fondu ilə təmsil olunur (151; 120; 121; 185;; 123; 124; 125; 126; 127; 128; 129; 183; 50; 51; 52; 53; 24; 25; 26; 27; 28; 29; 30; 31; 32; 33; 34 və s.). Bu fond formulların quruluş xüsusiyyətlərini də hərtərəfli öyrənməyə imkan verir. Eynilə dastan janrına həsr olunmuş zəngin elmi ədəbiyyat da mövcuddur. Biz onların yalnız bəzilərinə imkan daxilində diqqət yetirdik. Məqsədimiz dastan formullarını qeyd etdiyimiz geniş mühakimələr müstəvisinə gətirmək, bunun təfsirinə müvafiq təməl yaratmaqdır. Lakin "Dədə Qorqud kitabı"ndakı başlanğıc formullarının izahına keçməzdən əvvəl məhəbbət dastanlarında işlədilən ustadnamələr haqqında yuxarıda başqa bir mətləblə əlaqədar dediklərimizi burada tamamlamaq istərdik.

Tədqiqatlar göstərir ki, dastanda söyləyicinin təhkiyəsi bir neçə hissədən ibarətdir. Birinci hissə üç ustadnamənin ifa olunması ilə bağlıdır. Bu ustadnamələrin arasında söylənən təkrar bağlantılar (misalları yuxarıda gətirmişik), bir növ, nağıldakı "Biri var idi, biri yox idi" formulundan sonra gələn

pişrov-təkrarlamaların funksiyasını daşıyır. Ancaq nağıl yaradıcılığında belə pişrov-təkrarlamaların həm sırası böyükdür, həm də onlar çeşidlidir. Dastan yaradıcılığında isə ustadnamələri bir-birinə bağlayan təkrar bağlantılar həm azlıq təşkil edir, həm də onlar yeknəsəkdir. Onu da görmək olur ki, Azərbaycan dastanlarındakı ustadnamələrdə zaman etibarilə arxaiklik hiss olunmur, onların müəllifi məlum olduğundan konkret zamana tabedirlər. Bununla belə, dastanın əvvəlində ifa olunan şeir parçaları başlanğıc formulunun rolunu oynaya bilir. Çünki ustadnamələrdə didaktika məzmunu vardır. Nağılın da başlanğıc formulunda nəyisə izah etmək, dolayı yolla da olsa, dinləyicini tərbiyə etmək məzmunu yaşamaqdadır.

Dastan formulu kimi bir ustadnamənin bəndinə fikir verək. "Pəri və Seydi" dastanındakı həmin bənd belədir:

> "Qafil könül, bir məclisə varanda,
> Ver qadağa acı dilə, danışma.
> Hərcayı söyləmə, hərcayı demə,
> Laf eyləyib, gülə-gülə danışma" (25, s.189)

Aşıq Hüseyndən gətirilən bu ustadnamənin birinci bəndi didaktik məzmunludur və aşıq şeiri şəklində başlanğıc formulunun funksiyasını yerinə yetirir. Əgər fərz edə bilsəydik ki, bu ustadnamə neçə min il əvvəl şeir şəklində yox, yaddaşda qalan aforizm şəklində ifadə olunmuşdur, onda bu aforizm didaktik məzmunda gizli zaman məfhumu formasını ala bilərdi, formula çevrilə bilərdi. Bu isə baş verməyib, odur ki, indiki halda ustadnamə olsa-olsa dastan formulunun ancaq şəkli (forma) xüsusiyyətini daşıyır. Buna görə də belə demək olar ki, nağıllardakı kimi başlanğıc formulunun geniş şəkildə təkrar olunmasına dastanlarda rast gəlinmir. Janrın poetikası, görünür, buna imkan verməmişdir. Dastanlarda başlanğıc formulları ancaq məzmuna görə dəyişir. Ustadnamənin məzmunu onu qoşan aşığın repertuarından və istedadından asılıdır. Nağıllarda isə

başlanğıc formulunun məzmun çeşidliyi yoxdur. Dastanlarda da buna təsadüf edilməsi, indicə dediyimiz kimi, ustadnamələrdəki didaktik məzmunun nə vaxtsa zaman və məkandan asılı olmayan aforizmə çevrilməsindən asılı ola bilər. Onda bu aforizm formul kimi mətnin əvvəlində işlənəcək. Biz bu proses baxımından nağıldan yaranan dastanlar üzərində müşahidə aparsaq, bunun əksini görəcəyik. Məsələn, "Şah İsmayıl" nağılının əsasında yaranan "Şah İsmayıl" dastanında nağıl formulu kimi "Ustadlar nağıl eləyirlər ki, Qəndəhar şəhərində Ədil adlı bir padşah var idi" (28, s.205) cümləsi ustadnamədən sonra işlənsə də, nağılda ustadnamənin didaktik məzmunu aforistik təkrarləmələr şəklində olmalıdır. Bunu dastandakı "ustadlar nağıl eləyirlər ki, Qəndəhar şəhərində Ədil şah adlı bir padşah var idi. Ədil padşah o qədər varlı, dövlətli adam idi ki, dəryalar mürəkkəb olsa idi, meşələr qələm, onun dövlətini hesablamaq olmazdı" (28, s.131) cümlələrindəki "dəryalar mürəkkəb olsa idi, meşələr qələm" mübaliğə formulu da təsdiq edir.

Bütün dastanlarda ustadnamələrlə başlayan giriş hissə eyni olsa da, ustadnamə-formulun sonrakı davamı müxtəliflik təşkil edir. Bu müxtəliflik formulun ikinci hissəsinin məzmun və formaca birinci hissəni tamamlamasına şərait yaradır. "Nəcəf və Pərzad" dastanında ifaçı aşıq üç ustadnamədən sonra "Qulluğunuza kimdən xəbər verim, İsfahanlı Şıx oğlu Şah Abbasın Əziz adlı sövdayarı varıydı" keçid formulundan istifadə edir. Aşığın ifa üslubundan asılı olaraq, ustadnamələr birbaşa başlanğıc formulu kimi çıxış edir (28, s.272). Biz bunu məntiqi cəhətdən formul kimi qəbul edirik. Aydındır ki, nağıllardakı başlanğıc formullarının mətn əsası vardır. Başlanğıc formulları mətnin ümumi məzmunundan doğan məntiqi nəticədir, mətnin zaman, məkan, hərəkət, səs arxetiplərinin bir və ya bir neçə cümlə ilə ümumiləşdirilmiş, heç bir zamana və məkana daxil olmayan işarəsidir. Belə olan tərzdə nağıllardakı başlanğıc for-

mulları mətndən doğan məntiqi nəticəni əks etdirə bilir, amma bütövlükdə dastan mətnində zaman, məkan, hərəkət, rəqs, səs arxetipləri üç ustadnamə ilə ümumiləşdirilir, həm də burada zaman və məkan prinsipi qorunur. Bu zaman və məkan bizim başa düşəcəyimiz, şüurumuzdan kənarda olmayan prosesləri əks etdirir. Bəlkə də zamansızlaşma və məkansızlaşma hələ başa çatmadığından dastanlarda zaman və məkan formulları da hələ formalaşmamışdır. Axı başlanğıc formullarını da müəyyənləşdirən əsas amil zaman və məkan formullarının dastan mətnində iştirakıdır. Məhəbbət dastanlarında zaman və məkan formullarına az da olsa rast gəlinir. Məsələn, "Əmrah" dastanında "Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, axırda Osmanlı torpağına çıxdılar" (26, s.139) cümləsi zaman formulu kimi hərəkəti və zamanı qısaltmağa xidmət edir. "İrvahım" dastanında da "Bunlar burada qalsın, sizə kimdən deyək, Dağıstanda Şəmi Qaradan" (26, s.176) cümləsi keçid formulu kimi zaman məfhumunu və hərəkəti tezləşdirməyə xidmət edir.

Qəhrəmanlıq dastanlarında da zaman hərəkətin sürətindən asılı olaraq başlanğıc formulunu tipinə görə təyin edir. "Kitabi-Dədə Qorqud" dastanındakı başlanğıc formulunun hərəkət sürəti qapalı olduğuna görə, çevrənin içindəki zaman formulu konkret dövrü göstərir və tipinə görə sadə zaman formulu xüsusiyyətini daşıyır. Buradakı zaman formulu başlanğıc formulunun içindəki zaman məfhumunu ifadə edir. Məsələn, "Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından, Qorqut ata diyərlər, bir ər qopdı" (120, s.31) başlanğıc formulundakı zaman məfhumu Məhəmməd əleyhissəlam zamanını ifadə etdiyindən bu zamanlığın zaman formulunu əmələ gətirir. Məhəbbət dastanlarında başlanğıc formulunun zaman məzmunu itdiyindən orada zaman məfhumu ifadə olunmur. Ona görə də məhəbbət dastanlarında zaman formulu ancaq təsəvvür olunur. "Kitabi-Dədə Qorqud" dastanının başlanğıcındakı atalar sözlə-

rinin, hikmətli ifadələrin də vaxtı ilə mövcud olmuş mətn-boy bazaları əsasında formalaşdığını təxmin etsək, onda bunlarda da zaman məfhumunun ancaq yerinə görə təyin oluna biləcəyini söyləmək mümkündür. Məsələn, “Qadir tənri verməyincə, ər bayımaz”, “Əzəldən yazılmasa, qul başına qəza gəlməz”, “Əcəl vədə irməyincə, kimsə ölməz”, “Ölən adam dirilməz, çıxan can gerü gəlməz”, “Bir yigidin qara tağ yumrısınca malı olsa, yığar-dərər, tələb eylər, nəsibindən artuğın yeyə bilməz”, “Əski panbuq bez olmaz”, “Qarı düşmən dost olmaz” (120, s.31) kimi dastanın giriş hissəsindən gətirdiyimiz misallar hikmətli kəlamlardır. Bu hikmətli kəlamlar (sintensiya), çox guman ki, hansısa mətnin (bəlkə də mətnlərin) məntiqi sonluğu kimi dastanda başlanğıc formullarını əvəz edir.

N.Adışirinov Aleks Olrikin “Epik qanunlar nəzəriyyəsi” əsərinə əsaslanaraq yazır ki, epik mətn heç bir zaman birdənbirə başlamır, birdən-birə bitmir. Epik mətnlər, adətən, durğunluqdan coşğunluğa doğru hərəkət edir. Epik mətnlərin həcminə uyğun olaraq “başlanğıc və final” formulları da müxtəlif formalarda təzahür edə bilər. “Dədə Qorqud” mətnlərində də biz başlanğıc formullarının final formullarına nisbətən bir qədər fərqli təzahür formalarına rast gəlirik (14, s.24).

Dastan mətni başlanğıc formulunu nağıllar kimi qoruyub saxlaya bilmir (ya da yarada, formalaşdıra bilmir – belə də demək olar). Əgər nağıllarda başlanğıc formulunun bütün tərəfləri iştirak edirsə, dastanda başlanğıc formulunun zaman və məkan üzrə tam ifadə olunmasına rast gəlmirik. Nağıllarda başlanğıc formulunun həmcins üzvlərdən ibarət tərəfləri işləkdirsə də, dastanda bu, görünmür. Buna görə də dastanlardakı başlanğıc formulları natamam təsiri bağışlayır. Məsələn, “Kitabi-Dədə Qorqud” dastanında “Oğuz zəmanında Qanlı qoca derlərdi, bir gürbiz ər vardı” (120, s.85) formuluna natamam başlanğıc formulu deyə bilərik. Çünki burada nağıllar-

dakı kimi cümlənin qeyri-həmcins üzvləri ilə ifadə olunan, bəzən heç bir məna verməyən poetik hissələri yoxdur, məkan məfhumu hiss olunmur, təkcə zaman məfhumu bəllidir. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" dastanı boylarının hamısında bu cür natamam başlanğıc formullarına rast gəlinir. Məsələn, "Məgər, xanım, oğuzda Duxa qoca oğlı Dəli Domrul deyərlərdi, bir ər var idi" (120, s.79); "Oğuz zəmanında, Uşun qoca deyərlər, bir kişi vardı" (120, s.110); "Bir gün Qam Xan oğlı xan Bayındır yerindən turmışdı" (120, s.34); "Məgər, xanım, bir gün Oğuz otururkən üstinə yağı gəldi" (120, s.98) və s. Göründüyü kimi, bu cür formullarda "Oğuz zamanı" formulun ifadə olunmasının zaman şərtini, "Oğuzda" sözü isə formulun məkan şərtini göstərir. "Oğuz zamanında Qanlı qoca deyərlərdi", "Dəli Domrul deyərlərdi" hissəsi isə formulun hazır daşlaşmış qəlibidir, "deyərlərdi" sözü "rəvayət edirlər" sözünün ekvivalenti kimi diqqəti cəlb edir və formul əmələgəlmədə fəal iştirak edir.

"Kitabi-Dədə Qorqud" dastanındakı başlanğıc formullarından (elə final formullarından da) danışanda əsərin quruluşunu, onun hazırda on iki boy şəklində gəlib bizə çatmasını nəzərə almaq lazımdır. Tədqiqatlarda bəzən bu boylardan ayrıca dastanlar kimi də söz açırlar, "Dədə Qorqud dastanları" ifadəsini işlədirlər. Əsərin tükənməz gerçək-xəyali qatları, epik əzəməti hətta indi mövcud olmayan boyları da ehtimal və bərpa etməyə xeyli imkanlar verir. Ancaq "Dədə Qorqud"un vahid dastan yaxud dastanlar toplusu şəklində təşəkkül tapıb-tapa bilməməsi kimi mürəkkəb problemin istər tarixi-epik, istərsə də məna-struktur baxımından aydınlaşdırılmasının vacib məqamları hələ çoxdur. Şəksiz olan budur ki, ayrı-ayrı boyların az ya çox dərəcədə fərqli, sərbəst təşəkkülü ilə yanaşı, onların arasında quruluş əlaqəsi, məna bağlılığı da inkaredilməzdir. Bunlar Oğuz eli-qövmi haqqında, Oğuz ərənləri və adətləri

haqqında eyni tərzdə xatırlanıb-söylənən silsilə əhvalatlar-dastanlardır. Və bunların hər birinin öz başlanğıcı, davamı və sonluğu vardır. İndi biz hələlik başlanğıcdan danışırıq. Görürük ki, boyların daxili bağlılığını şərtləndirən məzmun-təhkiyə (semantik-epik) ümumiliyi başlanğıc hissələrə də proyeksiya olunmuşdur və formul təşəkkülü üçün zəruri olan məna-struktur bənzərliyini də təmin etmişdir.

Fikrimizi misallarla aydınlaşdıraq.

Əsərin altı boyu (I, II, III, IV, VII və IX boylar) Bayındır xanın və Qazan xanın səhər oyanmasının təsviri ilə başlayır. Bunlar sıravi və təsadüfi adamlar deyil ki, ən adi və müxtəlif təfsilatlardan bəhs edilsin. Xanlar xanı Bayındır xan ölkənin başçısı, Qazan xan da onun bəylərbəyisidir, dövlətin ikinci adamıdır. Onların yerindən durmasının təqdimi də, əlbəttə, sosial-siyasi statuslarına, hakimiyyətdəki ali mövqelərinə uyğun olmalıdır. "Bir gün Qamxan oğlı Bayındır yerindən turmışdı. Şami günligi yer yüzinə dikdirmişdi. Ala sarvanı gög yüzinə aşanmışdı. Bin yerdə ipəg xalicəsi döşənmişdi" (120, s.34). Hökmdarın oyanması səhnələrinin hamısında eyni mənzərə ilə qarşılaşırıq. Beləcə, hər üçündə xalis formul deyimi!

Eyni vəziyyəti Qazan xanın təqdimi və yerindən durması ilə bağlı klişelərdə də görürük. Ancaq o da diqqətdən yayınmır ki, bu təsvirlər daha təfsilatlı və daha təmtəraqlıdır. Bu da təsadüfi deyil, Qazan xanın, deyək ki, dəbdəbə aludəçisi olmasından yox, hakimiyyətdə statusu bir pillə aşağı olsa da, ölkənin idarəsində onun əslində daha fəal rol oynamasından irəli gəlir. II boyda oxuyuruq: "Bir gün Ulaş oğlı Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaracuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı-ipəg döşəmişdi. Sək-

sən yerdə badyələr qurulmışdı. Altun ayaq sürahilər düzülmüşdi. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları nigarlı məhbub kafər qizları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi" (120, s.42). Burada Qazan xanın belə ibarəli təqdimi bədii təxəyyülün məhsulu deyil, onun yüksək titullarını sadalayan formul əslində daha çox real mündəricəni, yəni gerçək Qazan xanların hakimiyyət pilləsində icraçı kimi tutmuş oiduqları üstün mövqeyi əks etdirir. Bu da Oğuzda dastanın yarandığı çağlarda mövcud olmuş ikihakimiyyətlilik sıralanmasının gerçək mahiyyətinə uyğun gəlir və bunu ifadə edir. Qazan xanla əlaqəli IV boydakı başlanğıc formulu da II boydakı formulla səsləşir. Həmçinin, hər iki qəhrəmanla bağlı başlanğıc formulları arasındakı oxşarlıq da aşkar nəzərə çarpır. Bunun da həm epik təxəyyüldən, həm də həyatdan gələn əsası vardır. Dövlət başçıları ilə bağli hər bir təfsilat, o cümlədən onların yerindən duraraq fəaliyyətə başlaması da, görünür, bir növ, ritual xarakteri daşıyır, bu haqda el arasında da müəyyən bir təsəvvür formalaşır, bunları ifadə edən formullar da həmin ritual-qənaətlər təməlində epik səciyyə kəsb edir. Beləcə, tarixi-qəhramanlıq dastanlarındakı formullar, adətən, bu iki vacib özül (epik təxəyyül və reallıq) üzərində formalaşır.

Biz "deyərlərdi" deyiminin "Dədə Qorqud" dastanında da formul yaradıcılığının mühüm elementini təşkil etdiyini yəqin etdik. Eyni hala "Koroğlu" dastanında da rast gəlirik. Ancaq onu da görürük ki, əsərin yarandığı dövrün təhkiyəsində "deyərlərdi" sözü daha asan şəkildə, aşıq yaradıcılığı üslubunda "deyir" sözü ilə əvəz olunmuşdur. Məsələn, "Ustad deyir Koroğlunu heç kəs belə ağlayan görməmişdi" (29, s.103) keçid formulunda "deyir" sözü formulyaradıcı ünsür kimi çıxış edir. "Koroğlunun qocalığı" qolunda "Ustad deyir ki, Koroğlu qocalmışdı" başlanğıc formulunda da "deyir" sö-

zü ustad zamanı ilə əlaqə yaradan ünsür kimi başlanğıc formulunu yaradır (29, s.379). Ümumiyyətlə, "deyir" sözü çox işlək komponent olduğundan bütün formulların üslubi mənalarının üzə çıxmasında rol oynayır.

"Koroğlu" "Kitabi-Dədə Qorqud"dan sonra ikinci möhtəşəm tarixi-qəhrəmanlıq dastanımızdır. Bu əsər də hissə-hissə, qol-qol qoşulmuşdur. "Azərbaycan xalqının mədəni sərvəti olan "Koroğlu" eposu aşıq yaradıcılığının dastan janrında yaradılmış dastan-qollardan ibarətdir. Müxtəlif vaxtlarda yaradılmış bu qollar müəyyən çərçivə ilə yox, iştirak edən surətlər, məkan, hadisələrin zaman ardıcıllığı və digər vasitələrlə birləşdirilib vahid bir əsər əmələ gətirir" (98, s.79). Həqiqətən bu əsərin daxili bağlılığı "Kitabi-Dədə Qorqud"a nisbətən daha çoxdur. Ancaq süjetin, hər halda, çoxlu qollara bölünməsi burada da xüsusilə başlanğıc formullarının təşəkkülü özünəməxsusluğuna təsirsiz ötüşməmişdir. Elə buna görə də "Koroğlu" dastanında da başlanğıc formulları nağıllarda gördüyümüz başlanğıc formulları deyil. Bunun səbəbi isə nağılların daha çox arxaik təhkiyəyə söykənməsidir. "Koroğlu" dastanı isə XVI əsrin tarixi hadisələrini epik şəkildə təcəssüm etdirdiyindən burada zaman şərtiliyi təhkiyənin zamanına uyğundur. Yəni dastanın girişində, qolların girişində müvafiq formullaşma prosesi hələ getməmişdir. Ona görə də bu hissələrdə zaman məfhumu şərti məzmundadır. "Kitabi-Dədə Qorqud" dastanından fərqli olaraq "Koroğlu" dastanı qapalı deyil, daim yeni-yeni qolların yaranması müşahidə olunur. Ona görə də "Koroğlu" dastanının hər hansı variantını götürsək, orada aşağıda başlanğıc formulu kimi qeyd etdiyimiz (qolun əvvəlində verildiyinə görə şərti olaraq) cümlələr əslində keçid formulu funksiyasını daşıyır və bir qolla sonrakı qol arasında əlaqə yaratmağa xidmət edir. Misallara diqqət yetirək: "İndi eşit, sənə kimdən danışım, Toqatda Hasan paşadan" (32, s.234). Şərti olaraq

qolun əvvəlində işləndiyi üçün bu cümləni başlanğıc formulu adlandırırıq. Bu cür başlanğıc formulları əslində qollar arasında əlaqə yaradan formul-vasitə kimi çıxış edir. Eləcə də "deyirlər ki" sözü ilə başlayan formullar da eyni funksiyanı yerinə yetirir. "Deyirlər ki, bu dəfə Koroğlunun yolu Naxçıvan şəhərinə düşdü" (32, s.54), "Deyirlər ki, Koroğlu belə dönüb baxanda day Aşıq Cünunda sorğu-sual olmazdı" (32, s.107) və s.

Bunlardan fərqli olaraq, "Koroğlu" dastanında şahidlik funksiyasını yerinə yetirən və "Belə rəvayət edirlər ki" ifadəsi ilə başlayan başlanğıc formulları da vardır. Bu kimi başlanğıc formullarında artıq keçid formulu məzmunu hiss olunmur, bu tipli ifadələrlə yaranan başlanğıc formulu qolun özünəməxsus xüsusiyyətlərini özündə daşımaq xassəsinə malik olur. Məsələn, "Belə rəvayət edirlər ki, Tərcəm elində Nəzər Cəlali adlı bir pəhləvan var idi" (128, s.115), "Rəvayətçilər, keçmişdən xəbər verən şirin sözlü qocalar belə nəql edirlər" (128, s.174), "Ravilər, müdrik tarixçilər belə nəql edirlər ki, ikinci Şah Abbas Koroğlunun adını, sanını eşidib onu ordusuna sərkərdə etmək istəyir, Koroğlu buna boyun qoymurdu. O deyirdi: "Şahlarda etibar olmaz, amma neyləyim ki, and içmişəm Səfəvi övladlarının üstünə qılınc çəkməyəm" (128, s.210).

Qeyd edək ki, "Koroğlu"nun Paris nüsxəsi tərcümə mətni olduğundan orada misal gətirdiyimiz bu cür başlanğıc formullarının əsl variantdan fərqlənməsi mümkündür. Çünki burada zaman və məkan formulları dolayı yolla "belə rəvayət edirlər" və "Tərcəm elində Nəzər Cəlali adlı bir pəhləvan var idi" (127, s.115) ifadə və cümləsində ifadə olunur. Əsl mətndə isə yəqin ki, başlanğıc hissənin zaman və məkan formulları mənanı aydın ifadə etməlidir. Bunu daha çox "Rəvayətçilər, keçmişdən xəbər verən şirin sözlü qocalar belə nəql edirlər" (127, s.44) başlanğıc formulunda görmək olar. Bu başlanğıc formulunda zaman və məkan işarələri tərcümə zamanı itmiş-

dir. Amma bununla bərabər, həmin cümlə başlanğıc formulunun məzmununu göstərməkdədir.

Deməli, "Koroğlu" dastanında başlanğıc formulunun iki tipi ilə qarşılaşırıq:

1. Qollar arasında əlaqə yaratmağa xidmət edən başlanğıc formulları;

2. Qolun özünəməxsus məzmununu açmağa xidmət edən başlanğıc formulları.

Birincisində qollararası əlaqəyə "sənə kimdən danışım", "sənə hardan deyim, nədən deyim" sözbirləşmələri yardım edir və qolun başlanğıc formulunun vəzifəsini yerinə yetirir. İkincisində isə "deyirlər ki", "rəvayət edirlər ki", "nəql edirlər ki, sözbirləşmələri başlanğıc formulunun tərkib hissəsi kimi çıxış edir.

Qısaca belə nəticəyə gəlmək olar ki, qəhrəmanlıq dastanlarının başlanğıc formulları şərti xarakterdə olub zaman və məkan məzmununu özündə əks etdirsə də, nağıl formulundakı kimi başlanğıc hissədəki arxaizmə xidmət etmir.

Qəhrəmanlıq dastanlarına nisbətən əfsanə və rəvayətlərdə başlanğıc formulları öz arxaizmini qoruyub saxlaya bilir.

**Əfsanə və rəvayətlərdə başlanğıc formulları.** Epik təhkiyənin bir növü olan əfsanələrin də tərkibində başlanğıc formullarının olduğunu yuxarıdakı qeydlərimizdən də gördük. Əfsanələrdə başlanğıc formulları təhkiyədən asılı olaraq dəyişir. Əfsanənin semantikasına uyğun olaraq başlanğıc formulları müxtəlif məzmuna malik olur. Adətən, dediyimiz kimi, əfsanələrdə başlanğıc formulu hadisənin səbəbinə çevrilir. Bütün bunlar əfsanə janrının spesifikası ilə bağlıdır. Bu spesifika da öz növbəsində rəvayət janrı ilə sıx əlaqələrə malikdir. Janrın tədqiqatçısı Təhmasib Fərzəliyev göstərir ki, müstəqil janr kimi araşdırılana qədər əfsanələr eposun, nağılın,

ayrı-ayrı miflərin tərkibində götürülmüş və onlara xas olan xüsusiyyətlərlə də qiymətləndirilmişdir (94, s.33).

Tədqiqatçılara görə, "Əfsanənin əsas məğzini o hekayətlər təşkil edir ki, onun əsasında duran möcüzə söyləyici, yaxud dinləyicilər tərəfindən təsdiq olunmuş, inanılmış tərzdə qəbul edilsin. Bununla da rəvayətlərdən fərqli olaraq, əfsanələr həmişə öz fantastik məzmun çalarına görə seçilir" (4, s.207). "Tarixilik baxımından əsatir əvvəl, əfsanə isə sonralar yarandığı üçün zaman keçdikcə əsatirlərin özlərinin də bir qismi əfsanəyə doğru üz tutmuşdur" (155, s.45). "Mif, əlbəttə, əfsanəyə yaxındır. Hansı cəhətləri? Hər şeydən əvvəl hər ikisinin əsasında qeyri-adi, möcüzəli bir hadisə dayanması cəhətdən bunlar yaxındırlar. Əfsanə kimi miflər də fantaziya ünsürləri ilə zəngindir" (157, s.65). "...Əfsanənin öz təbiətindən doğan xüsusiyyət, yəni konkret coğrafi əraziyə bağlılıq, hadisələrdəki reallıq və tarixilik onun həmişə müasir səslənməsinə zəmin yaratmışdır. Elə bu cəhətin özü əfsanəni ona çox yaxın olan başqa janrlardan da fərqləndirmiş və həm də qismən tarixi rəvayətlərə yaxınlaşdırmışdır" (157, s.7).

"Əfsanələr öz məzmunu baxımından miflərə ən yaxın olan folklor mətnləridir" (71, s.49). "Əfsanə öz strukturuna görə mifdən törəmədir. Mifin dairəvi inkişafı başa çatandan sonra o, öz-özünü təkrar edir, mif geriyə dövretmədə əfsanə mətninə daxil olur" (89, s.69). "Əfsanələrin əsas xüsusiyyətləri öz mifoloji xüsusiyyətlərini itirməsidir, yəni əfsanələr mif-ritual köklərindən uzaqlaşdıqca demifləşirlər" (106, s.103).

Azərbaycan əfsanəşünaslığından götürdüyümüz bu nəzəri-metodoloji səciyyəli fikirlər bizə əfsanə və rəvayət mətnlərindəki formulların quruluşu, məna xüsusiyyətləri ilə bağlı mühüm bir qənaətə gəlməyə imkan verir. Bu qənaət əfsanə və rəvayətlərin quruluşunun miflərlə sıx bağlı olmasıdır. Bu da janrlardakı epik formulları poetik quruluşun bütün cə-

hətlərində miflərlə-əski köklərlə əlaqələndirməyə imkan verir. Hətta bir qədər irəli də gedib demək olar ki, xüsusilə əfsanələrdəki epik formulları mifin quruluş vahidləri kimi götürüb təhlil etmək də mümkündür.

İndi isə deyilənlərə mətnlər əsasında nəzər salaq. Məsələn, bir əfsanədə hadisələrin baş verməsinin səbəbi Pir babanın gözəl-göyçək bir qızının olması göstərilir. Əfsanədə "Pir babanın gözəl-göyçək bir qızı var idi" (91, s.162-163) cümləsi başlanğıc formulunun rolunu oynayır. Burada başlanğıc formulu mətnin strukturuna görə təyin olunur. Bu əfsanənin mif variantında hadisənin zamanı və məkanı başlanğıc formulunu təyin etməkdə rol oynamışdır. Ancaq mif mətni unudulduğundan oradakı zaman və məkan əlaqələri pozulmuş və mətn əfsanəyə çevrilərkən başlanğıc formulu "Pir babanın gözəl-göyçək bir qızı var idi" şəklində sabitləşmişdir. Əfsanədəki daşa və ağaca dönmə motivi mif mətnində arxaik düşüncə şəklində başlanğıc formulunun zaman və məkan məzmununa tabe olmuşdur. Bildiyimiz kimi, janrəmələgəlmədə nağıl motivləri əfsanə motivlərindən sonra yarandığı üçün başlanğıc formullarının yaranmasına görə əfsanə formulları ilkin sayılır. Əgər biz nağılda başlanğıc formulunu təkmilləşmiş şəkildə bütün ölçüləri ilə birlikdə müşahidə ediriksə, bu o deməkdir ki, nağıl mətni kimi nağıl formulu da tam formalaşmışdır. Bunun əksinə olaraq, əfsanə formulu mətnin janrlaşma prosesindən asılı olaraq və oradakı zaman və məkan anlayışlarının öz ifadəsini tam tapa bilməməsi səbəbindən əfsanənin başlanğıc formulunda zaman və məkan əlaqələri qoruna bilmir. Bu səbəb mifdən törəmişdir. Əfsanə də mifə ən yaxın janr olduğundan mifin xüsusiyyətlərini özündə hələ qoruyur. Nağıllarda rast gəldiyimiz "Biri var idi, biri yox idi" formulu mif mətnindən sonra o qədər zamansızlaşmışdır ki, mifin sonunda verilən nəticənin əfsanədə məntiqi hökmə və daha sonra nağılda

qeyri-müəyyənlik bildirən hökmə çevrilməsi də bu səbəbdən baş vermişdir. Bu hökm qeyd etdiyimiz kimi, "Biri var idi, biri ox idi" və başqa şəkildə ifadə olunur. Mifdəki final formul reinkarnasiya ilə bağlıdır, yəni mifin sonunda nəticə heyvana, ağaca, quşa dönmə ilə başa çatır. Göstərilən əfsanədə də final formul kimi qızın ağaca dönməsi göstərilir. Mif mətnində isə ağacın totem olması haqda dünyagörüş olmamışdır. İbtidai dünyagörüşdə ağacın qıza dönməsi və əksinə, qızın ağaca dönməsi asan başa düşüldüyündən bu motivdən və başlanğıc və final formullarından istifadə olunur.

Əfsanələrin yaranmasında tarixi təkamül də rol oynayır. Mifdən yaranan əfsanədən fərqli olaraq rəvayətin tarixi təkamülü nəticəsində əfsanə mətni formalaşır. Bu cür əfsanələrdə başlanğıc formulu mücərrəd bir zamanda yaşayan iki gəncə işarə edir: "Qədim zamanlarda bir qız, bir oğlan olub" (91, s.164). Bu cümlə-formul "Qədim zamanlarda bir qız, bir oğlan var idi" formulunun eynidir. Zaman məfhumu bu formulda güclüdür və "Biri var idi, biri yox idi" formulunu tam əvəz edir. Yuxarıdakı əfsanədə "Pir babanın gözəl-göyçək bir qızı var idi" formulu isə "Biri var idi, biri yox idi" formulunu əvəz edə bilmir. Məntiqlə yuxarıdakı formulu "Bir Pir baba var idi, onun gözəl-göyçək bir qızı var idi" hissələrinə ayırmaq olar. "Qədim zamanlarda bir qız, bir oğlan olub" formulu isə məntiqi hissələrə bölünə bilmir, bütöv şəkildə formul rolunda çıxış edir. Bu isə o deməkdir ki, Pir baba ilə bağlı əfsanə daha qədimdir, digəri isə sonra formalaşmışdır.

Rəvayət yolu ilə əfsanəyə çevrilən digər bir mətndə qız onu izləyən kattanın əlindən xilas olmaq üçün Allahdan onu daşa döndərməyi xahiş edir (91, s.190). Bu əfsanədə başlanğıc formulu "belə rəvayət edirlər ki" ifadəsidir. Bu ifadə də "Biri var idi, biri yox idi" başlanğıc formulunu tam əvəz edir. Çünki əfsanə rəvayət olunan (biri) var olan və (biri) yox olan

hadisələr haqqındadır. Əfsanədə "(biri) var olan" iki gəncin bir-birini sevməsi, kattanın bu məhəbbətə xor baxmasıdırsa, "(biri) yox olan" hadisə də qızın daşa dönməsidir. Deməli, "biri var idi" tərkibində başlanğıcın məchul zamanı, "biri yox idi" tərkibində isə sonluğun məchul zamanı göstərilir.

"Biri var imiş, biri yox imiş" qəlibinə tam uyğun gələn digər bir əfsanədə göstərilir ki, zalım bir padşah var imiş, zülmü yerə-göyə sığmazmış (91, s.194). Burada da asanlıqla nağıl formulunu əfsanə formulunun əvvəlinə artırmaq olar. Nəzərdən keçirdiyimiz əfsanələrdə zaman məfhumu (biri var imiş, biri yox imiş) özünü göstərsə də, məkan formulu hiss olunmur. Bu da mifdən yaranan əfsanənin məkansız olduğunu göstərir. Əfsanədə məkanın olmaması başlanğıc formulundan da görünür, əfsanədə başlanğıc formullarda zaman məfhumu hiss olunsa da, məkan formulu bəzi hallarda olur. "Zalım bir atanın ağıllı-kamallı bir qızı var imiş" (91, s.191). "Keçmişlərdə Arpa çayının sahilində bir kişi varmış" (91, s.208); "Qaraçux kəndində oğulsuz-uşaqsız bir kişi yaşayırmış" (91, s.201) kimi başlanğıc formullarında zaman və məkan məfhumu rəvayət şəklində yaranan əfsanəyə daha çox xasdır.

Ümumiyyətlə, rəvayət yolu ilə yaranan əfsanələr çoxluq təşkil edir. Vaxtilə rəvayət formasında olan mətnlər özünün rəvayətə məxsus xüsusiyyətlərini itirərək əfsanə modeli kimi sabitləşir. Ancaq belə əfsanələrdə başlanğıc formulları rəvayətin başlanğıc formullarıdır. Belə əfsanə mətnlərini rəvayət mətnlərindən ayırmaq çətindir. Əsas fərq ondan ibarətdir ki, rəvayət özünün sonrakı inkişafında əfsanəyə məxsus cizgilər qəbul edir.

"Kürsəngi dağı" əfsanəsində də mətn əvvəlcə rəvayət şəklində olmuşdur. Bunu rəvayət formulu kimi mətndə işlənən "deyilənə görə" (91, s.304) formulundan da görmək olar. Bu ifadədən də görünür ki, mətni söyləyənin kimliyi namə-

lumdur. Mətn də rəvayət şəklini almışdır. Belə əfsanələrdə başqa formullar yarana bilmir.

“Bənövşə” əfsanəsində başlanğıc formulu “Bənövşə gözəl-göyçək bir qız idi” cümləsindən ibarətdir. Bu mətn də rəvayət biçimində olmuşdur. “Kürsəngi dağı” (37, s.312-313) əfsanəsindən fərqli olaraq bu mətn tam əfsanələşmişdir. Əfsanədə şahidlik funksiyası “deyirlər ki” ifadəsi ilə final formulunun məzmununda ifadə olunur.

“Qız qalası”(37, s.322-323) əfsanəsi də bir mətn tipi kimi rəvayət şəklində olmuşdur. Mətn geniş bir rəvayət formulu ilə başlayır. “Rəvayətə görə, bir zaman ərəblər atəşpərəstlərin məbədgahını dağıdıb, ocaqlarını söndürüb, onlara islam dinini qəbul etdirirlər. O vaxtlar atəşpərəstlər ərəblərin əlindən qaçıb başqa ölkələrə gedirlərmiş” (37, s.322). Və mətnin birinci hissəsi tamamilə rəvayət şəklindədir. Mətndə ikinci hissə Səməd xanın peyda olması, öz qızına aşiq olması faktı ilə başlanır, sonu qızı Sonanın qaladan yıxılması və sevgilisi Həsənin buna görə özünü öldürməsi ilə bitir. Bu mətni həm rəvayət, həm də əfsanə hesab edirlər. Bu mətnin növünü formullarına görə təyin etmək olar. Mətnin əvvəlində rəvayət formulundan istifadə olunmuşdur. İkinci hissənin başlanğıcında əfsanə formuluna bənzər, yəni “Səməd adında xan vardı” başlanğıc formulunun məzmununa yaxın olan “İllər, aylar keçir, Səməd adında xan peyda olur” cümlə tipinə rast gəlirik. Mətnin bundan sonrakı hissələri rəvayətin əfsanələşməkdə olan formasıdır. Mətnin sonundakı final formulu da süjetin sonluğudur. Əfsanələşmiş olan rəvayət mətnləri əfsanənin bütün xüsusiyyətlərini qəbul edir. Yalnız başlanğıc formulu rəvayətin başlanğıc formulu kimi işlənə bilir. “Belə rəvayət edirlər ki, bir kənddə gözəl-göyçək bir qız varmış”. Başlanğıc formulunda həm rəvayətin, həm də əfsanənin xüsusiyyətlərinə uyğun olaraq başlanğıc formulunun işləndiyini görürük. “Belə rəvayət edirlər”

rəvayətin başlanğıc formulu, “Bir kənddə gözəl-göyçək bir qız varmış” hissəsi isə “Biri varmış, biri yoxmuş” formulundan ayrılmış əfsanənin başlanğıc formuludur (37, s.190).

Rəvayətin əfsanə şəklinə düşməsini bir sıra mətnlərdə müşahidə edirik. “Məmmədzaman dağı” əfsanəsindəki: “Rəvayətə görə Məmmədzaman adlı birisinin gözəl bir qızı varmış” (90, s.182); “Şah Abbasın evlənməyi” əfsanəsindəki: “Deyirlər ki, bir öv varmış, həmişə fırranıymış, özü də övin barları tilsimlərlə yazılıymış” (90, s.207); “Bülbül əfsanəsi”ndəki: “Keçmiş zamanlarda bir ərlə arvad yaşayırmış. Günlərin bir günü ər çörək qazanmaq üçün başqa şəhərə gedəsi olur” (90, s.229); “Şirin bulaq əfsanəsi”ndəki: “Kənddə Zaman xan adlı varlı, pullu bir ağa hökmdarlıq edərdi” (90, s.229) tipli mətnlər çox əvvəllər rəvayət tipində olsa da, məzmunu əfsanəyə uyğun gələn yeni çalarlar qəbul etmiş, sehrli motivlərlə zənginləşmişdir. Əfsanəyə də xas olan əsas xüsusiyyət orada mifoloji motivlərin iştirak etməsidir. “Məmmədzaman dağı” mətnində ilanın dil açması, ilanın oğlana dönməsi motivləri keçmiş rəvayətin əfsanə şəklində formalaşmasına kömək etmişdir.

Yuxarıda qeyd etdik ki, rəvayətlər hər hansı bir şahidin hadisəni söyləməsinə əsaslanır. Bu şahidlik rəvayətlərdə xüsusi tərzdə ifadə olunan cümlələr şəklində verilir. Elə misal gətirdiyimiz rəvayətdə də “Qağam Aşıx Ələhpər nağıl eləyirdi ki” (37, s.187) başlanğıc formulunun vasitəsilə əsas hadisəyə giriş edilir. Bundan sonrakı hissədə şahidlik əsasında baş verən hadisənin məğzi söylənilir. Rəvayətdə baş verən hadisənin səbəbi ilə bağlı olaraq mifoloji inam hissi yaradılır, yəni “əjdahanın sürtündüyü ot sehrlidir, insan da ondan istifadə etsə, yaraları sağalar” (37, s.187-189) fikri təlqin olunur.

Rəvayətin başlanğıc formullarında əhvalatın başlanmasına, prosesə işarə olunur. “Bibiheybət” rəvayətində də başlanğıc formulu bu pir haqqında söylənən əhvalatın səbəbinə

işarə edir. “Deyildiyinə görə” (37, s.319) başlanğıc formulunun izah etdiyi proses İrandan iki qızın Heybət adlı bir adamın gəmisi ilə Şıx kəndinə gəlməsi ilə bağlıdır.

Yekun kimi onu demək olar ki, əfsanə və rəvayətlərdə başlanğıc formulları öz mətnlərinə uyğun olaraq işlədilir. Əfsanələrin funksiyasına uyğun olaraq onlardakı formullar nağıl formullarına yaxındır. Rəvayətin formulları isə ancaq özünəməxsus formada işlənən, xüsusi qəliblərdən ibarət ifadələrdir.

**Lətifə və qaravəllilərdə başlanğıc formulları.** Lətifələr öz quruluşuna görə başqa janrlardan çox fərqlənir. T.Fərzəliyevin yazdığı kimi, incə yumor, hikmətli kəlam, kəskin ironiya xalq lətifələrinin məzmun və bədii forma xüsusiyyətlərini şərtləndirir (95, s.241). Digər tərəfdən, lətifələr ilk növbədə gülüş mədəniyyətinin tərkib hissəsidir. Tədqiqatçı S.Abbaslı yazır ki, yumor və satiranın aparıcı istiqamətlərindən olan gülüş mədəniyyəti öncül Şərq ölkələrində, o sıradan da Azərbaycanda əsasən lətifə adı altında formalaşmış müstəqil folklor janrı kimi orta yüzilliklərdən başlayaraq geniş vüsət almışdır (8, s.9).

Gülüş mədəniyyəti lətifələrdəki epik formulları milli mədəniyyətimizin çox dərin qatları, mifik, magik kökləri ilə bağlayır. Azərbaycan xalqı ta qədimlərdən zəngin və mükəmməl gülüş mədəniyyətinə malikdir. Bunu indiyədək toplanmış və çap olunmuş lətifələr inkarolunmaz şəkildə təsdiqləyir (56; 142; 66; 23; 79; 96 və s.).

İlk olaraq qeyd edək ki, lətifələr məzmunca geniş, formaca qısa olur. Şəkli xüsusiyyətlərinə görə lətifələr rəvayətlərə yaxındır. Məzmun etibarilə rəvayətdən seçilir. Başlanğıc formullarına gəldikdə isə əvvəlki janrlarda təsadüf etdiyimiz hazır qəliblərin burada işlənməsinə rast gəlmirik. Lətifədə “başlanğıc formulu” nəqli cümlə ilə ifadə olunan cümlə tipidir. Məsələn, “Bəhlul və şagirdi” lətifəsində “başlanğıc for-

mulu" funksiyasında "Bəhlulun bir şagirdi varmış" (66, s.40) cümləsi çıxış edir. Lətifələrdə bu sayaq cümlələri şərti olaraq başlanğıc formulu sayırıq. Adını çəkdiyimiz lətifə həmin cümlə ilə başlanır. Əslində bu lətifə rəvayət formasında nəql olunmuşdur. Burada əxlaqi nəticə də verilir. Lətifənin əsas xüsusiyyəti ifşaedici gülüş yaratmasıdır. Məhz bu xüsusiyyətinə görə mətnin lətifə olub-olmadığını ayırd etmək olar. Lətifənin məzmununda rəvayət ünsürləri vardır. Lətifələrin də nə vaxtsa ilk söyləyicisi olmuşdur. Belə mətnlər daha sonralar gülüş xüsusiyyəti, çalarları qəbul edərək müasir formasına gəlib çıxmışdır.

Lətifələrin əksəriyyətində başlanğıc formullarının iştirak etməməsinin bir səbəbi də başlanğıcdakı nəqli cümlənin zaman və məkan prinsipinə tabe olmamasıdır. Belə lətifələrdəki (başlanğıcdakı) bir neçə nəqli cümləyə diqqət yetirək: "Bir padşahın beyninə düşür ki, tarix kitabı yazmaq lazımdı" (56, s.252); "Günnərin bir günü dağlıq ərazidə yamacda salınmış cığırnan dəvə karvanı yol gedirmiş" (56, s.252); "Günnərin bir günü bir kənddinin evinə qonaq gəlir" (56, s.253) və s. Lətifələrdə belə cümlələr gülüş yaratmağa xidmət edən mövzunun girişi kimi nəzəri cəlb edir.

Lətifə ilə qaravəlli məzmun fərqlərinə görə bir-birindən fərqlənir. Hər iki janrı bir-birinə yaxınlaşdıran onlardakı gülüş mənbəyidir. Tədqiqatçı Tahir Orucov yazır ki, qaravəlli mətnləri folklorun epik növünə daxil olan lətifə, nağıl, əfsanə, rəvayət, dastan və s. kimi janrlardan əsaslı şəkildə fərqlənir. O, epik və dramatik növlərin sərhəddində dayanan, təhkiyə, təsvir tərəfi ilə epik folklora, göstərmə, tamaşa tərəfi ilə isə dramatik folklora aid olan bir janrdır (153, s.3).

T. Orucov qaravəlli kompozisiyasının əsas elementlərindən birinin də ənənəvi formullar və üsullar olduğunu söyləyir. Bu cür ənənəvi formulları, əsasən, iki yerə ayırır: 1. Baş-

langıc (ekspozisiya) formulları; 2. Sonluq (final) formulları (152, s.126).

Xalqımızın zəngin qaravəlli yaradıcılığı vardır (133; 134; 135, 55 və s.). Bu nümunələr göstərir ki, qaravəllilərin başlanğıc formullarında da lətifədə olduğu kimi gülüşə zəmin hazırlanır. "Bir kisə qızıl" qaravəllisində başlanğıc formulu "Bir kişi həcə gedərkən qazıya bir küp qızıl verib deyir ki, mən gələnə kimi saxla" (55, s.236) şəklində ifadə olunur. Qaravəllinin formasından və məzmunundan asılı olaraq başlanğıc formulu da şəklini dəyişə bilir. Başlanğıc formulu "Sən bölə bilmədin" qaravəllisində: "Zeynal adında bir kişi olur" (55, s.126) şəklində, "Eşşəyim anadangəlmə quyruxsuzdu" qaravəllisində: "Bir kişinin ailə vəziyyəti çox ağır idi" (55, s.105) şəklində, "Yeddi fətir yeyən qız" qaravəllisində: "Bir qız varmış, bu qız gündə yeddi fətir para yeyərmiş" (55, s.219) şəklindədir. Belə başlanğıc formullarında bəzən zaman və məkan məzmunu birgə hiss olunur, ya da zaman məzmunu ifadə olunsa da, məkan məzmunu iştirak etmir. Başlanğıc formullarında isə həm zaman anlayışı, həm də məkan anlayışı əsas şərtdir. Bunların heç biri mətnin əvvəlində yoxdursa, orada başlanğıc formulundan danışmaq mümkün deyil.

Qaravəllilərin xüsusi bir növü də vardr. Onlar əsasən nağıl strukturunda olduğu kimi "Biri var idi, biri yox idi" və ya buna yaxın bir strukturla ifadə olunur. Belə qaravəlilərə "Cənnətsatan molla" (55, s.140), "Şirvan qazısı" (55, s.54), "Oğrubaşı qazı" (134, s.132), "Keçəllə qazı" (55, s.230), "Keçəl, molla və ögey ana"(134, s.55), "Lotu Qara və molla" (55, s.128), "Keçəl, darğa və axund" (55, s.111), "Qaftanın nağılı" (133, s.3), "Duralının nağılı"(133, s.12), "Haqalannan haqverməzin nağılı" (133, s.103), "Axmaq kişi" (134, s.113), "Kosa Əli" (134, s.117), "Yalan nağıl" (55, s.52), "Fərasətli qız" (134, s.168), "Keçəllə dəyirmançı" (134, s.157), "Qazının doğ-

ması" (55, s.43) adlı qaravəllili̇əri misal göstərmək olar. Qeyd edək ki, göstərilən qaravəllilərin bəzilərinin lətifə variantları da mövcuddur ("Qazının doğması" qaravəllisinin variantı kimi "Hacı dayının doğması" lətifəsi buna misaldır). Bu qaravəllilərdə işlənən başlanğıc formulları "Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləlik elər, köhnə hamam içində. Belə rəvayət etmişlər ki, o zamanda aynan, bu zamanda günnən, sallaxxana altında, ot yandıranın həyətində, çaqqallar ulaşanda, alabaş köpək mayallaq aşanda qəbiristan tərəfdən milçək atlandı, sərdabaya zəlzələ düşdü, içindən bir ölü çıxdı, kəfəni əlində, başladı qışqıra-qışqıra evlərinə tərəf qaçmağa..." (55, s.58), "Biri var idi, biri yox idi, bir keçəl var idi" (55, s.111), "Biri vardı, biri yoxdu, Allahdan başqa heç kim yoxdu" (55, s.52) şəkillərində ifadə olunur. Onların arasında sadə və mürəkkəb başlanğıc formullarının da olduğunu görürük. Bu cür qaravəlli başlanğıc formulları nağılın başlanğıc formullarına bənzəyir. Ancaq bu cür qaravəllilərdəki başlanğıc formulları yalnız zahiri cəhətdən nağılın başlanğıc formuluna oxşayır. Qaravəllilərin başlanğıc formulundan sonra nağılçı gülməli əhvalatı başlayır. Beləliklə, qaravəllilərdə başlanğıc formulları formaca oxşasa da, hadisəni izah etmək baxımından, yəni məzmunca nağıldan tamamilə fərqlənir. Məsələn, "Qazının doğması" qaravəllisindəki "Keçmiş zamanlarda bir qazı varmış" (55, s.43) misalında olduğu kimi.

## Mətndaxili formullar

Bu formullara bəzən "medial" yaxud "keçid" formulları da deyilir. Ancaq bu ifadələrin öz konkret mənaları vardır, bu fərqləri nəzərə almaq və onlardan məqamına görə, yəni müvafiq formul tiplərinə uyğun şəkildə istifadə etmək daha doğru olardı. Daşıdığı funksiyaya görə, əlaqə yaratmaq məzmununa uyğun olaraq onlara medial formullar adını vermişlər."Mətn-

daxili formullar" anlayışı isə ümumi ad kimi mətnin daxilində işlənən formulların hamısını əhatə edir. "Medial" sözünün mənası ortaya doğru, mərkəzə yaxın deməkdir. Haqqında danışdığımız formullara isə mətnin əvvəlindən və sonundan başqa bütün orta hissəsində rast gəlinir. (Mətnin başlanğıcına və axırına aid formullar ayrıca terminlərlə ifadə olunur). Digər tərəfdən, "mətndaxili" anlayışı formulların daşıdığı funksiyaları da dəqiq ehtiva edir. Aydın bildirilir ki, həmin formullar mətnin daxilindəki əhvalatları, süjet şaxələrini bir-birinə calayır, hadisədən-hadisəyə keçidləri də elə burada edir (halbuki, "keçid formulları" ifadəsi ilə mətnin əvvəlindən də ortasına ya da axırına, buradan da finalına addamaq mümkündür), dinləyicinin yorğunluğunu da nağıl nəqlinin arasında almağa çalışır (başlanğıcda buna ehtiyac, axırda da lüzum yoxdur). Daxili hissə həcmcə də mətnin əcac hissəsidir, yəqin həm də əsərin daxili komponentləri ilə geniş bağlılığına görədir ki, mətndaxili formulların kəmiyyət üstünlüyündən başqa, semantikası da çoxçalarlı, funksionallığı da zəngindir (xüsusilə də nağıl və dastanlarımızda).

**Nağıllarda mətndaxili formullar.** Mətndaxili formullar quruluşuna görə başqa formullardan fərqlənir. Mətndaxili formulların funksiyası nağılın hissələri arasında əlaqə yaratmaqdır. Nağılı söyləyən nağılçı nağılda bir hadisədən, situasiyadan başqasına keçərkən və ya hadisələri, əhvalatları, süjetləri bir-birinə bağlayarkən formullardan istifadə edir. Mətndaxili formullardan istifadə etməkdə əsas məqsəd təhkiyə zamanı dinləyicini yormamaq, nağılı söyləyərkən dinləyicinin diqqətini nağıla yönəltməkdir. Bundan ötrü nağılçı nağılın aralarına müxtəlif mətndaxili formulları daxil edir. Məsələn, əksər nağıllarda "Az getdi, üz getdi, dərə-təpə düz getdi" cümləsinin işləndiyini görürük. Bu tipli formulların əsas funksiyası hadisənin, hərəkətin, əhvalatın sürəkliliyini qısalt-

maqdan ibarətdir. Məsələn, "Dostluğun sirri" nağılında mətndaxili formul "Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, orada aynan, ilnən, burada şirin dilnən, bir də gördülər ki, çörəkləri qurtarıb" (37, s.237) şəklində özünü göstərir. Burada nağılçı çox təfərrüata varmamaq üçün hərəkətin, hadisənin qısa şəkildə təsvirinə meyl etmişdir.

Nağıllardakı daxili medial (təhkiyə) formullarını Azərbaycan və Türkiyə nağılları əsasında tədqiq etmiş V.İsgəndərova yazır ki, daxili medial formullara aid olan oxşar nümunələr Azərbaycanın və Türkiyənin müxtəlif bölgələrindən toplanan nağıllarda həddindən artıq çox və rəngarəngdir (110, s.84). Nağıl personajlarının hərəkətini, fəaliyyətini təsvir edən formullarda qəhrəmanın getdiyi yol əks olunur. Burada keçid formullarından fərqli olaraq gedilən yoldan deyil, qəhrəmanların məhz özünəməxsus davranış və hərəkətlərindən söhbət gedir (110, s.84).

Azərbaycan nağıllarında mətndaxili formullar semantik mənasına görə çoxmənalıdır. N.Roşiyanu medial(mətndaxili) formulları işlənmə yerinə görə iki yerə bölür: xarici medial formullar və daxili medial formullar (191, s.91). Xarici medial formullar vasitəsilə nağılçı dinləyicinin diqqətini cəlb edir. Bu cür formullar həm də nağılın hissələri arasında əlaqə yaratmağa, zamanı qısaltmağa xidmət edir. Məsələn, çox işlək "Az getdi, üz getdi, dərə-təpə düz getdi" formulu ilə nağılçı hadisənin zamanını, qəhrəmanın hərəkət zamanını qısaltmağa çalışmışdır. Buna görə də xarici medial formullar üç kiçik yarımqrupa bölünür: 1. Dinləyicinin diqqətini cəlb etmək üçün istifadə olunan formullar; 2. Dinləyicinin diqqətini yoxlamaq üçün istifadə olunan formullar; 3. Keçid formulları (190, s.92).

Fikrimizcə, bura "hadisənin zamanını, təhkiyənin zamanını və qəhrəmanın hərəkət sürəti və zamanını qısaltmağa xidmət edən formullar" bölgüsünü da əlavə etmək olar. Axırda

qeyd etdiyimiz formullar həm də dinləyicinin yorulmaması üçün istifadə olunan poetik qəliblərdir. Dördüncü yarımqrup kimi onu "dinləyicinin yorulmaması üçün istifadə olunan formullar" da adlandırmaq olar. "Dinləyicinin diqqətini cəlb etmək üçün istifadə olunan formullar"la "dinləyicinin yorulmaması üçün istifadə olunan formullar" arasında bir yaxınlıq hiss olunur. Hər ikisi dinləyicinin yorğunluğunu aradan götürmək məqsədinə xidmət edir. Ancaq birincisində dinləyicinin diqqəti başqa səbəbdən də yayına bilər. Məsələn, nağıl qorxulu təsir bağışlaya bilər, qəhrəmanın hərəkət sürəti nağılın zamanına uyğun gəlməyə bilər. Bu səbəbdən də nağılçı hərəkət sürətini nağılın zamanına uyğunlaşdırmaq üçün qısa, yaxud mürəkkəb kombinasiyalı sözbirləşməsi, ifadə və cümlələrdən medial formul yarada bilər. Bu mənada dinləyicinin diqqətini cəlb etməyə xidmət edən formullarla dinləyicinin yorulmaması üçün işlənən formullar arasında çox incə məzmun fərqləri vardır. Dinləyicinin diqqətini cəlb etmək üçün işlənən formullara aşağıdakıları misal göstərmək olar:

"Qızıl qoç" nağılında: "Çarıqları geyib dəmir əsanı əllərinə alıb, çəkib çarığın dabanını, qırıb yerin damarını, günə bir mənzil, teyyi-mənazil, nağıllarda mənzil olmaz (yəni məkansızdır – Ş.H.), qız əlində güllər solmaz, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi, dağların dabanıynan, yolların qırağıynan az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, dərə-təpə düz getdilər, iynəyarım yol getdilər" (62, s.106). "Bənidaş şəhərinin sirri" nağılında: "Ayaq üzəngidə, diz qabırğada, günə bir mənzil, teyyi-mənazil, burda aynan, günnən, orda şirin dilnən, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, gəlib çıxdı yeddi yolun ayrıcına..." (61, s.167)."Altı yoldaş" nağılında: "Bəli, baş ağrısı olmasın, bu da qoşulub altı adam yola düşdülər, günə bir mənzil, teyyi-mənazil, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər

kimi, az getdilər, üz getdilər, gedib padşahın şəhərinə çatdılar" (60, s.164-165). Göründüyü kimi, bu cür formullarda daxili qafiyələnmədən, mübaliğədən və sairdən geniş istifadə olunmuşdur. Bu ifadələr söyləyicinin yaddaşında poetik qəliblər kimi daşlaşmış şəkildə qalmaqdadır. O, bu cür təmtəraqlı ifadələrlə öz dinləyicisinin diqqətini həm nağıla cəlb edir, həm də nağıl qəhrəmanının keçdiyi yolları onun gözünün önünə gətirir. Belə bədii lövhələrlə dinləyici nağıl dünyasının yollarını fantastik şəkildə qavrayır.

Dinləyicinin diqqətini yoxlamaq üçün istifadə olunan nağıl formullarına da, az da olsa, rast gəlirik. Belə formullar da dinləyicinin diqqətini cəmləşdirməyə xidmət edir. Bunlarda hərəkət, sürət, zaman, məkan və s. amillərin rolu yoxdur. Məsələn, "Keçəl Məhəmməd" nağılında verilən formul məhz diqqəti yönəltməyə xidmət edir: "Padşah qızı görən kimi bir ox qızın iki qaşının arasından çıxıb dəydi padşahın ürəyinin başına" (62, s.116). Bu formulda əsas məqsəd dinləyici ilə söyləyici təhkiyəsi arasında, bir növ, zaman fərqliliyini aradan qaldırılmaqdır. Bəzən belə formulların əvvəlinə təsdiqedici mənada "bəli" modal sözü əlavə olunur ki, bununla da söyləyici situasiyanın necə baş verməsinə dinləyicini inandırmaq istəyir. Bu cür formulların estetik tərəfləri də vardır. Belə formullarla söyləyici gözəllik haqda olan xalq düşüncələrini bənzətmə şəklində, metaforik formada təqdim edə bilir.

Azərbaycan nağıllarında keçid məzmunlu mətndaxili formullara tez-tez rast gəlinir. Adından göründüyü kimi, keçid formulları nağılın müxtəlif hissələrini bir-birinə bağlamağa kömək edir. Görünür ki, nağıl yaradıcılığında bu hissələr ayrıca, müstəqil formada olmuş, süjetlər bir-birinə birləşərkən bu cür formulların iştirakına ehtiyac olmuşdur. Bu cür formullara ən çox sehrli nağıllarda təsadüf olunur.

Keçid formulları funksiyasına görə təhkiyədə üç cür işlənir. Birincisi, bir epizodun başa çatması zamanı və yeni epizodun başlanması zamanı keçid formuluna müraciət olunur. İkincisi, keçid formulunun vasitəsilə yeni epizodun başa çatması və bir daha əvvəlki epizoda – qəhrəmanın həyatının əvvəlki tarixçəsinin danışılmasına başlanır. Üçüncüsü, bu vasitənin köməyi ilə nağılın ümumi məzmununa uyğun əlavə bir epizodun söylənməsi üçün zəmin yaradılır (87, s.102).

Keçid formullar başlanğıc və sonluq formullara nisbətdə eyni tipli olurlar. Rumın alimi O.Birlya belə bir qənaətə gəlmişdir ki, medial formul kasıb formadır və bir tipə malikdir. O, dinləyicinin diqqətini yönəltmək funksiyasını daşıyır, onu yorulmaqdan qurtarmaq vəzifəsini icra edir (190, s.90). Bu cür formullar şeir kimi qafiyələnə bilir, poetik mənaya malik olur, nəqletməni poetik sxemə salaraq ona xüsusi ahəng verir.

Xarici medial formullarda sual intonasiyası və sual cümləsindən də istifadə olunur. Məsələn: "Bunlar burdan durub getməkdə olsunlar. Xəbəri sizə kimdən verim, padşahdan" (59, s.206); "Bunlar burda qalsın, sizə xəbər verim dovşandan" (62, s.87) səpgili formullarda intonasiyadan istifadə olunmuşdur. Bu da dinləyicinin diqqətini artırmaq məqsədilə deyilir. Sehrli nağıllar adətən çox uzun olur. Ona görə də bir süjetdən başqa süjetə keçərkən belə xarici medial formullardan istifadə olunur. Burada dinləyicinin yorulması da nəzərə alınır. Xarici medial formul birbaşa süjetlə bağlıdır. Daxili medial formul isə təyin olunmuş nağıl elementinə bağlıdır. Xarici medial formul olmasa da, nağıl korlanmaz. Ancaq daxili medial formul nağılın ənənə ilə, obraz, motiv və s. kimi xüsusi təyin olunmuş elementləri ilə bağlıdır. Əgər daxili medial formul nağılda iştirak etməzsə, bu elementlər təsir gücünə malik olmaz. N.Roşiyanu bu cür formulların 5 növünü aşkar etmişdir:

1. Daxili medial formul obrazı təyin edən element kimi;

2. Qəhrəmanın fəaliyyətini təsvir edən daxili medial formullar;

3. Dialoq zamanı yaranan daxili medial formullar;

4. Magik formullar;

5. Başlanğıc formulların məzmununu özündə saxlayan elementlər (190, s.98-125).

Mətndaxili formul kimi daxili medial formulu təyin edən obraz elementinə misal olaraq "Məstan" nağılındakı: "Nigar nə Nigar, hər saç hörüyü bir salxım qara şanı. Alnı ay kimi, zülmatlara işıq salır. Qaşları elə bil qüdrəti-İlahinin qələmiynən çəkilib. Gözləri qara, kirpikləri yayından çıxmış ox kimi, rəngi sürməyi çalır. Burnu hind fındığı. Yanaqlarına elə bil bir şüşə qan çilənmişdi, ləbləri şəkər, sinəsi mərmər kimi par-par parıldayır. İncə belli, uzun boylu, şux dayanıqlı, ceyran yerişli bir maraldı. Bəli, görək, belə bir nemət kimə qismət olar" (59, s.311); "Şükufə xanım" nağılındakı: "Belə gözəldi ki, yemə, içmə, bu qızın xətti-xalına, gül camalına tamaşa elə. Aya, günə deyir sən çıxma, mən çıxıram" (59, s.329) kimi daxili medial formulları göstərmək olar. Bunlar qəhrəmanın gözəlliyini təsvir etməkdən ötrüdür. A.N.Veselovski qadın qəhrəmanların gözəlliyinin günəşlə müqayisə olunmasını (bu sayaq bənzətmə və metaforaları) yeni yunan lirikası ilə bağlayır (180, s.192). Azərbaycan nağıllarında isə qadın gözəlliyi təkcə günəşlə deyil, Ayın gözəlliyi ilə də müqayisə olunur. Misal gətirilən formullarda qızın alnının aya, qaşlarının və kirpiklərinin yay-oxa bənzədilməsi və s. təsvirlər bədii təyin kimi, bənzətmə kimi qadının zahiri gözəlliyinə işarədir. Eləcə də rənglərin (məsələn, qızılı, gümüşü, sarı rənglərin) də bir çox hallarda daxili medial formul kimi verildiyini görürük. Saçının bir tərəfinin qızıl, bir tərəfinin gümüşə çalması, ağzından dürr tökülməsi, baxışından dürr saçılması kimi xüsusiyyətlər metafora kimi gözəlliyə işarə edir. Ümumiyyətlə, Azərbaycan folklorunun da özünəməxsus

standart epitetləri, məcaz sistemi var və bunlar epik təhkiyədə tez-tez formul funksiyasını yerinə yetirir.

Yuxarıda dediklərimizi "Qırx Qönçə xanım" (60, s.124-138) nağılında da görmək olur. Bu nağılda əhvalatların bir-birini əvəz etməsi üçün keçid formullarından istifadə olunmuşdur. Nağılda təsvir olunur ki, bir padşahın çoxlu arvadları olsa da, heç birindən övladı olmur. O, axırda naxırçı qızını alır. Naxırçı qızından iki uşağı olur. Baş hərəm uşaqları qutuya qoydurub dənizə atdırır. Sonra padşahla naxırçı qızının taleyi verilir. "Sizə xəbər verim qutudan" formulu ilə təzədən qutudakı uşaqların taleyi göstərilir. Dəyirmançı uşaqları saxlayır, onları böyüdür. Təzədən nağılçı baş hərəm haqqında məlumat vermək üçün "Bunlar burda yaşamaqda olsunlar, gəl sənə xəbər verim baş hərəmdən" deməklə başqa əhvalat danışır. Baş hərəm uşaqları necə yox eləmək barədə düşünür və müxtəlif fəndlər işlədir. Uşaqlar bütün sınaqlardan sağ-salamat çıxırlar. Nağılçı "Gəl sənə xəbər verim padşahdan" söyləməklə padşahla bağlı hadisələri göstərir. Padşah şikara çıxarkən uşaqlarla tanış olur. Baş hərəmin hiylələri baş tutmur. Hadisələr nağıllara xas xoş sonluqla qurtarır. Yuxarıda qeyd etdiyimiz "bunlar burda yaşamaqla olsunlar, gəl sənə xəbər verim baş hərəmdən", "gəl sənə xəbər verim padşahdan" formulları bir hadisə, situasiya ilə digəri arasında əlaqə yaratmağa xidmət edən daxili medial formullardır. Nağılda hər iki medial formulun funksiyası eynidir, təkcə fərq onların nağılın harasında işlənməsindədir.

Deməli, müxtəlif məkanlarda baş verən hadisələrə keçid almaq üçün bu formullardan istifadə edilmişdir. Keçid formullara daha çox sehrli nağıllarda rast gəlinir. Bu da həmin nağılların çoxmotivli və çoxsüjetli olması ilə bağlıdır. Sehrli nağıllar, məlumdur ki, ümumiyyətlə motiv və süjet çalarları ilə daha zəngin olur. Nağıl, adətən, müxtəlif mif mətnlərinin (bu xüsusiyyət sehrli nağıllarda daha çox nəzərə çarpır) təhki-

yədə ümumi ideya altında birləşməsi nəticəsində formalaşır. Nağıllar üzərindəki müşahidələrdən belə qənaətə gəlmək olar ki, arxaik mif mətnləri ümumiyyətlə nağıla və xüsusilə sehrli nağıla daxil olarkən onları bir süjet ətrafında birləşdirmək üçün keçid formullarından ən münasib vasitə kimi istifadə olunmuşdur. Bu hadisəyə epik folklor təhkiyəsinin daxili ehtiyacından doğan qanunauyğunluq kimi baxmalıyıq.

Aşağıdakı keçid formullarına diqqət edək:

"Bu söz burda qalsın, sizə xəbər verim arvaddan" (60, s.24); "Əmir zindanda qalmaqda olsun, sənə zindanbandan danışım" (60, s.46); "Bunları burda qoyaq, görək padşahın oğlu başmağı neylədi" (61, s.74); "Əhmədi ağlamaqda qoyaq, sizə kimdən xəbər verək, Şah Abbasın qızından" (58, s.223); "Gəl sənə xəbər verim kimdən, su ağacı, cüvəllağı, şeytan əməlli, küpəgirən qarının əlindən su içən tacir İlyasdan" (58, s.315). Bu keçid formullarının birinci tərəfi ("Bu söz burda qalsın", "bunları burda qoyaq", "Əhmədi ağlamaqda qoyaq", "gəl sənə xəbər verim kimdən" ifadələri) qeyd etdiyimiz mif mətnlərinin nağıl süjetlərinə daxil olması nəticəsində təhkiyənin qanunauyğunluğunun tələbi kimi mətnin müxtəlif hissələri arasında əlaqələndirici, birləşdirici funksiya daşıyır. Əgər belə ifadələr işlənməzsə, keçid formulunun formalaşması baş tutmazdı. Məhz bu cür ifadələr keçid formullarında iştirak etməklə konkret mif hadisələri, daha sonra süjetlər arasında əlaqə yaratmağa başlayır.

Daxili medial formullar bilavasitə mətnlə bağlı olan formullardır. Yəni bunlar mətnin daxilindəki hadisələrlə, süjetlərlə əlaqəlidir və mətnə təsir göstərən formullardır. Buna görə daxili medial formullar bütünlüklə mətni əhatə edə bilir və fərqli xüsusiyyətlərə malik olur. Daxili medial formulların həmin fərqləndirici cəhəti onların daha geniş təsnifatını aparmağa imkan verir. Beləcə, qəhrəmanın və digər iştirakçların ən

müxtəlif xüsusiyyətlərini özündə ehtiva edən formullar da təşəkkül tapır. Bu tipli formulları qəhrəmanın (və digər iştirakçıların) xüsusiyyətlərini müəyyənləşdirən formullar adlandırmaq olar. Məsələn:

1. Qəhrəmanın və digər iştirakçıların xüsusiyyətlərini özündə ehtiva edən formullar: "Qələm qaşlı, uzun saçlı, incəbelli, şirin dilli, ay üzlü, qara gözlü, hündür boylu pəhləvan kimi bir qız idi" (61, s.63); "Aya dedi, sən çıxma, mən çıxacam, günə dedi, sən çıxma, mən çıxacam. Yanaqlar qıpqırmızı alma kimi, dodaqları qaymaq, dişləri inci, gözü maral gözü. Nə deyim, bir baxan deyərdi bir də baxaydım" (61, s.68); "Qız nə qız, saçları qapqara şəvə kimi, alnı ay, zülmətlərə işıq salır, qaşlar elə bil qüdrəti-İlahinin qələmiynən çəkilib, gözlər şəhla, kirpiklər düz yanaxlarına düşür, burnu hindi fındığı, alma kimi yanaqları, lalə kimi dodaqları, ağ mərmərdən incə dişlər, ağ buxaqdan cücü dişlər, gəl məni gör, dərdimdən öl" (61, s.99); "Div nə div, boyu minarə, qolları çinar ağacı, buynuzları nizə kimi, yeddi başlı, hər qolunda yeddi dəyirman daşı, alt dodağı yer süpürür, üst dodağı göy süpürür, ağzı dəyirman körüyü" (61, s.239); "Qız nə qız, görən bunun camalına heyrandı, qaş qara, gözlər sürməyi, boyu sərv, burnu hind fındığı, dişləri inci, mirvari kimi, dodaqları zərif, qıpqırmızı idi" (59, s.143); "İçəri girib gördü bir oğlanı zindana salıblar ki, misli-bərabəri nə insdə, nə cinsdə, nə mələkdə var. Allahtəala bunu xoş gündə, xoş saatda xəlq edib. İşıq da bunun üzünün işığıdı ki, hər tərəfə düşüb, elə bil gündü, şəfəqini dünyaya salıb" (58, s.91). Göründüyü kimi, misallarda bu formullar nağıl qəhrəmanlarının təsvirini mübaliğəli şəkildə verir. Eyni zamanda bu formullar qəhrəmanın qeyri-adi şəkildə böyüməsini də əks etdirir. Misal olaraq aşağıdakı formulları göstərə bilərik:

“Biz eşitmişik uşaq aynan, ilnən böyüyər, amma bu uşaq günbəgün, saatbasaat boy atıb çinara dönmüşdü” (61, s.197); “Doqquz ay, doqquz gün, doqquz dəqiqə, doqquz saniyədən sonra padşahın hər arvaddan bir oğlu oldu…Xoruzlar banladı, səhərlər açıldı, çaqqallar uladı, axşamlar oldu, günlər dolandı, illər keçdi, bu oğlanlar on beş-on altı yaşlarına çatdılar” (58, s.121); “Nağılda vaxt tez başa gələr, ay dolandı, il keçdi, İbrahim gəlib on beş yaşa doldu” (60, s.191); “Necə deyərlər, orda aynan, ilnən, burda şirin dilnən, Ayğır Həsən gəlib səkkiz yaşa çatdı” (58, s.254).

2.Təbiidir ki, qəhrəmanların gördüyü işlər, etdiyi hərəkətlər də olur. Bir sıra formullarda da, təbii olaraq, qəhrəmanların (iştirakçıların) fəaliyyətinin xüsusiyyətləri təcəssüm olunur. Belə formulları da təsnifatın qəhrəmanların hərəkət, fəaliyyət tərzini əks etdirən ikinci qrupuna aid etmək olar: “Dərələrdən keçdi, təpələrdən aşdı, gəldi bir dağın ətəyindəki mağaraya çatdı” (61, s.36); “Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir dağın dibinə çatdı” (61, s.56); “Bunlar bu getməknən düz qırx gün, qırx gecə yol getdilər, çaylar keçdilər, dağlar aşdılar, axırı Hindistana çatdılar” (61, s.90); “Mənzilbəmənzil, teyyimənazil, yol getdilər. hər bir ağaclıq yol gedənnən sonra keçəl baxıb gördü ki, atlılar elə hey azalır, amma üstünü vurmadı ki, bəlkə tək qalalar” (61, s.101); “Dərələrdən sel kimi, çəməndə bülbül kimi gedib çatdılar bir çayın qırağına” (60, s. 83).

3. Bunlardan başqa nağıl iştirakçılarının danışıq tərzini özündə ümumiləşdirən, standartlaşdıran formullar da çoxdur. Belə formulları medial formulların üçüncü qrupuna aid etmək mümkündür.

Bu qrup formullara sehrli nağıllarda tez-tez təsadüf olunur: “Elə bu vaxt birdən göy guruldadı, ildırım çaxdı, ağ dumanın içindən yeddi ağ div çıxıb gəldi. Divlər evə girib dedi-

lər: - Hanı anamız, evdən adam-badam iysi gəlir, yağlı badam iysi gəlir" (61, s.272).

Eləcə də nağıllarda nağıl təhkiyəsi üçün səciyyəvi olan və tez-tez təsadüf edilən müxtəlif hadisələrlə, eyni tipli süjet şaxələri ilə daima rastlaşırıq. Belə hadisələrin də nağıl janrına müvafiq şəkildə standartlaşaraq formullar şəklində ifadə olunmasına ehtiyac yaranır. Məsələn, nağıllarda (eləcə də digər epik folklor nümunələrində) adətən qəhrəmanlar hökmdarla üz-üzə gəlirlər və hökmdarlar onlara tapşırıqlar verir, onları sınağa çəkirlər. Azərbaycan nağıllarında geniş yayılmış bu formulları IV təsnifat növünə aid etmək olar. "Keçəl Məhəmməd" nağılından: "– Hə, qoçağım, düz oxuyubsan, nar içində huridi. İndi mən görürəm bu şəhərdə səndən qoçaq adam yoxdu. Gərək bu qızı mənə gətirəsən. Gətirməsən, boynunu vurduracağam" (62, s.117); "Ovçu Pirimin nağılı"ndan: "– Mənim üç şərtim var. Əgər onları yerinə yetirsən, qızımı sənə verərəm. Yox, şərtləri yerinə yetirə bilməsən, onda səni öldürtdürəcəyəm" (61, s.62). Belə misalların sayını istənilən qədər çoxaltmaq mümkündür.

4. Nağıl qəhrəmanları müəyyən sehrli vasitələrin köməyi ilə müxtəlif sınaqlardan çıxırlar, qəhrəmanlıq edirlər. Sehrli əşyalara və vasitələrə xitab da formulvari ifadələr şəklində standartlaşmışdır: "– Üzük, səndən istəyirəm, bir az ayran aşı, acından ölürəm" (58, s.74); "– Xalça, həzrət Süleyman eşqinə bizi apar öz qızıl kərpicli evimizə" – o dəqiqə onun arzusu həyata keçir" (61, s. 96).

Bu tipli formullarda sehrli vasitələrə müraciət tərzi oxşar olduğu kimi, istəklərin dərhal həyata keçməsi yolları da bir-birinə çox bənzəyir, sanki sadəcə olaraq vəziyyətlər, təfsilatlar başqa olur, bunların doğurduğu təəssürat isə eynidir. Buna görə də nağıl qəhrəmanlarının sehrli vasitələrə müraciətləri formullaşdığı kimi, bunların icra üsulları da, bir növ,

formulvari şəkil alır. Nağıl sehri və koloriti də elə bu bənzərlikdədir. Beləcə, biz hər dəfə nağıl təhkiyəsi, nağılın təşəkkül tapması üçün formul funksiyalarının nə qədər əhəmiyyətli və zəruri olduğunu yəqin edirik.

Bu deyilənlər göstərir ki, Azərbaycan folklorunun epik janrları içində formulları ilə ən çox diqqət çəkən nağıllar olmuşdur. Biz nağılların formulları içində elələrini seçdik ki, onlara az və ya çox dərəcədə başqa epik janrlarda da təsadüf olunur. Göstərilən faktlar onu sübut edir ki, nağıllarımızdakı formul yaradıcılığı daim inkişafdadır və yeni-yeni formullar əmələ gətirmək imkanına malikdir. Bu cəhətdən də Azərbaycan nağılları dünya nağılları içərisində öz zənginliyi ilə seçilir.

**Dastanlarda mətndaxili formullar.** Azərbaycan dastanları da mətndaxili formulların iştirakına görə folklorun başqa janrlarından fərqlənir. Nağıllarda işlənən mətndaxili epik formullar, gördüyümüz kimi, həm kəmiyyət çoxluğu, həm də semantikası və mətndəki funksiyasının zənginliyi ilə seçilir. Dastan ən irihəcmli epik janrımız olduğuna görə bu genişliyi xüsusilə qəhrəmanlıq dastanlarımızda da görə bilirik. Bu dastanlarımızdakı mətndaxili formullar öz çeşidliliyi ilə maraq doğurur. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında işlənən mətndaxili formulları öygül, vuruş, nəsihətamiz deyim, qələbə, dua, alqış, qarğış, adqoyma, tərif, təbiətə münasibət, yol, yoladüşmə, hədiyyə vermə, məğlub olma, məişət, toy, yas, mövsüm, geyim, silah və s. adlarla ümumiləşdirib qeyd etmək olar. Həmin formulları semantik prinsip üzrə qruplaşdırmaq istəsək, belə bir bölgü ala bilərik:

I. Ritual formulları (toy - Oğuz bəylərinin rəsmi toplantısı, toy - şənlik mərasimi, yas, hədiyyə vermə, ov və s.);

II. Döyüş, müharibə formulları (döyüş geyim-silahı, döyüşə yola düşmə, vuruşma, qələbə və s.);

III. Kütləvi səhnə formulları;

IV. Hiss, münasibət ifadə edən formullar (tərif, xeyir-dua, qarğış);

V. Məişət formulları;

VI. Təbiətə (heyvan və bitkilərə) münasibət formulları;

VII. Yol formulları;

VIII. Adqoyma formulları;

IX. Hikmətli kəlamlar (sentensiyalar).

Yuxarıda qeyd etdiyimiz kimi, "Kitabi-Dədə Qorqud" dastanında mətnin hissələri arasında əlaqə yaradan, mətnin uzunluğunu qısaldan və s. mənaları ifadə edən mətndaxili formullara az rast gəlinir. Məsələn, "At ayağı külük, ozan dili çevik olur" (120, s.36); "İyəgülü ulalur, qapırğalı böyür" (120, s.36) kimi mətndaxili formullar hadisələrarası zamanı qısaltmaq üçün dastançı tərəfindən seçilmiş hikmətli sözdür. Bu formula "Kitabi-Dədə Qorqud" dastanında çox rast gəlirik. N.Adışirinov yazır ki, "Dədə Qorqud" mətnlərində eyni söz qəliblərinin tez-tez təkrarlandığının şahidi oluruq. Məsələn, dastan boyu "at ayağı kəlik, ozan dili külük olar" qəlibi təkrarlanaraq xüsusi formul tipi formalaşdırır və eyni zamanda ifa əsnasında ozanın hadisələrin zamanını irəli sıçratmaq məqsədi ilə işlətdiyi formul tipi kimi təkrarlandığı görülməkdədir (17, s.142).

"Kitabi-Dədə Qorqud" dastanında işlənən ritual, döyüş, müharibə, kütləvi səhnə, məişət, təbiətə münasibət və s. Formullar nağıllarda rast gəldiyimiz ənənəvi mətndaxili formulları bəzən əvəz edə, nağıl səviyyəsindəki xalis formul mahiyyətini büruzə verə bilmir. Formula xas olan ifadə qəlibliyini də bir çox hallarda onlarda müşahidə edə bilmirik. Lakin bu ifadələrdə formula uyğun semantik və funksional səciyyə şübhə doğurmur. Bütün bunlara görə "Kitabi-Dədə Qorqud" dastanındakı həmin formulları semantik-funksional cəhətdən bədii formul hesab edib qruplaşdırmağı düzgün hesab etmişik.

Onlar da mətndaxili formullar kimi dastanın boylarını təşkil edən mətnin içərisində işlənir.

**I. Ritual formulları** (bu təsnifatdakı misallar əsərin 1988-ci il nəşrindən (120) gətirildiyindən mətnin bu hissəsində ancaq səhifələrin yeri qeyd olunur):

1. Toy (Oğuz bəylərinin rəsmi toplantısı). "Xanlar xanı Bayındır yildə bir kərə toy edib, Oğuz bəglərin qonaqlardı. Yenə toy edib, atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdırmışdı" (s.34).

2. Yas. "Beyrəgin babası qaba sarıq götürüb yerə çaldı. Tartdı, yaqasın yırtdı. "Oğul! Oğul!" deyübən yügirdi, zarlıq qıldı. Ağ birçəklü anası bıldır-bıldır ağladı, gözinin yaşın dökdi, acı tırnaq ağ yüzinə aldı-çaldı. Al yanağın tartdı, qarğu kibi qara saçını yoldı. Ağlayıbanı-sıqlayıbanı evinə gəldi" (s.57); "Vardılar, kömləgi Banıçiçəgə ilətdilər. Gördi, tanıdı. "Oldur!" - dedi. Tartdı, yaqasın yırtdı. Acı tırnaq ağ yüzinə aldı-çaldı. Güz alması kibi al yanağınI yırtdı. "Vay, göz açıb gördigim, könül verib sevdigim! Vay, al duvağım iyəsi! Vay, al duvağım iyəsi! Vay, alnum-başım umudı, xan Beyrək! – deyü ağladı" (s.58); "Beyrəyin babasına-anasına xəbər oldı. Ağ evi-eşigində şivən qopdı. Qaza bənzər qız-gəlini ağ çıqardı, qara geydi. Ağ-boz atının quyruğını kəsdilər. Qırq-əlli yigit qara geyüb-gög sarındılar" (s.125).

3. Toy (şənlik mərasimi). "Babası oğlancuğın gördi, allaha şükrlər eylədi. Oğlilə, gəlinlə Qanlı qoca Oğuza girdi. Gög ala görklü çəmənə çadır dikdi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. Dügün etdi" (s.92); "Baybörə bəgin oğlancuğı Beybək Baybigan bəgin qızın aldı. Ağ-ban evinə, ağ otağına gerü döndi. Dügünə başladı. Bu qırq yigidin bir qaçına xan Qazan, bir qaçına Bayındır xan qızlar verdilər. Beyrək dəxi yedi qız qarındaşını yedi yigidə verdi. Qırq yerdə

otaq dikdi. Otuz doqquz qız "tale"lü taleinə birər ox atdı. Otuz toquz yigit oxının ardınca getdi. Qırx gün-qırx gecə toy-dügün eylədilər" (s.67).

4. Hədiyyə vermə. "İç Oğuz, Taş Oğuz bəgləri yığnaq olmışdı. Toquz tümən Gürcüstanın xəracı gəldi. Bir at, bir qılıc, bir çomaq gətürdilər" (s.104); "Bir gün Ulaş oğlı Qazan bəg yerindən turmışdı...Toquz qara gözli, örmə saçlı, əlləri biləgindən qınalı, parmaqları nigarlı, boğazları birər qarış kafər qızları al şərabı altun ayağla Qalın Oğuz bəklərinə gəzdirirlərdi. Hər birindən Ulaş oğlı Salur Qazan içmüşdi. Çırğab-çırğab çadır otaq bağışlardı. Qatar-qatar dəvələr bağışlardı" (s.68).

5. Ov. "Qonur atın çəkdirdi, bütün bindi. Üç yüz mürəssə tonlu yigit soyladı, boyına aldı. Qırq ala gözlü yigidi Uruz boyına aldı. Qazan oğlını alub qara tağlar üzərinə ava çıqdı. Av avladı, quş quşladı" (s.69); "Alar sabah Dərsə xan yerindən uru turdı. Oğlancuğın yanına alub, qırq yigidin boyına saldı, ava çıqdı…" (s.37).

**II. Döyüş, müharibə formulları:**

*1. Döyüş geyim-silahı.* "Qara polat uz qılıcın belinə quşandı. Ağ tozlıca qatı yayını əlinə aldı. Altun cudasın əlinə aldı. Bədəbi atın tutdı durdı, bütün bindi" (s.40); "Çobanın üçyaşar tana dərisindən sapanının ayacıydı, üç keçi tüyindən sapanının qollarıydı. Bir keçi tüyindən çatlağucıydı" (s.48).

*2. Döyüşə yola düşmə.* "Atasının-anasının əllərin öpdi. Qırq yigidin yanına bıraqdı. Yedi gün yedi gecə yortdılar. Kafərin sərhədinə irdilər" (s.87); "Qazlıq qoca iş görmüş, iş yarar adam idi. Yarar qocaların yanına cəm elədi. Yadığı-yarağılə yola girdi. Çoq tağlar, dərə-dəpə keçdi. Günlərdə bir gün Düzmürd qələsinə gəldi. Qara dəniz kənarında idi" (s.94).

*3.Vuruşma.* "Bitəkəllüf kafərlər at dəpdilər, ox səpdilər. Ərənlər əvrəni Qaraçuq çoban sapanın ayasına taş qodı, atdı.

Birin atanda ikisin-üçin yıqdı. Kafərlərin gözünə qorxu düşdi" (s.43); "Qazılıq qoca qələyə yetdügiləyin cəngə başladı. Pəs ol təkur qələdən taşra çıqdı. Meydana girdi, ər dilədi. Qazılıq qoca anı gördüginləyin yel kibi yetdi, yeləm kibi yapışdı. Kafərin ənsəsinə bir qılıc urdı. Zərrə qədər kəsdirəmədi. Növbət kafərə dəgdi. Ol altmış batman gürzlə Qazlıq qocaya dəpərə tutıb çaldı. Yalan dünya başına tar oldı" (s.94); "Qaraqucın oynaddı Uruz, kafərin sağına at dəpdi, sağlı-sollı kafəri xub tağıtdı. Sanasan kim, tar yolda tolu düşdi. Ya qara qazın içinə şahin girdi. Kafərin ucını basdı, tağıtdı. Azğun dinlü kafər bunaldı, oxa girdi. Qoulan kimsə oğlanın bədəvi atın oxlatdılar. At yıxıldı, kafərlər Uruzun üzərinə çouxdı. Uruzun qırq yigidi atdan endi. Hə qalqan bağına qısa dügdilər. Qılıc sıyırdılar. Uruzun üzərinə çoq savaşdılar" (s.71); "Kafər təkur aydır: "Qatlan, mərə qavat oğlı, mən sana varayım!" - dedi. Altı pərlü gürzini ələ aldı, oğlanun üzərinə sürdi. Oğlan qalqanını gürzə qarşı tutdı. Yuqarıdan aşağa kafər oğlanı qatı urdı. Qalqanını ovatdı, tuğulqasını yoğurdı, qapaqların sıyırdı, oğlanı alımadı. Gürzlə dögişdilər, qara polad üz qılıc ilə tartışdılar, sərpə-sərpə meydanda qılıclaşdılar, ciginləri toğrandı, qılıcları ovandı, bir-birin alımadı. Qarğu talı sügülər ilə qırışdılar, meydanda buğa kibi susişdilər, köksləri dəlindi, sügüləri sındı, bir-birin alımadılar. At üzərindən ikisi qarvaşdılar, tartışdılar" (s.108-109); "Oğlan qırq yigidin boyına aldı, at dəpdi, cəng və cavaş etdi. Kiminün boynun urdı, kimini tutsaq elədi. Babasını qurtardı, qayıtdı, geri döndi" (s.41); "Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer gözətdi. Ol gün bir qiyamət savaş oldı, meydan tolu baş oldı; başlar kəsildi top kibi. Şahbaz-şahbaz atlar yügürdi, nail düşdi. Ala-ala köndərlər süsəldi. Qara polat uz qılıclar çalındı, yılmaği düşdi. Ala-ala köndərlər süsəldi. Qara polat uz qılıc-

lar çalındı, yılmaği düşdi. Üç yeləkli qayın oqlar atıldı, dəmrəni düşdi. Qiyamətin bir güni ol gün oldı" (s.50).

*4. Qələbə.* "Qazan bəg ordusını, oğlanını-uşağını, xəzinəsini aldı, gerü döndi altun təxtində. Yenə evimi dikdi. Qaracıq çobanı əmiraxur elədi. Yeddi gün, yeddi gecə yemə-içmə oldı" (s.50); "Kafərin kəlisasın yıqdılar, yerinə məscid yapdılar, keşişlərdən öldürdilər. Ban banlatdılar. Əziz tənri adına qüdbə oqıtdılar. Quşun ala qatını, qumaşın arusını, qızın gökçəgini toquzlama çırğab çuxa xanlar xanı Bayındıra pəncyek çıqardılar" (s.67); "Həman dəm at saldı. Yel kibi yetdi, yeləm kibi yapışdı. Kafərin çigninə bir qılıc urdı. Geymini-kecmini toğradı. Altı parmaq dərinligi zəxm irişdirdi. Qara qanı şorladı. Qara sığırı soqmanı tolu qan oldı. Qara başı bunaldı, bunlu oldı. Həman döndi, qələyə qaçdı. Yegnək ardından yetdi. Hasar qapusına girmişkən qara polat uz qılıca əncəcinə eylə çaldı kim, başı top kibi yerə düşdi" (96); "On altı yigit sıçrayub atdan endilər. Qalqan yapındılar. Gürzlərini umuzlarına urdılar. Qapuya gəldilər; birər gürz urub qapuyı ovatdılar, içərü girdilər. Buldıqları kafəri qırdılar. Dil çıqartmadılar. Malını yaqmaladılar" (s.120).

**III. Kütləvi səhnə formulları:**

"Sayılmaqla oğuz bəyləri tükənməz. Hamı yetişdi" (s.148); "Sayılmağla Oğuz ərənləri dükənsə olmaz. Bayındır xan yigirmi dört bəhadır sancaq bəgini Yegnəgə yoldaşlığa belə qoşdı" (s.95); "Üç oq, boz oq yığnaq olsa, Qazan evin yağmaladardı" (s.123).

**IV. Hiss, nünasibət ifadə edən formullar:**

*1.Tərif:* "Dirsə xan evinə gəldi. Çağırıb xatununa soylar, görəlim, xanım, nə soylar:

Bərü gəlgil, başım bəxti, evüm təxti!
Evdən çıqub yüriyəndə səlvi boylum!
Topuğında sarmaşanda qara saçlum!

Qurulu yaya bənzər çatma qaşlum!
Qoşa badam sığmayan tar ağızlum!
Güz almasına bənzər al yanaqlum!" (s.35)

"Bəri gəlgil, Salur bəgi, Salur görgi!
Başım bəxti, evim təxti!
Xan babamın göygüsi,
Qadın anamın sevgisi,
Atam-anam verdügi,
Göz açuban gördügim,
Könül verib sevdügim,
Bəg yigidim, Qazan!" (s.72);

"Yalab-yalab yalabıyan incə tonlum!
Yer basmayıb yüriyən,
Qar üzərinə qan tammış
kibi qızıl yanaqlım!
Qoşa badam dar ağızlum!
Qələmçilər çaldığı qara qaşlım!
Qurması qırq tutam qara saçlım!" (s.93).

"Dədə Qorqud oğlanın babasına soylamış, görəlim, xanım, nə soylamış.

Hey Dirsə xan! Oğlana bəglik vergil,
Təxt vergil, - ərdəmlidir!
Boynı uzun bədəvi at vergil,
Binər olsun, hünərlidir!" (36).

*2. Xeyir-dua.* "Dədəm Qorqud gəldi, şadlıq çaldı. Boy boyladı, soy soyladı. Qazı ərənlər başına nə gəldüygin söylədi. "Bu Oğuznamə Beyrəgin olsun!" – dedi. Yum verəyim, xanım:

Qara tağların yıqılmasun!
Kölgəlicə qaba ağacın kəsilməsin!
Ağ birçəkli anan yeri behişt olsun!

Oğulla qarındaşdan ayırmasun!” (s.67);

“Dədəm Qorqud gəlübən şadlıq çaldı. Ğazi ərənlər başına nə gəldigin aydı verdi. Həm Basata alqış verdi:

Qara tağa yetdügində aşıt versün!
Qanlu-qanlu sulardan keçit versün! – dedi” (s.103);

“Dədəm Qorqud gəlübən şadlıq çaldı. Bu oğuznaməyi düzdi-qoşdı, “Bəkil oğli Əmranın olsun!” - dedi. Qazilər başına nə gəldüygin söylədi:

Yum verəyin, xanım!
Yerlü qara tağların yıqılmasun!” (s.109);

*3. Qarğış.*

“Qara başım qarışı tutsun, Qazan, səni!
Bir bəgim görünməz, bağrım yanar,
Neylədin, degil mana!
Deməz olsan, yana-göynə qarğaram, Qazan, sana!” (73);

“Çoban böylə digəc Qazan ah etdi, əqli başından getdi. Dünya-aləm gözünə qarannu oldı. Aydır: “Ağzın qurısun, çoban! [Dilün] çürisün, çoban! Qadir sənin alnuna qada yazsın, çoban” - dedi (s.45); “Dəli bəg dilədi ki, Dədəyi dəpərə çala. Dədə Qorqud ayıtdı: “Çalırsan, əlün qurısun!” - dedi (s.56).

**V. Məişət formulları:**

“Bunın üzərinə bir kaç zəman keçdi. Allah-təala Baybörə bəgə bir oğul, Baybican bəgə bir qız verdi. Qalın Oğuz bəgləri bunu eşitdilər, şad olub sevindilər” (s 52);

“Alan sabah yerindən turan qızlar!
Ağ otağı qoyuban qara otağa girən qızlar!
Ağ çıqarıb qara giyən qızlar!
Bağır kimi ögnəndə yoğurtdan nə var?
Qara saqac altında kömədgdən nə var?
    Ətməkdən nə var?
Üç gündür yoldan gəldim,
    toyurın məni,

Üç günə varmasun, allah sevindirsün sizi!" (s.62)

**VI. Təbiətə (heyvan və bitkilərə) münasibət formulları:**

"Kafərlər Uruzı alrub qənarə dibinə gətürdilər. Uruz aydır: "Mərə kafər, aman! Tənrinin birliginə yoqdur güman! Qoun məni bu ağacla söyləşəyim", - dedi. Çağırıb ağaca, görəlim, xanım, nə soylamiş.

"Ağac!", "Ağac!" dersəm sana, ərinmə, ağac!

Məkkə ilə Mədinənin qapusı, ağac!

Museyi-Kəlimin əsası ağac!" (s.47-48);

"Məgər, xanım, Bayındır xanın bir buğası vardı, bir daxi buğrası vardı. Ol buğa qatı taşa buynız ursa, un kibi ügidərdi" (s.36); "Qazanın öginə bir su gəldi. Qazan aydır: "Su həq didarın görmişdir. Bən bu suyla xəbərləşim" – dedi… Sudan keçdi, bu gəz bir qurda tuş oldı."Qurd yüzi mübarəkdir, qurdlən xəbərləşəyim", - dedi" (s.44-45) **"**Qanturalı baqdı gördi bu qonduğı yerdə quğı quşları, turnalar, turaclar, kəkliklər uçarlar. Souq-souq sular, çayırlar-çəmənlər… Selcan xatun bu yeri görklü gördi, bəgəndi" (s.90).

**VII. Yol formulları:**

"Yedi gün yedi gecə yortdı. Oğuzun sərhədinə çıqdı" (s. 90); "Bəzirganlar yaraq gördilər. Gecə-gündüz deməyüb yürüdilər. Nagah Parasarın Bayburt hasarına gəldilər" (s.58).

**VIII. Adqoyma formulları:**

"Dədəm Qorqud gəldi. Aydır: Oğlanım, sən insansan. Heyvanla müsahib olmağıl! Gəl yaxşı at bin. Yaxşı yigitlər ilə eş yort! – dedi. – Ulu qardaşın adı Qıyan oğlu Selcikdir. Sənin adın Basat olsun! Adını mən verdim, yaşını Allah versün! – dedi" (98); "...Qalın Oğuz bəglərini çağırdı, qonaqladı… Dədəm Qorqud gəldi, oğlana ad qodı. Aydır: «Sözümü dinlə, Baybörə bəg! Allah-təala sana bir oğul vermiş, tuta versün! Ağır sancaq götürəndə müsəlmanlar arxası olsun! Qarşu yatan

qara qarlı tağlardan aşar olsa, allah-təala sənin oğlına aşut versün" (s.54).

**IX. Hikmətamiz kəlamlar (sentensiya):**

"At ayağı külük, ozan dili çevik olur" (s.39); "Qarı düşmən dost olmaz.

...Ər, malına qıymayınca adı çıqmaz. Qız, anadan görməyincə ögit almaz" (s.31).

Gördüyümüz kimi, bu tipli misalları əslində tərəddüd etmədən "Kitabi-Dədə Qorqud" dastanının mətndaxili formulları kimi səciyyələndirmək olar. Doğrudur, deyək ki, nağıllardan fərqli olaraq dastandan mətndaxili formullar kimi gətirdiyimiz nümunələrin əksəriyyətinin qəhrəmanın vəziyyəti, təhkiyənin forması və sitasiya ilə bağlı olduğunu, yəni hələ ortaq yerlərə çevrilə bilmədiyini görürük və bu da, əlbəttə, onların keçid formulu kimi tam müəyyənləşə bilməməsinə səbəb olmuşdur. Yəqin ki, bunu dastanın nağıla nisbətən başqa (daha epik-"tarixi" vüsətli, daha şoxsüjetli, çoxçalarlı) təhkiyə tipi olması və buna görə burada təhkiyənin nağılda olduğu dərəcədə ümumiləşə bilməməsi ilə də izah etmək olar. Ancaq başqa ciddi səbəb də var. Məsələn, yəqin edirik ki, nağıl təhkiyəsində "az getdi, çox getdi, dərə-təpə düz getdi..." formulu ümumiləşmiş şəkildə ifadə olunur, yəni bunu müvafiq başqa bir formulla rahatca əvəz etmək mümkündür. Halbuki, "Kitabi-Dədə Qorqud"un isə istər nəsr hissəsi, istərsə də nəzm hissəsi təxminən XI əsrdə necə ifadə olunubsa, indi də elədir, təhkiyənin şəkli xüsusiyyətləri dəyişməmiş qalmışdır, hətta əsər sərbəst variantlaşa bilməmişdir. Sözsüz ki, bu xüsusiyyət nağılda olduğu səviyyədə mətndaxili formulların yarana və formalaşa bilməməsinə səbəb olmuşdur. Doğrudur, bu hal ancaq "Dədə Qorqud" kimi xüsusi qəhrəmanlıq dastanlarına aiddir. Ancaq bu halın meydana çıxmasında bizim bu qədim və ulu eposumuzun erkən kitablaşmasının da, aydındır ki, təsiri az olmamışdır. Əlimizdə əsərin ilkin variant nümunələri var və biz şifahi yaddaşda hansısa mətnin mövcud olub-olmamasından asılı olmayaraq

eposun mətnini həmin yazılı nümunələr əsasında müəyyənləşdiririk. Folklor abidəsi kitablaşandan sonrakı dövrdə folklora xas təbii həyat yaşamamışdır. Variantlaşma olmayan yerdə isə həqiqi formullaşma prosesi də çox zəif baş verir. Təsadüfi deyil ki, "Koroğlu" və məhəbbət dastanlarında formulların "Kitabi-Dədə Qorqud"dakı xüsusiləşmə halına rast gəlinmir. Bu da onu təsdiq edir ki, formul yaradıcılığı ümumiyyətlə dastan təfəkkürü və təhkiyəsi üçün yad deyil. Deməli, söhbət dastan janrındakı formul özünəməxsusluğundan gedə bilər.

Bütün bu deyilənlərlə yanaşı, onu da əlavə etmək lazımdır ki, dastan mətni onun ümumiyyətlə formullaşma prosesinə yad olmadığını, hətta burada onun üçün bütün ilkin münbit şəraitin olduğunu göstərir. Əsərdə kifayət qədər təkrar olunan situasiyalar, motivlər var və bunların ifadə tərzində də oxşar cəhətlər, hətta eynilə, yaxud variantlar şəklində təkrar olunan parçalar az deyil. Gətirilən misallardan da bunu yəqin etmək olur.

Təsadüfi deyil ki, çox erkən yazıya alınıb kitablaşsa da, əsl ağız ədəbiyyatı və şifahi yaddaş hadisəsi olan formul yaradıcılığı baxımından Dədə Qorqud dastanının da tədqiqinə diqqət artır. Yuxarıda qeyd etdiyimiz kimi, axır vaxtlar bizdə bu sahədə monoqrafik araşdırmalar aparılır, türk alimlərinin də fəallığı artır. Maraqlıdır ki, dünya qorqudşünaslığında da problemə dair maraqlı fikirlər söylənilir. Bu cəhətdən "Kitabi-Dədə Qorqud"un ingilis dilinə tərcüməçisi Paul Mirablın "Stilistik müqayisə: Avropa-türk motivləri və formulları" məqaləsi xüsusilə diqqəti cəlb edir. Müəllif doğru olaraq motivlə formul bağlılığından çıxış edir. "Kitabi-Dədə Qorqud" əsərindəki işlək (dastan boyu təkrar olunan) motivləri formullardakı təcəssümünə əsaslanaraq bu ardıcıllıqla sıralayır: qılınca bağlılıq, aramsız döyüşlərin gətirdiyi qələbə-sevinc ya da itki-kədər hisslərinin ifadəsi, rənglərin rəmzləri, yuxu, ziyafət və mələk motivləri. Tədqiqatçı dastanın skletini təşkil etdiyini

bildirdiyi bu tipli təfsilatların sadəcə olaraq xəyaldan yox, təsvir olunan insanların həyat və düşüncə tərzindən doğduğunu xüsusi vurğulayaraq yazır: "...onlar tarixi mahiyyət kəsb edir və tamaşaçılara göstərir ki, ozanlar (bardlar) öz nağıllarını "qoşmurlar". Onlar nəsillərdən-nəsillərə ötürülərək yaddaşlara həkk olunmuş həqiqi döyüşlərin, müharibələrin və qurtuluş savaşlarının özəyidir. Faktlar ozanın nağıllarını əfsanəvi nağıllardan və miflərdən ayırır" (141, s.6).

"Koroğlu" dastanında mətndaxili formullardan, demək olar ki, nağıl təhkiyəsində rast gəldiyimiz tərzdə istifadə olunur. Tədqiqatçı Nizami Cəfərov "Eposdan kitaba" monoqrafiyasında nağıl-dastan təhkiyəsini Koroğlu eposunun əsas ifadə forması kimi dəyərləndirir və qeyd edir ki, "Azərbaycan dastanları üçün səciyyəvi olan bir sıra nağıl-dastan formulları "Koroğlu" təhkiyəsi üçün də xarakterikdir" (73, s.164). Bu, doğru müşahidədir, ancaq onu da əlavə etmək lazımdır ki, həmin xüsusiyyət əsərin mətndaxili formullarında daha çox nəzərə çarpır. Elə müəllifin gətirdiyi misalların əsasən daxili-keçid formullarından ibarət olması və nağıl-dastan təhkiyəsi sintezinin həmin nümunələrdə daha bariz hiss olunması da fikrimizi təsdiq edir. Həmin misallardan bəzilərinə diqqət yetirək: "Az getdi, çox dayandı, çox getdi, az dayandı, bir cümə günü gəlib İstanbula çatdı; qərəz, gecəni yatdılar, səhər oldu...", "İndi bunlar burda qalsınlar, eşit Dəmirçioğlundan: Az getdi, çox dayandı, çox getdi, az dayandı, yolda yel oldu əsdi, bulaqda mənzil kəsdi, günlərin bir günü gəlib Çardaqlı Çənlibelə çatdı", "bunlar burda deyib eşitməkdə olsunlar, sənə kimdən deyim, Cəfər paşadan", "Sazla dediyi kimi sözlə də dedi ki...", "Düşdü yolun ağına. Payi-piyadə, günə bir mənzil, təyyi-mənazil, orda ayla-illə, burada müxtəsər dillə..." (73, s.164-165). Biz də əlavə misallar gətirə bilərik. Məsələn, dastançı Eyvazı təsvir edərkən xalq təhkiyə üsulundan istifadə

edir: "Amma Eyvaz nə Eyvaz, Ərəb atın üstündə, misri qılınc belində, tülək-tərlan şəstində, minbir canın qəsdində, elə sürür, elə sürür ki, elə bil oxdu yayından qopub" (32, s.132). Dastançı Eyvazın şücaətini göstərmək üçün onu uzun-uzadı tərifləyə bilərdi, amma mətndaxili formulun nağılda da aşkar təzahür edən xalq ifadə tərzi ilə həm fikrini bədiiləşdirmiş, həm də dastanın başqa hadisəsinə keçid etmişdir.

Nağıllarda olduğu kimi "Koroğlu" dastanında da mətndaxili formulları müəyyən bölgü əsasında qeyd etmək olar (misallar dastanın 2005-ci ildəki nəşrindən (32) gətirildiyindən mətnin həmin bölgüyə aid hissəsində ancaq səhifələrin yerini göstəririk).

**1. Şifahi nitqdə hərəkətin sürətini azaltmaq məqsədilə işlənən mətndaxili formul:** "Pay-piyadə, günə bir mənzil, teyyi-mənazil, orda ayla, illə, burda müxtəsər dillə, az getdi, çox dayandı, çox getdi, az dayandı, bir axşamüstü gəlib Çardaqlı Çənlibelə çatdı" (s.197). Bu mətndaxili formulda lakonik ifadələrlə hərəkətin qısa zamanda çoxsurətli icrası ifadə olunmuşdur. "Koroğlu" dastanında mətndaxili formulların həm xarici, həm də daxili formalarına rast gəlinir. Yuxarıda göstərdiyimiz misal xarici mətndaxili formalara aiddir. Xarici mətdaxili formulun bir neçə xüsusiyyətini qeyd edə bilərik. Dastanda da xarici mətndaxili formullar əsasən dinləyicinin diqqətini cəlb etmək, onun diqqətini yoxlamaq məqsədilə söylənə bilər. Adətən dastan geniş məzmunda olduğuna görə qulaq asan dinləyici də yorula bilər. Ona görə də dastançı bu cür nağıl formullarından istifadə edir ki, qarşısındakının diqqətini artırsın. Məsələn, dastançı Eyvazı tərif etmək üçün xalq ibarələrindən istifadə edir. Bu cür formullar dinləyicinin diqqətini artırmaq üçündür.

**2.Zaman məzmunu ifadə edən mətndaxili formul:** "Az getmişdi bilmirəm, çox getmişdi bilmirəm, elə təzəcə

Alacalar dağının ətəklərinə çatırdı ki, bir də gördü budu Qars tərəfdən bir atlı gəlir” (s.315). Bu formulda zamanın qeyri-müəyyənliyi ifadə olunmuşdur. Hərəkətin mücərrəd zaman içərisində baş verməsi cümlədən aydın olur.

**3. Məkan məzmunu ifadə edən mətndaxili formul:** “Gethaget, gethaget ilxı dağlar aşdı, düzlər keçdi, yamaclar dırmandı, enişlər endi, gəlib Ballıcada Qara xan deyilən bir xan var idi, onun qoruğuna doldu” (s.278).

**4. Qəhrəmanın sürətli böyüməsini göstərən mətndaxili formul:**“Uşaq elə bil ki, ayla, illə yox, saatla, dəqiqə ilə böyüyürdü” (s.346).

**5. Döyüş təsvirini verən mətndaxili formul:** “Ustad deyir o gün Çənlibeldə bir dava oldu, bir dava oldu ki, hələ ruzigarın gözü belə dava görməmişdi” (s.400).

**6. Məişət formulu:** “Ustad deyir o gün Çənlibeldə bir şənlik oldu, bir kef oldu ki, hələ tarixdə belə şey yazılmayıb” (s.364).

**7. Yoladüşmə formulu:**“Qərəz Koroğlu elə ki, deməlisini dedi, tapşırmalısını tapşırıb atı mindi. Dəli Mehtəri də yetmiş dəli ilə götürüb düzəldi yola” (s.370).

**8. Hərəkətin sürətini təsvir edən formul:** “Elə gəlir ki, elə bil bir dəstə tərlandı ördəyə, qaza gəlir” (s.330). Bu formul hərəkəti izah edən formul kimi işlədilir, fikri lakonik şəkildə izah etməyə xidmət edir.

**9. Gözəlliyi təsvir edən formul:** “Baxdı ki, pəncərədə bir qız durub ki, o necə deyərlər, yemə-içmə, xətti-xalına, gülcamalına tamaşa elə. Özün öldürsə olar on dörd, on beş yaşı. Amma elə boy-buxunlu, şəstli-bəstli bir qızdı ki, elə bil sərv ağacıdı qalxıb. Qaşlar qara, gözlər qara, tellər qara, xallar qara, o necə deyərlər aya deyir sən çıxma, mən çıxacağam, günə deyir sən çıxma, mən çıxacağam” (s.318).

**10. Zaman məzmunlu keçid formulu:**"Üç günün üstünə bir dörd gün də gəldilər, oldu yeddi gün, yeddi gecə" (s.276).

**11. Bir hadisədən, prosesdən başqa hadisəyə, prosesə keçid yaradan formul:** "Qərəz, baş ağrısı olmasın, qaravaş atı tez yəhərlədi, yüyənlədi, çəkdi bayıra" (s.223); "İndi eşit, sənə kimdən danışım, Toqatda Hasan paşadan" (s.230).

**12. Hal-vəziyyət bildirən formul:** "Ustad deyir Koroğlu qocalmışdı" (s.379).

Bunlardan başqa "Koroğlu" dastanında xeyli sayda müxtəlif məzmunlar ifadə edən mətndaxili formullar da işlənmişdir. Onlardan bəzilərini qeyd edək:

"Koroğlu atı yəhərləməkdə olsun, paşalar burda gözləməkdə, sənə kimdən deyim, keçəl Həmzədən" (s.197); "Baxdılar ki, Qırat budu elə gəlir, elə gəlir, az qalır dırnaqları çatlaya" (s.138); "Koroğlu oxumağında olsun, paşa qulaq asmağında, dəlilər də gözləməyində, sənə kimdən deyim, Giziroğlu Mustafa bəydən" (s.150); "Yolları, yamacları üz elədilər, dağları, daşları düz elədilər, ildırım kimi süzüb Ballıcaya çatdılar" (s.283); "Sənə gəl indi deyim paşaların məkrindən" (s.288). Dastanda qollar bir-birinin davamı olduğu üçün axırıncı formul həm başlanğıc, həm də keçid məzmunu daşıyır. Aşağıdakı misallarda da bu cür formullarda həm başlanğıc, həm də mətndaxili formulun iştirakını görürük: "Bəli, karvan təzədən yola başladı. İndi karvan gəlməkdə olsun, görək Koroğlu nə elədi?" (s.242); "İndi sənə kimdən deyim, nədən deyim, Koroğlunun cavan vaxtlarından deyim" (32, s.341); "İndi eşit, sənə deyim Bayazid paşası Xəlil paşadan" (s.246); "Eşit quldan" (s.278) və s.

Şifahi nitqdə formul əmələ gəlmə prosesi məhəbbət dastanlarında da tam şəkildə izlənilir. Məhəbbət dastanlarındakı formullar prinsip etibarilə "Koroğlu" dastanındakı, eləcə də

nağıllardakı kimidir. Yəni burada məhəbbət dastanlarında formulun bütün formalarına rast gəlinir. Onların içərisində ən çox diqqət çəkəni isə mətndaxili formullardır. Məhəbbət dastanlarındakı mətndaxili formulları aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Keçid formulu:** "Bunlar burda qalsınlar, sizə Şəmistan padşahdan xəbər verim" (35, s.131); "Onlar burada qalsınlar, bir neçə kəlmə eşit bazarın darğasından" (35, s.138).

**2. Qəhrəmanın gözəlliyini təsvir edən formul:** "Atdan düşüb istədi içəri girsin, birdən bir gül camallı, bənövşə əndamlı, yanında da bir qaravaş mağaradan on dörd gecəlik ay kimi onun qabağına çıxdı" (35, s.98); "Günə deyir sən çıxma, mən çıxacağam. Aya deyir sən doğma, mən doğacağam" (35, s.104); "Camalından ay-gün işıq alır, gözəllikdə tayı tapılmaz. Tanrının xoşu gələndə bu gözəli yaradıb, gözəllikdə tayı tapılmaz, gözəllik paylananda birinci payı ona verib. Qələmini ilk dəfə onun qaşlarına çəkib" (35, s.110).

Məhəbbət dastanlarındakı keçid və qəhrəmanın gözəlliyini təsvir edən formulların funksiyaları nağıl təhkiyəsində olduğu kimidir. Buna görə də bu formulların incə təfsilatlarını verməyə lüzum qalmır.

**3. Hal-hərəkəti ifadə edən formul:** "Müxtəsər deyək ki, bir qədər vaxt keçəndən sonra Dilarami-cəng hamilə oldu, 9 ay, 9 gün, 9 saat, 9 dəqiqə, 9 saniyə tamam olan kimi qadın yükünü yerə qoydu, bir oğlan uşağı oldu" (35, s.170).

**4. Hərəkətin sürətini, hadisənin baş verməsini əngəlləmək məqsədilə işlənən formul:** "Necə deyərlər dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, az getmək, üz getmək, dərə-təpə düz getmək onlara qismət olmadı" (35, s.457).

**5. Hərəkətin sürətini, hadisənin zamanını qısaltmaq məqsədilə işlənən formul:** Az getdilər, üz getdilər, dərə-təpə

düz getdilər. Dərələrdən sel kimi, təpələrdən yel kimi keçdilər (35, s.95).

**6. Zaman formulu:** "Gün keçdi, ay dolandı, Qəribin getməyindən düz altı il yarım keçdi" (30, s.105); "Ay dolandı, gün keçdi" (35, s.239).

**7. Toy formulu:** Azərbaycan məhəbbət dastanlarındakı formulların məzmununda bəzən iki funksiyalılığa da rast gəlinir. Məsələn, zaman formuluna aid mürəkkəb cümlədə bəzən məişət məzmunlu formullara da rast gəlinir. Belə formullar qarışıq tipli formullar adlanır. Belə formullarda ya birinci, ya da ikinci məzmun daşıyan hissə əsas formul sayıla bilir. Məsələn, "Novruz" dastanından gətirdiyimiz misalda toy formulu əsas formul sayılsa da, burada zaman məfhumu da ifadə edilmişdir. "Doqquz gün, doqquz gecə toy vurulandan sonra Qəndabın kəbinini Novruza kəsdirdi, onun əlini Novruzun əlinə tapşırdı" (29, s.197).

"Əsli-Kərəm" dastanında: "Nə gecə bildilər, nə gündüz bildilər, az getdilər, çox getdilər, bir bulaq başında bir dəstə qıza rast gəldilər" (30, s.27).

Belə qarışıq tipli formul da hərəkət məzmunu ifadə etməklə bərabər görüş məzmununu da özündə daşıyır. Burada hansı formulun mənasının üstünlük təşkil etməsindən asılı olaraq onu adlandırmaq olar. Deməli, bu cümlədə hərəkət məzmunu üstünlük təşkil etdiyindən hərəkət formulu görüş formulunu üstələyir.

Belə qarışıq tipli formullar çoxdur. Onları da beləcə məna və məzmununa görə ayırmaq olar. Bu üsul həm də formulu ifadə etməkdə əsas rol oynayır. Əksər formullarda cümlə tipləri qarışıq məzmunlarda olduğundan əsas formulun da funksiyası mənaların qarşılaşdırılması zamanı aşkar oluna bilər.

"Əsli-Kərəm" dastanında: "Mahmud bir qədər irəli gedib gördü ki, sərv ağacının altında maral kimi bir qız yüz naz-

qəmzə ilə dayanıb. Qaşlar kaman, gözlər qara, burun hind fındığı, sinə Səmərqənd kağızı" (30, s.10). Bütövlükdə bu formulun da birinci hissəsi ("Mahmud bir qədər irəli gedib gördü ki, sərv ağacının altında maral kimi bir qız yüz naz-qəmzə ilə dayanıb") hərəkət məzmunu, ikinci hissəsi isə birinci hissəyə tabe olan, həm də əsas olan gözəllik məzmunudur. İkinci hissə sərbəst işlənə bilmir, amma birinci hissəni öz məzmunu ilə tamamlayır. Belə mürəkkəb formulun bəzən adını təyin etmək çətin olur. Şərti olaraq üstünlük təşkil etdiyi məzmununa görə ad vermək mümkün olur. Adətən, bu formulu gözəllik formulu adlandırmaq olar. Belə formullar ümumi məzmununa görə mətndaxili formullardır.

Mətndaxili formulların bəzisi həmcins sözbirləşmələrindən ibarət olur. Belə sözbirləşmələri təyin etdiyi nitq hissəsi ilə birlikdə mətndaxili keçid formulunu əmələ gətirir. Məsələn, "Nəcəf və Pərzad" dastanında "Qarı var ipək, qarı var köpək, qarı var zol gələn, qarı var zol qırtan, qarı var qandal qopardan, qarı var iman-quran nəsib olsun. Qarı var ilan, qurbağa, çayan cəmdəyinə dolsun. Qarı var qılçasından tut at dalına, ağzı harda durar, durar" (31, s.274). Azərbaycan dastanları formulunda təkrar olunan "qarı var" təyini sözbirləşməsi təyin etdiyi sözlərlə birlikdə həmcins üzvlər şəklində mətndaxili formulu əmələ gətirir. Bütövlükdə bu formulun da məzmununda keçid məzmunu yaşayır və başqa süjetə keçməyə şərait hazırlayır.

Mətndaxili keçid formullarının ifadə etdiyi məzmun onların daxili quruluşundan irəli gəlir. "Leyli və Məcnun" dastanındakı "İndi bunlar burada qalsınlar, sizə xəbəri verin qızlardan" (30, s.303) keçid formulunun quruluşu tabeli mürəkkəb cümləni xatırladır. Deməli, məzmundan da göründüyü kimi, bu keçid formulu iki süjet arasında əlaqə yaratmağa xidmət edir.

Mətndaxili formulları daxili semantikasına uyğun olaraq müxtəlif növlərə ayırmaq mümkündür. Bu semantikada hərə-

kətin tərzi, hərəkətin sürəti, hərəkətin lakonikliyi, təbiətə münasibət və s. başlıca rol oynayır.

Beləliklə, mətndaxili formullar məhəbbət dastanlarının formalaşmasında mühüm rol oynayır. Bu dastanlardakı keçid formulları final formulu olaraq, süjetlərin birləşməsi zamanı keçid məzmunu funksiyasını daşıyır. Bütün bunlar göstərir ki, mətndaxili formullar daxil olmaqla keçid formulları məzmunun və süjetin yaranmasında böyük əhəmiyyətə malikdir.

**Əfsanə və rəvayətlərdə mətndaxili formullar.** Bütün janrlarda olduğu kimi, rəvayətlərdə də mətndaxili formullara, az da olsa, rast gəlinir. Rast gəldiyimiz rəvayətlərin təhkiyəsi geniş olduğuna görə, bu mətnlərdəki mətndaxili formullar nağıl təhkiyəsindəki mətndaxili formulların xüsusiyyətlərini özündə əks etdirir. Belə xüsusiyyətlərdən rəvayətlərdə ən çox müşahidə olunanı bir süjeti o birinə bağlayan, onların arasındakı zamanı, hərəkəti qısaltmağa xidmət edən təhkiyədəki keçidlərdir. Bu xüsusiyyəti özündə daşıyan ifadə elementləri isə mətndaxili keçid formullarıdır. Bu cür keçid formullarının işləndiyi nümunələrə diqqət yetirək.

"Aşıq Ağacan və İnci xanım" rəvayətində: "Sizə kimdən danışım, Gürcüstanın Borçalı mahalının Qaçağan kəndində yaşamış Aşıq Ağacandan"; "İndi eşit kimdən, Qarabağ vilayətində yaşayan İnci xanım adında bir aşıqdan"; "Sizə kimdən deyim, Ağacanın yanına gələn o iki aşıqdan" (21, inv.1085).

"Nəcəf və Pərzad" rəvayətində: "Sizə kimdən deyim, Nəcəfdən" (21, inv. 1085).

"Bəxtəvər başına, belə ağıllı arvadın var" rəvayətində: "İndi xəbəri sizə kimdən verim. Xəbəri sizə arvadlardan verim" (21, inv. 36).

"Getməkdən getməmək yaxşıdır" rəvayətində: "Bəli, sizə kimdən deyim, kimdən danışım. Sizə əyyami-sələfdə sazı çiynində, səsi boğazında el-oba şənliklərdə sizin kimi gəl mə-

ni gör, dərdimdən öl, alşı tuman vız-vızı cavanlara, toy-nişanda xeyir-dua verən, güzəran keçirən Göy Ozandan xəbər verim" (21, inv. 36).

Aşağıdakı keçid formulları isə rəvayət mətnində həm başlanğıc, həm də mətndaxili formullar kimi işlənmişdir: "Gərək ki, saqqalı tərpənirdi" rəvayətində: "Sizə kimdən deyim, kimdən danışım. Sizə kəndin mahir ovçusu Ayıbasandan deyim" (21, inv. 36). "Ay özünüz öləsiniz, sonra aldatdım deməzsiniz ki" rəvayətində: "Bəli, sizə kimdən deyim, sizə xəbəri acgöz ağadan, tamahkar xanımdan deyim" (21, inv. 36).

Nağıllarda olduğu kimi, bəzi rəvayətlərdə də bilavasitə hərəkət bildirən mətndaxili formullara rast gəlinir.

"Rəvayət" mətnində: "Asta qaçana göy imam qənim – deyib qırır yolun damarını"; "Az gedir, üz gedir, oba-oymaqlar aşır, axır gəlib bir kəndə çıxır" (21, inv.36).

Hərəkətin sürətini bildirən formullar:

"Getməkdən getməmək yaxşıdır" rəvayətində: "Qırır yolun əhdini, günə bir mənzil, teyyi-mənazil, dərələrdən sel kimi, təpələrdən yel kimi aşır gədiklərdən" (21, inv. 36). "Nə qədər göylərə qalxsan da, yerə enərsən" rəvayətində: "Bəli, nağılçılar dili yüyrək olar. Vəzir təğyiri-libas olub üz qoyur yola. Az gedir çox, çox gedir az, qırır padşahın fərmanı keçən məmləkətdə yolun damarını" (21, inv. 36).

Subyekt bildirən sözlərin təkrarı ilə düzələn mətndaxili formullar:

"Yelənini ağ elə, çölünü sarıyla yaşıl" rəvayətində: "Arvad var ev tikər, arvad var sökər. Arvad var qonum-qonşu ilə dalaşar, arvad var qonum-qonşuya yaraşar" (21, inv. 36).

Arzu bildirən mətndaxili formullar: "Bəxtəvər başına, belə ağıllı arvadın var" rəvayətində: "Səhər açılır. Üzünüzə səhərlər açılsın" (21, inv. 36).

Qeyd etdiyimiz bu misallar geniş təhkiyə üsuluna əsaslanan rəvayət mətnlərinin müxtəlif tiplərdə olduğunu göstərir. Bu cür formulların rəvayətlərdə işlənməsi sübut edir ki, rəvayət janrı mütəhərrik janrdır. Rəvayətlər təhkiyə üsulundan asılı olaraq başqa mətnin özəyini təşkil edə bilər.

**Lətifə və qaravəllilərdə mətndaxili formullar.** Qaravəlli şifahi xalq ədəbiyyatının maraqlı janrlarından biridir. Başqa janrlar az və ya çox dərəcədə öyrənilsə də, qaravəlli bir janr kimi tamam öyrənilməmişdir. Janrın adının etimologiyası haqqında tədqiqatçılardan M.Allahverdiyev (20), A.Aslanov (22), T.Orucov (152) fərqli mülahizələr söyləyirlər. Qaravəlli nağılla lətifə arasında yaranan bir janr olduğuna görə nağılın bir çox janr xüsusiyyətlərinə burada da rast gəlmək olur. T.Orucov qaravəllinin janr xüsusiyyətlərindən danışarkən əsasən onun 6 xüsusiyyətini nəzərə çatdırır (55, s.11). Bura əlavə olaraq qaravəllilərin əmələ gəlməsində iştirak edən müxtəlif formulları da qeyd etmək olar. T.Orucov beşinci xüsusiyyət kimi bu janrın satirik və yumoristik səciyyəli, novellavari olub gözlənilməz sonluqla bitdiyini göstərir. Bu cür sonluq eyni zamanda final formulu, yaxud bədii final formulu kimi də səciyyələndirilə bilər.

Qaravəllilərin janr xüsusiyyətlərindən biri kimi onun mətndaxili formullarını göstərmək olar, onlarda mətndaxili formullar nağıllardakı mətndaxili formullara oxşamır. Qaravəllilərdəki mətndaxili formullar bircinsli olub, əsasən sadə cümlələlər şəklində təşəkkül tapır. Məsələn, "Mollanın arvadı" qaravəllisində qəhrəmanlar arasında dialoqlar başa çatandan sonra söyləyici başqa bir süjetə keçmək üçün "Bəli, Firuzla arvadı toya hazırlaşırdılar" (36, s.68) cümləsindən istifadə edərək qaravəllinin davamına zəmin hazırlayır. "Şirvan qazısı" qaravəllisində isə bir hadisədən başqasına keçid etmək üçün belə bir mətndaxili formuldan istifadə olunmuşdur:

“Qərəz, molla ilə Məhəmmədin şikayəti gedib Şirvan qazısına çatdı” (134, s.12).

Nağıllarda gördüyümüz mətndaxili formulların rəngarəngliyinə qaravəllilərdə rast gəlinmir. Qaravəllilərdə mətndaxili formul kimi ancaq bir formadan istifadə olunur. Bu formullar da sadə cümlə tipində olur, bunlarda zəncirləmə, təkrarləmə və s. üsullardan istifadə olunmur. “Dızmırı keçəl” (55, s.123-125) qaravəllisində nağıllardakı “az getdi, çox getdi, dərə-təpə düz getdi” ifadələrində olduğu kimi məzəli mübaliğələrdən yox, “az getdi, çox getdi, bir kəndə gəlib çıxdı” cümləsindəki kimi hərəkətin normal sürəkliliyini göstərən “az getdi, çox getdi” mətndaxili formulundan istifadə olunur .

Qaravəllilərdə mətndaxili formulların söz işarəsi kimi “xülasə”, “qərəz”, “bəli” kimi lakoniklik bildirən ifadələrdən istifadə olunur. “Oğrubaşı qazı” qaravəllisində də “xülasə” ifadəsi mətndaxili formulu yaradan söz-işarədir: “Xülasə, kişi xurcununu çiyninə atdı, arvadıynan xudahafizləşib yola düşdü” (55, s.133); “Cənnətsatan molla” qaravəllisində: “Bəli, gün gəldi keçdi, qaranlıq düşdü” (55, 144). Qaravəllilərdə bütöv cümlənin mətndaxili formul, eyni zamanda keçid formulu məzmununu daşımasını mətnlərdə görürük: “İndi eşit axunddan. Keçəlin analığı axundu danlayıb dedi” (134, s.59); “Bərk yağış yağdı, yağış kəsəndən sonra keçəl paltarını daşın altından çıxardıb geydi. Eşit şeytandan” (55, s.99); “Bərkitdi çarığın dabanın, qırdı yerin damarın, günə bir mənzil gedib bir şəhərə çıxdı” (55, s.102); “Necə deyərlər, dağ dağa rast gəlməz, insan insana rast gələr” (55, s.136); “Sizə kimdən deyim, Haqverməzdən” (133, s.137). Qaravəllilərdə bu cür mətndaxili formullar mətnə qarışır, başqa ünsürlərdən, süjetdən ayrılmır. Bunu aşağıdakı formul da təsdiq edir: “Dağ aralandı və oradan səksən yeddi min əcinnə əllərində məşəl yana-yana üz qoydular qaçmağa, mənzilbəmənzil, teyyi-mənazil getdilər, keçəl Qu-

laməli eləmədi tənbəllik, əlinə bir yaba aldı, bir mayallaq, iki mayallaq, vurub əcinnələrin dalıycan atlandı (55, s.58). Burada nağıllarda gördüyümüz mətndaxili formulun bir hissəsi (mənzilbəmənzil, teyyi-mənazil) qaravəlli dilində işlənmişdir. Yenə nağıllarda mətndaxili formulda gördüyümüz "qarışqa şıllaq atdı, dəvənin buynuzu sındı" kimi hissə qaravəllidə cümlənin içində gülüşyaradıcı ünsür kimi çıxış edir (mətndaxili formul kimi yox). Qaravəllidə ("Yalan-palan") mətndaxili formul kimi aşağıdakı cümlənin adi mətn kimi üzvləndiyini görürük: "Günlərin bir günündə, Şah Abbasın öyündə, toyuqların hinində, Fatma xalanın tinində, toyuqyeyən hamamçının günbəzinin üstündə xoruz banlayanda, Çərkəz xalanın təndirində yeddibaş divin anası çörək yapan yerdə yumbalandı təndirə, cəhənnəmə vasil oldu" (55, s.58). Burada mətndaxili formullarda gördüyümüz cümlənin həmcins üzvləri qrammatik cəhətdən cümlə sırası kimi çıxış edirlər və mürəkkəb cümlə tipini əmələ gətirirlər, yəni onlar burada formul təşkil etmirlər, mətndən ayrılmırlar. Bu dediklərimiz aşağıdakı cümləyə də aiddir: "Birdən Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz, bir girdəkan, yeddi dəyirman, on doqquz nəməkdan, on yeddisi sınıqsalxaq, ikisi əngəl-məngəl, neyləyək bunları?". Burada da formullardan tanış olan həmcins üzvlər cümlə içində formalaşmışdır (55, s.59).

"Keçəlin fəndi" qaravəllisində isə üçüncü tip mətndaxili formula rast gəlinir. "Gəl, indi sənə xəbər verim keçəldən" (133, s.151). Bu formul keçid formulu kimi mətnin içində süjetin birindən o birisinə keçmək üçün əlaqə yaradır. Qaravəllilərdə mətndaxili formulların işlənməsi onların nağıllarla bağlı olduğunu bir daha göstərir. Nağıllarda rast gəldiyimiz mətndaxili formulların qısa şəkildə, həm də qaravəlli quruluşuna uyğun olaraq işləndiyini görürük. Belə mətndaxili formullar sadə quruluşda olur, qaravəlli söyləyən bu cür formulu işlə-

dərkən öz auditoriyasını nəzərə alır. Bu cür formulların işlənməsi daha sonrakı dövrlərin hadisəsidir və qaravəllinin məzmununa mürəkkəblik gətirir.

Mətn quruluşuna görə qaravəllilər üç tip üzrə formalaşır: 1. Heç bir mətndaxili formulu olmayan qaravəllilər; 2. Mətndaxili formulun üzvlərinin iştirakı ilə yaranan və cümlə tipi kimi iştirak edən qaravəllilər; 3. Mətndaxili formulların iştirak etdiyi qaravəllilər.

Məsələn, "Bəli, peşmançılıq fayda verməz" (133, s.28); "Küləkli dərənin dibində qarışqa şıllaq atdı, dəvənin buynuzu sındı, üzə-üzə getdi Həştərxana" (133, s.157). Bu cür formullar yalanın şişirdilməsində əsas rol oynayır. "Günlərin bir günündə, çopur Əlbəndənin tinində, özümüz it günündə kəlləpəzlik edirdik" (133, s.157); Mətndaxili formulların iştirak etmədiyi nümunələrə "Hadı, Hudu, kor oğlu kosa, bir də mən" (55, 160); "İsfahan keçəli" (133, s.126); "Kərəm və şeyx" (55, s.166); "Oğru molla" (55, s.170); "Qudurmuş axund" (55, s.179); "Cənnətsatan molla" (55, s.140); "Keçəllə qazı» (55, s.230); "Keçəl, darğa və axund" (55, s.111); "Qaftanın nağılı" (133, s.3); "Səfeh arvad" (133, s.77); "Fərasətli qız" (133, s.152); "Keçəllə dəyirmançı" (133, s.157) misal ola bilər. Belə qaravəllilərdə nağıl ünsürü olmadığına, iştirakçılar arasında dialoqun qısa olmasına görə mətndaxili formulların işlənməsinə rast gəlinmədi. Bu qaravəllilərdə mətndaxili formulun işlənməməsinin səbəbi ümumiyyətlə bu mətnlərin nağılla lətifə arasında yaranması olmuşdur. Bu mətnlərdə islahedici gülüş də mətnin süjetinin irihəcmli olmamasına təsir etmişdir. Əsil qaravəllilərdə (nağıl ünsürü olmayan) bu səbəbdən mətndaxili formul yarana bilmir. Mətnlərdə qısa, lakonik dialoqdan istifadə olunduğuna görə mətndaxili formulun işlənməsinə də ehtiyac qalmır.

## Final və yaxud sonluq formulları

**Nağıllarda final formulları.** Final formulları, hər şeydən əvvəl, nağılın başa çatmasını bildirən və nəqli yekunlaşdıran bədii ifadələrdir. V.İsgəndərovanın yazdığı kimi, söylənilən hər bir əhvalatın, hadisənin başlanğıcı olduğu kimi, sonu da olmalıdır. Bu, doğrudur. Lakin orası da var ki, bəzi hallarda başlanğıc və sonluq formullarsız da nağıl başlaya və qurtara bilir. Yəni bəzən nağıl söyləyiciləri əvvəldə başlanğıc formullarından yararlanmadıqları kimi, sonda da final formullarına ehtiyac duymurlar. Başa düşürük ki, bu axırıncı fikrimiz mübahisə doğura bilər. Çünki nağılların mütləq final formulları ilə tamamlanması məsələsində, deyəsən, folklorşünasların hamısı həmrəydirlər. Bununla belə, fikrimizi izah etməyə cəhd göstərəcəyik.

Hələlik isə qeyd edək ki, milli mənsubluğundan asılı olmayaraq əksər nağıl təcrübəsindəki final formulları həm məzmununa, həm də mətndə icra etdikləri funksiyaya görə oxşardırlar. Sadəcə bunların ifadə tərzində müəyyən tipoloji müxtəliflik nəzərə çarpır. Final formulunun məzmununda söyləyicilər, adətən, onu dinləyənlərə hadisələrin sona yetməsini və süjetin tamamlanmasını çatdırırlar. Bundan əlavə, söyləyicilər, final formulunun spesifik xüsusiyyəti kimi, dinləyicilərinə xoşbəxt həyat, uzun ömür də arzulayırlar, onların da nağıl qəhrəmanları kimi öz muradlarına çatmasını diləyirlər. Əlbəttə, bütün bunlar nağıl təhkiyəsinə uyğun gələn standart ifadələrlə deyilir. Özü də bu ifadələr məhz formul yaradıcılığında klişeləşib mühafizə oluna, yaşaya bilir. Onu da yəqin etmək olur ki, final formulları nağılın janr mahiyyti ilə bilavasitə bağlıdır və öz funksiyası ilə bunun təsbitinə xidmət edir. Məlumdur ki, nağılın janr mahiyyəti, bir növ, fikrin əks üsulla təcəssümü təməlində formalaşır. Yəni nağıl estetikası aşkar "yalan" üzərində yarana, təşəkkül tapa bilir. Burada ən böyük

həqiqətlər ən xəyali, ən uydurma vasitələrlə ifadə olunur. Bu, janrın ən cəciyyəvi, ən fərqləndirici xüsusiyyətidir. Özü də burada sanki uydurma artdıqca təhkiyə daha da təbiiləşir, qayə-mətləb daha ciddi ahəng kəsb edir. Bizə bircə az qala uşaq sadəlövhlüyü ilə bütün bu xəyali quramalara inanmaq qalır. Böyük nağıl dünyası ilə ünsiyyətin, olduqca spesifik və təkrarolunmaz nağıl məntiqini qavramağın başqa yolu da yoxdur. Final formulları da elə bil həmin hissi-anlamı biz dinləyicilərə nağıl dili ilə təlqin etmək ehtiyacından yaranır. Nağılın nəqli başa çatıb, söyləyici də öz yekun sözündə sanki dinləyiciləri danışdığı uydurma əhvalatların "gerçəkliyinə" inandırmağa çalışır. "Onlar Gülüstani-Baği-İrəmdə keflə, damağı çağ dolanıb, dövran keçirdilər. Sizin də damağınız çağ kefiniz şad olsun" (60, s.162). Bilirik ki, nağıl süjeti qəhrəmanı, adətən, çətin həyat sınaqlarından çıxararaq xoşbəxtliyə qovuşdurur, bu da xeyrin şər üzərində zəruri qələbəsi kimi mənalanır və final formullarında da janrın bu mühüm qayəsi bir daha təsbit olunur. Təhkiyənin sonunda janrın mahiyyəti ilə daxilən bağlı olan bu tipli təsbit meylləri final formullarının müxtəlif növlərini meydana çıxarmışdır. Onların içərisində ən çox diqqət çəkəni, həm də ən geniş yayılanı nağıl süjetinin toy mərasimi ilə bitdiyini bildirən formullardır. Aşağıdakı final formulları toy mərasimi ilə bağlıdır:

1. "Təzədən xərc çəkdirib, qırx gün, qırx gecə toy vurdurdu" (62, s.94); "Bundan sonra Susən yeddi gün, yeddi gecə toy eyləyib, Zərnigar xanımı alıb murad hasil elədi" (62, s.147); "Ölü Məhəmməd qırx gün, qırx gecə toy eləyib, qarının evindəki qızı aldı" (62, s.299); "Bir gecədə həmin oğlannan qızın, həm də Məstannan Nigar xanımın toyunu elədilər" (62, s.320); "Təzədən toy edib başladılar şadlıqla gün keçirməyə" (62, s.48); "Ev tikdirib imarət saldırdılar, yeddi gün, yeddi gecə toy edib murad hasil elədilər" (62, s.81) və s.

2. Sosial ədalət və qismən də məişət məzmunu daşıyan final formulları da çox işləkdir: "Məlik Məhəmməd ədalətli padşah oldu, rəiyyətin hər dərdinə çarə qıldı. Onlar yedilər, içdilər, yerə keçdilər. Xeyirə rəhmət, şərə lənət" (37, s.263); "Onlar yedi, içdi, siz də yeyin, için, dövrə keçin" (37, s.284).

3.Nağıllarımızın ən məşhur sonluğu isə, heç şübhəsiz, "Göydən üç alma düşdü" ifadəsi ilə başlayan formullardır. O.Əliyev belə formulların nağılçının mükafatlandırılmasının zəruriliyi məqsədilə işləndiyini göstərir (87, s.99). Yəqin ki, formulu belə də mənalandırmaq olar.

Nağıllarımızda belə formullara çox rast gəlinir. Məsələn, "Göydən üç alma düşdü" formulu, şübhəsiz, ən əski dövrlərdən xəbər verir. Elə məşhur final formulunda göydən məhz almanın düşməsini də təsadüfi saymamaq olar. Almanın ilahi mənşəli olmasını bildirən "Şahzadə Mütalib" adlı ayrıca nağılımızı da xatırlaya bilərik: "Birdən göy guruldadı, şümşürük (şimşək – Ş.H.) oynadı, hava qaranlıqlaşdı, bir parça qara bulud heybətnən endi. Elə bir qiyamət oldu ki, elə bil ərəşət-məhşər (qiyamət – Ş.H.) başladı. Bulud düz endi padşahın qabağında parçalandı, ortasından qırmızı bir alma tullanıb onun qucağına düşdü" (58, s. 161). Gördüyümüz kimi, nağılda almanın ilahi mənşəli olmasına dair mifik inanc ifadə olunmuşdur. Bu inanca görə alma ömrü uzadır, qocanı dərhal cavanlaşdırır, xücusilə də sonsuzlara zürriyyət (evlad) verir. Almanın bu qüdrətindən nağıllarımızda tez-tez söhbət açılır. (Bir sıra başqa xalqların folklorunda da alma qeyri-adi nemət kimi təqdim edilir.) Almanın sehrindən-hikmətindən bu qədər danışılırsa, istər-istəməz düşünürsən ki, nağılının sonunda göydən düşən almalar da adi alma olmaz. Sehrli almalar ərmağan etmək nağıl möcüzəsinin əlində nə çətin şeydir ki?! Bəlkə də elə axırda daha bir ecazkar nağıl fəndi "gerçəkləşir"? Əsas odur ki, nağılçı bu alma əhvalatından hər dəfə nağıl fənd-

girliyi ilə söhbət açır, dinləyicini əyləndirə bilir: "Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün" (58, s.213), "Göydən üç alma düşdü, birini nağıl söyləyən yedi, birini kəsin siz yeyin, birini də yolda Pirimin atının qabağına çıxan ilannan xoruz yarı bölüb yesinlər" (61, s.67); "Göydən üç alma düşdü, biri mənim, biri itnən pişiyin, biri də qulaq asanların" (61, s.97). Burada göydən niyə üç almanın düşməsi də diqqəti çəkir. Düzdür, 3-ün özü də sıradan bir rəqəm deyil. Müxtəlif ehtimallar irəli sürməyə imkan yaradır. Ancaq məsələ burasındadır ki, formulun özündə, almadan fərqli olaraq, bu rəqəmlə bağlı hər hansı mifik-rəmzi işarənin izinə düşmək olmur. Bəlkə də buna lüzum da yoxdur? Məgər hər deyimdə nəsə gizli bir eyham sorağına düşmək doğrudurmu?! Bu final deyimi, ola bilsin, sadəcə nağıl nəqlini daha bir nağıla xas məzəlilik-şuxluqla başa vurmaq istəyindən yaranmışdır. Nağılın sonunda təbəssüm doğuran, yorğunluğu çıxarmağa hesablanan xalis nağıl ruhunda bir zarafat, vəssalam. Bu, bəyəm az effektlidi?! Düşünmək olar ki, "Göydən üç alma düşdü..." ifadəsindəki 3 rəqəmi Tanrı bəxşişinin sayını yersiz çoxaltmamaq üçün işlənmiş sadəcə münasib bir kəmiyyət göstəricisidir. Unutmayaq ki, elə nağıllarda da belə sehrli almalar nadir tapılan olur. Beləliklə, zənnimizcə, koloritli nağıl təhkiyəsinə çox yaraşan bu formul mifik-tilsimli rəqəmdən daha çox sehrli almalar üzərində təşəkkül tapmış uğurlu ifadədir. Formulun bədii yükü daha çoxdur. Ancaq hər necə təşəkkül tapıbsa da, onun dünya formul təcrübəsinin nadir tapıntılarından biri olmasına və məhz bizim nağıl dünyamızda yaranmasına tamamilə əminik.

Nağıllarda final formullarının bədii xüsusiyyətləri mətnin sonunda hadisələrin necə qurtarmasından asılıdır. Əgər qəhrəman səfərdən qayıdırsa, ona bəslənən ümidləri doğruldursa, nağıl toy mərasimi ilə qurtarır, qəhrəman da çox vaxt

padşah seçilir. Nağılçı bu barədə öz fikrini oxucusuna söyləyir, dinləyicinin də belə belə aqibətə uğraşacağına inam aşılanır. Axırda qırx gün, qırx gecə, ya da yeddi gün, yeddi gecə toy çalınır. Bu dəbdəbə də sadəcə şənliyin davamediciliyini bildirmir, həm də qəhrəmanların həqiqi xöşbəxtliyə qovuşmasını ifadə edir, eləcə də mərasimə bədii gözəllik çaları qatır.

Beləcə, final formulları dinləyicini sehrli nağıl dünyası ilə qovuşduran təhkiyəyə yekun vurur. Nağıl süjetin necə qurtarması da formulun məna məna funksiyasını rəngarəng edir.

İndi isə final formullarının işlənmədiyi nağıllara nəzər salaq. Məşhur "Cırtdan" nağılını xatırlayaq. Məlumdur ki, bu nağılda balaca Cırtdanla heybətli div qarşılaşdırılır, amma cüssəsiz uşaq azman gövdəli divə öz fərasəti ilə qalib gəlir, meşəyə birlikdə odun yığmağa getdiyi uşaqları da xilas edir. Nağılın sonunda oxuyuruq: "Div Cırtdanın sözünə inandı, gedib bir dəyirman daşı tapıb, boynuna keçirtdi, özünü suya atdı, suda boğulub öldü, uşaqların da canı qurtardı" (62, s.104). Nağıl bu məlumatla başa çatır. Təhkiyədə əlavə heç bir (istər ənənəvi, istərsə də şərti olsun) formulla rastlaşmırıq. Sitat gətirdiyimiz məlumat isə nağılda baş verən hadisələrin məntiqi sonudur və o, hətta mövzu, süjet, situasiya oxşarlığına çox rast gəlinən nağıl janrında belə, fərqli şəkildə cərəyan edə bilir. Sonluğun (süjetin tamamlanmasının) elə təfsilat fərqliliyi olur ki, bunlar müvafiq formulların təşəkkülünə imkan vermir. Çünki məhz motiv təkrarları olan yerdə bu motivlərin ifadə tərzində də müəyyən standartlaşma hadisəsi meydana çıxır. Beləcə, deyək ki, yuxarıda tez-tez rastlaşdığımız toy formulları formalaşır. Bildiyimiz kimi, nağıl süjeti, adətən, qəhrəmanın qələbəsi ilə sona yetir. Qəhrəman axırda istədiyi qıza qovuşur, ya da padşah qızını da, taxt-tacını da könüllü ona verir, bəzən də o, nağıl sehrinin gücü ilə özü bunlara nail olur. Bütün bu oxşar əhvalatlar təbii bir təmtəraqlı toy şənliyi ilə başa çatır,

zəruri bir final formulunda yekunlaşır. "Cırtdan" nağılının qəhramanı da ölüm təhlükəsini təcəssüm etdirən şərin üzərində qələbə çalır. Ancaq o, hələ balacadır, toy çaldırılması da, arzu-murad söhbəti də onun üçün çox tezdir. Odur ki, müvafiq final formullarına da burada ehtiyac duyulmur. Digər uşaq nağıllarımızda da vəziyyət belədir. Bunlarda bəlkə də bir final formulumuzu işlətmək olardı. Biz "Göydən üç alma düşdü…" sözləri ilə başlayan formulu nəzərdə tuturuq. Bu deyim qəlibinin bütün digər klişelərdən fərqi ondadır ki, o, konkret heç bir nağıl mətnində işləmir. Onun təkcə söyləyici ilə bağlılığı var, bu ifadə sanki nağıl danışanın öz icadıdır, bir növ, onun kənardan mətnə etdiyi formulvari əlavədir. Buna görə də istənilən nağıl nəqlini "Göydən üç alma düşdü…" formulu ilə yekunlaşdırmaq mümkündür. Bu baxımdan həmin standart deyimi formul nəzəriyyəsinin tələbinə (mətndən ayrılmaq) ən uyğun gələn formul saymaq olar.

Eyni halı heyvanlardan, təbiət cismlərindən bəhs edən nağılların da çoxunda müşahidə edə bilirik. Bunlarda da final formullarının işlənməsinə ehtiyac duyulmamışdır. Lakin təkcə bunlarda yox, böyüklərdən bəhs edən nağılların da bir qismində ənənəvi final formullarına rast gəlinmir. Dediyimizə nümunə kimi "Həsən Qaranın nağılı" (60, s.172), "Quru kəllə" (60, s.241), "Tacir oğlu" (60, s.284), "Hacının qızı" (61, s.5), "Yoxsul qocaynan vəzir" (61, s.51), "Loğman" (61, s.182), "Cin" (61, s.242), "Hillilimnən Güllülüm" (61, s.245), "Padşah və dəmirçi" (61, s.253), "Yeddi qardaş, bir bacı" (62, s.123), "Loğmanla şəyirdi" (62, s.165), "Keçəlin fəndi" (62, s.169), "Axmaq kişi" (62, s.227), "İcgəndər quş dili öyrənir" (62, s.241), "Bostançı və Şah Abbas" (62, s.247) və digər nağılları göstərə bilərik. Bunun səbəbləri isə müxtəlifdir. Əgər "Yeddi qardaş, bir bacı" nağılını alsaq, burada final formulunun yoxluğuna səbəb kimi, bayaq toy mərasimi haqqında dediklərimizi göstərə

bilərik. Nağılda bacılarımızın səciyyəvı xüsusiyyəti olan və yeri gəlmişkən deyək ki, folklorumuzda, xüsusilə bayatılarımızda geniş vəsf olunan qardaş məhəbbətindən, eləcə də, qardaşlarımızın, təəssüf ki, elə həmin bayatılarda bədii təcəssümünü nisbətən zəif tapan, amma adını çəkdiyimiz nağılda qabarıq verilən bacı məhəbbəti duyğularından səmimi söhbət açılır. Burada bir hiylə nəticəsində bacı və qardaşlar bir-birlərindən ayrı düşürlər. Bir-birlərinin varlığından xəbərləri olmur. Ancaq bacı (yenə də bacı!) qardaş həsrətinə dözə bilmir və bir təsadüf nəticəsində qardaşlarının olduğunu biləndə, gedib onları axtarıb tapır. Elə qardaşlar da bacılarını tapdıqlarına çox sevinirlər. Şər qüvvələr isə yenə də onları ayırır. Amma onlar bu səfər də maneələri dəf edirlər, gedib divin yuvasını dağıdırlar və yəqin bir daha ayrılmamaq üçün öz evlərinə qayıdırlar. Nağılçı həmin məlumatı verməklə sirayətedici bacı-qardaş istəyindən söz açan süjeti tamamlayır, bununla nağılı da başa çatdırır. Başqa nə etməlidir? Axı ənənəvi final formullarımızdakı mövcud ənənəvi formul-motivlər onun danışdığı süjetə uyğun gəlmir. Özünün son sözləri də sadəcə süjeti tamamlayır və formulluqdan çox uzaqdır.

"Loğman" hekayəsində ən əlacsız dərdləri müalicə edən bir el həkiminin böyük məharətindən bəhs edilir. Burada da təhkiyəsini Loğmanın bacarığının nümayişi üzərində cəmləşdirən nağılçı axırda hamının "Loğmanın ağlına heyran qaldığını" deməklə sözünü bitirir. Aşkar hiss olunur ki, yenə də final formuluna ehtiyac qalmır. Çünki bu mətndə final formulunun icra edəcəyi funksiya yoxdur. Beləcə, sadaladığımız bütün nümunələrdə qeyd etdiyimiz situasiya ilə rastlaşırıq, yəni nağıllarda mətləbin, qayə və süjetin məntiqi sonluğa çatdığını yəqin edirik və görürük ki, ənənəvi final formulları həmin sonluq variantları ilə bağlantı qura bilmir.

**Dastanlarda final formulları.** Dastanlarda da final formulunun işlənməsinin özünəməxsus xüsusiyyətləri vardır. Əvvəla onu deyək ki, epik təhkiyədə final formullarının işlənməsi də janra uyğun olaraq formalaşır. Məsələn, dastanlarda gördüyümüz final formulları nağıllardakı final formullarından fərqlidir. Xüsusilə tarixi-qəhrəmanlıq dastanlarındakı final formulları həmin dastanların fərqli xüsusiyyətlərinə münasib şəkildə işlədilir. "Kitabi-Dədə Qorqud" dastanını götürək. "Kitabi-Dədə Qorqud"da bu dastanın təhkiyəsinə uyğun olaraq hər bir boyun sonunda yumlara müraciət edilir. Belə final formullarında Dədə Qorqud məclisə-tədbirə gələrək söylədiyi boya son vermək üçün yum deyir, xeyir-dua verir: "Dədə Qorqud gəldi, şadlıq çaldı, boy boyladı, soy soyladı, qazi ərənlər başına nə gəldigin söylədi. Yum verəyim, xanım" (120, s.89).

"Dirsə xan oğlı Buğac xan boyını bəyan edər, xanım, hey!..." boyunda final formulu kimi aşağıdakı cümlələri misal çəkmək olar:

"Dədəm Qorqud boy boyladı, soy soyladı, bu Oğuznaməyi düzdi-qoşdı, böylə dedi:

Anlar dəxi bu dünyaya gəldi, keçdi. Karvan kibi qondı, köçdi. Anları dəxi əcəl aldı, yer gizlədi, fani dünya yenə qaldı... Qərə ölüm gəldigində keçid versün! Sağlığla sağıncın, dövlətin həq artursın! Ol ögdigim yuca tənri dost olubanı mədəd irsün!. Yum verəyin, xanım:

Yerli qara tağların yıqılmasun! Kölgəlicə qaba ağacın kəsilməsün! Qamən axan görkli suyın qurumasın! Qanadların ucları qırılmasun! Çaparkən ağ-boz atın büdrəməsün! Çalışanda qara polat uz qılıcın güdəlməsün! Dürtüşərkən ala göndərin ufanmasun! Ağ birçəklü anan yeri behişt olsun! Ağ sağallu baban yeri uçmağ olsun! Həq yandıran çırağın yana tursun! Qadir tənri səni namərdə möhtac eyləməsün, xanım, hey!..." (120, s.41).

Qeyd etdiyimiz final formulları, gördüyümüz kimi, eyni zamanda alqış məzmunu da daşıyır. Bu isə "Kitabi-Dədə Qorqud" təhkiyəsinin qapalı bir zamana aid olduğunu göstərir. Axırıncı formulda "Dədəm Qorqud boy boyladı... Yum verəyin, xanım" hissəsi formulun əsas hissəsidir, bundan sonrakı hissə isə alqış məzmunu ifadə edir.

Final formulları bütün dastanlarda işlənir. "Koroğlu" dastanında da fiinal formullarının müxtəlif variantlarına rast gəlirik. "Koroğlu" dastanında final formulu adi cümlə də ola bilər. "Alı kişi" qolunda final formulu rolunu bu qolun axırıncı cümləsi ("Koroğlu atasını Qoşabulağın yanında dəfn eləyib, o gündən Çənlibeldə yurd-yuva saldı" (32, s.19) oynayır. Başqa qollarda da bu cür adi cümlələr final formulu əvəzinə sonda işlənmişdir. "Koroğlu və Dəli Həsən" qolundakı "Bu gündən Koroğlunun başına yavaş-yavaş adamlar yığışmağa başladı. Çox çəkmədi ki, Çənlibel qoçaq oğlanların, igidlərin məskəni oldu" (32, s.16) cümlələri final formulu kimi qolun sonunda verilmişdir. Adi cümlələrdən fərqli olaraq, "Koroğlunun Ərzurum səfəri", "Koroğlunun Qars səfəri", "Hasan paşanın Çənlibelə gəlməyi", "Koroğlunun Dərbənd səfəri" qollarında "ustad deyir ki", "deyirlər ki" sözləri ilə başlayan əsl final formullarına rast gəlinir:"Deyirlər ki, Eyvazın toyu düz qırx gün qırx gecə çəkdi. Hasan paşa Ərəb Reyhanın qırxını verən gün Eyvaz da Hürü xanımla murad verib, murad aldı" (32, s.340); "Ustad deyir ki, bir neçə gündən sonra Bulğar xanım Çənlibelə gəldi, Koroğlu onu Dəli Həsənə verib, toyunu elədi. Hasan paşa da nə qədər ki, ömrü var, Çənlibeldə qalıb Qıratla Dürata mehtərlik etdi" (32, s.378).

Qəhrəmanlıq dastanlarından fərqli olaraq məhəbbət dastanlarında final formulları dastanın məzmununa uyğun olaraq işlənir. Əgər dastan qəhrəmanın ölümü ilə qurtarırsa, final formulu da bu cür qəmli sonluqla bitir.

“Əsli-Kərəm” dastanında final formulu: “Paşa keşişin də, arvadının da təqsirini üzünə oxuyandan sonra hər ikisinin boynunu vurdurdu. Kərəm ilə Əslinin külünü sandığa yığdılar. Qırx gün, qırx gecə yas saxlayıb, külü bir qəbirdə basdırdılar, üstündə də bir günbəz tikdirdilər. Sofi də ölüncə bu günbəzdə mücəvür qaldı” (25, s.118).

“Əsli-Kərəm” dastanındakı bu final formulu nağıllardakı final formulunun, bir növ, əksi təsiri bağışlayır. Nağıllarda qırx gün, qırx gecə toy edib cavanlar qovuşurlarsa, burada qırx gün, qırx gecə yas saxlanılır. Dastan təhkiyəsində nağıllarda gördüyümüz dinləyiciyə yönəli arzular olsa da, nağılçının mükafatlandırılması və s. kimi xüsusiyyətlər yoxdur. Dastan təhkiyəsində final formulu sadə şəkildə ifadə olunur. Bəzi məhəbbət dastanlarında isə sonu toy ilə qurtardığından final formulu bu qəbildən olan cümlələrlə ifadə olunur: “Ustad bir aşıq toyun axırında bu duvaqqapmanı oxudu” (25, s.184). Belə bir təhkiyə üsuluna “Abbas-Gülgəz”, “Seydi və Pəri”, “Abdulla və Cahan”, “Müğüm şah”, “Səyyad və Səadət”, ”Məhəmməd və Güləndəm” və s. dastanlarda rast gəlirik. Bunlar sevinc məzmunu daşıyan duvaqqapma və sonluqla qurtarır.

“Abbas və Gülgəz” dastanında: “Burada təzədən bunlara qırx gün, qırx gecə toy elədilər. Ustad bir aşıq toyun axırında bu duvaqqapmanı oxudu... Aşıq Abbas Gülgəz Pəri ilə ölüncə Tufarqanda keflə, damaqla yaşayıb dövran keçirdilər. Siz də keflə, damaqla yaşayıb dövran keçirəsiniz, məddi-muradınıza çatasınız” (25, s.184 – 186);

“Seydi və Pəri” dastanındaTəzədən yeddi gün, yeddi gecə toy elədilər, toyun axırında bir ustad aşıq aşağıdakı duvaqqapma ilə toyu sona verdi” (25, s.211);

“Müğüm şah” dastanında: “Təzədən şadyanalıq keçirdilər, hər üçü qırx gün, qırx gecə toy elədilər, mən də gəlib çıxdım, toyun duvaqqapmasını oxudum” (25, s. 234).

"Abdulla və Cahan" dastanında: "Ustadlar deyir bunların ikisinin də toyu bir yerdə oldu. Qırx gün, qırx gecə toy eləyib, məddi-murada çatdılar. Aşıq gəlib toyun duvaqqapmasını belə söylədi" (25, s.265).

"Səyyad və Səadət" dastanında: "Molla nikah kəsdi, toy məclisi quruldu, toya bir aşıq çağırdılar, aşıq da toyu bu duvaqqapma ilə keçirdi" (25, s.361).

"Məhəmməd və Güləndəm" dastanında: "Toy başlandı, otuz doqquz gün, qırxıncı günü toyu tamam elədilər. Güləndəm xanımı tapşırdılar Məhəmmədə, Gözəl xanımı tapşırdılar Nağıya. Mübarək olsun toy, sağ olsun toya yığışanlar, sağ olsun bu toyda iştirak eliyənlər və oxuyanlar! Olar hər ikisi muradlarına çatdılar, istiyənlər də öz muradına çatsın" (26, s.48).

Göründüyü kimi, dastanlarda final formullarının müxtəlif formaları ilə qarşılaşırıq. Dastanlardakı final formulları hər bir dastanın xarakterindən, özünəməxsus forma-məzmun əlamətlərindən asılı olaraq formalaşmışdır. Qəhrəmanlıq dastanlarındakı final formulları ilə məhəbbət dastanlarındakı çeşidli formullar hər iki dastan növündəki təhkiyə, süjet fərqlərinə uyğun formada yaranmışdır. Qəhrəmanlıq dastanlarındakı epik vüsətdən fərqli olaraq məhəbbət dastanlarındakı təhkiyənin nağıl təhkiyəsinə yaxınlığı formulların da əlvanlığına ehtiyac doğurmuşdur.

**Əfsanə və rəvayətlərdə final formulları.** Epik növün janrları içərisində əfsanələr öz quruluşuna görə çox seçilir. Yuxarıda dediklərimizdən də yəqin etdik ki, əfsanələrin özlərinə məxsus xüsusiyyətləri vardır. Əfsanələr daha çox mifik obrazlarla və hadisələrlə bağlı olduğundan oradakı formullar da janrın tələblərinə görə mətndə formalaşır. Əfsanələrin sonunda, adətən, reinkarnasiya prosesi baş verdiyindən həmin prosesin tələbinə görə də final formulları əmələ gəlir. Mifoloji süjetli bütün əfsanələrdə biz bu cür final

formullarının işləndiyini görürük. Məsələn, “Çoban və daşa dönən sürü” əfsanəsində çoban verdiyi sözə əməl etmədiyindən final formulu nəticəni çox aydın əks etdirir: “Bu zaman çobanın özü də, sürüsü də daşa dönür” (37, s.303).

Başqa janrlarda final formulu ümumiləşmiş şəkildə mətnin sonunda janrın öz xüsusiyyəti kimi verilirsə, əfsanələr və rəvayətlərdə mətnin məntiqi sonluğunu əks etdirən formul kimi verilir. Əfsanələrdə bu yolla formalaşan final formulları çoxdur. Bundan əlavə, əfsanə mətnlərində final formullarının formalaşmasının ikinci bir yaranma yolu da vardır. Belə əfsanələr əsasən rəvayət mətnlərindən yaranır, yəni rəvayət motivləri öz söyləyicisini itirdikdən sonra xalq yaddaşında əfsanə mətni kimi formalaşır. Belə əfsanələrdə final formulları iştirak edir. Lakin bunlar sehrli, magik və ya mifoloji xüsusiyyətlərə malik olmur. Belə formullar hər hansı əşyanın, predmetin, qalanın, qayanın və s. obyektlərin final formulu içərisində formalaşması yolu ilə yaranır. Məsələn, “Laçın qayası” əfsanəsində “Bu qaya indi “Laçın qaya” adlanır” final formulu kimi Laçın adlı ovçunun iki qayanın arasına düşməsi, Ülkərin onu xilas etməsi və qayanın başına çıxması kimi hadisələrin adi təhkiyə yolu ilə nəqli sayəsində yaranmışdır (37, s.301). “Kürsəngi dağı” əfsanəsində də mifoloji hadisə nəticəsində final formulu yaranmışdır. Bu formul məntiqi formul kimi belə ifadə olunmuşdur: “Belə deyirlər ki, ilan bir adamı vuran kimi, tez həmin dağa qaçır. Əgər ilan vuran adam həmin dağa ilandan gec gələrsə, onda xəstə sağalmaz. Əgər xəstə tez çatsa, mütləq sağalmalıdır. Bu da onunla əlaqədardır ki, guya şəfanı onlara Kür verir. Kürün məzarını kim daha tez çatıb ziyarət etsə, Kür ona şəfa verər” (37, s.305).

Əfsanələrdəki final formullarına dair misallar: “Deyirlər ki, hər il bənövşə öz sevgilisi Baharın görüşünə hamıdan pünhan gəlir. Bahar isə öz gözlərindən leysan yağışı axıdaraq

sevgilisini isladır. Zalım Qış nə qədər onların görüşünə maneçilik törətsə də, heç vaxt Bənövşəni görə bilmir" (37, s.313); "İndi o dərya Göy göl adlanır. Bax, Göy göl bu cür əmələ gəlib (37, s.308); "Deyirlər ki, o vaxtdan güllər solduqca çoban təzəsini dərib başı altına qoyar, yatarmış. Həmin vaxtdan o çiçək "Çobanyastığı" adlanır" (37, s.314); "O gündən bu dağ Əshabi-Kəhf adlanır" (37, s.322); "Deyirlər ki, qız "lailahəilləllah" sözünü ürəkdən deməyib – yarı müsəlmandı, yarı gavır. Müsəlman olanda su gəlir, gavır olanda su quruyur" (91, s.154); "Həmin gündən o yerlərə "Xəzinə dağı" deyilməyə başladı" (91, s.162); "El arasında "Oğlan-qız" adlanan bu daşlara niyyət eləyirlər" (91, s.164); "Elə həmin vaxtdan həmin qoşa dağ el arasında "Oğlan-Qız" adıyla tanınır" (91, s.165); "Deyirlər o vaxtdan oğlanlar qayaya, qızların göz yaşları bulaq suyuna çevrilibdi. Kim o bulağın gözündən su içə bilsə, canından azar-bezar yox olar, kim o böyük qayanın üstünə çıxmağı bacarsa, quş kimi istədiyi yerə uça bilər" (91, s.167); "Babam daşı aparıb yerinə qoymur, günorta oğlu ölür. Ondan sonra daşı aparıb yerinə qoyur" (91, s.168); "Əfsanəyə görə Allah qızın yalvarışını eşidib onu daşa döndərir" (91, s.190); "Hamı o vaxtdan bu yerə Daş qız deyir" (91, s.191).

Final formulu bütün əfsanələrdə formalaşmamışdır. Bu isə süjetin çox qısa olmasından asılıdır. Eləcə də rəvayətlərin heç də hamısında final formuluna rast gəlinmir. Əfsanələrə nisbətən rəvayətlərdə final formuluna daha az rast gəlinir. Bu da rəvayətin mətninin mütəhərrik olmasından asılıdır. Final formulu rəvayətlərdə o vaxt tam şəkildə işlənir ki, mətn tam formalaşmış olur və başqa janra çevrilmək xüsusiyyətini daşıyır. Belə rəvayətlər "deyirlər ki", "rəvayət edirlər ki", "belə deyirlər ki", "deyilənə görə", "rəvayətə görə" kimi qəliblərlə başlanır və bu tipli formullar mətnin sonunda final formulunun ya özü kimi qəliblə, ya da adi cümlə şəklində işlənməsini

təmin edir. Belə qəliblərlə başlayan rəvayətlərdəki həmin ifadələri final formulunun əvvəlinə çox asanlıqla artırmaq olar və final formulu öz mənasını daha da qüvvətləndirər. Misallara diqqət edək: "(Deyirlər) O gündən qız hər şeyin sirrini bilir, xoşbəxt ömür sürür"(91, s. 207); "(Belə deyirlər ki) Bu ailədən bir nəfər də sağ qalmır" (91, s.206); "Deyilənə görə, ilanların qanlarının qızartısı indi də İlandağın qayalarında, bir də təpələrdə görsənir" (91, s.203); "Deyirlər bu heyvanlar elə o vaxtdan yırtıcı olub "(91, s.186); "(Rəvayətə görə) Deyilənə görə çobanla iti o qədər durub baxdılar ki, şəkilləri həmişəlik düşüb suda qaldı" (91, s.180); "(Belə deyirlər ki) Deyirlər ki, həmin gündən qadın hamilə olur, vədə tamamında dünyaya bir uşaq gətirir" (91, s.180); "Rəvayətə görə, qızların qəm-qubar dolu göz yaşları dumduru bulaq suyuna çevrilib axır. O vaxtdan həmin göz yaşları bir-birinə qarışaraq ananın göz yaşlarına qovuşur, haradasa itmiş qardaşlarını axtarırlar. İndi də yan-yana düzülüb dumduru göz yaşı kimi axan həmin bulaqlar el arasında "Yeddi bulaq" adıyla tanınır" (91, s.170); "Deyilənə görə, o vaxtdan qızıl, gümüş, bir də mis rəngləri daşıdıqları hökmdarların adıyla çağırıldılar" (91, s.178); "(Belə danışırlar ki) Elə o vaxtdan Muğan kəndinin adı Carçıboğan qalır. Kəndin indiki adı Çərçiboğandı" (91, s.178); "(Belə danışırlar ki) Rəvayətə görə həmin vaxtdan qalanın aşağı tökülən əhəng daşının izi hələ də qalanın daşları üzərində qalmaqdadır" (91, s.172); "Deyirlər ata-oğul həmin qocanı öldürüb son günlərinədək ömür sürmüşlər (deyirlər)" (91, s.172); "(Deyilənə görə) Rəvayətə görə Nuh Nəbi oğlanlarıyla Naxçıvanda məskən saldı. Gəmisi də Ordubadın Nəsirvaz kəndi yaxınlığındakı Gəmiqayada qaldı" (91, s.152).

Qeyd etdiyimiz əfsanə və rəvayətlərdəki final formulları nağıllarda və dastanlardakı final formullarından fərqlənir. Nağıl və dastanlardakı final formullar həmin janrların spesifik

xüsusiyyətlərini əks etdirir və tam final formulu kimi çıxış edir. Əfsanə və rəvayətlərdə isə final formulları adi təhkiyə üsulunda cümlə formasında mətndə işlədilir və ümumi məntiqi nəticəyə əsaslanır. Əgər əfsanə və rəvayətlərdə final formulu işlənməzsə, mətn tamamlanmaz, başqa janrlarda da belədir. Final formulu mətnin məntiqi cəhətdən tamamlanmasına xidmət edir.

**Lətifə və qaravəllilərdə final formulları.** Epik janrların içində lətifə xüsusi janrdır ki, burada mətnin içərisində heç bir ənənəvi formula rast gəlinmir. Lətifə janrında gülüş üstünlük təşkil etdiyinə görə final formulları da mətndən ayrılmır və sadəcə, gülüşün məntiqi sonluğuna çevrilir. Ümumiyyətlə, formulun əsas xüsusiyyətlərindən biri mətnin məzmunundan doğan nəticəni qısa şəkildə ifadə etməkdir. Lətifələrdə isə mətndən bu cür seçilmə xüsusiyyəti yoxdur, şərti olaraq "formul" adlandırdığımız final cümləsi gülüş mətninin adi bir hissəsinə çevrilir və mətni izah edir. Məsələn, "Bişmiş yumurtadan da cücə çıxarmış" lətifəsinin sonunda "Xəlifə səhvini başa düşüb tacirin var-dövlətini özünə qaytartdırır" cümləsi məntiqi cəhətdən sonluq olaraq işlənmişdir. Şərti olaraq bu cümləni final formulu hesab etmək olar (37, s.340-341). Çox zaman lətifələrin sonu hazırcavablıqla qurtarır və ağıllı cavab lətifənin final formuluna çevrilir. Amma bu cür cavab-formullar mətndən ayrılmır. Molla Nəsrəddinin dilindən söylənən "Onsuz da sabah dünyanın axırıdı, hamımız öləcəyik. Daha paltar nəyinə lazımdı", "Bəs qazan da doğarmı" (142, s.264); "Doyan o rəhmətlik kimi olar", "Sən çaldın" (142, s.230) kimi ifadələr xalq arasında məşhurlaşaraq deyimlərə çevrilmiş və istifadə edilməkdədir. Bütün belə əqli nəticələr sonluq olsalar da, formul kimi özünü təsdiq edə bilmir.

Qaravəlli janrında da lətifədə olduğu kimi əsl formula rast gəlinmir. Bu mətnlərdə də qaravəllinin sonundakı cümlələr

onun ancaq məntiqi nəticəsinə çevrilir. Qaravəlli nağılla lətifə arasında bir janr olduğuna görə onun məzmununda gülüş vardır, bu gülüş nağıl təhkiyəsinin içində əriyir, lakin final formulunun yaranmasına ehtiyac duyulmur. Buradakı cümlə sonluqları lətifələrdə olduğu kimidir, bəzi qaravəllilərdə isə nağılvari sonluqlara rast gəlinir. Məsələn, "Cənnətsatan molla" qaravəllisində nağıl final formulu kimi təhkiyəyə rast gəlinir. "Keçəl bu ənamları da götürüb, evlərinə apardı. Nənəsi ilə şad, kefi kök dolanıb, ömür sürdülər" (55, s.145).

Qaravəllilərin də əksəriyyətində cümlə sonluğu mətndən ayrıla bilmir, nağıl təhkiyəsi üslubunda qurtaran final formullarını isə mətndən ayırmaq mümkündür. Bu xüsusiyyətə görə qaravəllilərdə final formulunun iştirakını cümlə tipindən asılı olaraq ayırd etmək olur.

"Oğrubaşı qazı" qaravəllisində də final formulu nağıl təhkiyəsində olduğu kimidir. "Padşah əmr elədi, qazının və oğru yoldaşlarının boyunlarını vurdular, kişini də özünə vəzir qoydu. Onlar yedi, içdi, mətləb-muradlarına çatdılar" (55, s.137). Bu misal da qaravəllinin sonunda final formulunun işlənməsini göstərir. "Keçəllə qazı" lətifəsində isə final formulu nağıl formulunu əks etdirir. Mətnin sonunda "Yeddi gün, yeddi gecə toy elədi, qazının qızını aldı. Şən yaşayıb ömür sürdülər" (54, s.68) cümlələri qaravəllinin final formulunu təşkil edir. Qaravəllinin final formuluna yaxın olması onların nağıl üslubuna malik olmasını bir daha göstərir. Lakin nağılların final formullarında olan rəngarənglik qaravəlli formullarında yoxdur. Demək olar ki, qaravəllilərin əksəriyyətində final formulları məzmunca bir-birini təkrarlayır. Yuxarıda misal verdiyimiz qaravəlli final formulları ilə məzmunca eyniyyət təşkil edən çoxlu nümunələr tapmaq olar. "Keçəl, molla və ögey ana" qaravəllisinin final formulu "Keçəl öz muradına çatıb, can rahatlığıynan dövran keçirdi, siz də var olun" (133, s.60) məzmunlu

cümlələrlə qurtarır və yuxarıda gətirdiyimiz misallardakı məzmunu xatırladır. "Qaftanın nağılı" qaravəllisində də məzmunca başqa final formullarından seçilməyən final formulu ilə qarşılaşırıq. "Qaftan evlərinə qayıtdı. Bir kasıb kişinin qızını aldı, yeddi gün, yeddi gecə toy elədi. Qaftan, nənəsi Qaytan, arvadı və keçisi ilə ömür sürüb dövran keçirdilər" (133, s.12).

Nağılla lətifənin sərhədində dayanan qaravəllilərin final formulu isə tam nağıl final formuludur. "Duralının nağılı" qaravəllisinin final formulunda nağılın final formulunun eyni olan cümlələr işlənmişdir: "Bəli, dülgərdən, bənnadan tutdular, bir yaxşı ev tikdilər. Yığışdılar içinə. Kefi kök, damağı çağ yedilər, içdilər. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin. Siz yüz yaşayın, mən iki əlli, hansı çoxdu siz götürün, azı qalsın mənə. Siz sağ olun, mən salamat" (133, s.21). Belə misalların sayını artırmaq olar. Bu misallardakı final və başqa formullar janrın o qədər də arxaik olmadığını, başqa janrların qovuşuğunda yarandığını sübut edir.

# III FƏSİL
# FORMULLARIN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

## Subyekt bildirən formullar

Azərbaycan folkloru janrlarının dəyərliliyi həm də onların hər bir formulunun konkret xüsusiyyətlərə malik olması ilə şərtlənir. Formullar ilk baxışda adi və mənasız cümlə kimi görünsə də, əslində, hər bir formul növünün içində öz daxili mənaları vardır. Onların daşıdığı bu mənalar həmin formulları məzmunca bir-birindən ayırır. Formulların daşıdığı mənanın mahiyyətində onun dilinin əlvanlığı da rol oynayır. Lap qədim dövrlərdə mətnin içində işlənən formulların şeir kimi səslənməsi onların poetik məna kəsb etməsinə səbəb olmuşdur. Formulun stilini (şeirlə ifadə oluna biləcək üslubunu) əsas götürən tədqiqatçı Ramazan Qafarlı nağıl pişrovları ilə dastan ustadnamələri arasında yaxınlıq görür (130; 131). O, bu əlaqənin formal xarakter daşıdığını göstərir. Onu qeyd etmək istəyirik ki, başlanğıc formullarının yaranma prosesində onların poetik məzmun daşıması formulların semantikasına təsirsiz ötüşməmişdir.

Formulların semantik xüsusiyyətindən biri də onların içindəki məna və məzmunun şəxslə bağlı olmasıdır. Demək olar ki, bütün formullarda şəxs məzmunu ya açıq şəkildə, ya da qapalı olaraq özünü büruzə verir. Məsələn, başlanğıc formullarında əsas məzmun, yəni “Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində, qarışqa şıllaq atdı, dəvənin qıçı sındı, hamamçının tası yox, baltaçının baltası yox, günlərin bir günündə, Məmmədnəsir tinində, Göy imamın belində, biri varıdı, biri yox idi...” (58, s.182) başlanğıc formulunun məzmununda “Məmmədnəsir”, “Göy imam” kimi adlar çəkilir. Bu adlar formulun semantikasında əriyərək daxili qafiyəli şeir parçasının subyektinə çevrilir. Lakin onların daşıdığı məna mücərrəd olduğundan daxili semantikasının açılmasına ehtiyac

vardır. Buna görə də belə adların mənalarının açımı başlanğıc formulu üçün əhəmiyyət kəsb etmir. Başlanğıc formullarını təhlil edərkən onların daşıdığı mənadan asılı olaraq (əgər məna varsa) subyektləri təyin etmək olur. Həm mürəkkəb, həm də sadə formullarda əsas formulu təşkil edən parçadan sonra “bir tacir var idi”, “bir şah var idi” və s. subyektlərin adları çəkilir. Bu şəxslərin adlarının çəkilməsi onların ümumiləşmiş obraz olduğunu göstərir. Deməli, belə görünür ki, hər hansı bir formulda, istər başlanğıc, istər mətndaxili, istərsə də final formullarda subyekt adlarını təyin etmək mümkündür.

N.Roşiyanu başlanğıc formullarının formalaşmasında subyekt amilinin əsas olduğunu söyləyir. O, başlanğıc formullarından sonra qəhrəmana məxsus olan bir neçə morfoloji elementin iştirak etdiyini qeyd edir və onları belə müəyyənləşdirir:

1. Qəhrəmanın anadan olması; 2. Padşahın arzusu; 3. Qəhrəmanın səfərə yollanması; 4. Qəhrəmanın şücaəti; 5. Onun geri dönməsi; 6. Yolda təhlükə ilə qarşılaşması; 7. Mübarizə və qələbə (190, s.38).

Subyekt bildirən formulları iki qismə ayırmaq olar: 1. Başlanğıc formulundan sonra hər hansı bir adın iştirak etdiyini təsdiq edən subyekt formulu; 2. Subyektin (şahın) övladsızlığından sonra möcüzəli doğuluşdan dünyaya gələn qəhrəmanın - subyektin nağılda formula çevrilməsi.

N.Roşiyanunun bəhs etdiyi ikinci subyektdir ki, belə qəhrəman, subyekt formuluna dair çoxlu misallar göstərmək olar. Azərbaycan nağıllarında birinci subyekt formulu da iştirak edir ki, onlar da birbaşa nağıl qəhrəmanı olaraq özünü göstərirlər. Pişrovdan, yaxud başlanğıc formulundan sonra adı çəkilən qəhrəmanlara, məsələn, “Ovçu Pirim” nağılındakı ovçu Pirim kimi ümumiləşmiş qəhrəmanları aid etmək olar. N.Roşiyanunun qəhrəman tipi üçün müəyyənləşdirdiyi şərtlər birinci tip subyekt formulu üçün keçərli deyildir. Hər bir nağıl iştirak-

çısının özünəməxsus morfoloji elementləri vardır. Bütövlükdə bu morfoloji elementlər həm də nağılın strukturunu təşkil edir.

Həmin morfoloji elementlərə daha çox sehrli nağıllarda təsadüf olunur. Hər bir morfoloji elementin özünəməxsus funksiyası vardır. Məsələn, "qəhrəmanın anadan olması" morfoloji elementinin əsas funksiyası qəhrəmanı mifoloji obraz kimi təqdim etməkdir. Yuxarıda göstərilən morfoloji elementlər bütövlükdə nağıl süjetinin içində öz əksini tapır. Əgər onları struktur üzrə formullara ayırmış olsaq, "qəhrəmanın anadan olması"nın başlanğıc formula, "qəhrəmanın səfərə yollanmasının" başlanğıc (hərəkət) formuluna, "qəhrəmanın şücaəti" və "geri dönməsinin" medial formuluna, "yolda təhlükə ilə qarşılaşmaq" və "mübarizə və qələbə"nin final formuluna aid olduğunu görə bilərik. Bu morfoloji elementlər əksər sehrli nağılların strukturunda öz fəaliyyətini birbaşa davam etdirir.

Nağıl morfoloji elementləri ilə nağıl formulları arasında daxili əlaqə vardır. Onlar bir-birinə bağlıdır. Eyni zamanda morfoloji elementin özünəməxsus cizgiləri vardır. Məsələn, "qəhrəmanın anadan olması" ilə möcüzəli doğuluş və qəhrəmanın sürətlə böyüməsi stereotipləri arasında funksional əlaqə vardır. Bu əlaqəni "qəhrəmanın səfərə yollanması" morfoloji elementi ilə qarşılaşdığı maneələr arasında da qismən müşahidə etmək olar.

Azərbaycan nağıllarında subyektin iştirak ediyi əsas formullar mətndaxili formullardır. Demək olar ki, belə formullar subyektin iştirakı ilə formalaşır. Mətndaxili formullarda subyekt iki formada iştirak edir: şəxsən və qeyri-müəyyən halda. Lakin hər ikisində onun iştirakı birbaşa və ya dolayı yolla təmin olunur. Məsələn, "Qızıl qoç" nağılındakı mətndaxili formulda subyekt özü iştirak edir: "Mənzilbəmənzil, teyyimənazil yol getdilər. Hər bir ağaclıq yol getdikdən sonra keçəl baxıb gördü ki,..." (61, s.101). Göründüyü kimi, keçəl nağılın subyektidir və mətndaxili formulda da iştirak edir.

Mətndaxili formullarda da subyektlərin özünəməxsus funksiyaları vardır: 1.Subyekt yoldaşlıq edir; 2. Subyekt yol göstərir; 3. Subyekt özünü qurban verir; 4. Subyekt qəhrəmanlıq göstərir; 5. Subyekt ölür-dirilir, yəni inisiasiya prosesindən keçir; 6. Subyekt özünü təsdiq edir və s.

Saydığımız bu funksiyalar həm də nağıl qəhrəmanlarına xas olan xüsusiyyətlərdir. "Qızıl qoç" nağılında keçəl əsas qəhrəmandır, göstərilən bu funksiyaları yerinə yetirir.

Hərəkətin icra olunmasında da subyekt ya birbaşa, ya da dolayı yolla iştirakçı olur. "Uşaq pəhlavan" nağılında: "Biz eşitmişik uşaq aynan, ilnən böyüyər, günbəgün, saatbasaat boy atıb çinara dönmüşdü" (61, s.197) medial formulunda subyekt ancaq təsəvvür oluna bilir. Diqqətlə nəzər saldıqda bu subyektin nağıl qəhrəmanı olduğu bilinir. Mətndaxili formulda subyektin dolayı yolla təsvir olunması qəhrəmanı formulun təsvir etməsindən əvvəl baş verir. Bu səbəbə görə də epik təhkiyədə, xüsusilə formulda qəhrəmanın adının çəkilməsinə ehtiyac yaranmır. Azərbaycan nağıllarında qəhrəmanın adı çəkilməyən belə formullar da çoxdur. Məsələn, "Bənidaş şəhərinin sirri" nağılında: "Ayaq üzəngidə, diz qabırğada, günə bir mənzil, teyyi-mənazil, burda aynan, günnən, orda şirin dilnən, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi gəlib çıxdı yeddi yolun ayrıcına, gördü bir qoca abid..." (61, s.167); "Hatəmin nağılı"nda: "Çəkib çarığın dabanını, qırıb yerin damarını, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, acı biyanlıq, çox-çox qamışlıq, günə bir mənzil, teyyi-mənazil, gecəni gündüzə qatıb bir neçə gündən sonra gəlib çatdı həmin yolun ayrıcına" (61, s.64).

Mətndaxili formullarda subyekt hərəkətlə bağlıdır. Yuxarıdakı formulda da təsəvvür edilən subyektin uzun bir yol getdikdən sonra təyin olunmuş yerə gəlib çatması göstərilir. Hərəkətin uzun və ya qısa olması təhkiyədən asılıdır.

Bundan başqa, mətndaxili formullarda elə nümunələrə də rast gəlinir ki, orada subyekt nə iştirak edir, nə də təsəvvür olunur. Bu cür formullar mətndaxili formulların xüsusi keçid formasıdır ki, ona da medial formul deyilir. "Yetim İbrahim və sövdəgər" nağılında belə formul işlənmişdir: "Nağıl dili yüyrək olar, amma iş yüyrək olmaz" (60, s.196). Həmçinin, "Ovçu Pirimin nağılı"nda: "Qırx gün qırx gecə ilanların davası oldu" (61, s.64); "Dəlisov arvad" nağılında: "Bəli, nağıl dili yüyrək olar. Bu söz burda qalsın, sizə kimdən xəbər verim, arvaddan" (61, s.24) medial formullarını da göstərmək olar.

Birbaşa subyektin iştirak etmədiyi mətndaxili formul: "Göyçək Fatma" nağılında: "Aya dedi sən çıxma, mən çıxacağam, günə dedi sən çıxma mən çıxacağam. Yanaqlar qıpqırmızı alma kimi, dodaqlar qaymaq, dişləri inci, gözü maral gözü, nə deyim, bir baxan deyərdi ki, bir də baxım" (61, s.68).

Belə nağıllarda subyekt olmasa da, onlar haqda informasiya verilir. Bu formullar belə başlanır: "Qız nə qız...", "Div nə div...", "Qaşları kaman kimi, kirpikləri ox kimi, nərgiz gözlü, gül yanaqlı, ağ buxaqlı, reyhan sözlü, mərmər sinəli, can alan, könül talayan, ürək yandıran, oğulları başdan çıxaran bir qız" (61, s.303).

Mətndaxili formulların bir xüsusiyyəti də odur ki, burada subyekt iştirak etməsə də, nağılçı subyekt olmaq funksiyasını daşımaqdadır. "Dəlisov arvad" nağılında da nağılçı başqa süjetə keçid etmək üçün özünün bu funksiyasından istifadə edir. Lakin o, nağıl personajı olmadığından onun subyekt olması düşünülmür.

Azərbaycan nağıllarında subyektlər final formullarının yaranmasında iştirak edir. Belə final formullarda subyektlər həm birbaşa öz adları ilə iştirak edə bilir, həm də adları çəkilmədən ümumi şəkildə "onlar" şəxs əvəzliyinin vasitəsilə subyekt kimi formalaşır. "Dostluğun sirri" nağılındakı final for-

mulunda qəhrəmanların adları çəkilir, Məlik və keçəl Məhəmməd final formulunun yaranmasında rol oynayır (37, s.249).

Final formullarında da subyektlərin iştirakına rast gəlinir. Belə formullara ümumi halda nağıllarda "onlar yedilər, içdilər" şəklində subyektlərin iştirakında rast gəlinir.

Azərbaycan nağıllarında nağıl subyektinin iştirak etmədiyi, əvəzində nağılçının subyekt kimi iştirak etdiyi nağıllar da az deyil. Belə nağıllar adətən "Göydən üç alma düşdü…" sonluğu ilə qurtarır. N.Roşiyanu final formulunda nağılçının subyekt kimi iştirakında 6 məqsədin olduğunu söyləyir. Onları belə təsnif edir: 1. Nağılçının hökmdarın verdiyi qonaqlıqda iştirakı; 2. Nağılçının bu qonaqlıqda fəaliyyəti; 3. Nağılçının fəaliyyət meydanından dinləyiciə doğru yerini dəyişdirməsi; 4. Yerdəyişmənin məqsədi – nağılçının məlumatı; 5. Nağılçı hədiyyə alır; 6. Nağılçı özünün mükafatlandırılmasını istəyir (190, s. 84-85).

Ümumiyyətlə, nağıllarda subyekt böyük anlayışdır. Nağılın növündən asılı olaraq subyektin məzmunu genişlənir, ya da darala bilir. Sehrli nağıllarda subyekt həm də mifoloji obrazdır, mənfi və ya müsbət xarakterdə ola bilir və s. Heyvanlar haqqında nağıllarda da subyekt əhəmiyyətli rol oynayır. Alleqorik və uşaq nağıllarında isə subyekt məzmundan asılı olaraq dəyişir.

Subyekt həm də obrazdır, nağıl qəhrəmanıdır. Dastanlarımızda da başlanğıc, mətndaxili və final formullarda subyekt problemi həlledici sayılır. Bu cəhətdən ən çox diqqəti cəlb edən "Kitabi-Dədə Qorqud" dastanıdır. Çünki bu dastanda subyektlərin iştirakı birmənalıdır, konkret şəxslərlə bağlıdır. Bəzi mətndaxili formulları ("At ayağı kölük, ozan dili çevik olar", "İyəkülü ulalur, qabığalı böyür") çıxmaq şərtilə qalan formullarda subyektlər həm müəyyən obraz, həm də ümumiləşmiş şəkildə iştirak edirlər. Bu subyektlər tarixi şəxslərdir və dastanda obraz kimi fəaliyyətdədirlər. Dədə Qorqudun özü dastanda subyekt və obraz kimi fəaliyyət göstərir.

“Koroğlu” dastanında da “Kitabi-Dədə Qorqud” dastanında olduğu kimi, subyektlər başlanğıc, mətndaxili və final formullar içində obrazlaşırlar. Hətta “Kitabi-Dədə Qorqud” dastanından fərqli olaraq “Koroğlu” dastanında keçid formullarında dastanı söyləyən aşıq özü subyektə çevrilir, yəni “bunlar yaşamaqda olsunlar, sənə kimdən deyim, toqatlı Hasan paşadan” keçid formulunda (32, s.160) dastançı özü də iştirakçıya çevrilir. “Koroğlu”da mətndaxili keçid formullarının bəzisində isə (“Ustad dili yüyrək olar”, “Deyirlər ki, dəlilər Koroğludan ayrılmaq istəməmişdilər”) (32, s.379) – subyekt qeyri-müəyyəndir, iştirak etmir.

Məhəbbət dastanlarında isə subyekt problemi hər bir məhəbbət dastanının məzmununa uyğun olaraq öz həllini tapır. Məhəbbət dastanlarının təhkiyəsi ilə nağıl təhkiyəsi eyni olduğuna, cüzi dəyişikliklərə baxmayaraq, formullarda subyektlərin iştirakı çox konkretdir. Yəni məhəbbət dastanının qəhrəmanları xalq düşüncəsinin məhsulu olsa da, nə vaxtsa yaşamış real şəxslərin dastanlardakı ümumiləşmiş, ya da mistik obrazlarıdır. Buna görə də məhəbbət dastanlarının qəhrəmanları bizə canlı şəkildə görünür. Dastan formullarındakı subyektə münasibəti dastançı özü müəyyənləşdirir. Məhəbbət dastanlarının başlanğıc formullarında (“ustadlar ustadnaməni bir deməyib, iki deyir, biz də deyək iki olsun, düşmənin ömrü solsun”) (25, s.275) aşıq özü subyektə çevrilərək dastanı ifa etməyə başlayır. “Ustad dili yüyrək olar” (25, s.319); “Aşıq dili yüyrək olar, at ayağı külək, tez aparıb, tez gətirər” (26, s.273), “Bunlar kefdə, damaqda olsunlar, sənə kimdən deyim, Zeyddən” (25, s.332) kimi keçid formullarında da aşıq özünün və ustadının subyekt olmasını təsdiq edir.

Məhəbbət dastanlarının final formulları da nağıldakı kimi sonluqla qurtarır, yəni “Əsli-Kərəm”dən başqa bütün qəhrəmanlar evlənir, bir-birinə qovuşurlar. Nağıldan fərqli olaraq dastanda

göydən üç alma düşmür və dastançı dastanı söyləməkdə nağılçıdan fərqli olaraq özünə heç nə istəmir. Məhəbbət dastanlarının formullarında subyektlərin iştirakı və ya təsəvvür olunması eynilə nağıldakı kimidir. Əminliklə demək olar ki, nağıl subyektləri dastan subyektlərinin formalaşmasına təsir etmişdir.

Yuxarıda qaravəllilərin də nağıllara yaxın bir janr olduğunu demişdik. Qaravəllilərin formullarında da subyektlərin iştirakı, demək olar ki, nağıllardakı kimidir. Hətta bəzi qaravəllilərin sonunda da göydən üç alma düşür və qaravəlli danışanın qisməti olur. Qaravəlli subyektlərinin semantikası nağıl subyektinin semantikasına yaxın olduğundan eyni fikirləri təkrar etmək istəmirik.

Janrlar içərisində semantika əfsanə və rəvayət subyektlərinə daha çox aiddir. Xüsusilə əfsanənin semantikası onun obrazlarının mifoloji səciyyəsi ilə ölçülür. Əfsanələrdə subyektlər real deyil. Bununla bərabər onlar canlı olaraq mətndə iştirak edir, fəaliyyətlərini davam etdirirlər. Belə mətnlərdə mətndaxili keçid formullar olmadığına görə, əfsanə subyektləri başlanğıc və final formullarda aparıcı rola malik olur.

Əfsanə mətninin əvvəlində (başlanğıc formulunda) subyekt təsvir olunur. Əfsanənin final formulunda isə biz həmin subyekti yox, onun arxaik düşüncədəki onqon, totem əcdadına çevrilməsini görürük. Əfsanənin sonunda subyekt fəaliyyət göstərmir, yəni o, deyək ki, quş olub göyə uçur. Deməli, əfsanədə subyekt məsələsi yalnız başlanğıc formulunda özünü təsdiq edir. Əfsanə subyektinin əslində başlanğıcda fəaliyyəti gözə çarpır. Təhkiyədən yəqin edirik ki, bu subyekt əfsanələrdəki ilkin arxaik düşüncədə – mifdə quş imiş, dağ, dərə... imiş, əfsanələrin mətnində isə subyekt canlı olaraq daha çox qız-gəlin kimi təsvir-təsəvvür olunur, mətnin sonunda yenə quşa çevrilib uçur, dağa-dərəyə dönüb donur..., yəni subyektlikdən çıxır. Burada əfsanənin, həm də subyektin se-

mantikası gedib mifə çıxır. Mifin qənaətlərinə uyğun olaraq subyekt öz fəaliyyətini davam etdirir.

Heyvanlarla, totemlərlə bağlı əfsanələrdə də belədir. "Hərşənin maralları" əfsanəsində də subyekt Hərşədir. O öz semantikası ilə mifə bağlıdır. Əfsanədə təsvir olunur ki, çox kasıb yaşadıqlarına, ərinin də ailəni dolandıra bilməməsinə görə Hərşə onun qapısına gələn maralları sağır, süd-qatığı balalarına yedirir. Əri evdə süd-qatığı haradan almasını soruşanda Hərşə bunu sirr kimi saxlamaq istəyir. Əri onu izləyir, Hərşə maralları sağanda onun əli budağa dəyir, şıqqıltıdan marallar hürküb gedir. Hərşə də marala dönür (158, s.205). Bu əfsanənin mif semantikasına görə Hərşənin marala çevrilməsi labüddür. Çünki onun totem həyatında maral böyük rol oynayır. Bu əfsanənin yayıldığı regionlarda qədimlərdə marala böyük inanc olmuşdur. Bu inanc əfsanədə Hərşənin marala dönməsini asanlaşdırmışdır. Deməli, əfsanənin başlanğıc formulunda Hərşənin subyekt kimi fəaliyyətini görürük. O, marala dönəndən sonra bu fəaliyyət dayanır.

Göründüyü kimi, əfsanə subyektləri mifoloji səciyyəli olduğundan onları fəaliyyətləri baxımından iki qismə bölmək olar: şəxsləndirilmiş obraz kimi fəaliyyətləri, ilkin halına qayıtdıqdan sonrakı fəaliyyətsizlikləri.

Rəvayət məntlərinin sonradan əfsanələşməsi nəticəsində də çoxlu sayda əfsanələr yaranmışdır. Belə əfsanələrdə subyekt problemi mücərrəd obrazı əks etdirmir, real tarixi hadisələrin yaddaşlardan silinməsi ilə bağlı olaraq, həm də faktların və adların unudulması nəticəsində oradakı subyektlər ümumiləşmiş obraza çevrilirlər. Ancaq bu subyektlərin də semantikasında əfsanənin strukturunun ənənəvi xüsusiyyətləri öz əksini tapır. Bunların da qəhrəmanlarının subyekt kimi başlanğıc formulunda adları çəkilir, lakin sonra daşa, ağaca və s. dönməsi ilə fəaliyyətlərini dayandırdıqlarını görürük. "Belə rəvayət edirlər ki, bir

kənddə gözəl-göyçək bir qız varmış. O, kasıb kişinin qızıymış. O qız kasıb bir oğlana nişanlı imiş. Kəndin katdasının gözü qıza düşür. Qız bulaqdan su gətirəndə katda onu qaçırmaq istəyir. Qız allaha yalvarır ki, bu zalım ağaya arvad olmaqdan ölüm yaxşıdır. Allah onun yalvarışını eşidib daşa döndərir" (91, s.190). Əfsanə semantikasına uyğun olaraq, subyekt başlanğıc formulunda iştirak edirsə də, final formulunda onun fəaliyyəti dayanır.

Ancaq rəvayət mətnlərində subyektlər həm başlanğıcda, həm də finalda iştirak edirlər. Bu həm mifoloji, həm də adi rəvayətlərə xasdır. Çünki rəvayətin strukturu onların fəaliyyətinə əsaslanır. Hətta bəzi rəvayətlərdə mətndaxili formullara rast gəlinir ki, burada da rəvayət söyləyən subyekt kimi çıxış edir. Belə rəvayətlər olduqca azdır, təhkiyə üsuluna görə isə nağıl və dastan təhkiyəsinə yaxındır. Bu mətnlər aşıq rəvayətləridir. Burada subyekt rəvayəti söyləyən aşıq, həm də onun qəhrəmanı olan subyektdir.

Lətifə subyektləri kimi isə Bəhlul Danəndə, Molla Nəsrəddin, Hacı dayı və başqa mümkün prototiplər obrazlaşmışlar. Lətifə mətnlərində, adətən, bir və ya iki subyekt iştirak edə bilir. Bu subyektlərin semantik dəyəri eybəcərliklərə gülüb onları tənqid etmək, tərbiyə və islah etməklə ölçülür. Bu mətnlərdə gülüşün semantikası kəskin deyildir, ictimai məzmundadır və ifşaedici xarakter daşımır.

## Obyekt bildirən formullar

Formul nəzəriyyəsinin mahiyyətini subyekt, obyekt və hərəkət təşkil edir. Buna uyğun olaraq folklor mətnlərində subyekt formulları iştirak etdiyi kimi, obyekt bildirən formullara da rast gəlinir. Obyekt bildirən formullar deyəndə, əsasən, cansız əşyalar, gözəlliyi tərif olunduğu ümumi adlar və s. başa düşülür. Əgər bir mətndə subyekt vardırsa, həmin subyektin ifadə olunduğu və tərif edildiyi keyfiyyətlər onun obyektini təşkil edir.

“Məlik çoban” nağılında qarı subyekt olsa da qarının növləri onun obyekt məzmununu təşkil edir. “Qarı bir neçə cür olur, qarı var mamlı-matan, yük üstə yatan, bəlxun sağrı, plov yeməz, üzü gülməz, dabanı çatdağ, baldırı çılpaq, ipəyi qarı, köpəyi qarı, yaxası açıq, tumanı cırıq, saçları qırıq, küpəgirən, buzuminən qarı” (59, s.140).

Gözəlin tərifi ilə bağlı məqamlar subyekt və obyekt əlaqələri zamanı üzə çıxır. “Şahzadə və qurbağa” nağılında obyekt kimi qızın gözəlliyinin ölçüləri əsas götürülür. “Qaşları kaman kimi, kirpikləri ox kimi, nərgiz gözlü, gül yanaqlı, ağ buxaqlı, reyhan saçlı, mərmər sinəli, can alan, könül talayan, ürək yandıran, oğulları başdan çıxaran bir qız” (61, s.303). Belə formullarda həm subyekt, həm də obyekt formulları birlikdə işlənir, bir-birini tamamlayır. Hər iki formul mətndaxili formulların tərkib hissəsinə çevrilir: “Bağ nə bağ? Şair gərək ki, onu tərif eləsin. Ağaclar baş çəkib ərşi-bəlayə, hər tərəf cənnəti-basəfa, çiçəklərin ətrindən qarın doyur, insan az qalır bihuş olsun. Suların şırıltısı, quşların nəğməsi, bülbülün cəh-cəhi insanı valeh eləyir. Güllər aşiq qəlbi kimi qanla dolub, nərgizlərin üstündə şeh”.

Bu formulda bağ məkan olub obyekt mənasını bildirir. Formulda tərif olunan, bənzədilən formulun əşyavi xüsusiyyətidir. Ümumiyyətlə, obyekt bildirən formullar azlıq təşkil edir. Belə nümunələrə ancaq nağıllarda və məhəbbət dastanlarında rast gəlinir. Belə formulları canlı və cansız obyektlər üzrə iki qrupa ayırmaq olar. Cansız əşyaların xüsusiyyətlərini üzə çıxaran obyekt formulları çox azdır. Ən çox rast gəlinəni canlı obyektlərlə bağlı formullardır. Biz canlı obyekt kimi gözəl qızı, qarını, divi götürürük. Nağılçı da onları təhkiyənin obyekti kimi nəzərə çarpdırmaq istəyəndə bədii epitetlərdən və təsvirlərdən istifadə edir. Məsələn: “Qız nə qız, aya deyərdi sən çıxma, mən çıxım, günə deyərdi sən çıx-

ma, mən çıxım. Zülfləri bulud kimi tökülmüş topuğuna, qaşları kaman kimi çəkilib, öldürrəm ha, öldürrəm deyirdi. Yanaqları yazın baharı kimi, dodaqları yaqutun kənarı kimi, dişləri inci mirvari kimi aşiq öldürməyə hazırlanmışdı" (59, s.223); "İbrahim ömründə belə devlər görməmişdi. Boyları minarə kimi, qolları çinar kimi, buynuzları incir budağı kimi. Hər birinin 7 başı var idi. Hərəsi 7 dəyirman daşıdı. Bir çinar ağacını başına keçirib almışdılar əllərinə" (59, s.223); "Mələkxanım baxıb gördü ki, bu elə gözəl oğlandı ki, deyirəm Yusif qəbirdən dirilib gəlir. Allah-təala xoş gündə, xoş saatda bunu yaradıb" (59, s.47); "Qız o qədər gözəlmiş ki, nə olaydı ona bir də baxaydım. Elə bil ki, huri-mələk, şəhla gözlü, şirin sözlü, hilal qaşlı, balınc döşlü, fındıx burunlu, açıq alınlı, dili bal pətəyi, dişləri inci, gəl məni gör dərdimdən öl" (61, s.260); "Bəxtiyar bir qız gətirib, vallah yemə-içmə, xətti xalına, gül camalına tamaşa elə" (59, s.114); "Bir belə mələk simalı, boy-buxunlu, misli-bərabəri olmayan qızın şəklini görəndə Valeh uzaqdan-uzağa bir könüldən min könülə aşiq oldu, rəngi saralıb, əhvalı dəyişdi" (31, s.343); "Bunların arasında biri var, gözəllikdə misli-bərabəri olmaz, elə bil Züleyxadı" (31, s.348); "Aşıq Cünun baxdı ki, məclisin başından bir oğlan durdu ayağa, bir oğlan durdu ki, heç Yusif onun əlinə su tökməyə layiq deyil" (32, s.108); "Amma Eyvaz nə Eyvaz. Ərəb atın üstündə, misri qılınc dəstində, tülək-tərlan şəstində, min bir canın qəsdində, elə süzür, elə süzür ki, elə bil oxdu yayından qopub" (32, s.132); "Fərişteyi-kirdar, ürək basan, sərfi kəsən, gözünü süzən, canlar üzən, düymə düzən, qonça dahan, gülü reyhan, süzgün baxan, gəl məni gör, dərdimdən öl, əlini vurma, geridə dur. Qız deyirəm, yayın qızdırması demirəm ki, qışda yaxandan əl çəkməyə" (31, s.11).

Obyekt bildirən formullarda tərif edilən obyektə dastançı və ya nağılçının münasibəti demək olar ki, eynidir. Söyləyici

öz obyektini təsvir edərkən ənənəvi üsullardan istifadə edir, hazır qəliblər, epitetlər və bədii təsvir vasitələrindən yararlanır. Demək olar ki, o, obyekti təsvir edərkən bütün dastanlarda və nağıllarda eyni modeli təkrarlayır. Ona görə də obyektlə onun təsviri arasında boşluq əmələ gəlmir. Ustad söyləyici bu formulun sırasında təşbehlərin, metaforaların bədii gücündən istifadə etməklə poetik mənanın qüvvətlənməsinə çalışır.

Obyekt bildirən bütün formullar eyni məqsədə xidmət edir. Əgər bu obyekt qızdırsa, söyləyici onun gözəlliyini daha qabarıq vermək üçün bədii epitetlərdən, metaforalar və təşbehlərdən istifadə edir. Nağıl və ya dastan qəhrəmanının gücünü təsvir etmək, qabartmaq istəyirsə, onun rəqibinin gücünü, azmanlığını, nəhəngliyini göstərmək üçün müxtəlif müqayisələrdən, təşbeh və bənzətmələrdən yararlanır. Məsələn, o, divi təsvir edərkən fantastik şəkildə onu təqdim edir və belə hiperbolik təsvirlə onunla qarşılaşan öz qəhrəmanının gücünü göstərmək istəyir.

Obyekt bildirən formulları daxili məzmununa, quruluşuna görə iki hissəyə ayırmaq olar: obyekt və obyektin təsviri. Obyektlər nağıl və dastan qəhrəmanlarının qarşılaşdığı, təsvir olunan əşya, hadisə, hər hansı canlı və s. ola bilər. Obyekt bildirən formulun ikinci hissəsində məzmun fərqi ola bilər. Əksər obyekt bildirən formullar qızlara aid olduğundan, onun ikinci hissəsini tərif təşkil edir.

Qarı, div və s. obyektlərin təsvirində isə onların mənfi cəhətləri, ya da müsbət xüsusiyyətləri sadalanır, bənzədilir.

Obyekt bildirən formulun birinci hissəsində formulun obyekti cümlənin əvvəlində verilir: “bağ nə vağ”, “qız nə qız”, “div nə div” və s. Belə obyektlər mətndən seçilib ayrıca ifadə olunur və xüsusi intonasiya və emosiya ilə təqdim edilir. Digər obyekt bildirməyən formullarda isə obyektlər cümlə

içində olur, həm də intonasiya və emosiyadan məhrumdur, adi təhkiyə formasında söylənilir.

Bütün bu dediklərimiz obyekt bildirən formulların işlənmə yerini və məqamını açıb göstərir, söyləyicinin münasibətini ortaya qoyur. Belə formullar bədii cəhətdən çox qüvvətli olurlar.

## Proses bildirən formullar

Azərbaycan folklorunda demək olar ki, əksər formullar bu və ya digər dərəcədə prosesə bağlıdır. Proses işin, hərəkətin davamlılığını, ya da başa çatmasını göstərir. Buna görə də hər bir formulun məzmunundakı proses onun formalaşmasında əsas rol oynayır. Deməli, proses olmasa həmin formul nə başlanğıc mənasını, nə mətndaxili, nə də final mənasını göstərə bilməz. Formulların əmələ gəlməsində prosesin rolundan asılı olaraq onu üç növdə fərqləndirmək olar: 1. Başlanğıc formulunda proses; 2. Mətndaxili formullarda proses; 3. Final formullarında proses.

Başlanğıc formullarında proses başa çatdığından buradakı prosesi tamamlanmış proses adlandırmaq olar. "Biri var idi, biri yox idi" tipi ilə başlamış başlanğıc formullarında proses tamamlanmış olduğundan buradakı hərəkət qapalılıq təşkil edir. Ona görə də prosesin tamamlandığı başlanğıc formullarından sonra pişrovlar sərbəst işlənə bilir. Məsələn, "Həkanhəkan içində, qoz girdəkan içində, dəvə dəlləklik edər köhnə hamam içində, qarışqa şıllaq atdı, dəvənin qıçı batdı. Milçək mindik, körpü keçdik, yabaynan doğa içdik. Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz bir girdəkan" pişrovunda özündən əvvəl gələn "biri var idi, biri yox idi" (60, s.172) formulundakı hərəkət bitdiyi üçün prosesin davam etdiyini görmürük. Proses bildirən formulun qrammatikada da işarəsi *-idi, -imiş* keçmiş zaman şəkilçiləri ilə ifadə olunur.

Dastanlarda da hərəkət və zamanın qurtarmasını göstərən başlanğıc formullarında söz-işarələrdən istifadə olunur. Bu işarələr “deyirlər”, “demişlər”, “belə deyirlər”, “ustadlar ustadnaməni bir yox, iki demişlər, biz də deyək üç olsun” və s. tipli söz və cümlələrdən ibarət olur. Bunlarda başlanğıc formulun tam formalaşması aydın görünür.

Proses bildirən formullar birbaşa olaraq hərəkət məzmunu daşıyan formullarla bağlıdır. Hər bir formulun məzmununda hərəkət məzmunu vardır. Hərəkətin məzmununun tamamlanması aid olduğu formulda da özünü göstərir. Final formulunda nağılın sona yetməsi başa düşüldüyündən onda həm hərəkətin, həm də prosesin tamamlanması aydın görünür. Ona görə də sonluq formulu həm də prosesi bildirən formul kimi xarakterizə olunur.

Dastanlarda hərəkətin tamamlanmasını göstərən mətndaxili formullara da rast gəlinir ki, bunlar keçid məzmunu daşısalar da, bütövlükdə proses bildirirlər. Məsələn, “Əsli-Kərəm” dastanında “günə bir mənzil, teyyi-mənazil, az getdilər, çox getdilər, çox getdilər, az dayandılar, günlərin birində gəlib Hələb şəhərinə çatdılar” (25, s.302) keçid formulunda hərəkət tamam olduğundan getmək prosesi də Hələb şəhərinə çatmaqla başa çatır.

Mətndaxili formulların keçid bildirən hissələrində isə bəzən hərəkətin və prosesin davamediciliyini görürük. “Sizə xəbər verim Təbriz şəhərindən”, “Az getdilər, çox getdilər, iynə yarım yol getdilər”, “Sənə kimdən xəbər verim, su ağacı, cüvəllağı, şeytan əməlli, küpəgirən qarının əlindən su içən tacir İlyasdan” (60, s.375) kimi keçid formullarında hərəkətin uzandığını və prosesin hələ başa çatmadığını görürük. Eyni prosesi “Keçəl Məhəmməd” nağılında da görmək mümkündür. Nağılda deyilir ki, “çəkib çarığın dabanını, qırıb yerin damarını, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sər-

sər kimi, az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib çatdı bir dəryanın kənarına" (62, s.110). Bu mətndaxili formulda hərəkət ilə proses iç-içədir. Burada proses davamedici olub hərəkətin uzun sürəkliliyi ilə ölçülür. Nağıl təhkiyəsində hərəkətin uzun sürəkliliyi lakonik şəkildə, həm də bədii şəkildə dərələrdən sel, təpələrdən yel kimi getməklə uzun yolun dərə-təpə düz (kəsə) gedilməsi ilə yadda qalır. Deyək ki, bu cür prosesin və hərəkətin sürəkliliyinin qısa şəkildə lakonikləşməsini ancaq nağıl və qaravəlli təhkiyəsində, qismən də dastan təhkiyəsində müşahidə etmək olar. Bu mətndaxili formulun "Koroğlu" dastanında mürəkkəb formasına rast gəlirik ki, burada da nağıl təhkiyəsinin təsiri hiss olunur. Məsələn, "O, necə deyərlər, çəkdi çarığın dabanını, qırdı yerin damarını, günə bir mənzil, az getdi, üz getdi, dərə-təpə düz getdi, günlərin birində gəlib Çənlibelə çatdı" (32, s.236).

"Koroğlu" dastanında bu cür proses bildirən mətndaxili formullardan bu və ya digər dərəcədə istifadə olunur. "Yolları, yamacları üz elədilər, dağları, daşları düz elədilər, ildırım kimi süzüb Ballıcaya çatdılar" (32, s.283); "Gündə bir mənzil, təyyi-mənazil, o, necə deyərlər, təpələr aşdı, dərələr keçdi, mənzildən ötüb mənzilə düşdü, günlərin bir günündə gəlib Dərbəndə çatdı" (32, s.341) kimi mətndaxili formullarda hərəkətin sürəkliliyi qısaldılır, prosesin tez başa çatması qısa hərəkət formulları vasitəsilə göstərilir.

Məhəbbət dastanlarında da hərəkət və proses bildirən formullar işlənir. Belə formullara adətən başlanğıc, mətndaxili və final formullarının daxilində rast gəlinir.

Başlanğıc formulunda: "Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, dostların başı dik olsun" (33, s.78); "Ustadlar ustadnaməni bir deməyib iki deyərlər. Biz də deyək iki olsun, mərdlərin başı dik olsun. Us-

tadlar ustadnaməni iki deməyib üç deyər, biz də deyək üç olsun, namərdlərin ömrü puç olsun" (33, s.122).

Mətndaxili formulda: "Günə bir mənzil, təyyi-mənazil getdilər, bir çəmənzara yetdilər" (33, s.45); "Sam gecə-gündüz yol getməkdə olsun, indi sizə bir balaca Məsləhət xanımdan nağıl eləyim" (33, s.195); "Günə deyir sən çıxma mən çıxacağam, aya deyir sən doğma mən doğacağam" (33, s.104).

Final formulunda: "Yeddi gün, yeddi gecə toy eləyib həsrət əllərini bir-birilərinə çatdırdılar" (33, s.73); "Deyirlər şahzadə Bəhrəmin toyuna bir neçə aşıq gəldi, gözəllərin duvaqqapmasını belə söylədi" (33, s.115); "Sam şahzadəyə qırx gün, qırx gecə toy oldu. Onlar murad hasil elədilər" (33, s.204); "Bəli, qonaqlar dadlı yeməklərdən yedilər, içdilər, danışdılar, can deyib can eşitdilər, sonra isə hərə öz evinə dağılmağa başladı" (33, s.452).

Proses bildirən formullar final formulların məzmunundan asılı olaraq mətndə öz yerini tapır. Qeyd edilən bütün bu formullarda hərəkətin və prosesin müxtəlif yollarla başa çatması göstərilir.

Proses bildirən formullara əfsanə və rəvayətlərdə də rast gəlinir. Belə proses bildirən formullar təhkiyə zamanı üzə çıxır. "Mincivan bulağı və Tərtər çayı" rəvayətində "Belə deyirlər ki, dədə-babalarımız qədim zamanlardan at belində dəstə-dəstə gəzərmişlər" (37, s.308) cümləsi başlanğıc formulunu ifadə edir. Həm də bu cümlədə proses hərəkət vasitəsilə ifadə olunur. Əfsanələrdə də prosesin hərəkət vasitəsilə icra olunduğunu görürük. Adsız bir əfsanədə Həzrət babanın dağda maralları kotana qoşub daş-kəsəyi o üzə-bu üzə çevirməsi təsvir olunur. Bu təsvir əfsanənin başlanğıc formulunu əvəz edir (85, s.152). Rəvayətlərə nisbətən əfsanələrdə proses bildirən başlanğıc formulları azlıq təşkil edir. Yenə adsız bir əfsanədəki "Bir gün Şah Abbasla vəzir səyahətə çıxırlar. Gö-

rürlər bir yerdə it hürür, bir yerdən işıq gəlir. İşıq gələn tərəfə gedirlər" (89, s.156) cümlələri mətnin başlanğıcını təşkil edir və prosesi bildirir. Əfsanələrdə də az da olsa final formulunun proseslə ifadə olunduğuna rast gəlinir. Məsələn, "El arasında "Oğlan-qız" adlanan bu daşlara niyyət eləyirlər" (89, s.164); "O vaxtdan da həmin qoşa məqbərəyə "Oğlan-qız məqbərəsi" deyirlər" (89, s.165); "Elə həmin vaxtdan zağaya Qara inək zağası demişlər. Deyilənə görə gedib həmin qadını görmək istəyənlərin hamısı bu arzuya çata bilirmiş" (89, s.167); "Deyirlər o gündən bu qaya "Tütək qaya" adlanıb. Gecə-gündüz "Tütək qaya"nın iniltisi kəsilmir" (89, s.168) kimi final formullarında proses hərəkət vasitəsilə idarə olunur.

Rəvayətlərdə də başlanğıc formullarında proses bildirən formullar hərəkət vasitəsilə yerinə yetirilir. "Deyildiyinə görə, İrandan iki qız Heybət adlı bir adamın gəmisi ilə Şıx kəndinə gəlir" (89, s.319); "Rəvayətə görə, bir zaman ərəblər atəşpərəstlərin məbədgahını dağıdıb, ocaqlarını söndürüb, onlara islam dinini qəbul etdiriblər. O vaxtlar atəşpərəstlər ərəblərin əlindən qaçıb başqa ölkələrə gedirlərmiş" (37, s.322); "Rəvayətə görə, bir gün Nizami ilə Gəncə əmiri ova çıxırlar. Çox gəzib dolaşdıqdan sonra gəlib bir xarabalığa çatırlar" (37, s.324); "Belə rəvayət edirlər ki, isti bir yay günündə Xacə Nəsrəddin Tusi bir neçə atlı ilə Marağaya gedirmiş" (37, s.325) tipli başlanğıc formullarında proses bildirən formullar çox aydın ifadə olunmuşdur. Ümumiyyətlə, əfsanə və rəvayətlərdə proses bildirən mətndaxili formullara az rast gəlinir. Bu da mətn problemi ilə bağlıdır. Mətnin qısa olması, eyni zamanda əfsanə və rəvayətlərdə mətndaxili formulların, prosesin olmamasını da göstərir. Hərəkət və proses süjetin göstəricisidir. Əgər süjetdə dinamizm, inkişaf varsa, orada formulların proseslə bağlı olduğunu düşünmək olar.

## Məkan və zaman bildirən formullar

Haqqında danışdığımız bütün formullar məkan və zaman içində mövcuddur. Bu formulların məkan və zamana görə fərqi az və ya çox dərəcədə nəzərə çarpır. Formullar məkan və zamana görə şərti olaraq iki qrupa bölünə bilir: Mövcud məkan və zamanı göstərən formullar, təsəvvür olunan məkan və zamanı bildirən formullar.

Mövcud məkan və zamanı bildirən formullar mətnlərdə konkret söz-işarələrlə təyin olunur. Məkan bildirən formullar əsasən yer adları ilə bağlı olan formullarda işlənir. Nağıllarda əfsanəvi məkan Gülüstani-Baği-İrəmdir. Bu adın yer aldığı formul məkan bildirən formul sayılır. Nağıllarda gözəl qızların məkanı da belə yerlərdir. Nağıllarda da o dünya məkan kimi verilir. Qəhrəmanların divlərlə mübarizəsi yerdən kənar dünyada təsvir olunur. Belə formullar təsəvvür olunan məkan formullarıdır. "Vəfalı at" nağılında qəhrəmanın divlərlə mübarizəsi məhz təsəvvür olunan məkanda təsvir edilir (37, s.249-251).

Azərbaycan nağıllarında qəhrəmanın anadan olması, səfərə yollanması, yolda təhlükə ilə qarşılaşması, qəhrəmanlıq göstərib geri dönməsi müəyyən məkan və zaman daxilindədir. Belə məkan və zaman da təsəvvürdə olan formul kimi nağılda iştirak edir. Göstərilən məkan və zaman əlaqələri "biri var idi, biri yox idi" başlanğıc formulunda ifadə olunur. Özü də həmin əlaqələr formulun alt qatında yaşamaqdadır. Yuxarıda dediyimiz kimi, bu formulda mücərrəd məkan və mücərrəd zaman təsvir olunur. Mövcudluğun olması da ("biri var idi"), olmaması da ("biri yox idi") həmin məkan və zaman mücərrədliyinin içərisindədir. Burada məkan xəyali məkandır, ancaq təsəvvür oluna bilir. Başlanğıc formulunda təfsilatlar artdıqca buna müvafiq olaraq zaman çalarları da arta bilir. Bu təfsilatlar və çalarlar müəyyən həddə çatdıqdan sonra formulun məkan məzmunu da nisbətən konkretləşir, biz nəticədə mücərrəd formulun xeyli sadələşdiyini görü-

rük. Belə formullarda sanki mövcud olan məkanlar haqqında məlumat verilir. Məsələn, "Qızıl qoç" nağılında mövcudluğu iqrar olunan yer belə ifadə olunmuşdur: "Bura elə bir yer idi ki, Baği-Gülüstan bunun yanında heç nə idi. Burada o qədər gül-çiçək var idi ki, hərəsi min rəngə çalır, ətrindən adam valeh olurdu. Gül-bülbül, turac-kəklik, qırqovul, bildirçin, tovuz quşu, hamısı bir-birinə qarışıb" (58, s.102). Bu formulda məkanın Baği-Gülüstanla müqayisə olunması məkan bildirən formulun xəyalda mövcud olan yer kimi təsəvvür olunmasını asanlaşdırır.

Məkan və zaman formulları hərəkətlə bir yerdə əsas sayıla biləcək formulun yaranmasında iştirak edir. "Hatəmin nağılı"nda: "Bəli, Hatəm çəkib çarığın dabanını, qırıb yerin amanını, günə bir mənzil, teyyi-mənazil, nağıllarda mənzil olmaz (məkansızlıq – Ş.H.), az getdi, üz getdi, dərə-təpə düz getdi, bir neçə gündən sonra gəldi çıxdı həmin yerə" (59, s.28). Bu mətndə daxili formulda həm məkan və həm də zaman məzmunu özünü göstərir. Bu məkan və zaman anlayışı konkret mənaya malikdir. "Həmin" sözü mənanın mövcudluğunu dəqiqləşdirir.

Formullarda məkan və zaman həm bir yerdə işlənə bilir, həm də ayrılıqda formulun daxilində fəaliyyət göstərə bilir.

Zaman formulunun tək işləndiyi mətndaxili formullar: "Bəli, deyirlər ki, nağıllarda mənzil olmaz. Ay dolandı, həftə keçdi, doqquz ay, doqquz günün tamamında hər iki qardaşın advadları həmillərini yerə qoydular" (61, s.126); "Ay dolandı, il keçdi, qızlar gəlib həddi-büluğa çatdılar" (61, s.309).

Məkan formulunun tək işləndiyi mətndaxili formullar: "Dərələrdən yel kimi, çəməndə bülbül kimi gedib çatdılar bir çayın qırağına" (60, s.83); "Keçəl çox gedib az dayandı, yetmiş yeddi çay keçib, yetmiş yeddi dağ aşıb, dərə, təpə enib, əyri gedib, düz gedib çatdı qazı olan şəhərə" (56, s.231).

Məkan formulları mətnlərdə iki cür göstərilir: tərif vasitəsilə məkanın göstərildiyi yer kimi; hərəkət vasitəsilə məkanın

ifadə olunduğu yer kimi. Birincisində məkan mətnin əvvəlində qeyd olunur. İkincisində isə məkanın yeri axırda verilir. Bir qayda olaraq məkan formulunun 1-ci növü, yəni tərif olunan məkan mifoloji məkandır, kosmik fəzada təsəvvür olunur. Məkan formullarının heyvanlar haqqında, sehrli və məişət nağıllarında geniş şəkildə işləndiyini görmək olar. N.Roşiyanu məkan, fəza bildirən formulları topoqrafik formullar adlandırır. Bu cür formullar daha çox başlanğıc formullarının içində məkan kimi özünü göstərir. N.Roşiyanu "biri var idi, biri yox idi" başlanğıc formulunda təxmin olunan "dünyada" sözünü topoqrafik cəhətdən məkan bildirən söz kimi göstərir.

## Məsafə və sürət bildirən formullar

Azərbaycan nağıllarında formul yaradıcılığı özünün çoxlu növləri ilə seçilir. Formul yaradıcılığının bir keyfiyyəti də formul içində formul yaratmaq xüsusiyyətidir. Formul içində formul yaratmaq ənənəvi hadisədir və dünya xalqlarının nağıl yaradıcılığında buna çox rast gəlinir. Bu proses Azərbaycan nağıllarında daha güclü şəkildə özünü göstərir. Bu keyfiyyət əsas formul yaradıcılığının mahiyyətindən doğan bir prosesdir. Həm də öz içində formul yaratmaq xüsusiyyəti olmasaydı, təbii ki, başlanğıc, mətndaxili və final formulları nağıl əmələgəlmə prosesində iştirak edə bilməzdi. Başlanğıc, mətndaxili və final formulları öz içində zaman, məkan, subyekt, obyekt, hərəkət, proses, məsafə bildirən formulları formalaşdırmaqla nağılın hansısa zaman əlaqələrinin, məkan, subyekt, obyekt münasibətlərinin, hərəkət, proses, məsafə ölçülərinin sistemini yaratmışdır. Deməli, bu sistem olmasa, nağılın strukturu qurula bilməz.

Nağıl sistemi içərisində başlanğıc, mətndaxili və final formullarının yaradılmasında məsafə bildirən formulların da rolu böyükdür. Hərəkət, sürət, məsafə formulları nağılın strukturunda bir-biri ilə bağlı olan modellərdir. Əgər hərəkət modeli

olmazsa, məsafə bildirən söz və ifadələr də işlənə bilməz. Azərbaycan nağıllarında xüsusi olaraq məsafə bildirən söz birləşmələri və ifadələrə çox rast gəlinir. Bunlardan "az gedib, çox dayandı… iynə yarım yol getdi" (60, s.239) "az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar" (60, s.102) "az getdi, üz getdi, dərə-təpə düz getdi" (58, s.145), "qırx gün, qırx gecə yol getdi" (61, s.151) və s. ifadələr məsafə formulunu əsas formulların məzmunu içində formalaşdırır. Sürət formulları isə məsafənin ifadə olunmasında rol oynayır və onu məntiqi cəhətdən izah edir. Belə sürət formullarından "Dərələrdən yel kimi", "təpələrdən sel kimi", "badeyi-sərsər kimi" formulları əsl, "elə süzür, elə süzür ki", "günə bir mənzil, teyyi-mənazil", "qırıb yerin damarını", "nağıl dili yüyrək olar" kimi yuxarıda gətirdiyimiz misallarda tez-tez rast gəldiyimiz ifadələr dolayısı ilə sürət məzmunu bildirən formullardır.

Bu söz birləşməsi və ifadələr nağıl və dastan təhkiyəsində mətndaxili formullarda çox istifadə olunur: "Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir dağın ətəyinə çatdı" (61, s.57); "Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi az getdi, üz getdi, dərə-təpə düz getdi. Orada ayla, illə, burda müxtəsər dillə başladı şəhərbəşəhər, kəndbəkənd soraqlayıb gəzməyə" (60, s.95); "Nağıl dili yüyrək olar, amma iş yüyrək olmaz" (60, s.196).

Başqa formullar kimi, sürət, hərəkət və məsafə bildirən formullar da mətndaxili formulların içindədir və belə daxili medial formulların əsas tərkib hissəsini təşkil edir. Bunlarda işlənən xüsusi sürət, hərəkət və məsafə bildirən sözlər, vahidlər xalq dilindəki işlək sözlərdir və fikrin mənalılığına, formulun gözəlliyinə birbaşa xidmət edir. Məsələn, "iynəyarım yol getmək", "az getmək, çox getmək", "bir ağaclıq yol getmək" ifadələri sürət, hərəkət və məsafənin ifadə olunmasının meyarı kimi xalq düşüncəsindən süzülüb gəlir.

# NƏTİCƏ

Folklorda formul nəzəriyyəsinin əsas spesifikliyi nəzərdə tutulan fikri ifadə edən söz qrupunun vahid bir epik sistemdə birləşərək hansısa bir mənanı (zaman, məkan) inikas etdirməsidir. Formul nəzəriyyəsi əsasən dilçilikdə, dil vahidlərinin bir-biri ilə əlaqəsində üzə çıxan məsələdir. Formulun əmələ gəlməsində əsas nəzərdə tutulan fikri ifadə etmək üçün müntəzəm işlənən söz qrupunun olmasıdır. Formul geniş mənada həm də sözdür. Söz inkişaf etməkdə olan bədii ifadədir. Deməli, belə düşünmək olar ki, formul da bədii ifadədir. Bədii ifadənin daşıdığı məna onun istifadə olunma imkanlarından asılıdır. Əgər bu imkanlar dolğun reallaşa bilirsə, o, aforizmə, hikmətli sözə, formula və s. çevrilə bilir.

Azərbaycan folkloru janr etibarilə çox zəngindir. Folklorun janrları öz rəngarəngliyi ilə seçilir. Janrlar epik növün başlıca xüsusiyyəti olan təhkiyə qanunlarına əsaslandığından onlarda folklor formullarının da işlənməsi təhkiyənin daxili qayda-qanunlarına tabedir. Əgər təhkiyə geniş məzmunlu olarsa, söyləyicinin yaddaşından asılı olaraq, formulların işlənməsinə daha çox ehtiyac yaranır. Formul söyləyicinin alt yaddaşında hazır qəliblər şəklindədir və varislik ənənəsinə əsaslanaraq müəyyən zaman çərçivəsində yaşamaqda və transfer olunmaqdadır. Bu formullar çox olduğundan onlardan necə istifadə etmək söyləyicinin öz işidir. O, formullardan harada istifadə etməyi özü müəyyənləşdirir. Onun yaddaşında başlanğıc, mətndaxili və son, final formullar hazır qəliblər şəklində qalmaqdadır.

Monoqrafiyada formulların folklor təbiəti, şifahi nitq və yaddaş hadisəsi olması, yaranma zərurəti və təşəkkül-formalaşma yolları, mifoloji kökləri, eləcə də klişeləşmə və improvizə olunma, buna uyğun olaraq təkrar olunma, variantlaşma xüsu-

siyyətlərinin daxili bağlılığı kimi ümumi səciyyəvi cəhətləri ətraflı şərh edilir. Göstərilir ki, epik şifahi nümunələr içərisində formullar nağıllarda daha çox və bütün rəngarəngliyi ilə təzahür edir, elə buna görə də formul nəzəriyyəsi də, formulların işlənmə üsulları, mətndəki yeri və funksiyaları da ən çox nağıl nümunələri əsasında tədqiq olunur.

Nağılın müxtəlif yerlərində təkrar olunan hadisələrə, oxşar situasiya və məqamlara rast gəlmək mümkündür. Bunlar da folklor təhkiyəsində həmin hadisə, situasiya və məqamlara uyğun olaraq müəyyən standart, daşlaşmış ifadələrlə nəql olunur. Nağılçı nağılını başlanğıc formulları ilə başlayır. Belə formullar nağılın başında gəlir. Başlanğıc formullarının müxtəlif ifadə vasitələri vardır. Bunlar sadə cümlələr, mürəkkəb cümlələr və təkərləməli sözlərdir. Başlanğıc formulları ilə nağılçı öz nağılına başlayır. Bu formullarda ritmik ahəng daha barizdir və bundan istifadə edən nağılçı daha çox dinləyici cəlb edə bilir. Başlanğıc formullarının özlərinin müxtəlif ifadə vasitələri vardır. Bəziləri sadə cümlələrlə, bəziləri isə təkərləməli söz və cümlələrlə ifadə olunur. Nağıllardan fərqli olaraq dastanlarda başlanğıc formulları mücərrəd zamana tabe deyildir. Nağıllarda rast gəldiyimiz təkərləmələrə dastanlarda rast gəlinmir. Bu da dastanın nağıldan fərqli üsullarla yarandığını göstərir. Dastan mətni başlanğıc formulunu nağıllar kimi qoruyub saxlaya bilmir. Əgər nağıllarda başlanğıc formulunun bütün tərəfləri iştirak edirsə, dastanda başlanğıc formulunun zaman və məkan üzrə tam ifadə olunmasına rast gəlmirik. Qəhrəmanlıq dastanlarının başlanğıc formulları şərti xarakterdə olub zaman və məkan məzmununu özündə əks etdirsə də, nağıl formulundakı kimi başlanğıc hissədəki arxaizmə xidmət etmir. Qəhrəmanlıq dastanlarına nisbətən əfsanə və rəvayətlərdə başlanğıc formulları öz arxaizmini qoruyub saxlayır.

Epik təhkiyənin bir növü olan əfsanələrin də strukturunda başlanğıc formullarına rast gəlinir. Əfsanələrdə başlanğıc formulları təhkiyədən asılı olaraq dəyişir. Əfsanənin semantikasına uyğun olaraq başlanğıc formulları müxtəlif məzmuna malik olur. Adətən belə əfsanələrdə başlanğıc formulu hadisənin səbəbinə çevrilir. Bütün bunlar isə əfsanə janrının spesifikası ilə bağlıdır. Ümumiyyətlə, rəvayət yolu ilə yaranan əfsanələr çoxluq təşkil edir. Vaxtilə rəvayət formasında olan mətnlər özünün rəvayətə məxsus xüsusiyyətlərini itirərək əfsanə modeli kimi sabitləşir. Ancaq belə əfsanələrdə başlanğıc formulları rəvayətin başlanğıc formullarıdır. Belə əfsanə mətnlərini rəvayət mətnlərindən ayırmaq çətindir. Əsas fərq ondan ibarətdir ki, rəvayət özünün sonrakı inkişafında əfsanəyə məxsus cizgilər qəbul edir.

Rəvayətlər hər hansı bir şahidin hadisəni söyləməsinə əsaslanır. Bu şahidlik rəvayətlərdə xüsusi tərzdə ifadə olunan cümlələr şəklində verilir. Rəvayətin başlanğıc formullarında əhvalatın başlanmasına, prosesə işarə olunur.

Lətifələr məzmunca geniş, formaca qısa olur. Şəkli xüsusiyyətlərinə görə rəvayətlər lətifələrə yaxındır. Məzmun etibarilə rəvayətdən seçilir. Başlanğıc formullarına gəldikdə isə əvvəlki janrlarda təsadüf etdiyimiz hazır qəliblərin burada işlənməsinə rast gəlmirik. Lətifədə "başlanğıc formulu" nəqli cümlə ilə ifadə olunan cümlə tipidir. Lətifələrin başladığı belə cümlə tipləri haqqında danışılan şəxsin də reallığına, əhvalatın da baş verməsinə bizdə inam yaradır. Lətiflərin əksəriyyətində başlanğıc formullarının iştirak etməməsinin səbəbi başlanğıcdakı nəqli cümlənin zaman və məkan prinsipinə tabe olmamasıdır. Qaravəllinin formasından və məzmunundan asılı olaraq başlanğıc formulu da şəklini dəyişə bilir. Belə başlanğıc formullarında bəzən zaman və məkan məzmunu birgə hiss olunur, ya da zaman məzmunu ifadə olunsa da, məkan

məzmunu iştirak etmir. Başlanğıc formullarında isə həm zaman anlayışı, həm də məkan anlayışı əsas şərtdir. Bunların heç biri mətnin əvvəlində yoxdursa, orada başlanğıc formulundan danışmaq mümkün deyil.

Mətndaxili formullar quruluşuna görə başqa formullardan fərqlənir. Mətndaxili formulların funksiyası nağılın hissələri arasında əlaqə yaratmaqdır. Nağılı söyləyən nağılçı nağılda bir hadisədən, situasiyadan başqasına keçərkən və ya hadisələri, əhvalatları, süjetləri bir-birinə bağlayarkən istifadə edir. Mətndaxili formullardan istifadə etməkdə əsas məqsəd təhkiyə zamanı dinləyicini yormamaq, nağılı söyləyərkən dinləyicinin diqqətini nağıla yönəltməkdir. Bundan ötrü nağılçı nağılın aralarına müxtəlif mətndaxili formulları daxil edir. Azərbaycan nağıllarında keçid formullarına tez-tez rast gəlinir. Bu formullar nağılın müxtəlif hissələrini bir-birinə bağlamağa kömək edir. Görünür ki, nağıl yaradıcılığında bu hissələr ayrıca, müstəqil formada olmuş, süjetlər bir-birinə birləşərkən bu cür formulların iştirakına ehtiyac yaranmışdır. Bu cür formullara ən çox sehrli nağıllarda təsadüf olunur.

Azərbaycan dastanları da mətndaxili formulların iştirakına görə folklorun başqa janrlarından fərqlənir. Nağıllarda işlənən mətndaxili formullar daha çox olsa da, bu qədər genişliyi dastanlarımızda görə bilmirik. Amma əfsanə, rəvayət, lətifə və s. janrlara baxanda burada mətndaxili formulların müxtəlif çeşidlərinə rast gəlinir. Dastanlardakı mətndaxili formulları nağıllardakı kimi qruplaşdırmaq mümkün olmasa da, onlardakı müəyyən qruplar təşkil edən mətndaxili formullardan danışmaq olar. Xüsusilə qəhrəmanlıq dastanlarındakı mətndaxili formullar öz əlvanlığı ilə fərqlənir. Məhəbbət dastanlarındakı formulların bəzən məzmununda iki funksiyalılığa da rast gəlinir. Məsələn, zaman formuluna aid mürəkkəb cümlədə bəzən məişət formullarının məzmununa da rast gəlinir.

Belə formullar qarışıq tipli formullar adlanır. Belə formullarda ya birinci, ya da ikinci məzmun daşıyan hissə əsas formul sayıla bilir.

Bütün janrlarda olduğu kimi, rəvayətlərdə də mətndaxili formullara az da olsa rast gəlinir. Hətta onu da qeyd etmək lazımdır ki, rəvayətlərdəki mətndaxili formulların sayı çox azlıq təşkil edir. Rast gəldiyimiz rəvayətlərin təhkiyəsi çox geniş olduğuna görə, bu mətnlərdəki mətndaxili formullar nağıl təhkiyəsindəki mətndaxili formulların xüsusiyyətlərini özündə əks etdirir. Belə xüsusiyyətlərdən rəvayətlərdə ən çox rast gəlinəni bir süjeti o birinə bağlayan, onların arasındakı zamanı, hərəkəti qısaltmağa xidmət edən təhkiyədəki keçidlərdir. Bu xüsusiyyəti özündə daşıyan isə keçid formullarıdır.

Qaravəllilərin janr xüsusiyyətlərindən biri kimi onun mətndaxili formullarının adını çəkmək olar. Qaravəllilərdə mətndaxili formullar nağıllardakı mətndaxili formullara oxşamır. Qaravəllilərdəki mətndaxili formullar bircinsli olub əsasən sadə cümlələrdən ibarət olur. Məsələn, "Mollanın arvadı" qaravəllisində qəhrəmanlar arasında dialoqlar başa çatandan sonra söyləyici başqa bir süjetə keçmək üçün "Bəli, Firuzla arvadı toya hazırlaşırdılar" cümləsindən istifadə edərək qaravəllinin davamına zəmin hazırlayır. Nağıllarda gördüyümüz mətndaxili formulların rəngarəngliyinə qaravəllilərdə rast gəlinmir. Qaravəllilərdə mətndaxili formul kimi ancaq bir formadan istifadə olunur. Bu formullar da sadə cümlə tipində olur, zəncirləmə, təkrarləmə və s. üsullardan onlarda istifadə olunmur.

Final formulları nağılda hadisələrin və süjetin başa çatmasını göstərən bədii ifadələrdir. Azərbaycan nağıllarında final formulları həm məzmununa görə, həm də spesifik xüsusiyyətlərinə görə seçilir. Final formulunun məzmununda nağılçı öz dinləyicisinə hadisələrin sona yetməsini və süjetin tamamlanmasını özünəməxsus şəkildə ifadə edir. O, final for-

mulunun spesifik xüsusiyyəti kimi dinləyicisinə xoşbəxt həyat, uzun ömür və s. arzulamaqla xüsusi bədii ifadələrdən istifadə edir. Final formullarının əsas funksiyası sanki şahidlik qismində nağılın süjetinə dinləyicidə inam yaratmaqdır. Məsələn, "Onlar yaşadılar, xoşbəxt oldular, siz də yaşayın, xoşbəxt olun" formulunda olduğu kimi.

Dastanlarda final formulunun işlənməsinin özünəməxsus xüsusiyyətləri vardır. Epik təhkiyədə final formullarının işlənməsi janra uyğun olaraq formalaşır. Məsələn, nağıllarda gördüyümüz final formulları dastanlardakı final formullarından fərqlidir. Xüsusilə tarixi-qəhrəmanlıq dastanlarında final formulları həmin dastanların xüsusiyyətinə görə işlədilir. Ümumiyyətlə, final formulları bütün dastanlarda işlənir.

Əfsanələr daha çox mifik obrazlarla və hadisələrlə bağlı olduğundan oradakı formullar da janrın tələblərinə görə mətndə formalaşır. Əfsanələrin sonunda reinkarnasiya prosesi baş verdiyindən həmin prosesin tələbinə görə də final formulları əmələ gəlir. Mifoloji süjetli bütün əfsanələrdə biz bu cür final formullarının işləndiyini görürük. Başqa janrlarda final formulu ümumiləşmiş şəkildə mətnin sonunda janrın öz xüsusiyyəti kimi verilirsə, əfsanələr və rəvayətlərdə mətnin məntiqi sonluğunu əks etdirən formul kimi verilir.

Epik janrların içində lətifə xüsusi janrdır ki, burada mətnin içərisində heç bir formula rast gəlinmir. Lətifə janrında gülüş üstünlük təşkil etdiyinə görə final formulları mətndən ayrılmır və gülüşün məntiqi sonluğuna çevrilir. Ümumiyyətlə, formulun əsas xüsusiyyətlərindən biri mətnin məzmunundan doğan nəticəni qısa şəkildə ifadə etməkdir. Lətifələrdə isə mətndən bu cür seçilmə yoxdur, final formulu gülüş mətninin adi bir hissəsinə çevrilir və mətni izah edir.

Azərbaycan folklorunun janrlarının əlamətdar xüsusiyyətləri onların hər bir formulunun konkret məna və funksiya-

lara malik olması ilə şərtlənir. Formullar ilk baxışda adi və mənasız cümlə kimi görünsə də, hər bir formul növünün için-də öz daxili mənaları vardır. Formulların semantik xüsusiy-yətindən biri də onların içindəki məna və məzmunun şəxslə bağlı olmasıdır. Demək olar ki, bütün formullarda şəxs məz-munu ya açıq şəkildə, ya da qapalı olaraq özünü büruzə verir.

Formullar semantik baxımdan subyekt, obyekt, proses, məkan, zaman, məsafə və sürət bildirən formullara ayrılır. Bu cəhətdən mətndaxili formullarda subyektlərin özünəməxsus funksiyaları vardır. Hərəkətin icra olunmasında da subyekt ya birbaşa, ya da dolayı yolla iştirakçı olur. Mətndaxili formul-larda subyekt hərəkətlə bağlıdır. Bundan başqa, mətndaxili formullarda elə nümunələrə də rast gəlinir ki, orada subyekt nə iştirak edir, nə də təsəvvür olunur. Bu cür formullar mətn-daxili formulların xüsusi keçid formasıdır ki, ona da medial formul deyilir.

Formul nəzəriyyəsinin mahiyyətini subyekt, obyekt və hərəkət təşkil edir. Folklor mətnlərində subyekt formulları iştirak etdiyi kimi, obyekt bildirən formullara da rast gəlinir. Obyekt bildirən formullar deyəndə, əsasən, cansız əşyalar, gö-zəlliyin tərif olunduğu ümumi adlar və s. başa düşülür. Əgər bir mətndə subyekt vardırsa, həmin subyektin ifadə olunduğu və tərif edildiyi keyfiyyətlər onun obyektini təşkil edir. Ob-yekt bildirən formullarda tərif edilən obyektə dastançı və ya nağılçının münasibəti demək olar ki, belə formullarda eynidir. Söyləyici öz obyektini təsvir edərkən ənənəvi üsullardan is-tifadə edir, hazır qəliblər, epitetlər və bədii təsvir vasitələrin-dən yararlanır. Demək olar ki, o, obyekti təsvir edərkən bütün dastanlarda və nağıllarda eyni modeli təkrarlayır. Ona görə də obyektlə onun təsviri arasında boşluq əmələ gəlmir. Ustad söyləyici bu formulun sırasında təşbehlərin, metaforaların

bədii gücündən istifadə etməklə poetik mənanın qüvvətlənməsinə çalışır.

Azərbaycan folklorunda demək olar ki, əksər formullar bu və ya digər dərəcədə prosesə bağlıdır. Proses işin, hərəkətin davamlılığını, başa çatmasını göstərir. Buna görə də hər bir formulun məzmununda proses onun formalaşmasında əsas rol oynayır. Deməli, proses olmasa həmin formul nə başlanğıc mənasını, nə mətndaxili, nə də final mənasını göstərə bilməz. Proses bildirən formullar birbaşa olaraq həyəcan məzmunu daşıyan formullarla bağlıdır. Hər bir formulun məzmununda hərəkət məzmunu vardır. Hərəkətin məzmununun tamamlanması aid olduğu formulda da özünü göstərir.

Bütün formullar məkan və zaman içində mövcuddur. Bu formulların məkan və zamana görə fərqi az və ya çox dərəcədə ifadə olunmaqdadır. Formullar məkan və zamana görə şərti olaraq iki qrupa bölünə bilir: Mövcud məkan və zamanı göstərən formullar, təsəvvür olunan məkan və zamanı bildirən formullar. Mövcud məkan və zamanı bildirən formullar mətnlərdə konkret söz-işarələrlə təyin olunur. Məkan bildirən formullar əsasən yer adları ilə bağlı olan formullarda işlənir. Məkan və zaman formulları hərəkətlə bir yerdə əsas formulun yaranmasında iştirak edir. Formullarda məkan və zaman həm bir yerdə işlənə bilir, həm də ayrılıqda formulun daxilində fəaliyyət göstərə bilir.

Formul yaradıcılığının bir keyfiyyəti də formul içində formul yaratmaq xüsusiyyətidir. Formul içində formul yaratmaq ənənəvi hadisədir və dünya xalqlarının nağıl yaradıcılığında çox rast gəlinir. Bu proses Azərbaycan nağıllarında güclü şəkildə özünü göstərir. Bu keyfiyyət əsas formul yaradıcılığının mahiyyətindən doğan bir prosesdir. Həm də öz içində formul yaratmaq xüsusiyyəti olmasaydı, təbii ki, başlanğıc, mətndaxili və final formulları nağıl əmələgəlmə prose-

sində iştirak edə bilməzdi. Başlanğıc, mətndaxili və final formulları öz içində zaman, məkan, subyekt, obyekt, hərəkət, proses, məsafə bildirən formulları formalaşdırmaqla nağılın hansısa zaman əlaqələrinin, məkan, subyekt, obyekt münasibətlərinin, hərəkət, proses əlamətlərinin, məsafə ölçülərinin sistemini yaratmışdır.

Nağıl sistemi içərisində başlanğıc, mətndaxili və final formullarının yaradılmasında məsafə bildirən formulların da rolu böyükdür. Hərəkət, sürət, məsafə formulları nağılın strukturunda bir-biri ilə bağlı olan modellərdir. Əgər hərəkət modeli olmazsa, məsafə bildirən söz və ifadələr də işlənə bilməz. Başqa formullar kimi, sürət, hərəkət və məsafə bildirən formullar da mətndaxili formulların içindədir və belə daxili medial formulların əsas tərkib hissəsini təşkil edir. Bunlarda işlənən xüsusi sürət, hərəkət və məsafə bildirən sözlər, vahidlər xalq dilindəki işlək sözlərdir və fikrin mənalılığına, formulun gözəlliyinə birbaşa xidmət edir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Abbasov E. Oğuz eposunun tarixiliyinə dair ("Oğuz Kağan", KDQ, "Koroğlu") // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, X kitab, Bakı: Səda, 2001, s. 92-100

2. Abbasov E. Koroğlu: poetik sistemi və strukturu (Paris nüsxəsi əsasında). Bakı: Nurlan, 2008, 140 s.

3. Abbasov İ. Ozan (uzan) – qusan istilahı və sənətinə dair // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, III kitab, Bakı: Elm, 1968, s. 59-70

4. Abbaslı İ. Əfsanələr (oçerk) / Azərbaycan ədəbiyyatı tarixi. 6 clddə, I c., Bakı: Elm, 2004, s. 207-210

5. Abbaslı İ. Rəvayətlər (oçerk) / Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. I c., Bakı: Elm, 2004, s. 211-216

6. Abbaslı İ. Qədim türk eposu: mənqəbələr və dastanlar // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI kitab, Bakı: Səda, 2005, s. 19-29

7. Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007, 272 s.

8. Abbaslı S. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri. Bakı: Nurlan, 2011, 160 s.

9. Abdulla K. Mifdən Yazıya və yaxud gizli Dədə Qorqud. Bakı: Mütərcim, 2009, 376 s.

10. Abdullayev B."Kitabi-Dədə Qorqud"un poetikası. Bakı: Elm, 1999, 224 s.

11. Abdullayeva S. Azərbaycan nağıl və dastanlarının dili. Bakı: Elm, 1998, 240 s.

12. Abid Ə. Heca vəzninin tarixi / Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab. Poetik fikrin təkamülü (məqalələr toplusu). Bakı: Elm, 2006, s. 472-491

13. Adışirinov N. Nikolay Roşiyanunun ənənəvi formulları işığında "Dədə Qorqud kitabı"nda "Dirsə xan oğlu Buğac

bəy boyu”na bir nəzər // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXX kitab, Bakı: Nurlan, 2011, s. 3-14
14. Adışirinov N. Aleks Olrikin “Epik qanunlar nəzəriyyəsi” işığında “Dədə Qorqud” boylarına bir nəzər // “Dədə Qorqud” jur., 2011, № 2, s. 23-41
15. Adışirinov N. Nikolay Roşiyanunun “Nağılların ənənəvi formulları” əsərində olan formul tipləri // “Dədə Qorqud” jur., 2011, №3, s. 55-69
16. Adışirinov N. Epik qəhrəmanın bioqrafiyasının quruluşuna yönələn formullar // “Dədə Qorqud” jur., 2011, №4, s. 84-91
17. Adışirinov N. “Dədə Qorqud Kitabı”nda epik formullar. Fil, elm. ü. fəl. dok... monoqrafiyası, Bakı, 2015, 164 s.
18. Allahmanlı M. Türk dastan yaradıcılığı. Bakı: Ağrıdağ, 1998, 144 s.
19. Allahmanlı M. Dastanlarda qəhrəman tipologiyası, bahadır və sənətkar problemi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, X kitab, Bakı: Səda, 2001, s. 84-91
20. Allahverdiyev M. Azərbaycan xalq teatrı. Bakı: Maarif, 1978, 233 s.
21. AMEA Folklor İnstitutunun arxivi.
22. Aslanov E. El-oba oyunu, xalq tamaşaları. Bakı: İşıq, 1984, 275 s
23. Ayrım bəzəmələri / Toplayanı V.Vəliyev. Bakı: Gənclik, 1983, 164 s.
24. Azərbaycan dastanları: 5 cilddə, I c., / Tərtibçilər Ə.Axundov və M.H.Təhmasib. Bakı: Az. SSR EA Nəşriyyatı, 1965, 421 s.
25. Azərbaycan dastanları: 5 cilddə, II c., / Tərtibçilər Ə.Axundov və M.H.Təhmasib. Bakı: Az. SSR EA Nəşriyyatı, 1966, 439 s.
26. Azərbaycan dastanları: 5 cilddə, III c., / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Az. SSR EA Nəşriyyatı, 1967, 438 s.

27. Azərbaycan dastanları: 5 cilddə, IV c., / Tərtib edəni M.H.Təhmasib. Bakı: Az. SSR EA Nəşriyyatı, 1969, 541 s.
28. Azərbaycan dastanları: 5 cilddə, V c., / Tərtib edəni Ə.Axundov. Bakı: Az. SSR EA Nəşriyyatı, 1969, 468 s.
29. Azərbaycan dastanları: 5 cilddə, I c., Bakı: Çıraq, 2005, 424 s.
30. Azərbaycan dastanları: 5 cilddə, II c., Bakı: Çıraq, 2005, 440 s.
31. Azərbaycan dastanları: 5 cilddə, III c., Bakı: Çıraq, 2005, 440 s.
32. Azərbaycan dastanları: 5 cilddə, IV c., Bakı: Çıraq, 2005, 544 s.
33. Azərbaycan dastanları: 5 cilddə, V c., Bakı: Çıraq, 2005, 472 s.
34. Azərbaycan ədəbiyyatı inciləri: Dastanlar / Tərtibçi B.Abdullayev. Bakı: Yazıçı, 1987, 580 s.
35. Azərbaycan folkloru. Bakı: Şərq-Qərb, 2005, 360 s.
36. Azərbaycan folkloru antologiyası: Naxçıvan folkloru. 3 cilddə, I c., Naxçıvan, 2009, 541 s.
37. Azərbaycan folkloru antologiyası: 16 cilddə, VIII c., Ağbaba folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov, T.Qurbanov. Bakı: Səda, 2003, 476 s.
38. Azərbaycan folkloru antologiyası: 16 cilddə, 1X cild, Gəncəbasar folkloru / H.İsmayılov, R.Quliyeva. Bakı: Səda, 2004, 285 s.
39. Azərbaycan folkloru antologiyası: 16 cilddə, X c., İrəvan çuxuru folkloru / Toplayıb tərtib edənlər H.İsmayılov, Ə.Ələkbərli. Bakı: Səda, 2004, 472 s.
40. Azərbaycan folkloru antologiyası: 16 colddə, XI c., Şirvan folkloru / Toplayanı S.Qəniyev. Tərtib edənlər H.İsmayılov, S.Qəniyev. Bakı: Səda, 2005, 443 s.
41. Azərbaycan folkloru antologiyası: 16 cilddə, X111 c., Şəki-Zaqatala folkloru, Bakı: Səda, 2005, 550 s.

42. Azərbaycan folkloru külliyyatı, I cild. Nağıllar (I kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Səda, 2006, 400 s.
43. Azərbaycan folkloru külliyyatı, II cild. Nağıllar (II kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Səda, 2006, 400 s.
44. Azərbaycan folkloru külliyyatı, III cild. Nağıllar (III kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Səda, 2006, 400 s.
45. Azərbaycan folkloru külliyyatı, IV cild. Nağıllar (IV kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Nurlan, 2007, 400 s.
46. Azərbaycan folkloru külliyyatı, V cild. Nağıllar (V kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Nurlan, 2007, 400 s.
47. Azərbaycan folkloru külliyyatı, VI cild. Nağıllar (VI kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Nurlan, 2007, 400 s.
48. Azərbaycan folkloru külliyyatı, VII cild. Nağıllar (VII kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Nurlan, 2008, 400 s.
49. Azərbaycan folkloru külliyyatı, VIII cild. Nağıllar (VIII kitab) / Tərtib edənlər H.İsmayılov, O.Əliyev. Bakı: Nurlan, 2008, 400 s.
50. Azərbaycan xalq dastanları: 2 cilddə, I c., / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı, 1961, 325 s.
51. Azərbaycan xalq dastanları: 2 cilddə, II c., / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı, 1961, 370 s.
52. Azərbaycan xalq dastanları / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı, 1980, 420 s.
53.Azərbaycan xalq dastanları. Bakı: Gənclik, 1988, 580 s.
54. Azərbaycan xalq ədəbiyyatından seçmələr. Qaravəllilər, oyunlar və xalq tamaşaları /Tərtib edənlər H.İsmayılov və T. Orucov. Bakı: Şərq-Qərb, 2005, 311 s.

55. Azərbaycan qaravəllilləri / Tərtib edəni T.Orucov. Bakı: Elm və təhsil, 2013, 264 s.
56. Azərbaycan lətifələri / Tərtib edəni və işləyəni T.Fərzəliyev. Bakı: Azərnəşr, 1965, 86 s.
57. Azərbaycan məhəbbət dastanları. Tərtib edənlər: M.Təhmasib, T.Fərzəliyev, İ.Abbasov, N.Seyidov. Bakı: Elm, 1979, 288 s.
58. Azərbaycan nağılları: 5 cilddə, I c., Bakı: Çıraq, 2004, 374 s.
59. Azərbaycan nağılları: 5 cilddə, II c., Bakı: Çıraq ,2004, 352 s.
60. Azərbaycan nağılları: 5 cilddə, III c., Bakı: Çıraq, 2004, 352 s.
61. Azərbaycan nağılları: 5 cilddə, IV c., Bakı: Çıraq, 2004, 344 s.
62. Azərbaycan nağılları: 5 cilddə, V c., Bakı: Çıraq, 2004, 312 s.
63. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.
64. Bayat F. Oğuznamə(lər) / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, s. 255-274
65. Bayat F. Etnik-mədəni kontekstdə türk dastanları (özəllikləri və təsnif məsələləri) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXVI kitab, Bakı: Nurlan, 2007, s. 3-37
66. Bəhlul Danəndə lətifələri / Toplayanı və tərtib edəni N.Seyidov. Bakı: Yazıçı, 1979, 46 s.
67. Bəydili (Məmmədov) C. Türk mifoloji obrazlar sistemi: stuktur və funksiya. Bakı: Mütərcim, 2007, 272 s.
68. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 264 s.
69. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.
70. Cəfərli M. Dastan yaradıcılığı. Bakı: Elm, 2007, 108 s.
71. Cəfərli M. Naxçıvan folklor mühiti əfsanə və rəvayətlərinin mifoloji semantikasına dair // "Dədə Qorqud" jur.,

2008, № 1, s. 45-56
72. Cəfərov N. Azərbaycan xalqının şah əsəri // “Azərbaycan” jur., 1998, s.4-6
73. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999, 220 s.
74. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: ATAM, 2002, 600 s.
75. Cəfərov N., Vəliyev K. Qədim türk eposu / Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I c., Bakı: Elm, 2004, s. 337-373
76. Cəmşidov Ş. “Kitabi-Dədə Qorqud”. Bakı: Elm, 1977, 231 s.
77. Coşğun J. Türk və slavyan sehrli nağıllarında başlanğıc formullar // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XL kitab, Bakı: Elm və təhsil, 2012, s. 161- 166
78. Coşğun J. Türk və slavyan sehrli nağıllarında mifopoetik formullar // “Dədə Qorqud” jur., 2012, № 4, s. 33-41
79. Dik gedib, dik gəlirsən. Qaraqapı-Zəngəzur lətifələri / Toplayıb tərtib edəni R.Təhməzoğu. Bakı: Ağrıdağ, 1998, 96 s.
80. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı.Bakı: Maarif, 1988, 463 s.
81. Əfəndiyev P. Dastan yaradıcılığı. Bakı: ADPU, 1999, 166 s.
82. Əfsanələr. Bakı: Gənclik, 1986, 176 s.
83. Əhmədli A. Söyləyici və janr problemi: tarixi-ənənəvi aspekt və hazırkı durum // “Dədə Qorqud” jur., 2009, № 3, s. 78-90
84. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı / Dədə Qorqud dünyası (məqalələr). Bakı: Öndər, 2004, s. 6-17
85. Əliyev K. “Dədə Qorqud” eposu və etnopoetika məsələləri // “Dədə Qorqud” jur., 2003, № 2, s. 19-28
86. Əliyev K. Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu”. Bakı: Elm və təhsil, 2011, 164 s.
87. Əliyev O. Azərbaycan nağıllarının poetikası. Bakı: Səda, 2001, 191 s.

88. Əliyev R. Rəvayət-dastanlarda kontaminasiyalar haqqında // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XVI kitab, Bakı: Səda, 2005, s. 128-142

89. Əliyev R. Mif və folklor: genezisi və poetikası. Bakı: Elm, 2005, 224 s.

90. Əliyev R. Riyazi mifologiya. Bakı: Nurlan, 2008, 182 s.

91. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304 s.

92. Əsgər Ə. Arxaik epik ənənə və Oğuznamə // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXV kitab, Bakı: Nurlan, 2007, s. 3-9

93. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 340 s.

94. Fərzəliyev T. Əfsanə anlayışı və Azərbaycan əfsanələrinin təsnifinə dair // Az. SSR EA xəbərləri ("Ədəbiyyat, dil və incəsənət" seriyası), 1978, № 1, s. 32-37

95. Fərzəliyev T. Lətifələr (oçerk) / Azərbaycan ədəbiyyatı tarixi, 6 clddə, I c., Bakı: Elm, 2004, s. 241-249

96. Gəncəbasar lətifələri / Toplayanı və tərtib edəni S.P.Pirsultanlı. Gəncə: Agah, 2005, 201 s.

97. Hacılı A. "Dədə Qorqud kitabı": epik təfəkkür və tarix // "Dədə Qorqud" jur., 2002, № 2, s. 60-72

98. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı: Mütərcim, 2002, 164 s.

99. Hacıyev T. Dədə Qorqud: dilimiz və düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.

100. Hacıyev T. "Kitabi-Dədə Qorqud" ədəbi-bədii abidə kimi / "Kitabi-Dədə Qorqud – 1300" respublika elmi konfransının tezisləri (25-26 may 1999). Bakı: Bakı Universiteti, 1999, s.5-6

101. Hacıyev T. Orxon-Yenisey kitabələri: janr xüsusiyyətləri // "Dədə Qorqud" jur., 2004, № 1, s.29-47

102. Hacıyev T. Dədə Qorqud dünənimizin keçmişidir // "Dədə Qorqud" jur., 2004, № 2, s.12-16

103. Hacıyev T. Orxon dastanlarının şeir sənətkarlığı //

Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XV kitab, Bakı: Səda, 2004, s. 3-54

104. Hacıyeva M. Azərbaycan və türk nağıllarında "Təkrarləmə", "Yapma nağıl" və "Zincirləmə nağıl" anlayışları / "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə", IV uluslararası folklor konfransının materialları, Bakı: 2006, s.184-187.

105. Hüseynoğlu K. Azərbaycan xalq şeirinin qaynaqları və inkişaf yolları / Azərbaycan ədəbiyyatının tarixi poetikası, II kitab, Poetik fikrin təkamülü (məqalələr toplusu). Bakı: Elm, 2006, s. 19-60

106. Hüseynova Z. Əfsanə və rəvayətlərin tədqiq problemləri // "Dədə Qorqud" jur., № 2, s.101-110

107. Xəlil A. "Dədə Qorqud kitabı"nın semiotik strukturu / Türk Xalqlarının Edebi Geçmişi: Türk Destanları. Uluslararası Sempozyum. Bakı: 2004. s. 268-270

108. İmaməliyev (Qaliboğu) E. "Azərbaycan əfsanələrinin mifoloji strukturu" probleminin tədqiq tarixi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXX kitab, Bakı: Nurlan, 2009, s. 96-113

109. İsgəndərova V. Daxili medial (təhkiyə) formullar (Azərbaycan və Türkiyə nağılları əsasında) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXII kitab, Bakı: Nurlan, 2010, s. 83-100

110. İsgəndərova V. Ənənəvi nağıl formulları (Azərbaycan və Türkiyə nağılları əsasında) // "Dədə Qorqud" jur., 2011, № 2, s.95-104

111. İsgəndərova V. Ənənəvi nağıl formulları. Bakı: Folklor İnstitutu, 2014, 202 s.

112. İsmayılov H. Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi / Göyçə dastanları və aşıq rəvayətləri. Toplayanı, tərtib edəni, ön sözün, qeyd və izahların müəllifi: H.İsmayılov. Bakı, 2001, s. 3-83

113. İsmayılov H. Dastan, yaxud türk kodu ilə şifrələnmiş işarələr sistemi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVIII kitab, Bakı: Səda, 2005, s.3-14

114. İsmayılov H. Türk dastanlarının funksional struktur poetikasına dair (Göyçə dastanları əsasında) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XIX kitab, Bakı: Səda, 2006, s. 3-16

115. İsmayılova Y. "Koroğlu" dastanında obrazlar sistemi. Bakı: Nurlan, 2003, 166 s.

116. İsmayılova Y. "Kitabi-Dədə Qorqud" eposu şifahi, qədim, orta və müasir Azərbaycan ədəbiyyatında. Bakı: Bakı Universiteti, 2013, 226 s.

117. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, 268 s.

118. Kazımoğlu M. Folklor həm keçmiş, həm də bu gündür. Bakı: Folklor İnstitutu, 2014, 194 s.

119. Kitabi-Dədə Qorqud. Bakı: Azərnəşr, 1939, 280 s.

120. Kitabi-Dədə Qorqud / Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.

121. Kitabi-Dədə Qorqud. (Əsl və sadələşdirilmiş mətnlər). Bakı: Öndər, 2004, 375 s.

122. Kitabi-Dədə Qorqud (dastan). Bakı: Kitab klubu, 215, 432 s.

123. Koroğlu / Toplayanı V.Xuluflu, redaktoru H.Zeynallı. Bakı: Azərnəşr, 1929, 159 s.

124. Koroğlu / Toplayanı H.Əlizadə, redaktoru B.Musayev. Bakı: 1941, s.

125. Koroğlu / Tərtib edəni M.H.Təhmasib, redaktoru H.Araslı. 2-ci nəşri. Bakı: Az. SSR EA Nəşriyyatı, 1956, 456 s.

126. Koroğlu / Toplayanı, ön söz, qeyd və izahların müəllifi A.Nəbiyevdir. Bakı: 2003, 418 s.

127. Koroğlu (Paris nüsxəsi) / Nəşrə hazırlayanı İ.Abbaslı, redaktoru B.Abdulla. Bakı: Şərq-Qərb, 2005, 224 s.

128. Koroğlu / Mətni hazırlayıb tərtib edənlər İ.Abbaslı və B.Abdulla. Redaktoru İ.Abaslı. Bakı: Lider, 2005, 549 s.

129. Koroğlu (Tiflis nüsxəsi) / Təbriz variantı. Tərtib edəni, izah və lüğətin müəllifi E.Tofiq qızı, redaktorları H.İsmayılov və T.Kərimli. Bakı: Səda, 2005, 751 s.

130. Qafarlı R. Mif və nağıl (Epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU, 1999, 448 s.

131. Qafarlı R. Mif, nağıl, əfsanə (Şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU, 2002, 758 s.

132. Qarayev Y. Bütün xalqların və dövrlərin kitabı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, X kitab, Bakı: Səda, 2001, s.4-101

133. Qaravəllilər / Redaktoru H.Mehdiyev. Bakı: Azərnəşr, 1967, 159 s.

134. Qaravəllilər / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərnəşr, 1974, 77 s.

135. Qaravəllilər, nağıllar / Toplayıb tərtib edənləri M.H.Tantəkin, S.Əliyev, Bakı: Yazıçı, 1988, 216 s.

136. Qasımlı M. Ozan aşıq sənəti. Bakı: Uğur, 1996, 308 s.

137. Quliyev T. "Kitabi-Dədə Qorqud" dastanı və qədim türk şeirində vəzn və qafiyə / Dədə Qorqud - 1300. Bakı: Bakı Universiteti, 1999, s. 198-208

138. Qurbanov N. Azərbaycan əfsanələrinin mifoloji-kosmoqonik mahiyyətinə dair // "Dədə Qorqud" jur., 2006, № 11, s. 68-86

139. Mehdiyeva S. Folklor abidələrinin linqvo-poetik tədqiqi. Bakı: Elm, 2003, 220 s.

140. Məhəbbət dastanları. Bakı: Gənclik, 1982, 164 s.

141. Mirobil P. Stilistik müqayisə: Avropa-türk motivləri və formulları // "Dədə Qorqud" jur., 2007, № 2, s.3-20

142. Molla Nəsrəddin lətifələri / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərbaycan EA, 1965, 334 s.

143. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə / Ali məktəblər üçün dərslik. Bakı: Turan, 2002, 679 s.

144. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə / Ali məktəblər üçün dərslik Bakı: Elm, 2006, 648 s.

145. Nəbiyev B. Əxlaqi və estetik məziyyətlər xəzinəsi // "Kitabi-Dədə Qorqud" (məqalələr toplusu). Bakı: Elm 1999, s.5-15

146. Nəbiyev B., Qarayev Y. Xalq mənəviyyatının güzgüsü ("Kitabi-Dədə Qorqud"). Bakı: Elm, 1999, 32 s.

147. Nərimanoğlu K.V. Dastan poetikası, Bakı: Yazıçı, 1984, 221 s.

148. Nərimanoğlu K.V. Formul nəzəriyyəsi / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: "Öndər", 2004, s.153 -158

149. Nərimanoğlu K.V. "Dədə Qorqud kitabı" dünya epos mədəniyyətinin nadir kitabıdır / Dədə Qorqud dünyası (məqalələr). Bakı: Öndər, 2004, s. 139-145

150. Nərimanoğlu K.V. Dastan, / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, s. 77-81

151. Oğuznamələr. İşləyib çapa hazırlayanlar K.V.Nərimanoğlu və F.Uğurlu. Bakı: Bakı Universiteti, 1993, 92 s.

152. Orucov T. Qaravəlli janrının poetikası. Bakı: Nurlan, 2009, 200 s.

153. Orucov T. Qaravəllilərin janr özünəməxsusluğu və başlıca xüsusiyyətləri /Azərbaycan qaravəlliləri.Tərtib edəni T.Orucov. Bakı: Elm və təhsil, 2013, s. 3-27

154. Paşayev S. Azərbaycan əfsanələrinin öyrənilməsi. Bakı: Bilik, 1985, 70 s.

155. Pirsultanlı S.P. Azərbaycan eposunun əfsanə qaynaqları. Bakı: Azərnəşr, 2002, 163 s.

156. Pirsultanlı S.P. Əfsanələrimiz haqqında bir neçə söz / Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə: Pirsultan, 2006, 399 s.

157. Pirsultanlı S.P. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi. Bakı: Nurlan, 2007, 308 s.

158. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı: Azərnəşr, 2009, 427 s.
159. Rəsulov R.K. "Kitabi-Dədə Qorqud"un poetikası (metaforik arxetiplər): Fil. elm. nam. ...monoqrafiya. Bakı: 1999.
160. Rəsulov R.K."Kitabi-Dədə Qorqud": Nitq janrları və davranışın modelləşdirilməsi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXIII kitab, Bakı: s.47-53
161. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, 200 s.
162. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Səda, 2007, 181 s.
163. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı: Nurlan, 2008, 188 s.
164. Rzasoy S. Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı. Bakı: Nurlan, 2008, 212 s.
165. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı: Elm və təhsil, 2013, 368 s.
166. Sümər F. Oğuzlar. Bakı: Yazıçı: 1992, 429 s.
167. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.
168. Vəliyev V. Azərbaycan folkloru. Bakı: 1976, 414 s.

**Türk dilində**

169. Bayat F. Köroğlu: Şamandan Aşıka, Alpdan Erene. Ankara: Akçağ, 2003, 176 s.
170. Bayat F. Mitolojiye Giriş. Çorum: Kara M., 2005, 150 s.
171. Bayat F. Oğuz Destan Dünyası, Oğuznamelerin Tarihi, Mitolojik Kökenleri ve Teşekkülü. Ankara: Ötüken, 2006, 328 s.
172. Çobanoğlu Ö. Halkbilimi Kuramları ve Araştırma Yöntemleri Tarihihe Giriş, Ankara: Akçağ, 1999, 344 s.
173. İnan A. Epope ve Hurafe Motiflerinin Tarih Bakımından Önemi / Abdulkadir İnan. Makaleler ve İncelemeler. 3

Baskı, I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1998, s.191-194

174. Ögel B. Türk mitolojisi (Kaynakları ve Açıklamaları ile Destanlar), I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.

175. Ögel B. Türk mitolojisi, II cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1995, 606 s.

176. Sakaoğlu S., Karadavut Z. Halk masalları. Eskişehir: Anadolu Universitesi, 140 s.

177. Toğan Z.V. Oğuz destanı - Reşideddin Oğuznamesi, İstanbul: 1972, 76 s.

**Rus dilində**

178. Аббаслы И. Азербайджанский героический эпос “Короглу” / Короглу (эпос). Авторы подготовки и состовление национального текста, “Введение” и “Описание архива”: И.Аббаслы, Бахлул Абдулла. Баку: Сада, 2000, с. 3-54

179. Аббаслы И. Ареал распространения и влияния Азербайджанских дастанов. Баку: Сада, 2001, 217 с.

180. Веселовский А.Н. Собрание сочинений. Том XVI, Санкт-Петербург: “Брокгауз-Ефрона”, 1912, 302 с.

181. Жирмунский В.М. Тюркский героический эпос. Ленинград: Наука, 1974, 727 с.

182. Кер-оглы / Составил Г.Ализаде, перевод с азербайджанского Азиза Шарифа, под редакцией и с предисловием Г.К.Шарифова. Баку: Азернешр, 1940, 165 с.

183. Короглу / Авторы подготовки и состовление национального текста, “Введение” и “Описание архива”: И.Аббаслы, Бахлул Абдулла. Редактор Г.Алибейли. Баку: Сада, 2000, 499 с.

184. Короглы Х. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. Москва: Наука, 1983, 336 с.

185. Книга моего Деда Горкуда. Огузский героический эпос. Превод В.В.Бартольда. Баку: “ЙНЕ XXI”, 1999, 320 с.

186. Леви-Строс К. Структурная антропология. Москва: Глав. Ред. Вост. Лит., 1985, 536 с.

187. Лорд А.Б. Сказитель. Москва: Наука, 1944, 368 с.

188. Пашаев С.Х. Азербайджанские народные легенды и проблемы их исследования: Автореф. дисс. ...докт. филол. наук. Баку: 1989, 53 с.

189. Путилов Б.Н. Послесловие / А.Лорд. Сказитель. Москва: Наука, 1994, с.323-342

190. Рошияну Н. Традиционные формулы сказки. Москва: Наука, 1974, 216 с.

## İnternet resursları

191. http://publikacia.net/archive/2016/9/1/74

192.http://libarch.nmu.org.ua/bitstream/handle/GenofondUA/38987/3420ea142003419b24899855b6a740a6.pdf?sequence=1

193. https://ru.wikipedia.org/wiki/Сказка

194. http://cyberleninka.ru/article/n/folklornye-formuly-na-peresechenii-traditsii-i-teksta-na-materiale-bylin

195. http://www.ruthenia.ru/folklore/meletinsky4.htm

196. http://studopedia.org/10-197904.html

## MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ 3

**I FƏSİL**
**Formul nəzəriyyəsi və folklorda formulların müəyyənləşdirilməsi məsələləri** .............................. 11
Formul nəzəriyyəsinin əsasları .................................. 11
Formul nəzəriyyəsinin tətbiqi məsələləri .................. 27
Folklor formullarının müəyyənləşdirilməsi............... 47

**II FƏSİL**
**Formulların Azərbaycan folklorundakı epik janrların strukturuna uyğun funksiyaları** ............ 54
Başlanğıc formulları ................................................. 54
Mətndaxili formullar.................................................. 85
Final və yaxud sonluq formulları .............................. 121

**III FƏSİL**
**Formulların semantik xüsusiyyətləri**..................... 138
Subyekt bildirən formullar......................................... 138
Obyekt bildirən formullar.......................................... 147
Proses bildirən formullar .......................................... 151
Məkan və zaman bildirən formullar .......................... 156
Məsafə və sürət bildirən formullar ............................ 158

**NƏTİCƏ** ................................................................... 160
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ...................... 169

**Şəhla Akif qızı Hüseynli.**
**Azərbaycan folklorunda epik formullar.**
Bakı, Elm və təhsil, 2019.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/ 16
Mətbəə kağızı: №1
Həcmi: 184 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.